**BAKI AVRASİYA UNİVERSİTETİ**
**Elmi-nəzəri jurnal**

# SİVİLİZASİYA

# ЦИВИЛИЗАЦИЯ

# CIVILIZATION

“Sivilizasiya” jurnalı Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında
Tarix; Siyasi elmlər; Fəlsəfə və Sosiologiya; Filologiya elmləri;
Pedaqoqika sahəsi üzrə elm sahələrinə daxil edilib.

DRJI

**Directory of Research Journals Indexing (DRJI) ilə indekslənmişdir.**
**Jurnal ildə 4 dəfə şənr edilir.**

**Cild 10 №4 2021 (49)**
**Vol. 10 №4 2021(49)**
**Том 10 №4 2021 (49)**

**BAKI – 2021**

**Təsisçi**
**Bakı Avrasiya Universiteti**

**Baş redaktor**
**F.e.d., prof. Hüseynli Nazim Ziyad oğlu**

**Baş redaktorun müavini**
**S.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı**

**Məsul katib**
**Fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızı**

**REDAKSİYA HEYƏTİ**

**Tarix və siyasi elmlər üzrə:**

Prof.Dr. Attar Aygün (Türkiyə)
S.e.d., prof. Ryabova Yelena Lvovna (Rusiya)
T.e.d., prof. Nikonov Aleksandr Vasilyeviç (Rusiya)
T.e.d. Natia Mirianaşvili (Gürcüstan)
AMEA-nın həqiqi üzvü, t.e.d., prof. Bünyadov Teymur Əmiraslan oğlu
T.e.d., prof. Cəfərov Əsədulla Qüdrət oğlu
T.e.d., prof. İsgəndərov Anar Camal oğlu
T.e.d., prof. Qasımlı Musa Cəfər oğlu
T.e.d., prof. Şükürov Kərim Kərəm oğlu
T.e.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlu
S.e.d., prof. Məmmədov Hikmət Baba oğlu
B/m. Qasımov Səyavuş Kamran oğlu
S.e.d., prof. Nəsirli Elman Xudam oğlu (şöbə redaktoru)

**Fəlsəfə və sosiologiya elmləri üzrə:**

Prof. Dr. Suat Günsel (KKTC)
Prof.Dr. Məmmədov Nizami Mustafa oğlu (Rusiya)
Doç. Dr. Abdıldayev Kurmanbek (Qırğızıstan)
F.e.d., prof. Orucov Zahid Məlik oğlu (Rusiya)
AMEA-nın müxbir üzvü, prof. Əliyev Bəxtiyar Həmzə oğlu
F.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlu
F.e.d., prof. Məmmədov Əziz Bəşir oğlu
F.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlu
F.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlu
F.e.f.d., dos.Qaraməmmədli Yasin Alı oğlu
F.e.f.d. Rəhimov Mütəllim Qara oğlu (şöbə redaktoru)

**Filologiya elmləri üzrə:**

Prof. Dr. Bozkurt İsmayıl (Türkiyə)
Prof. Dr. Hikmət Koraş (Türkiyə)
AMEA-nın müxbir üzvü, fil.e.d., prof. Cəfərov Nizami Qulu oğlu
Fil.e.d., prof. Qasımov Cəlal Əbil oğlu
Fil.e.d.,prof. Cəlilov Firudin Ağası oğlu
Fil.e.d.,prof. Qasımov İkram Ziyad oğlu
Fil.e.d. prof. Veysəlli Fəxrəddin Yadigar oğlu Fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlu
Fil.ü.f.d, prof. Məmmədov Novruz İsmayıl oğlu Fil.ü.f.d.,dos. Quliyev Əsgər Qədir oğlu
Fil.ü.f.d.,dos. Gündoğdu Səriyyə Gülağa qızı
Fil.ü.f.d.,dos. Məmmədova Elmira Kekeç Fikrət qızı
Fil.ü.f.d.,dos. Hüseynova Nigar Nazim qızı
Fil.ü.f.d.,dos. Rzayeva Sevda Ramiz qızı
Fil.ü.f.d.,dos. Cəlil Fərəh Cabbar qızı
B/m. Musayev Nəsrəddin Musa oğlu
Fil.e.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlu (şöbə redaktoru)

**Pedaqoqika sahəsi üzrə:**

P.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlu
P.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlu
Ps.ü.f.d., dos. Cavadov Rövşən Əli oğlu

**Riyaziyyat və İqtisadiyyat sahəsi üzrə:**

İ.e.d., prof. İsmayılov Vilayət İbrahim oğlu
F.-r.ü.f.d., dos. Məmmədov Mənsim Zeynalabdin oğlu
İ.ü.f.d. dos.İbişov Elman İbiş oğlu

**© Bakı Avrasiya Universitetinin nəşri, 2021**

# İ Ç İ N D Ə K İ L Ə R

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA


**Zakir MƏMMƏDƏLİYEV**
*Humanitar elmlərdə metodoloji paradiqmaların təkamülü* ................................ 6

**Fəxrəddin QULİYEV**
*Konseptlər milli fəlsəfi düşüncənin ifadə forması kimi* ....................................... 15

**Tərlan TAĞIYEVA**
*Məcburi köçkünlərin cəmiyyətə adaptasiyası xüsusiyyətləri* ............................... 22

**Turanə ƏSƏDOVA**
*Davamlı inkişaf kontekstində gənclər siyasəti (Avropa təcrübəsı)* ...................... 29


## TARİX VƏ SİYASİ ELMLƏR


**Şəfəq ƏHMƏDOVA**
*Qarabağda ekoloji fəlakət dünya informasiya məkanında* ................................. 36

**Nərgiz CARÇIYEVA**
*XXI əsrdə ABŞ-ın Mərkəzi Asiyadakı geosiyasəti və İran faktoru* ...................... 43

**Rasim RZAXANOV**
*Azərbaycanlıların deportasiyası miqrasiyanın zorakı-məcburi forması kimi: tarixi-siyasi təhlil* ......................................................................................... 54

**Ülkər MƏMMƏDZADƏ**
*10 Noyabr üçtərəfli bəyanatın təhlili* ............................................................. 62

**Cəlal XƏLİLOV**
*Avropa birliyinin yaranmasını zəruriləşdirən tarixi şərait* .............................. 74

**Sahib VƏLİYEV**
*Müasir arxeologiya elmi ictimai-iqtisadi təhlil obyekti kimi* ............................ 82

**Vahab FƏTƏLİYEV**
*Qarabağın xristian məliklikləri* ................................................................... 90

**Натаван АГАЕВА**
*Появление новых социально-культурных привычек в османском обществе XIX века* ........................................................................................... 96


## FİLOLOGİYA


**Nərmin QOCAYEVA**
*Müstəqillik illərində milli ünsürlərlə formalaşan soyadlar və onların üslubi xüsusiyyətləri* ......................................................................................... 103

**PEDAQOQİKA**

**Arif ƏSƏDOV**
*Orta ümumtəhsil məktəblərində Aşıq Ələsgər yaradıcılığının dünya ədəbiyyatı ilə müqayisəli tədrisi məsələləri* .......................................................................... 109

**RİYAZİYYAT VƏ İQTİSADİYYAT**

**Vilayət İSMAYILOV, Mənsim MƏMMƏDOV**
*Kəsilməz və kəsilən funksiyalar vasitəsi ilə bəzi* bioloji *hadisələrin riyazi modellərinin qiymətləndirilməsi* .................................................................. 119

**Bizim müəlliflər**.......................................................................................... 126

**Düzəlişlər**.................................................................................................. 128

**Yazı qaydaları**............................................................................................ 129

**Правила написания**................................................................................... 131

**Rules of writing**.......................................................................................... 133

**Yazı kuralları**.............................................................................................. 135

**UOT 1**

# HUMANİTAR ELMLƏRDƏ METODOLOJİ PARADİQMALARIN TƏKAMÜLÜ

**Zakir MƏMMƏDƏLİYEV**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 oktyabr 2021; çapa qəbul edilmişdir: 12 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 11 th October, 2021; accepted: 12 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:** tarix fəlsəfəsi, naturalist məktəblər, "həyat" fəlsəfəsi, neokantçılar, universal təkamül konsepsiyası, hermenevtika*

## Giriş

Humanitar elmlərin fəlsəfi məsələləri sırasında ən fundamental və böyük maraq kəsb edən məsələlərdən biri bu elmlərin verdiyi biliyin strukturunda obyektiv və subyektiv komponentlərin nisbəti problemidir. Humanitar elmlər insan və onun yaratdığı, deməli ondan asılı olaraq mövcud olan sosial-tarixi və mədəni gerçəkliyi öyrəndiyinə görə burada subyektlə obyekt arasında dəqiq sərhəd çəkmək qeyri-mümkündür. Humanitar elmlərin obyektinə, eyni zamanda, subyektin özü də daxildir. Subyekt və obyektin qarşılıqlı şərtlənməsi prinsipi humanitar və sosial elmlərdə biliyin obyektivliyi məsələsinə təbiət elmləri üçün səciyyəvi olan metodoloji standartlar baxımından yanaşmağı qeyri-mümkün edir. Bu isə, öz növbəsində, humanitar elmlərin metodologiyası problemini gündəmə gətirir.

## 1. Humanitar elmlərin fəlsəfi-metodoloji əsaslarının təşəkkülü. Naturalist paradiqma

Humanitar elmlərin fəlsəfi əsasları haqqında ilk təsəvvürlər yeni dövrün tarix fəlsəfəsi zəminində təşəkkül tapmışdır. Tarix fəlsəfəsinin əhatə dairəsini təşkil edən problematika qədim yunan-Roma fəlsəfəsinə (antik fəlsəfəyə) tamamilə yad idi, belə ki, bizim üçün səciyyəvi olan tarix anlayışı antik mədəniyyətə tanış deyildi. "Tarixin atası" Herodot üçün tarix müxtəlif xalqların adət-ənənələrini, məişətini və məşğuliyyətini təsvir edən, bir-biri ilə heç bir daxili əlaqəsi olmayan hekayətlər toplusu idi. Tarixə bütün bəşəriyyəti əhatə edən vahid bir *proses* kimi yanaşma antik mədəniyyətə tamamilə yad olan bir dünyagörüşünün məhsuludur. Bu dünyagörüşünün əsasları eramızın ilk əsrlərində xristian monoteizmi zəminində formalaşmağa başladı.

Tarixi şüurun mövcudluğu üçün ilkin şərt keçmiş, indi və gələcək arasındakı keyfiyyət fərqinin dərk edilməsidir. Xristianlıq Allah-oğulun insanda (İsus Xristosun simasında) təcəssüm etməsini o vaxta qədər baş vermiş bütün hadisələrdən mahiyyətcə fərqləndirir; bu hadisənin baş verməsilə zaman bir-birindən keyfiyyətcə fərqlənən iki hissəyə parçalanır: bu hadisədən keçmişdə baş verənlər və sonra, gələcəkdə baş verəcək hadisələr. Beləliklə, Allahın insanda təcəssümü zaman oxunda fundamental bir hadisə kimi anlaşılır

[*] fəlsəfə elmləri doktoru, Azərbaycan Dövlət İqtisad Universiteti
*e-mail: zakirm57@mail.ru*

və dərk edilməsi üçün insan nəslinin bütün keçmişinin tarixi baxımdan nəzərdən keçirilməsini tələb edir (3).

Xristian dini dünyagörüşü çərçivəsində yüksələn xətt üzrə keçmişdən gələcəyə doğru istiqamətlənmiş zaman haqında yeni təsəvvürlərin meydana çıxması insan və cəmiyyət həyatına tarixi proses kimi yanaşmanın təşəkkül tapmasında həlledici rol oynadı. Tarix fəlsəfəsi, ilk dəfə olaraq, məhz bu yanaşma çərçivəsində formalaşdı. Onun ilk nümunəsini erkən orta əsrlərin görkəmli xristian ilahiyyatçısı və dini fəlsəfənin yaradıcılarından biri olan Avreli Avqustin (Müqəddəs Avqustin) irəli sürdü.

XV-XVI əsrlərdən başlayaraq, Avropada sənətkarlığın və ticarətin inkişafı, eləcə də kapitalist münasibətlərinin tədricən təşəkkül tapması iri şəhərlərin meydana çıxmasına səbəb oldu. Orta əsrlər aqrar cəmiyyətinin zamanın gedişinə etinasız münasibətindən fərqli olaraq, iri şəhərlərdə sosial-iqtisadi və mədəni həyat templəri kəskin şəkildə yüksəlməyə başladı. Dəyişkənlik və inkişaf ideyaları şüurlara getdikcə daha çox nüfuz edir, bu isə öz növbəsində orta əsrlərdə dini dünyagörüşü zəminində formalaşmış tarixi proses haqqında təsəvvürlərin geniş yayılması üçün əlverişli sosio-mədəni mühit yaradırdı.

Dünyəvi fəaliyyət formalarının inkişafı Avropada tədricən elmi düşüncənin əsaslarının təşəkkül tapması üçün münbit zəmin yaratdı. Cəmiyyətin mənəvi-intellektual və sosial-iqtisadi həyat sferalarında baş verən köklü dəyişikliklər öz nəticələrini çox gözlətmədi: XVII əsrdən başlayaraq, Avropada kilsənin göstərişlərinə deyil, rasional düşüncəyə istiqamət götürmüş dünyəvi cəmiyyət formalaşmağa başladı.

Rasional-elmi düşüncəyə istinad edən dünyəvi cəmiyyətin meydana çıxması orta əsrlərdə dini dünyagörüşü zəminində formalaşmış tarix fəlsəfəsinin məzmununda əsaslı dəyişikliklər yaratdı. Yeni dövrün tarix fəlsəfəsinin nümayəndələri dini tarix fəlsəfəsinin bəşəriyyətin tarixinə istiqamətlənmiş proses kimi yanaşmasını mənimsəsə də, bu prosesin mahiyyəti haqqında öz sələflərindən tamamilə fərqli ideyalar irəli sürdülər. Bu fərq ilk növbədə onların müasiri olduğu cəmiyyətin dünyəvi xarakteri və rasional düşüncə zəminində meydana çıxmış elmlərin dövrün dünyagörüşünə ciddi təsiri ilə şərtlənirdi. Yeni dövrün tarix fəlsəfəsi bəşəriyyətin tarixini və təkamül xüsusiyyətlərini dinə istinadən deyil, o dövrün elmi nəzəriyyələrinə əsaslanaraq, təbii səbəblərlə izah etməyə çalışırdı.

Yeni dövr elminin qısa bir zaman kəsiyində keçdiyi böyük inkişaf yolu və heyrətamiz uğurları dövrün dünyagörüşündə elmin misilsiz bir nüfuz qazanmasına səbəb oldu. Elmin cəlbedici nailiyyətləri məntiqi təhlil, mücərrədləşdirmə, induksiya və deduksiya kimi təfəkkür metodları sayəsində əldə edildiyinə görə təfəkkürün, ümumiyyətlə, insan ağlının fövqəladə imkanları haqqında ideyalar geniş yayılmağa başladı. Ağılın sərhədsiz inkişaf potensialı haqqında təsəvvürlər XVIII əsrdə Avropada Maarifçilik ideologiyasının təşəkkül tapmasına səbəb oldu.

Maarifçilər əmin idi ki, mədəni və sosial gerçəkliyin inkişafı ağılın, onun daşıyıcıları olan elmin və maarifin tərəqqisi ilə şərtlənir. Maarifçilik ideyalarından çıxış edən tarix fəlsəfəsi üçün tarixi prosesin daim yüksələn xətt üzrə baş verən inkişafda olduğunu hökm edən tərəqqi konsepsiyası səciyyəvi idi. Yeni dövrün tarix fəlsəfəsinin nümayəndələri əmin idilər ki, bütün bəşəriyyət üçün ümumi olan tarixi tərəqqi prosesinin gerçək həyatda rastlaşdığı çətinliklər insanların bu sahədə biliklərinin qıtlığından, bu sonuncu isə öz növbəsində humanitar elmlərin son dərəcə zəif inkişaf etməsindən irəli gəlir. Mədəni-tarixi tərəqqinin qarşılaşdığı ziddiyyətləri aradan qaldırmaq üçün humanitar elmlərin inkişafını qabaqcıl təbiət elmlərinin fəth etdikləri zirvəyə çatdırmaq lazımdır. Bu məqsədlə humanitar elmlər təbiət elmlərinin metodologiyasını mənimsəməklə və onların aşkar etdiyi nəzəri prinsiplərə söykənməklə özlərinin elmi strukturunu formalaşdırmalıdır. Maarifçiliyin tarix fəlsəfəsini qabarıq şəkildə ifadə edən J. Kondorse bəşəriyyətin tərəqqisi haqqında maarifçilik ideyalarını təbiət elmlərinin aşkar tərəqqisinə istinad edərək əsaslandırmağa çalışırdı (8, s. 245-246). Y.Habermas bu cür cəhdlərin zəkanı “öz daxili məntiqi üzrə inkişaf edən bir qüvvə” kimi anlayan təsəvvürlərdən qaynaqlandığını qeyd

edir (11, s. 151). Beləliklə, tarix fəlsəfəsi təbiətşünaslığı humanitar elmlərin inkişafı üçün örnək olan bir model kimi görürdü.

Təbiət elmlərindən hansının bir model kimi qəbul edilməsindən asılı olaraq, XVIII-XIX əsrlərin tarix fəlsəfəsində bir sıra naturalist məktəblər meydana çıxdı. Ən geniş yayılmış məktəblərdən biri Nyutonun yaratdığı klassik mexanikanı humanitar elmlər üçün model hesab edən mexaniki məktəb idi. Bu məktəbin nümayəndələri insan və cəmiyyət haqqında elmləri Nyuton mexanikasının anlayış və prinsiplərindən çıxış etməklə yaratmağı təklif edirdilər.Coğrafi determinizm məktəbi müvafiq cəmiyyətdə cərəyan edən sosial-siyasi və mədəni proseslərin mahiyyətini anlamaq üçün təbii-coğrafi mühitin xüsusiyyətlərinə müraciət etməyivə bu zaman coğrafiya elmini bir örnək olaraq qəbul etməyi zəruri hesab edirdilər. Naturalist məktəblərin böyük bir qrupu humanitar elmlərin nəzəri-metodoloji əsaslarını biologiyanın verdiyi biliklərə istinad etməklə formalaşdırmağın daha məqsədəuyğun olduğunu iddia edirdilər.

Naturalist məktəblər humanitar elmlərin nəzəri və metodoloji əsaslarını elmi zəmin üzərinə köçürmək istəsələr də, onların rəhbər tutduqları “elm” anlayışı təbiət elmləri zəminində formalaşmış və sosial-humanitar gerçəkliyə adekvat olmayan təsəvvürlərə söykənirdi. Naturalist məktəblərin yol verdiyi bu ciddi səhvin mənbəyi sosial-tarixi gerçəkliyin varlığın təbiətdən mahiyyətcə fərqli bir forması olduğunun dərk edilməməsi ilə bağlı idi. Bu fərqi daha dərindən dərk edə bilmək üçün ilk növbədə təbiət elmləri ilə humanitar elmlərin predmetlərini qarşılaşdırmaq lazımdır. İlk dəfə olaraq bu problemləri qoyub sistematik şəkildə həll etməyə çalışanlar XIX əsrin ikinci yarısında meydana gəlmiş “həyat” fəlsəfəsinin nümayəndəsi V.Diltey və neokantçıların Baden məktəbi oldu.

### 2. Naturalizmin tənqidi: “həyat” fəlsəfəsi (V.Diltey) və neokantçılar (Baden məktəbi)

“Həyat” fəlsəfəsinin təmsilçiləri, o cümlədən V.Diltey cəmiyyəti və tarixi gerçəkliyi həyatın sosial və mədəni-tarixi strukturlar formasında davamı kimi mənimsəyərək, onun təbiətini də bu zəmində anlamağa çalışırdı. O, pozitivizmin elmlərin metodoloji yekcinsliyini hökm edən və mahiyyətcə naturalist məzmun daşıyan ideyalarını rədd edərək, onları təbiət haqqında və ruh haqqında elmlər olmaqla iki yerə bölürdü.

İnsanların bütün fəaliyyət formaları şüurlu səciyyə daşıdığına və qarşılarına qoyduqları məqsədlərdən irəli gəldiyinə görə V.Diltey hesab edirdi ki, sosial-tarixi gerçəklik öz mahiyyəti etibarı ilə insana münasibətdə xarici bir şey deyil, onun bütöv bir tam olan fərdi psixoloji həyatı ilə birbaşa bağlıdır. Əslində sosial-tarixi və mənəvi həyatın bütün formaları insanın daxili mənəvi-psixoloji həyatının obyektivləşmiş ifadələrindən başqa bir şey deyil. Sosial həyatın məzmununu təşkil edənləri insan dəfələrlə daxilən yaşamışdır və buna görə də sosial-tarixi gerçəklik mahiyyətcə ona yad deyildir. Bu səbəbdən də sosial həyatın daxili əlaqə və münasibətlərini dərk etmək üçün bizim öz birbaşa daxili yaşantılarımızdan fərqli aralıq vasitələrə – təfəkkürün sintetik fəaliyyətinin yaratdığı fərziyyələrə ehtiyacımız yoxdur.

Ruh haqqında elmlərin verdiyi biliklərin əsl mənbəyini rasional-məntiqi təfəkkür deyil, insanın birbaşa daxili yaşantıları təşkil etdiyinə görə onlar səhihdirlər və həqiqəti ifadə edirlər. İnsanın mənəvi dünyasını təşkil edən daxili yaşantılarını rasional-məntiqi formullarda ifadə etmək mümkünsüz olduğuna görə humanitar-elmi bilik, təbii-elmi bilikdən fərqli olaraq, mahiyyətcə irrasionaldır. Humanitar-elmi idrakın fərqləndirici xüsusiyyətlərini ifadə etmək üçün Diltey “anlama” terminini daxil edir. Bu termin vasitəsilə o, iki fərqli idrak növü arasındakı prinsipial fərqi səciyyələndirir: “Təbiəti biz izah edirik, mənəvi həyatı isə anlayırıq” (5, s.8; 6).

V.Diltey humanitar elmlərlə təbiət elmləri arasındakı fərqləri ilk növbədə onların

predmetləri arasındakı prinsipial fərqlərdən çıxış edərək, anlamağa çalışırdı. Neokantçıların Baden məktəbinin əsas təmsilçiləri olan V.Vindelband və H.Rikkert isə elmi idrakın bu iki müxtəlif növü arasındakı fərqləri, başlıca olaraq, onların rəhbər tutduqları metodlara istinad edərək, izah edirdilər. Onlar XIX əsrin ikinci yarısından etibarən pozitivizmin yayılması ilə dövrün fəlsəfəsinin və dünyagörüşünün yenidən təbiətşünaslığın təsiri altına düşməsini təəssüflə qeyd edərək, pozitivizmin istinad etdiyi naturalist metodologiyanı kəskin şəkildə tənqid edirdilər. Neokantçılar naturalizmin "mədəniyyət haqqında (humanitar) elmlər" üçün yararsızlığını əsaslandıraraq, bu elmlərin spesifik predmetinə və daxili fəaliyyət mexanizmlərinə adekvat olan bir metodologiyanı ona qarşı qoymağa çalışırdılar.

V.Vindelband və H.Rikkertə görə, təbiət elmləri ilə humanitar elmlər arasındakı fərqləri onların tədqiqat obyektləri arasındakı fərqlə izah etmək olmaz, belə ki, bu fərq sadəcə olaraq mövcud deyil – onların hər ikisinin obyektini eyni bir gerçəklik təşkil edir: "Təbiət və tarix, – deyə Rikkert yazır, – iki fərqli reallıq deyil, iki müxtəlif baxış bucağından nəzərdən keçirilən eyni bir gerçəklikdir" (10, s. 92). Bu elmlər arasındakı prinsipial fərqlər onların rəhbər tutduqları idraki maraqlar və məqsədlərdən irəli gəlir. Maraqlar və məqsədlər arasındakı fərqlər öz aşkar ifadəsini həmin elmlərin istinad etdikləri fərqli metodologiyalarda tapır. Təbiətşünasın maraqları gerçəkliyin həmişə fərdi (individual) olan predmet və hadisələri üçün ümumi olanları tapıb ayıraraq, onları vahid bir anlayış altında birləşdirməyə, məqsədləri isə təbiət qanunlarını mümkün qədər dəqiq şəkildə ifadəetməyə yönəlmişdir. Ümumini əsas götürdüyünə görə təbiət elmləri Vindelbandın "nomotetik" adlandırdığı ümumiləşdirici metodologiyaya istinad edir. Lakin tamamilə fərqli metodologiyaya əsaslanan başqa tip elmlər də mövcuddur. Neokantçılar bu elmləri ümumi ad altında "tarix" və ya "mədəniyyət haqqında elmlər" kimi səciyyələndirirdi. Vindelband və Rikkertin fikrincə, "tarixçinin" maraqları gerçəkliyin fərdi, təkrarlanmayan və buna görə də ümumi anlayış altında birləşdirilməsi mümkün olmayan məqamlarını seçib ayıraraq, təsvir etməyə yönəlmişdir. Buna görə də o, Vindelbandın "ideoqrafik" metodlar adlandırdığı fərdiləşdirici metodologiyadan istifadə edir (4).

Həm "həyat" fəlsəfəsi, həm də neokantçılar biliyin elmilik meyarını onların ümuməhəmiyyətlilik (ümumqəbuledilənlik) və mühümlük kimi anladıqları obyektivlikdə görürdülər. V.Dilteyə görə, təbiətşünaslıqda bu meyar təfəkkürün immanent mexanizmlərinin biliyə verdiyi nəzəri forma vasitəsilə təmin olunur. Bu mexanizmlər insanların subyektiv səciyyə daşıyan fərdi-psixoloji xüsusiyyətlərindən asılı olmadığına görə obyektivdirlər. Neokantçılar isə hesab edirdilər ki, təbii-elmi biliyin obyektivliyi təbiətşünaslığın istinad etdiyi nomotetik (ümumiləşdirici) metodlar vasitəsi ilə əldə edilir. Lakin humanitar elmlərə gəldikdə həm həyat fəlsəfəsi, həm də neokantçılar ciddi problemlə üzləşirlər. Dilteyə görə, humanitar-elmi biliyin mənbəyini son nəticədə insanın daxili psixoloji yaşantıları təşkil esə də, hər bir insan vahid bəşəriyyətə və tarixə mənsub olduğuna görə onun mənəvi aləmindən qaynaqlanan humanitar bilik obyektiv səciyyə daşıyır. Lakin insanların psixoloji yaşantıları həmişə subyektivdir, onda bu subyektiv yaşantılar əsasında obyektiv bilik necə yaranır? Dilteyin fəlsəfəsində bu problem həll edilməmiş qalır. Digər tərəfdən, Dilteyə görə, mahiyyətcə insanın fərdi-psixoloji yaşantılarının təzahürləri olan sosiomədəni gerçəkliyi təşkiledən saysız-hesabsız hadisələr arasından mühüm olanı humanitar elmlər necə seçib ayırır? Bu sual da onun fəlsəfəsində açıq qalır.

Neokantçılar bu problemlərin həllinə daha əsaslı şəkildə yanaşmağa çalışırdılar. Humanitar elmlərdə obyektivlik problemi neokantçıların mərkəzi problemi olan "mədəniyyət haqqında elmlərin" (humanitar elmlərin) mümkünlüyü məsələsinin üzvi tərkib hissəsidir. Qeyd etdiyimiz kimi, neokantçılara görə, elmlərin mövcudluğu onları doğuran maraqlar və məqsədlərlə şərtlənir. Humanitar elmləri doğuran maraq və məqsədlər gerçəkliyin fərdi və təkrarlanmayan məqamlarını seçib ayırmağa yönəlmişdir. Bəs bu maraq və məqsədlər özü nələrlə şərtlənir? Neokantçılar güman edirlər ki, maraq və məqsədlər

gerçəkliyin, o cümlədən, insanın fövqündə duran, onun qarşısında məqsədlər qoyaraq, fəaliyyətə təhrik edən ali bir reallığın – dəyərlər sferasının tərkib hissələridir. Dəyərlər sferası mütləq reallıqdır, yəni o, əbədidir, zamanca başlanğıcı və sonu yoxdur. Dəyərlər aləmi insanın qarşısında onun fəaliyyətinin bütün sahələrində yerinə yetirməli olduğu tələblər qoyur. Elmi fəaliyyət qarşısında qoyulan tələb həqiqi biliklər verməkdir. Həqiqət dəyərlər aləmi tərəfindən elmi fəaliyyət qarşısında qoyulan tələb olduğuna görə onun məzmunu insanlardan asılı deyil və buna görə də o, obyektiv səciyyə daşıyır. Məhz həqiqətə can atmaq tələbi humanitar-elmi biliyin obyektivliyini təmin edir.

Neokantçılara görə, humanitar elmlər sosiomədəni gerçəkliyi təşkil edən saysız-hesabsız hadisələr arasından, məhz, dəyərləri özündə təcəssüm etdirib reallaşdıranları mühüm olan kimi seçib ayıraraq, onu elmi biliyin məzmununda əks etdirirlər. Lakin dəyərlərin reallaşması onların gerçəkliyə nüfuz edərək, onunla qovuşması baş vermədən qeyri-mümkündür. Neokantçılar isə əmindirlər ki, dəyərlər gerçəkliyin fövqündə olan transsendent aləmə məxsusdur. Onda bəs dəyərlərlə gerçəklik necə qovuşur? Neokantçılar üçün bu, həllolunmaz problemdir: humanitar elmlərin mövcudluğu üçün dəyərlərin gerçəkliyə qovuşması şərt olsa da, Rikkertetiraf edir ki, "onların [necə] qovuşması əbədi müşkül məsələ olaraq qalır" (1, s. 249).

### 3. Universal düzxətli təkamül konsepsiyasının tənqidi. Humanitar elmlərin metodologiyasının inkişafı (R.Kollinqvud və K.Popper)

Neokantçıların Baden məktəbi və "həyat" fəlsəfəsi humanitar elmlərin fəlsəfi əsaslarının işlənib hazırlanması problemini həlledə bilməsələr də, onların əvəzsiz xidməti, ilk dəfə olaraq, bu problemi ciddi fəlsəfi zəmin üzərində qoymağa müvəffəq olmasındadır. Məhz onların gördüyü işlər sayəsində təbiətşünaslığın və kapitalizmin sürətli inkişafı zəminində formalaşmış universal xətti təkamül konsepsiyasının tarixşünaslıq və sosial elmlər üçün yararsız olduğunu aşkara çıxarmaq mümkün oldu. XX əsrin birinci yarısında meydana gələrək inkişaf edən "lokal sivilizasiyalar" konsepsiyası XIX əsrdə olduqca böyük nüfuz qazanmış universal təkamül ideyalarının ciddi şəkildə əsaslandırılmış tənqidini verərək, humanitar elmlərin fəlsəfi-metodoloji problemlərinin daha dərindən mənimsənilməsi üçün zəmin hazırladılar. "Lokal sivilizasiyalar" konsepsiyasının əsas nümayəndələri olan O.Şpenqler və A.Toynbinin tədqiqatları sayəsində tarixi-müqayisəli təhlil metodu humanitar elmlərin metodologiyasında qaçılmaz tədqiqat prinsipi kimi möhkəmləndi.

Universal təkamül ideyaları zəminində XIX əsrin ortalarında meydana çıxmış fəlsəfi təlimlərdən biri də marksist fəlsəfə idi. Keçmiş sovet məkanında marksizm elmin və xüsusən, humanitar elmlərin yeganə mümkün olan fəlsəfi-metodoloji əsası hesab edilirdi. Universal təkamül konsepsiyasından çıxış edərək, marksizm bütün bəşəriyyəti əhatə edən vahid bir tarixi prosesin varlığını hökm edir və onu ictimai-iqtisadi formasiyaların bir-birini əvəz etmə ardıcıllığı kimi dərk edirdi. Hər bir sonra gələn formasiya vahid və universal tərəqqi prosesinin inkişafca daha yüksək olan pilləsi hesab olunurdu. Qərb mədəniyyətinin tarixinə az-çox uyğun gələn bu sxem bütün bəşəriyyətin tarixinə şamil edilirdi, halbuki digər xalqların əksəriyyətinin tarixini bu sxemə yerləşdirmək açıq-aşkar mümkün deyildi. Digər tərəfdən, tarixi prosesin daim yüksələn xətt üzrə baş verən tərəqqi prosesi kimi qələmə verilməsi müxtəlif xalqların tarixi ilə uyğunsuzluq təşkil edirdi. Müxtəlif humanitar və sosial elmlər – tarix, siyasi iqtisad, arxeologiya, etnoqrafiya, pedaqogika, ədəbiyyatşünaslıq, sonralar sosiologiya və s. məhz bu metodoloji sxem əsasında şərh edilirdi.

Humanitar elmlərin spesifik metodoloji arsenalının zənginləşməsində "yeni hegelçilik" məktəbinin görkəmli nümayəndələrindən olan, XXəsrin birinci yarısında fəaliyyət göstərmiş ingilis filosofu R.Kollinqvudun işləyib hazırladığı tarix fəlsəfəsi böyük rol oynadı. Kollinqvuda görə, tarixçi anlamalıdır ki, tarixi hadisə həmişə insan fəaliyyətidir və tarixçinin də məqsədi bu fəaliyyəti törədənlərin fikirlərini dərk etməkdir. Lakin tarixçi

keçmiş fikri həmişə öz bilikləri kontekstində canlandırır, buna görə də ona tənqidi yanaşaraq dəyərləndirir. Kollinqvudun bu ideyalarıtarixşünaslıq üçün mühüm əhəmiyyət kəsb edən tənqidi təhlil və interpretasiya metodlarının qərarlaşması üçün fəlsəfi zəmin hazırladı. Tarixi bilik, Kollinqvudun fikrincə, "tarixçinin təfəkküründə tarixini öyrəndiyi fikrin canlandırılmasıdır"(7, s. 386). Fikirlər isə həmişə inkişafda olduğuna görə (əks halda onların tarixi olmazdı) o, tarixi yanaşmanı(tarixilik prinsipini) vacib bir metodoloji prinsip kimi dəyərləndirirdi. Kollinqvudun tarix fəlsəfəsi zəminində əsaslandırdığı mühüm metodoloji prinsiplərdən biri də onun "metodoloji individualizm" adlandırdığı konkretlik prinsipidir. Humanitar elmlər üçün sosial-tarixi proseslərin daxili məntiqini anlamaq hər nə qədər böyük elmi dəyər kəsb etsə də, təbiətşünasdan fərqli olaraq, humanitar elmi təmsil edən hər bir tədqiqatçı üçün "konkret situasiyanın konkret təhlili" dəbir o qədər zəruridir.

Kollinqvudun tarixşünaslığın və neokantçıların humanitar elmlərin metodologiyasına dair ideyalarını XX əsrin ikinci yarısında elm fəlsəfəsində dərin çevrilişin əsasını qoymuş ingilis filosofu K.Popper özünün falsifikasionizm nəzəriyyəsi kontekstində yenidən mənalandırdı. O həm sosial elmlərlə təbiət elmləri arasındakı fərqlərdən imtina edən naturalizmə, həm də bu fərqləri mütləqləşdirən antinaturalizmə qarşı çıxır. Onun fikrincə, təbiət elmlərində və humanitar elmlərdə tətbiq olunan metodlar mahiyyətcə ən ümumi elmi metod olan "sınaq və səhvlər" metodunun fərqli təzahürlərindən başqa bir şey deyil. Təbiətşünaslıqda irəli sürülmüş ideya konkret empirik faktlar vasitəsi ilə sınağa çəkilir. Əgər o faktların sınağına tab gətirirsə, elmi mülahizə və ya nəzəriyyə kimi yeni faktlar toplanana qədər qəbul edilir. Lakin hökmən haçansa yeni aşkar edilən faktlar onu təkzib edir və o öz yerini faktların sınağından uğurla keçən daha mükəmməl nəzəriyyəyə verir. Beləliklə, faktlar köhnə nəzəriyyənin səhvlərini üzə çıxarır və nəticədə o həmin səhvlərdən azad olan başqa bir nəzəriyyə ilə əvəz olunur. Sosial elmlərdə səhvlərin aşkara çıxarılmasında faktlarla yanaşı nəzəri tənqiddə (tənqidi metod) mühüm rol oynayır. Digər tərəfdən, sosial elmlərin predmeti daim inkişafda olduğuna görə sosial hadisəni yalnız onun tarixi əsasında anlamaq mümkündür. Tarixi metodun sosial elmlərdə əhəmiyyəti məhz bununla şərtlənir.

K.Popper cəmiyyəti bütöv bir tam kimi əhatə edən hər hansı bir universal qanunun mövcudluğu haqqında təsəvvürləri qətiyyətlə inkar edirdi. Onun fikrincə bu cür təsəvvürlərin vaxtaşırı olaraq meydana çıxmasının səbəbi universal təkamül ideyalarının geniş yayılmasıdır. Lakin təkamül prosesi konkret və unikaldır; o həmişə eyni təbiətli məhdud hadisələr oblastını əhatə edir və buna görə də təkrarsızdır. Deməli cəmiyyəti bütöv bir tam kimi öyrənmək və nəzarət altında saxlamaq mümkünsüz bir şeydir. Buradan da Popperin sosial elmlərdə qabaqgörənliyə dair çox mühüm əhəmiyyəti olan metodoloji prinsipi irəli gəlir: heç bir halda vahid bir sosial tam kimi götürülmüş cəmiyyət haqqında elmi proqnoz vermək olmaz (9).

### 4. Hermenevtik və strukturalist paradiqmalar

Humanitar elmlərin fəlsəfi əsaslarının və metodoloji prinsiplərinin formalaşmasında ciddi əhəmiyyəti olan tədqiqat istiqamətlərindən biri də tarixən protestantizm zəminində dini mətnlərin təfsiri sənəti kimi təşəkkül tapmış *hermenevtika*olmuşdur. Hermenevtikanın müstəqil fənn kimi qərarlaşmasında XVIII əsrin axırları – XIX əsrin birinci yarısında fəaliyyət göstərmiş alman filosofu və ilahiyyatçısı F.Şleyermaxer həlledici rol oynamışdır. Onun fikrincə, mətnin hermenevtik dərki yalnız şərh olunan mətnin yaranma aktının, yəni mənəvi yaradıcılıq aktının yenidən canlandırılması vasitəsi ilə mümkündür. Mətnin mənası yalnız bu kontekstdə aşkarlana bilər. Şleyermaxer protestant hermenevtikasının əsas prinsiplərindən birini ifadə edən "hermenevtik dairə" anlayışına daha geniş məzmun verdi. Dini hermenevtika bu prinsipin mahiyyətini belə izah edirdi: mətn yalnız onun bir hissə kimi aid olduğu bütöv əsər əsasında dərk edilə bilər.Şleyermaxer isə hesab edirdi

ki, mətn nəinki onun daxil olduğu əsər əsasında, eyni zamanda həmin əsəri doğuran mənəvi yaradıcılıq situasiyası zəminində dərk edilə bilər. Bu baxımdan V.Diltey Şleyermaxerin yanaşmasını inkişaf etdirərək, daha uzağa getdi: o,"hermenevtik dairə" anlayışını məhdud dini kontekstdən çıxararaq, onu olduqca geniş sosial və mədəni-tarixi kontekstə daxil etdi. O, keçmişdən günümüzə gəlib çatmış təkcə tarixi-bədii əsərlərə və dini yazılara deyil, bütün maddi və mənəvi mədəniyyət nümunələrinə öz şərhini tələb edən mətnlər kimi yanaşırdı. Bu mətnlər hamısı insanın ruhi-mənəvi həyat tarixinin hissələridir və yalnız həmin tarix kontekstində dərk edilə bilər.

Hermenevtikanın humanitar elmlərin məhz fəlsəfi əsası kimi nəzərdən keçirilməsi XX əsrin görkəmli alman filosofu H.Qadamerin adı ilə bağlıdır. Qadamer həqiqətin təbiət elmlərinin metodoloji idealı əsasında dərk edilməsinə qarşı çıxaraq sübut edirdi ki, təbiət elmləri həqiqətin yeganə daşıyıcıları deyildir. Elmi həqiqət gerçəkliyin idraki mənimsənilməsi zəminində təşəkkül tapan "elmi təcrübənin" məhsuludur. Lakin gerçəkliyin insan tərəfindən mənimsənilməsi təkcə "elmi təcrübə" ilə məhdudlaşmır; elmi təcrübə ilə yanaşı gerçəkliyin ən ümumi mənimsənilmə formaları "tarixin təcrübəsi", "incəsənətin təcrübəsi" və "fəlsəfənin təcrübəsidir". Bu axırıncıların hər biri həqiqətin reallaşma formalarıdir və onların heç birində həqiqət elmi-metodoloji qaydalarla əldə edilmir (2, c.39). Qadamerə görə, hermenevtikanın başlıca məqsədi həqiqətin elmi metodologiyanın fəaliyyəti dairəsindən kənara çıxan aşkarlanması təcrübəsini üzə çıxarmaqdır. Humanitar elmlər üçün bu təcrübə "tarixin təcrübəsi", "incəsənətin təcrübəsi" və "fəlsəfənin təcrübəsi" ilə daxili əlaqədədir.

Qadamer gerçəkliyin universal mənimsənilmə formalarını ("təcrübəsini") "anlama" adlandırır. Yuxarıdakı mülahizələrdən aydın olduğu kimi gerçəkliyin idraki mənimsənilməsi "anlamanın" məzmununun yalnız bir hissəsini təşkil edir. Mədəni irsi anlama yalnız onun müasirliyin mənəvi təcrübəsi ilə qarşılaşdırılması yolu ilə mümkündür. Bu qarşılaşmada tədqiqatçı müasirliyin mədəni-intellektual nailiyyətləri səviyyəsindən mətni sorğu-suala çəkir və mətndə öz suallarına cavablar axtarır. Tədqiqatçıların yaşadıqları dövrlərin mədəni-intellektual təcrübələri həmişə müxtəlif olduğuna görə onların eyni bir mətnə (mədəni-tarixi irsə) ünvanladıqları suallar və təbii ki, cavablar da fərqli olur. Beləliklə, verilən suallar və alınan cavablar hər dəfə mətnin yeni mənasını formalaşdırır. Mətnlə bu sonsuz dialoq prosesini hermenevtikanın fundamental xüsusiyyəti kimi səciyyələndirərək, Qadamer bu xüsusiyyətinə görə fəlsəfi hermenevtikanı sual və cavab məntiqi adlandırır.

Dialoq prosesinin sonsuzluğu ona dəlalət edir ki, maddi və mənəvi mədəniyyət abidəsinin interpretasiyası onun müəllifinin nəzərdə tutduğu ilkin mənanın aşkarlanması deyil, mənanın, ümumiyyətlə, yenidən yaradılmasıdır. Deməli, anlama həmişə müəllifin yaratdığı mətnə verdiyi subyektiv mənadan kənara çıxır.

XX əsrin birinci yarısında humanitar elmlərin metodoloji problemləri ilə məşğul olan ən geniş yayılmış cərəyanlardan biri də Fransada təşəkkül tapmış *strukturalizm* idi. Bu cərəyan rəngarəng sosiomədəni hadisələrin mövcudluğunu və baş vermə xüsusiyyətlərini şərtləndirən fundamental strukturlar haqqında ideya və prinsipləri özündə birləşdirirdi. Strukturalizm, ilk dəfə olaraq, linqvistikada meydana çıxmış müxtəlif metodlardan istifadə edərək, insan fəaliyyətinin müxtəlif formalarında mürəkkəb mənəvi mədəniyyət hadisələrinin formalaşma və fəaliyyət məntiqini aşkara çıxarmağı qarşısına məqsəd qoymuşdu.

Strukturalizm tarixən Qərb dünyasında Yeni dövrdən etibarən hökmran olan subyekt fəlsəfəsinə qarşı reaksiya kimi meydana çıxmışdır. XVII əsrdən etibarən iri kapitalist istehsalı, getdikcə daha çox, cəmiyyətdə struktur yaradan formalaşdırıcı mərkəzə çevrilirdi. İntibah dövrünün ümumiyyətlə insana aid etdiyi yeni dünya nizamındakı mərkəz rolunu artıq kapitalist istehsalının təşkilatçısı olan təşəbbüskar və ambisiyalı şəxsiyyət kimi kapitalist öz üzərinə götürdü. Subyekt fəlsəfəsi məhz onun dünyagörüşünün ifadəsi idi. Onun mahiyyətini tarixi prosesin bu yeni subyektinin yer üzündə hökmranlığını təmin

etməyə yönəlmiş instrumental rasionallıq prinsipi təşkil edir.

Bu prinsip son nəticədə təbiətə münasibətdə qlobal ekoloji fəlakəti, insana münasibətdə isə müstəmləkəçiliyi, bitib-tükənməyən kütləvi insan qırğınları ilə müşayiət olunan humanitar fəlakəti doğurdu. Buna görə də, XX əsrin ikinci yarısında subyekt fəlsəfəsinə qarşı yönəlmiş geniş bir fəlsəfi hərəkat yayılmağa başladı. Strukturalizm bu dalğanın ilk təmsilçilərindən biri idi. Onun başlıca hədəfi Yeni dövr Qərb mədəniyyətinin yaradıcı mərkəzindən subyekt ideyasını qoparıb ataraq, onu anonim "struktur" anlayışı ilə əvəz etmək idi.

**Nəticə**

Humanitar elmlərdə metodoloji paradiqma öz başlanğıcını tarix fəlsəfəsinin təşəkkül tapmasından götürür. Yeni Dövrün tarix fəlsəfəsinə təbiətşünaslığın heyranedici nailiyyətləri son dərəcə böyük təsir göstərdiyinə görə, humanitar elmlərin inkişafının ilk mərhələsi üçün təbiət elmlərinə istiqmətlənmiş naturalist metodologiya səciyyəvi idi. Sonralar maarifçilərin tərəqqi konsepsiyasının və təkamül ideyalarının təsiri altında sosial-tarixi gerçəkliyə naturalist yanaşma universal evolyusionizm ideyaları ilə qovuşur. Lakin ilk növbədə, "həyat" fəlsəfəsi və neokantçıların, sonralar isə lokal sivilizasiyalar konsepsiyasının təsiri altında universal təkamül metodologiyasının sosial gerçəkliyə adekvat olmadığı dərk edildi. Bu istiqamətdə Popperin, Qadamerin və strukturalistlərin xidmətləri xüsusi qeyd olunmalıdır.

## ƏDƏBİYYAT


1. Бакрадзе К.С. Избранные философские труды: В 4 т. Тбилиси: Изд.-во Тбилисского ун-та, 1973. Т. 3, 392 с.
2. Гадамер Г.-Х. Истина и метод: Основы философской герменевтики. М.: Прогресс, 1988, 704 с.
3. Гуревич А.Я. Категории средневековой культуры. М.: Искусство, 1972, 320 с.
4. Виндельбанд В. Избранное. Дух и история. М.: Юрист, 1995, 687 с.
5. Дильтей В. Описательная психология. СПб.: Алетейя, 1996, 160 с.
6. Дильтей В. Наброски к критике исторического разума // Вопросы философии, 1988, № 4, с. 135-152.
7. Коллингвуд Р.Дж. Идея истории. Автобиография. М.: Наука, 1980, 488 с.
8. Кондорсе Ж.А. Эскиз исторической картины прогресса человеческого разума. М.: Соцэкономгиз, 1936, 265 с.
9. Поппер К. Нищета историцизма // Вопросы философии, 1992, № 10, с. 29-64.
10. Риккерт Г. Науки о природе и науки о культуре. М.: Республика, 1995, 128 с.
11. Habermas J. The Theory of Communicative Action. Vol. 1. Reason and the Rationalization of Society. Boston: Beacon Press, 1984, 465 p.


***Резюме***

***Закир Мамедалиев***

***Эволюция методологических парадигм гуманитарных наук***

Христианское мировоззрение сущностно отличает воплощение бога в человеке от всего того, что произошло в мире до этого. Воплощение бога в человека разделяет время на две качественно отличающейся части – прошлое и будущее. Осознание качественного различия между прошлым и будущим является предпосылкой становления исторического сознания. Восприятие мира в качестве процесса, направленного от прошлого к будущему, представляет собой следующее важное условие. Христианство добилось этого посредством библейского сказания о конце света. Осмысление истории человечества как процесса, направленного на Судный День, подготовило почву для появления

философии истории. Слияние философии истории, сформированной на религиозной почве, с концепцией прогресса Просвещения оказало большое влияние на формирование натуралистической парадигмы в методологии гуманитарных наук. Натуралистическая парадигма добивалась развития гуманитарных наук на базе методологии естественных наук. Именно благодаря философии «жизни» и неокантианцам стало понятным, что подходк гуманитарным наукам с позиции методологических стандартов естествознания не является адекватной социально-исторической реальности. Согласно неокантианцам, естественные науки основаны на «номотетической» методологии, направленной на поиск общих черт между объектами и событиями и объединяющей их в общих родовых понятиях. Гуманитарные же науки должны основываться на «идеографической» методологии, выбирающей индивидуальные, неповторимые аспекты реальности, которые не могут быть объединены под общимродо-видовым понятием. Критика философией«жизни» и неокантианцами натуралистическо-позитивистской методологии подготовила почву для отказа от методологии универсального эволюционизма в гуманитарных науках. Одним из факторов, приведших к провалуметодологии универсального эволюционизма, служило также то, что концепция «локальных цивилизаций» подвергла эту методологию сокрушительной критике.Это дало толчок к более глубокому пониманию философских и методологических проблем гуманитарных наук. Отказ от концепции универсальной эволюции – характерная черта подходов к гуманитарным наукам, возникших в контексте неклассической философии истории. В этой связи особенно примечательны идеи К.Поппера о методологии гуманитарных наук, герменевтический подход Х.Гадамера к социально-исторической действительности и французский структурализм.

***Ключевые слова:*** *философия истории, натуралистические школы, философия «жизни», неокантианство, универсальный эволюционизм, герменевтика*

***Summary***

***Zakir G. Mammadaliev***

***Evolution of Methodological Paradigms in the Humanities***

The Christian worldview essentially differs the embodiment of God in man from everything that happened in the world before. The incarnation of God in man divides time into two qualitatively different parts - the past and the future. Awareness of the qualitative difference between the past and the future is a premise for the formation of historical consciousness. The perception of the world as a process directed from the past to the future is the next important condition. Christianity achieved this through the biblical tale of the end of the world. Understanding the history of mankind as a process aimed at the Day of Judgment paved the way for the emergence of a philosophy of history. The fusion of the philosophy of history, formed on religious grounds, with the conception of the progress of the Enlightenment had a great influence on the formation of the naturalistic paradigm in the methodology of the humanities.The naturalistic paradigm sought to develop the humanities on the methodology of the natural sciences. It was thanks to the philosophy of “life” and the neo-Kantians that it became clear that the approach to the humanities from the standpoint of the methodological standards of natural science is not adequate to social andhistorical reality. According to neo-Kantians, the natural sciences are based on a "nomothetic" methodology aimed at finding similarities between objects and events and uniting them in common generic concepts. The humanities, however, should be based on an "ideographic" methodology that selects individual, unique aspects of reality that cannot be combined under a common generic concept. The criticism of naturalistic-positivist methodology by the philosophy of “life” and neo-Kantians paved the way for the rejection of the methodology of universal evolutionism in the humanities. One of the factors that led to the failure of the methodology of universal evolutionism was also the fact that the concept of "local civilizations" subjected this methodology to crushing criticism. This gave impetus to a deeper understanding of the philosophical and methodological problems of the humanities. The rejection of the concept of universal evolution is a characteristic feature of approaches to the humanities that have arisen in the context of the non-classical philosophy of history. In this regard, K. Popper's ideas about the methodology of the humanities, H. Gadamer's hermeneutic approach to social and historical reality and French structuralism are especially noteworthy.

***Key words:*** *philosophy of history, naturalistic schools, philosophy of "life", neo-Kantianism, universal evolutionism, hermeneutics*

Baş redaktor f.e.d., prof. Hüseynli Nazim Ziyad oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

Sivilizasiya, Cild 10 №4 2021 (49)
Bakı Avrasiya Universiteti

**UOT 16.11**

# KONSEPTLƏR MİLLİ FƏLSƏFİ DÜŞÜNCƏNİN İFADƏ FORMASI KİMİ

**Fəxrəddin QULİYEV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 oktyabr 2021; çapa qəbul edilmişdir: 17 noyabr 2021; online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 15 th October, 2021; accepted: 17 th November, 2021; published online: 29 th December, 2021.*

***Açar sözlər:** konsept, təkamül, qeyri-xəttilik, dünyagörüşü, milli mentalitet, ədəb-ərkan*

## Giriş

Hər bir xalqın milli mədəniyyətinin tədqiqi onun folklorundan başlayır. Folklor ana dilinin formalaşdırıcısı, milli düşüncə tərzinin ifadəçisi, xalqın dünyagörüşü, milli adət-ənənələri və həyat tərzi haqqında ən etibarlı mənbədir. Söz sənəti kimi folklorun nüvəsi şifahi xalq poeziyasıdır. Şifahi xalq poeziyası ana dilinin bütün zənginliyini öz frazeologizm və aforizmləri ilə qabarıq şəkildə nümayiş etdirir. Bununla yanaşı xalq poeziyasında milli dünyagörüşlərinin ifadəsi üçün məhdud sayda anlayış və kateqoriyalar mövcuddur. Bu təməl kateqoriyalarından biri də milli konseptdir.

Məqalədə milli konseptlərin idrak vasitəsi və dəyər yönümlü aspektlərini nəzərdən keçirəcəyik.

Tədqiqatın metodoloji əsaslarını tarixi-məntiqi metod və komparativ analiz təşkil edir. Tarixi-məntiqi metod konseptin formalaşma mexanizmini müəyyən etməyə, komparativ analiz isə konseptin müxtəlif elm sahələrində verilmiş definisiyalarının müqayisəli təhlilini aparmağa imkan verir.

## 1. Konsept, formalaşması, xassələri

Konsept ilk dəfə Askoldov tərəfindən tədqiq edilmişdir. O, konsepti "təfəkkür prosesində eyni növ qeyri-müəyyən predmet çoxluğunu əvəz edən düşüncə forması" kimi qəbul edir (9, s. 269).

E.S.Kubryakova konsepti dilçilik baxımından təhlil edir və linqvistik atributları ilə yanaşı konseptin idrak proseslərindəki roluna da diqqəti cəlb edir: konsept “əməliyyatın yaddaş vahidi, mental leksikonu, konseptual sistemi və beynin dili, bütövlükdə dünya mənzərəsi, bilik kvantıdır (12, s. 90-92).

Z.D.Popova, İ.A.Sternin konsepti “strukturlaşdırılmış biliklər kvantı” olan “qlobal düşüncə vahidi”, düşüncə universalı hesab edirlər (16, s. 4).

Bu definisiyalarda konseptin diskret təbiəti, konkret struktura malik olması, latent formada fraktallıq xassələri öz əksinin tapır, belə ki, bütövlükdə dünya mənzərəsi kiçik bir bilik kvantındında ifadə olunur, “qlobal düşüncə vahidi” isə onun fənlərarası metodoloji əhəmiyyət daşıdığını göstərir.

Konsept təklə cəmi, xüsusi ilə ümumini, fərdi ilə ictimaini ehtiva edir, başqa sözlə, konseptin formalaşma prosesində xalqın kollektiv təcrübəsi və ayrı-ayrı insanların fərdi

* texnika üzrə fəlsəfə doktoru, dosent, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
*e-mail: Fakhraddin.Kuliev@mail.ru*

yaradıcılıq təcrübəsi ifadə olunur, “konsept birbaşa sözün mənasından irəli gəlmir, sözün lüğəvi mənası insanın şəxsi və milli təcrübə ilə toqquşmasının nəticəsidir” [13, s. 4].

Konsept bütövlükdə mədəniyyətin ifadəçisidir, öz prosessuallıq xassəsi ilə milli mədəniyyətin genezisini özündə əks etdirir, ənənənin daşıyıcısı, mədəniyyətin translyasiyası vasitəsi, “xalq mədəniyyətinin yaddaş daşıyıcısıdır (8, s. 387). Konseptin bu sadalanan atributlarının məntiqi davamı kimi qeyd etmək olar ki, konseptdəki məlumatlar əsasında “milli şüurun strukturunu müəyyənləşdirmək mümkündür” (18, s. 96).

Konseptdə yalnız denotatın xüsusiyyətləri haqqında məlumatı əhatə olunmur, eyni zamanda konsept insanın mental dünyasındakı əsas mədəniyyət hüceyrəsidir (17, s. 412). Bu fikrin davamı kimi konseptə milli təfəkkür kodunun vahidi kimi baxırlar, yəni konseptdə obrazın hissi komponenti kodlaşdırılır, məhz obraz fərdi bir duyğusal görüntü ilə şüurda kodlanır.

Konseptə xüsusi elmi-metodoloji əhəmiyyət kəsb edən bir baxış da mövcuddur. Bu baxışa görə konsept “mücərrəd, konkret assosiativ və emosional-qiymətləndirmə xüsusiyyətlərini, eyni zamanda anlayışın sıxılmış tarixini özündə cəmləşdirən bir ideyadır” (17, s. 412). Analoji yanaşmada isə konseptə “mədəniyyət obyektinin maksimum mücərrəd ideyası” kimi baxılır (11, s. 272).

Fəlsəfə ensiklopediyasındakı definisiyaya əsasən ideya, öz hərəkətində idrakın can atdığı qnoseoloji bir "ideal" funksiyasını daşıyır. Ancaq ideya idrakda tarixən keçici bir idealdır; ziddiyyətlər əsasında inkişaf edir. Konseptin öz sərhədlərini dəyişdirmək xassəsi bununla bağlıdır. İdeya, müəyyən bir nəzəriyyədə əks olunan ən vacib olanı ön plana çəkir, bu nəzəriyyəyə daxil olan bütün digər anlayışlar isə ideya ilə əlaqələndirilir və onun ayrı-ayrı tərəf və məqamlarını ifadə edir, yəni ideya fraktal təbiətlidir. İdeya eyni zamanda hər bir sənət əsərində təsəvvür və düşüncələri bütöv bir obraza birləşdirərək sintez rolunu oynayır (19, s. 234-237).

Fəlsəfi yanaşmada konsept anlayışın konkret linqvistik formasından ayrılan məzmunu, onun ifadəsinin semantik məzmunudur. Konseptlər ierarxik səviyyəyə malik konseptual sxem formalaşdırır, hər bir səviyyədə konsept konkretləşdirilə bilər. Konsept prosessual təbiətə malik olduğundan konkret struktura malik deyil, belə ki, müəyyən problemin həllində konsept digər konseptlərlə əlaqədə götürülür. Problemin həllində konseptlərin kəsişmə sahəsindən istifadə edilir. Ona görə konsept öz komponentlərinin – digər konseptlərin yığılma nöqtəsi kimi qəbul olunur [15, s. 503].

Öz dinamik təbiəti, prosessuallığı sayəsində “hər konsept yenidən öz komponentlərinə bölmə əməliyyatını həyata keçirir, daha doğrusu, yeni semantik konturlar alır, yenidən aktivləşdirilməli və ya yenidən ölçülüb, biçilməlidir” **(**10, s. 28), başqa sözlə, daim təşəkküldə olur.

Konseptin definisiyasında yer alan təməl elementlərindən biri də onun strukturudur. Konseptin öz definisiyasında olduğu kimi, onun strukturu haqqında da yekdil bir fikir mövcud deyil. Belə ki, konsepti dinamik proses kimi qəbul edən filosoflar, yuxarıda qeyd edildiyi kimi, konseptin konkret struktura malik olmadığı fikrindədirlər.

Buna baxmayaraq, problemə digər baxışlardan yanaşdıqda konseptin ierarxik və sahə təbiətli struktura malik olduğu fikri özünü doğruldur.

Y.S. Stepanova görə, konsept özündə məna qatları adi dil daşıyıcılarınının anladığı mənadan başlayaraq ancaq mütəxəssislərin başa düşəcəkləri mənalar spektrinin əhatə edir, yəni ierarxik struktura malikdir (17, s. 41-42).

Konsept nüvə və onun ətrafından ibarətdir: nüvədə – konseptin əsas idrak qatını təşkil edən hissi obraz yerləşir və nüvə daha çox nisbi sabitdir. Ətrafı isə dəyişkəndir, məsələyə baxılan kontekstdən asılı olaraq məna çalarlarının interpretasiyası dəyişir. Bu, onunla əlaqədardır ki, konsept dil daşıyıcısının təsəvvüründə həyat hadisələrinin yaratdığı assosiasiyaları bütövlükdə ehtiva edir, başqa sözlə, gerçəklk haqqında milli dünyagörüşünün “ensiklopedik məlumatlarını” özündə cəmləşdirir.

Konseptin qeyri-xəttiliyi koqnitiv proseslərdə onun qeyri-diskursivliyindən irəli gəlir. Diskursiv idrak prosesində məntiqi nəticə çıxarmaq bir anlayışdan digərinə keçmək, bir mühakiməni digər mühakimə ilə bağlamaq yolu ilə həyata keçirilir, yəni anlayışların əlaqəsində sərt bir ardıcıllıq mövcuddur. Konseptlər arasında münasibətlər isə ardıcıllıq prinsipinə tabe olmur, bir konseptdən digər konseptə keçid baxılan kontekstdən asılı olaraq dəyişir, "hipermətn" prinsipi əsas götürülür.

Konseptlərin fraktallığı öz genezisi prosesində zaman-zaman mədəniyyətin nəsildən-nəslə ötürülməsi və dövrün tələbinə uyğun inkişaf etdirilməsi problemləri ilə bağlı diskurslarda, problemə müxtəlif səviyyə və miqyaslarda yanaşmalarda təcəssüm olunur.

Konseptin əsas atributlarından biri də onun prosessuallığıdır, konseptlər daim mövcuddur, cəmiyyətin tarixi-mədəni inkişafı konseptlərdə öz izlərini qoyur, bununla da konseptlər öz semantik aurasını daim dəyişdirir.

Konseptlər insanların adi şüur səviyyəsində və gündəlik həyat praktikasında formalaşır, onların mental və praktik fəaliyyətinin inkişafı prosesində öz məzmununu mürəkkəbləşdirir. Konseptlərdə milli dünyagörüşü frazeoloji vahidlər, zərbi-məsəllər, atalar sözləri və aforizmlər formasında daha dolğun ifadə olunur.

## 2. Ədəb-ərkan konsepti

Xalq poeziyasında milli dünyagörüşlərinin ifadə formasını ədəb-ərkan konseptinin timsalında nəzərdən keçirək.

Müxtəlif lüğətlərdəki etimologiyasına görə ədəb-ərkan konsepti geniş mənalar spektrini əhatə edir. Bu mənaların hər birinin açıqlanması milli mədəniyyətin idrak, etika və estetika triadasından baxışda konseptin əhəmiyyətini şərh etmək üçün daha məqsədəuyğundur.

"Ədəb" sistem anlayışıdır, bütün iş və hərəkətdə gözlənən gözəl, hamı tərəfindən qəbul edilmiş, bəyəniləcək davranış qaydalarını, hər hansı intellektual əməliyyatın tərz və üsulunu göstərir (8, s. 14). "Ərkan" isə ədəb qaydaları, rəsm, adət kimi mənalandırılır (6, s. 128). Artıq bu təyinatlardan görünür ki, Delez və Qvattarinin qeyd etdikləri kimi bir konseptin məna çalarlarının şərhi digər konseptlərlə əlaqədardır. Bu qayda ilə konseptlərin əlaqələrini müəyyən edək. Rəsm konsepti plan, tərtib, adət, qayda, ayin (8, s. 517) kimi koqnitiv əməliyyatları ehtiva edir. Adət konseptinin mənaları arasında hər hansı bir xalqın həyatında qədimdən bəri qəbul edilmiş və kök salmış ənənə ilə yanaşı rəsm və üsul da yer alır (5, s. 47). Üsul öz növbəsində yol konsepti ilə bağlıdır. Yol istiqamət, yön, bir şeyi əldə etmək üçün üsul, vasitə; dünyagörüşü, əqidə (7, s. 607) mənalarını özündə cəmləşdirir. Beləliklə, konseptlər arasında dairəvi əlaqə mövcuddur.

Lüğətlərdə verilmiş mənaları sistemləşdirdikdə görürük ki, "ədəb-ərkan" konsepti davranış qaydalarından başlayaraq dünyagörüşü səviyyəsinə qədər məna çalarlarına malikdir: 1.davranış qaydaları; adət; 2. bir məqsədə çatmaq üçün istifadə olunan yol, üsul, qaydalar sistemi; 3. mənəviyyat prinsipləri; 4. əqidə, etiqad; 5. dünyagörüşü.

El şairləri öz ustadnamələrində göstərilən aspektlərin özünəməxsus poetik şərhini vermişlər:

*Salam verib bir məclisə varanda,*
*Yaxşı əyləş, yaxşı otur, yaxşı dur.*
*Dindirəndə kəlmə-kəlmə cavab ver,*
*Görən desin: bərəkallah, yaxşıdır.* (4, s. 8)

Bu bənddə qısa, lakonik və tutumlu formada davranış qaydaları sadalanır. Məlumdur ki, davranışda hər bir insanın siması, onun iç üzü ifadə edilir. İctimai davranış ətrafdakı insanlara və bütövlükdə cəmiyyətə müəyyən təsir göstərmək üçün tərbiyə metodudur.

Davranış üçün normalar mövcuddur. Norma, əslində, davranış etalonudur, normada keçmiş nəslin mənəvi təcrübəsi, yəni mənəvi münasibətlərin genetikası, təkamülü, tarixi inkişaf yolu cəmləşir. Bu nöqteyi-nəzərdən, bənddə söylənilən ustad kəlamında yalnız məclisdə oturub-qurma qaydası nəzərdə tutulmur, həm də "ağır oturub, batman gəlməkdən" söhbət gedir, sənə ünvanlanan sözləri yerli-yataqlı təhlil edib, təmkinlə, ustadın sözləri ilə desək, kəlmə-kəlmə cavab vermək lazımdır. Burada davranış anlayışı düşüncə və nitq mədəniyyətini də əhatə edir.

*Aldanma dövlətə, uyma dünyaya,*
*Kəsb elə özünə halaldan maya,*
*Zinakar, haramxor yetişməz baya,*
*Dosta xain baxan kor olacaqdır.* (1, s. 69)

Baxdığımız nümunədə milli davranış strategiyasının poetik ifadəsi verilmişdir. Qeyd edək ki, milli adət və ənənələr xalqın mənəviyyat prinsiplərinin yaşam və düşüncə tərzi formasında təcəssümüdür. Yaşam tərzini mənəvi məsuliyyət, əməlin mənəvi qiymətləndirilməsi və davranış strategiyası müəyyənləşdirir. Mənəvi məsuliyyət elə bir məfhumdur ki, hər bir insanın iştirakçısı olduğu ictimai hadisəyə məsuliyyət daşıdığını göstərir. Onun hər bir əməli isə mənsub olduğu xalqın qəbul etdiyi mənəviyyat prinsipləri ilə qiymətləndirilir. Mənəviyyat prinsiplərini əsas götürən ustad gözü toxluğu, nəfsinə hakim olmağı, halallığı, dosta sədaqətli olmağı tövsiyə edir, xəbərdarlıq edir ki, dosta xəyanətin cəzası ağır olur.

Ədəb-ərkan konseptinin bir mənası da dünyagörüşüdür. Dünyagörüşü bizi əhatə edən xarici dünya, bu dünyada insanın yeri, insan həyatının mənası, həyat və ölüm, müvəqqəti olanla əbədi olan haqqında düşüncələr sistemindən ibarətdir.

*De, necə qurulub dünya binası?*
*Aşıqlıq sözünün nədir mənası?*
*Tanı, mənəm aşıqların ustası,*
*Mən bilirəm yol-ərkanı qırmızı.* (2, s. 3)

Bəndin birinci iki misrasında xalq poeziyasının yaradıcıları – ustad aşıqların qarşısında nəzərə-praktiki əhəmiyyət daşıyan problemlər qoyulur. Bu problemlərin qısa cavabı son iki misrada vurğulanan "yol-ərkan" konseptində verilir. "Yol-ərkan" konsepti baxılan kontekstdə milli dünyagörüşü və aşıq sənətinin problemlərini əhatə edir. Aşıq sənəti milli mədəniyyətimizin ən qədim elementlərindən biridir və çoxəsrlik inkişaf tarixində özünün qorunub saxlanma, inkişaf və gələçək nəsillərə ötürmə ənənələrinə malikdir. Ustad sənətkarlar aşıqlıq sənətini yaşatmaq üçün öz şəyirdlərinə "yol-ərkanı", yəni "dünya binasının necə qurulmasını", dastançılıq ənənələrini, ifaçılıq sənətinin incəliklərini öyrədir və xalq poeziyasına yaradıcı münasibət aşılayırlar.

Dünyagörüşünün zəruri tərkib hissəsi dini mənsubiyyətdir. Ozan aşıqların ustadnamələrində islami dünyagörüşü və islam etikası geniş təbliğ olunur.

*Ululu Kərimi axtaran tapar,*
*Bir könülü tikən min Kəbə yapar,*
*Sən çalış işini Haqq ilə apar,*
*Haqdan qeyri kimsə sənə yar olmaz.* (3, s. 125)

İnsanın bütün həyatı boyu onu əhatə edən gerçəklikdə qanunauyğunluqların mövcudluğuna inamın olmasına ehtiyacı var. İslam təfəkkürünə görə bu inam Ulu Tanrıyla

bağlıdır. Ulu Tanrı kainatı harmoniya prinsipləri ilə yaratmışdır. Məlumdur ki, bu harmoniya mikro və makro dünyaların oxşarlığında, başqa sözlə, kainatın strukturundakı fraktallıqda özünü göstərir. İnsanla kainat arasında müəyyən uyğunluqlar mövcuddur ki, bu da insan probleminin vacibliyini təsdiq edən əsas faktorlardan biridir. Müqəddəs kitabımız Qurani-Kərimdə: "7. Göyü. O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu!8. Ona görə ki, çəkidə hədi aşmayasınız (insafı əldən verməyəsiniz). 9. Tərəzini düz tutun, çəkini əskiltməyin! (Çəkidə insaflı olun, tərəzini korlamayın!)" ("ər-Rəhman" surəsi). Yəni insanlar arasındakı münasibətlər ədalət qanunları ilə tənzimlənir. Bir-birinə münasibətdə ədalət prinsiplərini gözləyin. Əgər bu qaydalara əməl etsəniz, Haqq sizin tərəfinizdə olacaq.

*Mərifət bəhrində, ədəb-ərkanda,*
*Bir iyid istərəm, lamü ləng ola.*
*Atı Düldül ola, qılıncı düsər,*
*Dayanmaz, qabaqda yüz nəhəng ola.* (4, 256)

Bu şeir parçasında mərifət sözü mədəniyyət, bilik, hünər, məharət mənasında işlədilir. Mərifətdə, ədəb-ərkanda Həzrət Əli etalon kimi qəbul edilir. Düldül Əlinin atı, düsər, ikibaşlı qılınc isə Əlinin qılıncıdır. Əlinin igidliyi haqqında Məhəmməd peyğəmbər demişdir: "Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur".

Əlidə müqəddəslik, cəngavərlik və şairlik bir-birini tamamlayır. Xeybər döyüşündə göstərdiyi sərkərdəlik və döyüş məharətinə görə Məhəmməd peyğəmbər Əliyə "Allahın aslanı" mənasını daşıyan "Əsədullah" ləqəbini vermişdir. Əli bir şair kimi "Divani-Əli" şeirlər toplusunun müəllifidir. İslam dünyasında adi vətəndaşlardan başlayaraq islam mütəfəkkirləri də Əlinin "Nəhcül-bəlağə" əsərinə müraciət edirlər.

Ustad sənətkar Xəstə Qasım Həzrət Əlinin timsalında göstərir ki, "ədəb-ərkan" konsepti islami düşüncə və həyat tərzinin bütün sahələrini – elm, incəsənət, ictimai həyat və öz əqidəsi uğrunda həyata keçirilən hərbi təlimləri əhatə edir.

**Nəticə**

Tədqiqatın yekunu qismində aşağıdakıları qeyd etmək olar:

Konseptlərin sistemləşdirilməsi, onların təkamül mexanizminin tədqiqi, yenidən canlandırması bütövlükdə milli mədəniyyətin inkişaf qanunauyğunluqlarının mənimsənilməsində əhəmiyyətli rol oynaya bilər. Bu mənada konseptin müxtəlif elm sahələrində verilmiş definisiyaları içərisində onun "ideya daşıyıcısı" kimi qiymətləndirilməsi milli mədəniyyətin, məxsusi olaraq milli fəlsəfənin təşəkkülünün tədqiqi baxımından daha məqsədəuyğundur.

Konsept hər şeydən əvvəl, idrak, etika və estetika triadasında, yəni mütləq həqiqət, mütləq xeyirxahlıq və mütləq gözəllik triadasında mövcud milli düşüncələri ifadə edir. Konsept bütövlükdə etnosun tarixi-mədəni inkişaf mərhələlərini əks etdirir.

Konsept mental kateqoriyadır, etnosun düşüncə tərzindəki unikallığın ifadəçisidir. Konseptdə etnosun real aləmi dərketmə xüsusiyyətləri, idrak vərdişləri, gerçəklik haqqında düşüncə və assosiasiyalar kompleksi ifadə olunur.

Konseptin semantik sərhədləri qeyri-səlis və dinamikdir. Cəmiyyətin tarixi inkişafı ilə əlaqədar müəyyən hadisə və obyektlə bağlı konseptin məzmununda yeni məna çalarları yaranır.

Konseptin dinamik təbiəti onun ifadə etdiyi ideyanın inkişafı ilə müəyyən edilir, belə ki, daim dəyişməkdə olan ətraf dünya ideyaların inkişafı və yeniləşməsini tələb edir.

Konseptin özünüinkişaf xassəsi sözün canlılığı və polisemantikasından yaranır. Hər bir konsept dil daşıyıcısının baxılan kontekstdən və onun dil sahəsindəki səriştəsindən asılı olaraq, fərqli şəkildə şərh edilə bilər.

## ƏDƏBİYYAT

1. Aşıq Ələsgər, Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
2. Aşıq Hüseyn Bozalqanlı. Əsərləri, I c., Bakı: Vətən, 2015, 316 s.
3. Azərbaycan dastanları. Beş cilddə. I c., Bakı: Lider nəşriyyatı, 2005, 392 s.
4. Azərbaycan dastanları. Beş cilddə. II c., Bakı: Lider nəşriyyatı, 2005, 448 s.
5. Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Şərq-Qərb, 2006, 740 s.
6. Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Şərq-Qərb, 2006, 791 s.
7. Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Şərq-Qərb, 2006, 709 s.
8. Ərəb və fars sözləri lüğəti, Bakı: Yazıçı, 1985, 1037 s.
9. Аскольдов (Алексеев) С.А., Концепт и слово // Русская словесность. От теории словесности к структуре текста: Антология. М.: Academia, 1997. с. 267-279.
10. Делез Ж., Гваттари Ф. Что такое философия? М.-СПб.: АЛЕТЕИЯ, 1998, 288 с.
11. Красных, В. В. "Свой" среди "чужих": миф или реальность? Текст. / В.В.Красных. М.: ИТДГК "Гнозис", 2003, 375 с.
12. Краткий словарь когнитивных терминов, М.: Филологический факультет МГУ им. М.В.Ломоносова, 1996, 245 с.
13. Лихачев Д. С. Очерки по философии художественного творчества/ Д.С.Лихачев, СПб: БЛИЦ, 1999, 192 с.
14. Маслова В.А. Введение в когнитивную лингвистику. - М.: Флинта: Наука, 2006, 396 с.
15. Новейший философский словарь, Мн.: Книжный Дом. 2003, 1280 с.
16. Попова З. Д., Стернин И. А. Понятие «Концепт» в лингвистических исследованиях. Воронеж: Изд-во ВГУ, 1999, 35 с.
17. Степанов Ю.С. Константы. Словарь русской культуры. Опыт исследования. – М.: Школа. Языки русской культуры, 1997, 825 с.
18. Телия В.Н. Русская фразеология. Семантический, прагматический и лингвокультурологический аспекты М.: Школа «Языки русской культуры», 1996, 288 с.
19. Философская энциклопедия в 5 томах*, М.:* Советская энциклопкдия, Второй том, 1962, 576 с.

***Резюме***

***Фахраддин Кулиев***

***Концепт как форма выражения национального философского мышления***

Устная народная поэзия является одим из основных источников национальной философской мысли каждого народа. Свои мысли о человеке, об обществе и о мироздании, складывавшиеся веками, народ выражал, прежде всего, в баяты. Во всех формах народной поэзии, начиная с баяты, для полного поэтического выражения национального мировоззрения используются, в основном, метафора и концепт.

Статья посвящена исследованию концептов в качестве средства поэтического выражения национального философского мышления.

В статье проведен краткий сравнительный анализ дефиниций концепта, имеющиеся в различных областях науки. В этих дефинициях концепт оценивается как "носитель культурной памяти народа", "квант структурированного знания", "единица национального кода мышления" и "идея, воплощающая сжатую историю концепта".

В результате анализа рассмотренных дефиниций обозначены такие общие атрибуты концепта, как процессуальность, отражающая генезис национальной культуры, фрактальность, образующая концептуальную схему с иерархическим уровнем, и нелинейность, обусловленная недискурсивностью в когнитивных процессах. Все эти атрибуты и определяют значение концепта в междисциплинарных исследованиях.

Концепты формируются на основе коллективного опыта народа и индивидуального опыта отдельных лиц, то есть, они существуют во всех сферах образа жизни и образа мышления народа. С этой точки зрения изучение национальных концептов целесообразнее начинать прежде всего с устной народной поэзии, являющейся выражением народной мудрости.

Исследование проведено на примера концепта “этикет”. Когнитивный потенциал понятия “этикет” анализируется в познавательном, этическом и эстетическом аспектах национальной мысли. Таким образом, понятие “этикет” включает в себя смысловые оттенки, начиная от нормы поведения до уровня мировоззрения. Богатые смысловые оттенки концепта этикета нашли свое поэтическое выражение в метафорах, фразеологизмах и афоризмах. Простота, ясность и полнота языка народной поэзии зачастую позволяет выразить в одном стихе несколько смысловых оттенков этикета.

Наши озаны-ашуги в своих стихотворениях, написанных с большим мастерством, настоятельно рекомендовали соблюдать правила этикета при размышлении о жизненных событиях, в отношении к материальным благам и даже на поле боя.

***Ключевые слова:*** *концепт, эволюция, нелинейность, мировоззрение, национальный менталитет, норма поведения*

***Summary***

***Fakhraddin Quliyev***

***Concept as a Form of Expression of National Philosophical Thinking***

Oral folk poetry is one of the main sources of the national philosophical thought of every nation. The people expressed their thoughts about man, society and the universe, which have been taking shape for centuries, primarily in bayati. In all forms of folk poetry, starting with bayati, for the full poetic expression of the national worldview, mainly metaphor and concept are used.

The article is devoted to the study of concepts as a means of poetic expression of national philosophical thinking.

The article provides a brief comparative analysis of the concept definitions available in various fields of science. In these definitions, the concept is assessed as “a carrier of the cultural memory of the people”, “a quantum of structured knowledge”, “a unit of the national code of thinking” and “an idea that embodies the concise history of a concept”.

As a result of the analysis of the considered definitions, such general attributes of the concept as procedurality, reflecting the genesis of national culture, fractality, which forms a conceptual scheme with a hierarchical level, and nonlinearity, due to its non-discursiveness in cognitive processes, are identified. All these attributes determine the meaning of the concept in interdisciplinary research.

Concepts are formed on the basis of the collective experience of the people and the individual experience of individuals, that is, they exist in all areas of the way of life and the way of thinking of people. From this point of view, it is more expedient to start the study of national concepts first of all with oral folk poetry, which is an expression of folk wisdom.

The research was carried out on the example of the concept of "etiquette". The cognitive potential of the concept of "etiquette" is analyzed in the cognitive, ethical and aesthetic aspects of national thought. Thus, the concept of "etiquette" includes semantic shades, ranging from the norms of behavior to the level of worldview. The rich semantic shades of the concept of etiquette found their poetic expression in metaphors, phraseological units and aphorisms. The simplicity, clarity and completeness of the language of folk poetry often makes it possible to express several semantic shades of etiquette in one verse.

Our ozans-ashugs in their poems, written with great skill, strongly recommended to observe the rules of etiquette when thinking about life events, in relation to material wealth, and even on the battlefield.

***Key words:*** *concept, evolution, nonlinearity, world outlook, national mentality, norm of behavior*

Baş redaktor f.e.d., prof. Hüseynli Nazim Ziyad oğlunun və məsul katib fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızının rəyləri əsasında çapa məsləhət görülmüşdür.

**UOT 314.7**

# MƏCBURİ KÖÇKÜNLƏRİN CƏMİYYƏTƏ ADAPTASİYASI XÜSUSİYYƏTLƏRİ

**Tərlan TAĞIYEVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 5 oktyabr 2021; çapa qəbul edilmişdir: 30 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 5 th October, 2021; accepted: 30 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər**: Azərbaycan Respublikası, məcburi köçkünlər, şəhər mühiti, sosial-*psixoloji *durum, sosial adaptasiya*

## Giriş

İlk növbədə qeyd olunmalıdır ki, Azərbaycanda məcburi köçkünlər böyük ərazilərdən, müxtəlif inzibati vahidləri təşkil edən yerlərdən başqa yerlərə köçməli olmuşlar. Yəni sosial struktur baxımından burada yekcinslik olmamışdır, yerini dəyişən əhali öz sosial statusuna, peşə hazırlığına, həyat tərzinə görə müxtəlif təbəqələri təmsil edirdilər. Əhalinin məskunlaşdığı ərazilər müxtəlif idi. Bununla belə, məcburi köçkünlərin xeyli hissəsi məhz şəhərlərdə yaşamağa məcbur olmuşlar. İstənilən halda burada sosial adaptasiyadan danışmaq lazımdır. Hesab edirik ki, adaptasiyanın özü olduqca çətin və ağrılı olmuşdur.

Bu zaman dövlət tərəfindən xüsusi tədbirlər silsiləsi həyata keçirilir. Məlum olduğu kimi, müasir cəmiyyətin tərkib hissəsi əhaliyə sosial yardımın az və ya çox dərəcədə inkişaf etmiş sistemi təşkil edir. Onun səviyyəsi sistemdən sistemə, rejimdən rejimə, tarixi dövrdən başqa tarixi dövrə dəyişir. Həyat səviyyəsi, əsas hüquq və azadlıqların təmin edilməsi zəruri sosial yardım ölçüsünü müəyyən edir. Bu faktora həm də sabitlik və ya əksinə, siyasi sistemin münaqişə xarakteri, hakimiyyət rejiminin xüsusiyyətləri, yəni totalitar, avtoritar və ya demokratik olması təsir edir. Burada həm də siyasi hakimiyyətin sosial əsaslarının inkişafı, milli ənənələrin siyasi sistemin fəaliyyətinə təsiri nəzərə alınmalıdır. Əhalinin sosial müdafiəsinin təmin edilməsi sabitlik amillərindən biridir ki, bura ümumilikdə sosial yardımın səviyyəsinə təsir edən iqtisadi, siyasi, sosial, təşkilati amillər daxildir. Kompleks şəkildə bütün göstərilən amillər insanların sosial adaptasiyasına təsir edir.

Problemlə bağlı araşdırmalar sırasında ilk növbədə beynəlxalq tədqiqat qeyd edilməlidir [8]. Tədqiqatçıların gəldiyi qənaətlərdən biri ondan ibarət olmuşdur ki, "ucqar kəndlərdə məskunlaşmış və torpaq sahəsi ilə təmin edilməmiş kiçik məcburi köçkün icmaları ən zəif və müdafiəyə ehtiyacı olanlardır. Məhz bu cür icmalar çox vaxt həm hökumətin – o cümlədən yerli və milli səviyyədə, həm də yardım təşkilatlarının diqqətindən kənarda qalır. Onların yaşayış şəraiti mütəmadi olaraq yerli qonşu icmalardakı yaşayış şəraitindən, xüsusən də mənzil şəraiti, dolanışıq imkanları və torpaq təminatı, səhiyyə və sənədləşmə xidmətlərinin təminatı baxımından geri qalır" [8, s. 6]. Daha bir sənəd Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz tərəfindən hazırlanıb və tövsiyə xarakteri daşıyır [9]. Bu tədqiqatın nəticəsi belə olmuşdur ki, "inteqrasiya tədbirlərinin həyata keçirilməsi üçün ən rentabelli strategiya sosial birliyə əsaslanan cəmiyyətin inkişaf

* doktorant, Bakı Dövlət Universiteti
*e-mail: tterlan@yahoo.com*

etdirilməsini nəzərdə tutur. Qəbul edən ölkədə cəmiyyətə uyğunlaşan qaçqınlar onun ayrılmaz hissəsi hesab olunur və ölkə iqtisadiyyatında böyük pay sahibi olmaq imkanı əldə edirlər. Onlar müstəqil olmaq və yeni həyata başlamaq istəyirlər. İnteqrasiya siyasətləri qaçqınlara bu işdə kömək göstərmək və bütün aidiyyəti tərəflərin belə bir müsbət inteqrasiya prosesindən faydalanmasına şərait yaratmaq məqsədi daşımalıdır” [9]. Bütövlükdə qeyd edilməlidir ki, sosial adaptasiya probleminin bəzi sosial aspektləri bəzi tədqiqatçılar tərəfindən nəzərdən keçirilmişdir [1].

Bu məqalənin məqsədi Azərbaycan ərazisində yaşayan məcburi köçkünlərin sosial adaptasiyasının sosioloji təhlilidir. Bunun üçün statistik göstəricilərdən, real faktların təhlilindən, aparılan tədqiqatların materiallarından istifadə ediləcəkdir.

**Sosial yardım sosial adaptasiyanın istiqamətlərindən biri kimi**

SSRİ-nin dağılması kimi böhran hadisələri şəraitində öz siyasi sistemində transformasiya keçirən Azərbaycan Respublikası bu böhran hadisələrini hər cür aradan qaldırmağa çalışır, onlardan çıxmaq üçün hər cür yollar axtarır. Biz, siyasi sistemimizin fəaliyyət xüsusiyyətlərini nəzərə alaraq, həm zəngin tarixi keçmişimizin ən yaxşı siyasi ənənələrinə, həm də ən yaxşı mənada özünü təsdiq edən müasir siyasi inkişaf modellərinə əsaslanan, ümumbəşəri dəyərlərə malik suveren, demokratik dövlət yaratmağa çalışırıq.

Siyasi sistemimizin sosial genezisi çoxlu dəyişikliklərə məruz qalmışdır. Qeyd etmək lazımdır ki, siyasi sistemimizin formalaşması prosesi davam etməkdədir. Belə şəraitdə milli dövlətimizin inkişafına təsir edən bütün xarici və daxili amilləri daim diqqətdə saxlamaq lazımdır. Ölkəmizin müasir siyasi modeli həm də ehtiyacı olan əhaliyə vaxtında sosial yardımın göstərilməsini nəzərdə tutur. Burada yaranan problemlər həm elmi səviyyədə, yəni problemin elmi-metodiki əsaslarını nəzərə almaqla, həm də sosial siyasətin bu sahəsində praktiki işləri təhlil etmək və qiymətləndirməklə həll etmək olur.

Müasir cəmiyyət inkişaf etdikcə onun bütün tarixi mərhələlərində əhaliyə sosial yardımın göstərilməsi problemi kifayət qədər kəskin olmuşdur. Artıq ibtidai cəmiyyətdə yaşamaq vəzifələri sırasında xəstələrə və qocalara kömək etmək, azyaşlı uşaqlara qulluq etmək, bir-birinə yardım etmək və bir-birini dəstəkləmək vəzifəsi də var idi. Bu da bir sıra əxlaq norma və qaydalarında, habelə bu günə qədər gəlib çıxan müxtəlif dini hökmlərdə öz ifadəsini tapmışdır. Bu baxımdan sosial yardım problemlərinin tədqiqi də kifayət qədər aktual idi.

Problemin özü çoxşaxəli olduğundan onun həlli tarixi, hüquqi, siyasi, iqtisadi, əxlaqi və mənəviyyat da daxil olmaqla çoxsaylı cəhətlərə malik olub. Bu aspektlərin hər biri üzrə qlobal və regional tədqiqatlardan tutmuş, yerli problemlərin konkret araşdırmalarına qədər bir çox tədqiqatların adlarını çəkmək olar.

Beynəlxalq təcrübə göstərir ki, həqiqətən ehtiyacı olanların yalnız kiçik bir hissəsi nəzərdən keçirilən müavinətləri alır, özü də xərclərin böyük hissəsi bu güzəştlərin tətbiqinə nəzarət və idarəetməyə yönəldilir. Ehtiyacı olan bir çox ailələr sosial reputasiyalarını itirməkdən utanaraq kömək istəməzlər. Yoxsulluq hallarının öyrənilməsinə əsaslanan yardım sistemlər inzibati cəhətdən mürəkkəb və çox bahalıdır. Bunlar həm də onların idarə olunması tapşırılan məmurların özbaşınalığı da nəzərə alınmalıdır [2].

Azərbaycanın sosial yardım sistemi, onun formalaşmasının əsasını təşkil edən prinsiplər Azərbaycanda sosial sahənin formalaşmasından əvvəlki vəziyyətlə bağlıdır. 90-cı illərin ikinci yarısında Azərbaycan Prezidenti, Ümummilli Lider Heydər Əliyevin səyləri nəticəsində ictimai-siyasi vəziyyəti normal vəziyyətə gətirmək mümkün oldu. İqtisadiyyatda dəyişikliklər başlandı və nəticədə köklü modernləşmə və mahiyyət etibarilə müəyyən spesifik xüsusiyyətlərin müasir təcrübəyə üzvi şəkildə toxuna biləcəyi sosial sistemin yeni milli modelinin yaradılması məsələsi ortaya çıxdı [4].

İqtisadiyyatın bərbad vəziyyətdə olduğu və demək olar ki, yeni formalaşmaqda olan

neft strategiyası şəraitində sosial sistemin bu mütərəqqi modelinin yaradılması o dövrdə cəsarətli addım idi ki. Bu da ilk növbədə Azərbaycanın gələcəyinə inamla baxan Heydər Əliyevin nikbinliyinə söykənirdi. H.Əliyev inanırdı ki, bir vaxt ölkəmiz ən iddialı sosial layihələrin öhdəsindən gələcək. Ancaq bundan əvvəl belə bir sistemin səmərəli fəaliyyəti üçün bir neçə başqa problemi həll etmək lazım idi. Birincisi, özünü maliyyələşdirən sığorta pensiya modelinin yaradılması məqsədilə pensiya təminatı mexanizminin müasirləşdirilməsi lazım idi. Bu gün ölkədə məcburi sosial sığorta haqlarının yığılması, pensiyaların təyin edilməsi və ödənilməsi üzrə vahid qurum fəaliyyət göstərir. Artıq "Əmək pensiyaları haqqında" yeni qanun qəbul edilmiş, sığorta olunanların fərdi uçotunun avtomatlaşdırılmış sistemi fəaliyyət göstərməkdədir.

İkinci problem səhiyyə və təhsil sektorlarında islahatların aparılması idi. Dövlət yeni özəl məktəblərin, klinikaların, universitetlərin və s. açılması üçün şərait yaratmışdı. Nəticədə əhalinin yoxsul təbəqəsinin pulsuz dərman və təhsilə çıxışını təmin etmək, eyni zamanda, bu sahələrdə rəqabət qabiliyyətli xidmətlər bazarı yaratmaq mümkün olmuşdur.

Nəhayət, ən mühüm vəzifə vətəndaşların real gəlirlərinin artırılmasıdır. Makroiqtisadi islahatların həyata keçirilməsi, aparılan yenidənqurmaların mənfi nəticələrinin minimuma endirilməsi tədbirləri sayəsində ölkəni həddindən artıq və sosial sarsıntılar olmadan indiki inkişaf mərhələsinə çatdırmaq mümkün oldu. Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının tövsiyələrinə baxmayaraq, hökumət "şok terapiyasına" getmədi, ölkə tədricən bazar konyukturasına rahat keçidə nail oldu.

Uzun illərdir ki, Azərbaycanın dövlət büdcəsi sosialyönümlüdir, yəni neçə ildir ki, büdcənin xərc hissəsinin böyük hissəsi sosial sahəyə yönəldilmişdir.

Nəticədə məcburi köçkünlərin sosial adaptasiyası üçün kifayət qədər geniş imkanlar meydana gəlmişdir. Burada sosial işçilərin rolu xüsusi olaraq qeyd edilməlidir. Sosial işçilərin sosial yardımın göstərilməsində rolunu müəyyən edərkən ilk növbədə bu rolun həyata keçirilməsində bir sıra obyektiv ilkin şərtləri qeyd etmək lazımdır. Bu, ilk növbədə, hüquq sistemini əhatə edən, insan hüquqları və vətəndaş hüquqlarının üzvi hissəsi olan qanunvericilik bazasıdır. Fikrimizcə, sosial işçinin vəzifəsi ilk növbədə sosial yardıma ehtiyacı olan hər kəsə bu problemin hüquqi əsaslarını dəqiq izah etməkdən ibarət olmalıdır. Hüquq normaların sosial normalarının tərkib hissəsi olduğundan sosial yardıma ehtiyacı olan hər bir vətəndaşda öz dövlətinin hüquq münasibətlərində hərtərəfli iştirak etmək üçün müvafiq hüquqi şüurun formalaşmasına kömək etmək lazımdır. Qanunun hərəkətinin sosial mexanizmini aydın başa düşmək lazımdır.

Sosial işçinin vəzifələrinə yalnız sosial yardımın göstərilməsinin zəruriliyi barədə səlahiyyətli orqanlara vaxtında məlumat vermək deyil, həm də psixoloji məsləhət vermək vəzifələri daxildir. Burada müxtəlif yanaşmalar var, ilk növbədə, bunlar təşkilati və "kliniki" kimi məsləhət növlərini göstərmək olar, yəni birbaşa hər hansı bir psixoloji sindromu aradan qaldırmağa yönəlmişdir.

**Sosial adaptasiyanın başlıca şərtləri və onların reallaşdırılması yolları**

Sosial adaptasiyasının uğurlu olmasına səbəb olacaq bir çox şərtlər var. Bəzilərini nəzərdən keçirək.

*Keçirilən sosial islahatların sosial yönümünün artırılması*. Bununla bağlı demək olar ki, Azərbaycanda dövlət tərəfindən keçirilən sosial islahatlar ilk növbədə məhz insanların maddi rifahını nəzərdə tutur [4]. Artıq dövlət səviyyəsində sosial yönümlü inkişaf əsas prioritet kimi elan olunmuşdur [6].

*Demokratiyanın inkişafı, hüquq və azadlıqların təmin edilməsi, vətəndaş cəmiyyətinin formalaşması*. Bu istiqamətlə bağlı göstərmək olar ki, dövlətimiz idarəçilik sistemində müstəqillik illərində xeyli islahat aparmışdır. Iqtisadiyyat, səhiyyə, təhsil, mədəniyyət, dövlət qulluğu, infrastrukturun inkişafı və bir çox digər sahələrdə mütərəqqi inkişafı,

sosial ədaləti, vətəndaş sülhü təmin etmək üçün qanunvericilik bazası təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğun siyasi qərarlar qəbul olunmuş və həyata keçirilmişdir. Görülən işlər uzun illər boyu öz həllini tapmayan Dağlıq Qarabağ münaqişəsi fonunda reallaşırdı. Yəni çətinliklər kifayət qədər idi. Dağılmış SSRİ-nin bir parçası olan və müstəqillik yoluna qədəm qoyan Azərbaycan Respublikası çətin bir keçid dövrünü yaşasa da son nəticə olaraq tərəqqi yolunda inamla addımlamağı davam edir.

*Dövlətin sosial rolunun fəallaşdırılması, sosial sahədə dövlət və cəmiyyətin qarşılıqlı əlaqə mexanizminin tətbiq edilməsi*. Bununla bağlı göstərmək olar ki, iqtisadiyyat inkişaf etdikcə Azərbaycanda maliyyə, kredit, fiskal, valyuta sahələrinin sabitləşməsi, dövlətin sosial siyasətinin formalaşması və inkişafı da baş verir. İqtisadiyyatın təkmilləşdirilməsi ilə yanaşı, bazar iqtisadiyyatının mənfi təzahürlərini kompensasiya etmək məqsədilə əhalinin sosial müdafiəsi sistemi də inkişaf edir. Müstəqillik illərində əhalinin sosial müdafiəsi, sığortalanması və lazımi həyat səviyyəsi ilə təmin edilməsi siyasəti işlənib hazırlanmış və həyata keçirilmişdir. Bu siyasətin normal fəaliyyəti, daim inkişafı və təkmilləşməsi üçün lazımi şərait yaradılmışdır.

*Layiqli və təhlükəsiz yaşayış və əmək şəraitinin təminatı, vətəndaşların rifahının yüksəldilməsi*. Faktlar və statistika göstərir ki, bu istiqamətdə yenə də qanunvericilik baza təkmilləşir, əhalinin sosial təminatı istiqamətində xeyli işlər görülmüşdür. Lakin bununla yanaşı, sosial sferada onun insanların müasir tələbatlarına uyğunsuzluğunu göstərən bir sıra xüsusiyyətlər də mövcuddur (bu, ilk növbədə minimum əmək haqqı, pensiyaların, təqaüdlərin məbləği ilə yaşayış minimumu arasındakı nisbətə aiddir).

Artıq dövlət müavinət və subsidiyaların verilməsindən ünvanlı sosial yardımına keçidi fəal şəkildə həyata keçirir, orta əmək haqqının yaşayış minimumu səviyyəsinə çatdırılması üçün şərait yaradır, prioritet vəzifələr durur. Dövlət əmək haqqının, əmək bazarının və bütün sosial təminat sferasının tənzimlənməsi sahəsində balanslaşdırılmış siyasəti həyata keçirməkdədir.

*Hər bir şəxsə öz qabiliyyətlərini reallaşdırmaq, əməyinin nəticələrinə, səriştəsinə və s. uyğun olaraq maaş artımı almaq üçün imkanların yaradılması*. Dövlətimizdə hər iş maaşlar və pensiyalar artırılır, bu, həm qiymətlərin indekslənmə, həm də həyat səviyyəsinin artırılması baxımından edilir. Məcburi köçkünlərin peşə strukturu, statusu və bacarıqları şəhər mühitində istifadə edilmə imkanı baxımından bir o qədər də əlverişli deyildi. Əsasən kənd təsərrüfatında çalışan insanlar yeni peşələrə yiyələnməli, ixtisasını artırılmalı olmuşlar. Bununla belə ehtiyac hər hansı bir, hətta ən sadə fiziki və yaxud prestijli olmayan işi öhdəsinə götürməyə onlar razı olurdular. Digər tərəfdən işsizlik burada daha geniş yayılmışdır. Dövlət tərəfindən bu istiqamətdə müxtəlif tədbirlər görülürdü. Məsələn, 1996-cı ilin sentyabrından 1998-ci ilin sentyabrınadək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Avropa İttifaqının TASİS proqramı ilə birlikdə "Azərbaycan Respublikasında məşğulluq xidmətinin islahatlarının həyata keçirilməsinə və daha da inkişaf etdirilməsinə yardım" layihəsini həyata keçirmişdir. Layihənin məqsədi məşğulluq sahəsində qanunvericilik bazasının təhlili, müvafiq təkliflərin hazırlanması, məşğulluq xidmətinin inkişafına dəstək və ümumilikdə Azərbaycanda iqtisadi və sosial sahədə aparılan islahatlara dəstək olmaqdan ibarət olub [7].

1997-ci ilin yanvarından 1998-ci ilin yanvarınadək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi BMT-nin İnkişaf Proqramı və Beynəlxalq Təşkilatla birlikdə "Təhsil və özünüməşğulluğun inkişafı proqramı" layihəsini həyata keçirmişdir. Bu layihəyə uyğun olaraq Naxçıvan Muxtar Respublikası və Ağdam rayonu ərazisində də zəruri işlər görülüb. Layihənin məqsədi ehtiyacı olan əmək qabiliyyətli əhalinin yerli şərait nəzərə alınmaqla sosial müdafiə ilə təmin olunma səviyyəsini təhlil etmək olub [5].

- *Əmək və sahibkarlıq fəaliyyəti üçün motivasiyanın stimullaşdırılması, orta təbəqənin formalaşması*. Burada əsas istiqamət dövlət tərəfindən qrantların və subsidiyalar

ayrılması olmuşdur. Bundan başqa makroiqtisadiyyatın əsas sahələrinin öz aralarında uzlaşdırılması olmuşdur. O cümlədən 2002-ci ilin iyun ayından Azərbaycan Respublikası hökuməti BMTİP ilə birgə "Azərbaycan Respublikasında sosial müdafiə sisteminin inkişafı layihəsini reallaşdırmışdır. Hökumət adından bu layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilib. Layihə 2005-ci ilin dekabrında tamamlandı. Burada əsas vəzifələr məşğulluq strategiyasının hazırlanması, əlillərin reabilitasiyası üzrə respublika mərkəzləri şəbəkəsinin genişləndirilməsi və s. olmuşdur. Hal-hazırda məcburi köçkünlər sırasında da sahibkarlar, iş adamları təbəqəsi də formalaşmışdır və bu iş davam etməkdədir.

*Sosial infrastrukturun inkişafı, uşaqların və gənclərin tərbiyəsi, təhsili, mənəvi inkişafı üçün şəraitin yaradılması*. Köçkünlərin normal həyata qaytarılması həm də sosial infrastrukturunun inkişafından başlayır. Burada vacib tərəf uşaq və gənclərin təlim və tərbiyəsidir. Müasir dövrdə ailə münasibətlərinin yenidən qurulması, həyat şəraitinin yeni tələblərinə uyğunlaşdırılması tələbatı daima duyulur. Həyat öyrədir ki, bu şəraitə uyğunlaşmaq yolunun ən doğrusu – təhsildir. Böyüməkdə olan nəslin həyata hazırlaşdırmaq, onda yeni bilikləri aşılatmaq, professional bacarıqlar və qabiliyyətləri öyrətməklə dövlətin qüdrətini artırmaq, insanların maddi rifahını yüksəltmək, onların özündə şüurunu formalaşdırmaq mümkündür.

Buradan belə bir mühüm nəticəyə gəlmək olar ki, məhz gənclər hökumətin qayğı və diqqət mərkəzində olmalı, sosial siyasətdən irəli gələn xüsusi proqramlar çərçivəsində tədqiqat predmeti olmalıdır. Son zamanlar gənclərin, o cümlədən böyüməkdə olan nəslin problemləri müxtəlif beynəlxalq, həmçinin qeyri-hökumət və hökumət təşkilatlarının diqqət mərkəzindədir. Bu cür iş qeyd edilən təşkilatlar arasında koordinasiya olunur, uzlaşdırılır; vaxtaşırı olaraq kütləvi informasiya vasitələri buraya ictimaiyyətin diqqəti cəlb edir. Öz növbəsində ictimai rəy formalaşır, bu və ya digər proseslərin inkişafının proqnostik variantları meydana gəlir.

*Ailənin möhkəmləndirilməsi, onun cəmiyyətdəki rolunun artırılması*. Məlumdur ki, ailəyə aid normalar və stereotiplər ənənəvi mədəniyyət, həyat tərzi, sosial-iqtisadi və siyasi amillərlə bağlıdır. Bütövlükdə isə bunlar mentallığı, etnik eyniliyini (identikliyi) təşkil edir ki, bu da öz növbəsində sosial mühitə uyğunlaşmağa, şəxsiyyət keyfiyyətlərini formalaşdırmağa, yəni sosiallaşma prosesinin həyata keçirilməsinə köməklik edir. Ailə mədəniyyəti, ideologiyası, burada formalaşan stereotiplər bölgədən-bölgəyə fərqlənir. Təbii ki, məcburi köçkünlərin yeni şəraitdə ailə institutuna münasibət fərqli olmuşdur.

Həyat fəaliyyət sahələrinin hər birində qeyd edilən normalar və dəyərlər mövcuddur; onlar dövrdən dövrə, regiondan regiona, ailədən ailəyə fərqlidir. Məlumdur ki, ailə şəxsiyyətin sosiallaşması işində ən vacib sahələrindən biridir; buraya sosial davranış normaları, o cümlədən əxlaqi, iqtisadi, siyasi, mənəvi, nikahdanqabaq davranış normaları formalaşır və s. Müşahidələr, təhlil olunmuş faktlar göstərir ki, nikah, boşanmalar, ölüm, ömür uzunluğu, əhali artımı kimi amillər ölkənin sosial-iqtisadi və siyasi durumu ilə bağlıdır. Bunlar həyat səviyyəsini və əhalinin həyat keyfiyyətini xarakterizə edən çox vacib göstəricilərdir və cəmiyyətin siyasi durumu, o cümlədən münaqişəli vəziyyəti buraya daxildir. Köçkün ailələr bu baxımından daha ağır vəziyyətə olmuşlar. Bununla belə yeni mühitə və şəraitə uyğunlaşma prosesi davam edir. Bunu demoqrafik proseslərdə izləmək olar: ailədə uşaqların sayı azalır, boşanma halları çoxalır, ailədə eqalitar münasibətlər qurulur.

**Nəticə**

Məcburi köçkünlər yeni şəraitə adaptasiya olunarkən cəmiyyətin digər üzvləri ilə həm oxşar, həm də fərqli proseslərində iştirak edir. Ümumi qloballaşma şəraitində kapitalizmə xas olan açıq cəmiyyət tələbləri Azərbaycan əhalisinin hər bir təbəqəsinə təsir

edir. Məcburi köçkünlərin özünəməxsusluqları sosial-iqtisadi və sosial-psixoloji, mənəvi məhrumiyyətlərdən ibarətdir. Bunlar tədricən aradan çıxır, bununla belə bu böyük qrupda tərkib çox fərqli olduğu üçün sosial adaptasiya daha ləng və çətin keçir.

## ƏDƏBİYYAT


1. Hacalıyev E. Birinci vitse-prezident Mehriban Əliyevanın ilk müşavirəni məcburi köçkünlərin problemlərinə həsr etməsi böyük razılıqla qarşılandı // Azərbaycan, 2017, № 54, 11 mart, s. 1, 5.
2. Həsənov V. Sosial yardımın ünvanlılığı günümüzün tələblərindən biridir // Azərbaycanda Sosial Müdafiə, 2002, № 2, s. 9-11.
3. Əliyev M. Sosial təminat hüququnun institutu kimi sosial xidmətin anlayışı və prinsipləri // Bakı Universitetin xəbərləri. Sosial siyasi elmləri seriyası, 2006, №4, s. 5-11.
4. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 2 fevral 2021-ci il. (https://www.sosial.gov.az/post_429621)
5. Azərbaycanda qaçqınlar və məcburi köçkünlər (qadınların və uşaqların vəziyyəti). Statistik məlumat. B.: 1999, 78 s.
6. Əliyeva İ. Rəqabətli insan kapitalı və müasir innovasiyalar gələcəyin açarıdır (https://www.azerbaijan-news.az/)
7. Minimum maaş və pensiyaların nə qədər artırıla biləcəyi açıqlanıb (https://www.bbc.com/azeri/azerbaijan-58945397)
8. Yulia Qureyeva-Əliyeva və Təbib Hüseynov. "İyirmi il məcburi köçkünmü olar?" Azərbaycanda məcburi köçkünlər və yerli əhalinin ehtiyaclarının və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Brukinqs İnstitutu və London İqtisadiyyat İnstitutunun Məcburi Köçkünlük üzrə birgə Layihəsi tərəfindən nəşr edilmişdir. Bakı, dekabr, 2011-ci il (https://www.brookings.edu/wp-content/uploads/)
9. Qaçqınların Azərbaycanda inteqrasiyası siyasəti üzrə yol xəritəsinə dair tövsiyələr. Mart 2018-ci il. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz tərəfindən hazırlanıb – Avstriya Respublikası, Vyana şəhəri, Avropa İttifaqı tərəfindən maliyyələşdirilib. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz • Mart 2018-ci il (https://www.icmpd.org/file/download/48392)



***Резюме***

***Тарлан Тагиева***

***Особенности адаптации к обществу вынужденных переселенцев***

Социальная работа, как направление в сфере социальных услуг, охватывает множество научно-теоретических и прикладных исследований. Социальная структура, которая является результатом социально-политической, экономической, семейной и бытовой деятельности общества, является основой социальной работы. Речь идет о разных социальных группах. Одна из самых крупных социальных групп в нашей стране – это ВПЛ. Этой перемещенной социальной группе было трудно адаптироваться. Тяжелые жилищные условия, потеря родства, дружбы и соседства, моральные и психологические потрясения сильно усугубили этот процесс. Эти люди в разных регионах и условиях всегда находились в неравном состоянии социального развития. Конечно, все это негативно сказалось на их социализации, особенно на подрастающем поколении. Семейные отношения в семье, воспитание подрастающего поколения не всегда соответствовали заложенным изначально стандартам и нормам. Это усугубило конфликты между поколениями. Одна из вещей, которые необходимо было сделать, - это предотвратить разлучение детей со своими семьями. Затем, предоставив места для учебы, восстановив школы, обеспечив отдых, было необходимо. вернуть детей к нормальной жизни как можно скорее. Государство проводит всю необходимую работу в этом направлении. В статье рассмотрены основные приоритеты социализации по нескольким направлениям. Статистические исследования показывают, что как страна, которая долгое время находилась в состоянии войны, дети из семей ВПЛ в Азербайджане имеют ряд проблем: заболеваемость, отставание в развитии и относительно низкое качество образования. В статье анализируются меры, принимаемые

государством, показывается, что решение проблемы в первую очередь связано с решением правовых, экономических и социальных вопросов. Они также решаются каждый год. В контексте «Великого возвращения» статус ВПЛ в обществе меняется, что открывает новые пробелы в решении многих социальных вопросов.

***Ключевые слова**: Азербайджанская Республика, ВПЛ, городская среда, социально-психологическая ситуация, социальная адаптация*

**_Summary_**

**_Tarlan Tagieva_**

**_Peculiarities of Adaptation to Society of Forced Displacement_**

Social work, as a direction in the field of social services, covers a lot of scientific, theoretical and applied research. The social structure, which is the result of the socio-political, economic, family and everyday activities of society, is the basis of social work. We are talking about different social groups. One of the largest social groups in our country is IDPs. This displaced social group found it difficult to adapt. Difficult living conditions, loss of kinship, friendship and neighborhood, moral and psychological upheaval greatly aggravated this process. These people in different regions and conditions have always been in an unequal state of social development. Of course, all this negatively affected their socialization, especially on the younger generation. Family relations in the family, the upbringing of the younger generation did not always correspond to the standards and norms originally lay down. This has exacerbated generational conflicts. One of the things that needed to be done was to prevent children from being separated from their families. Then, providing places to study, rebuilding schools, providing rest was necessary, return children to normal life as soon as possible. The state is carrying out all the necessary work in this direction. The article discusses the main priorities of socialization in several areas. Statistical studies show that as a country that has been at war for a long time, children from IDP families in Azerbaijan have a number of problems: morbidity, developmental delays and a relatively low quality of education. The article analyzes the measures taken by the state, it is shown that the solution of the problem is primarily associated with the solution of legal, economic and social issues. They are also being addressed every year. In the context of the Great Return, the status of IDPs in society is changing, which opens up new gaps in addressing many social issues.

***Keywords**: Republic of Azerbaijan, IDPs, urban environment, socio-psychological situation, social adaptatio*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Məmmədov Əziz Bəşir oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

Sivilizasiya,
Bakı Avrasiya Universiteti
Cild 10 №4 2021 (49)

**UOT 316**

# DAVAMLI İNKİŞAF KONTEKSTİNDƏ GƏNCLƏR SİYASƏTİ (AVROPA TƏCRÜBƏSİ)

**Turanə ƏSƏDOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 21 oktyabr 2021; çapa qəbul edilmişdir: 19 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 21th October, 2021; accepted: 19 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:*** *Avropa İttifaqı, davamlı inkişaf, gənclik, gənclər siyasəti, gənclərin məşğulluğu*

## Giriş

Gənclər siyasəti – gənclərin inkişafını, özünütəsdiqini, cəmiyyətdə aktiv rol oynamasını, ictimai-siyasi sahədə fəallığını və s. kimi mütərəqqi addımları təşviq edən, hansısa siyasi, inzibati və ya ictimai subyektlər tərəfindən həyata keçirilən kompleks siyasətdir. Gənclər, məlum olduğu kimi, hər bir cəmiyyətin özəyini təşkil edirlər, bu səbəbdən də onlarla aparılan siyasətin düzgün qurulması və məqsədəmüvafiq olması böyük əhəmiyyət kəsb etməkdədir.

Gənclər cəmiyyətin həssas və aparıcı kəsimi hesab olunduğundan, onlarla düzgün iş aparmaq da xüsusi diqqət tələb etmiş, nəticədə, gənclər siyasətinin formalaşması və ixtisaslaşmış bir qol kimi fəaliyyətini davam etdirməsi bugünkü milli-dövlət modelinin inzibati-ictimai siyasət mexanizmi çərçivəsində mümkün olmuşdur. Sözügedən vaxta qədər gənclər siyasəti məfhumu mövcud olmamışdır, lakin bu anlayış müəyyən dərəcədə yürüdülən dövlət siyasətinin nəzdinə daxil edilmiş və gənclərlə aparılan işə xüsusi diqqət ayrılmışdır. Vahid dövlət siyasətinin seqmentləşməsi və ixtisaslaşaraq daha peşəkar hala gətirilməsi II Dünya Müharibəsindən sonra demokratik Avropa cəmiyyətlərində mümkün olmuşdur. Bu vaxta qədər isə gənclərlə iş demoqrafik, hərbi, sosial və s. səviyyələrdə aparılmış, onların dövlət və cəmiyyətin həyatında həlledici rol oynamaları və aktiv iştirakları üçün siyasi mexanizmlər mövcud olmamışdır.

Gənclər siyasəti bu gün hər bir ölkə üçün spesifik və milli siyasi strategiyanın ayrılmaz bir tərkib hissəsidir. Qloballaşma və demokratikləşmə, liberal dünyagörüşünün və bazar münasibətlərinin intensiv təsiri və delokalizasiyası sayəsində bu gün dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin spesifik gənclər siyasəti müəyyən ümumi konturlara məxsusdur və nəzəri çərçivədə olduqca bənzərlik göstərir.

Gənclər siyasətinin nəzəri əsaslarının dərk olunması üçün bu siyasətin müstəqil bir dövlət siyasi strategiyası kimi inkişaf etdirildiyi ölkələrin, yəni Qərb (xüsusilə də, Avropa) ölkələrinin təcrübələrinə müraciət etmək vacibdir. Azərbaycan da daxil olmaqla, bir çox üçüncü dünya dövlətlərinin əxz etdikləri və tətbiq etdikləri həmin siyasətin nəzəri kökləri Avropa təcrübəsinə söykənir. Bəs Avropa ölkələrində gənclər sahəsində yürüdülən siyasət necə qurulmuşdur və müsbət-mənfi cəhətləri nədən ibarətdir?

## Avropa İttifaqının gənclər siyasətinin əsasları

Avropa ölkələrinin gənclər siyasəti təcrübəsinə və hazırkı duruma müraciət etməzdən əvvəl, Avropa siyasətinin bəzi mərkəzi elementlərini vurğulamaq lazımdır, belə ki,

* dissertant, Gəncə Dövlət Universiteti
*e-mail: esedovaturane246@gmail.com; orcid.org/:0000-0001-7273-1759*

sözügedən bu elementlər modern Avropa siyasi sisteminin əsasını təşkil edir [1, s. 44-45]:

- İnstitutlaşma və inteqrasiya. II Dünya müharibəsinin ardından Avropa ölkələri arasında gedən inteqrasiya prosesləri nəticəsində Avropa Birliyi kimi fundamental və işlək bir qurum yaradılmışdır. Avropa siyasətində institutlaşma və təşkilatlanma meyilləri və səyləri nəticəsində yürüdülən siyasət daha effektiv olmuşdur. Vahid Avrozonanın yaradılması Avropanın iqtisadi, sosial və siyasi inkişafını şərtləndirmiş və Avrozonada yaşayan gəncləri də bu inteqrasiya prosesinin mərkəzinə yerləşdirmişdir.

- Demokratiya. Əsas insan hüquq və azadlıqlarının təminatı, hüquqi dövlətlərin qurulması, vətəndaş cəmiyyətlərinin inkişaf etməsi və birlik daxilində inteqrasiyası, əməkdaşlıq imkanlarının genişləndirilməsi və s. sağlam cəmiyyətin qurulmasını şərtləndirmiş, insan ləyaqətinin aliliyi və demokratik dünyagörüşünün mənimsənilməsi Avropa gənclərinin mütərəqqi inkişaf perspektivlərini müəyyənləşdirmişdir.

- Liberalizm. İqtisadi, siyasi və sosial sferalarda liberal prinsiplər üstünlük təşkil etmiş, azad bazar iqtisadiyyatı təşviq edilmiş və səmərəli əmək bazarları formalaşdırılmışdır, nəticədə gənclərin ən böyük problemlərindən biri olan məşğulluq problemində böyük irəliləyişlər əldə olunmuş, bundan əlavə, təşəbbüskar gənclərin yeni biznesləri dövlətlər səviyyəsində dəstəklənmişdir.

- İnnovativlik və kreativlik. Avropa elmi innovasiya və yeniliyə olan meyil sayəsində son yüzillərdə diqqətəlayiq bir sürətlə inkişaf etmiş, Avropa elmin və texnologiyanın mərkəzinə çevrilmiş və bu proses özlüyündə yaradıcı və həvəsli gənclərin çiyinlərində baş vermişdir. Bunun əsas səbəbi isə gənclərə yaradılan demokratik və sərbəst fəaliyyət mühiti, onların dövlət tərəfindən mütəmadi şəkildə dəstəklənməsi və s. olmuşdur.

- Davamlı inkişaf. Davamlı inkişaf Avropa Birliyinin təməl prinsiplərindən biri olmaqla, ictimai-siyasi həyatın hər bir sferasında dayanıqlı, ardıcıl və mütərəqqi, fayda verən inkişaf prosesini nəzərdə tutur. Cəmiyyətin davamlı inkişafı gənclərin də özlərini inkişaf etdirmələri və dövlətin ictimai-siyasi həyatında fəal iştirak etmələri üçün aşkar motivator rolunu oynayır.

Avropa İttifaqı əksər Avropa ölkəsini öz daxilində birləşdirən siyasi birlikdir. Onun söykəndiyi dəyərlər sistemi ilə gənclər siyasəti arasındakı bilavasitə əlaqə aşağıda qeyd olunmuşdur [3, s. 1055]:

1. İnsan ləyaqətinin aliliyi. İnsan ləyaqətinə ən ali dəyər kimi hər kəs və hər bir institut tərəfindən hörmət edilməlidir, insan ləyaqətinin tapdanması və ya insan şəxsiyyətinin alçaldılması yolverilməzdir.
2. Azadlıq. Sərbəst toplaşmaq azadlığı, söz azadlığı, vicdan azadlığı və s. kimi azadlıqlar insanın təməl azadlıqlarına daxildir və Birlik çərçivəsində bütün dövlətlərin sərhədsizlik prinsipi əsasında başqa ölkələrə sərbəst gediş-gəlişinə təminat verilir.
3. Demokratiya. Avropa Birliyi nümayəndəli (reprezentativ) demokratiya prinsiplərinə söykənən bir təşkilat olaraq öz vətəndaşlarına siyasi proseslərdə aktiv iştirak etmək hüququ verir və onları öz hüquq və azadlıqlarını qorumaq naminə, habelə, demokratik prinsipləri müdafiə etmək üçün vətəndaş cəmiyyətləri, qeyri-hökumət təşkilatları və s. qismində siyasətə qoşulmağa təşviq edir.
4. Bərabərlik. Qanun bütün vətəndaşlar üçün eyni dərəcədə alidir. Heç bir fiziki və ya hüquqi şəxs qanunlara əməl olunmasından hansısa imtiyaza görə boyun qaçıra bilməz, qanun qarşısında hamı bərabərdir və Birliyə daxil olan dövlətlərin siyasi sistemlərinin təməl daşlarından biri budur.
5. Qanunilik. Avropa Birliyi normativ hüquqi sənədlər əsasında fəaliyyət göstərir. Bütün müqavilələr demokratiklik, könüllülük prinsipləri əsasında üzv dövlətlər tərəfindən ratifikasiya olunduqdan sonra (qəbul edildikdən sonra) qəbul edilir və bütün üzvlərin maraqlarını ifadə edir. Mübahisəli məsələlərdə son qərar vermək hüququ bütün üzvlərin

də razılığı ilə Avropa Məhkəməsinə məxsusdur.

6. İnsan hüquq və azadlıqlarının təminatı. Avropa Birliyinin Fundamental Hüquqlar haqqında Xartiyası bütün üzv dövlətlərdə hüquq və azadlıqların təminatında istinad edilən başlıca normativ hüquqi aktdır. Etnik, cinsi, dini və s. diskriminasiya yolverilməzdir, hər kəs özü haqqında informasiyanın məxfiliyini təmin etmək və əlçatan məhkəmə müdafiəsi hüququna malikdir.

Göründüyü kimi, bütün bu fundamental və mütərəqqi dəyərlər Avropa cəmiyyətlərinin inkişafını şərtləndirir və həmçinin, sözügedən cəmiyyətlərdəki gənclərin və yetişməkdə olan nəslin bərabər imkanlara malik olmasına, özünütəsdiqinə və dövlət tərəfindən hüquqlarının müdafiəsinə imkan verir.

**Avropa İttifaqının gənclər siyasətinin praktik istiqamətləri**

Avropada gənclər siyasəti son yüzildə gənclərin demoqrafik tərkibdəki azalan yerlərinin ifadə olunması ilə daha ciddi məcraya keçmişdir. Bu vaxta qədər gənclər siyasəti inzibati idarəetmə siyasətinin qollarından birini təşkil edirdisə, artıq demoqrafik problemlərin baş qaldırması və populyar ədəbiyyatlarda tez-tez "Avropanın qocalması" barədə fikirlərin səsləndirilməsi, həmçinin, bu arzuolunmaz mənzərənin bir çox tədqiqatçılar tərəfindən də əsaslandırılması ilə gənclər siyasəti müstəsna önəm daşımağa başladı. İlk növbədə bu, sosial siyasətin tərkib hissəsi kimi, gənclər arasında ailə qurmağa təşviq və nəsilartırma potensialından istifadə kimi istiqamətlərdə özünü göstərirdi. Avropanın inkişaf etmiş dövlətləri mütəmadi şəkildə sosial proqramlar qəbul edərək demoqrafik artımı təşviq edir, mövcud gəncləri isə cəlbedici imkanlarla qitənin gələcək sosial-siyasi həyatında fəal rol oynamağa sövq edir [8]. Bütün bunlardan da aşkar olduğu kimi, gənclər Avropa cəmiyyətinin daim həssas qruplarından biri kimi qəbul edilmişlər. "Sosial vətəndaşlıq" prinsipi müharibə sonrası Avropasında rifah cəmiyyətlərinin qurulmasında açar rol oynamışdır. Marşalın fikrinə görə, "sosial vətəndaşlıq" prinsipi rifah cəmiyyətlərinin qurulmasına dair siyasəti tətikləyir və cəmiyyətin bütün üzvləri üçün bərabər imkanların yaradılması üçün dövlətin səfərbər olmasını şərtləndirir [5, s. 28-29]. Bununla birlikdə, sonrakı illərdə sözügedən siyasətdə müəyyən büdrəmələr müşahidə olunur. Atkinsonun da qeyd etdiyi kimi, 1980-ci illərdən başlayaraq, Avropa Birliyinin yoxsulluq həddində yaşayan insanların sayının minimuma endirilməsi sahəsində yürütdüyü siyasətdə ləngimələr baş verirdi [2, s. 4]. 2000-ci illərdə sosial siyasət və onun tərkibində gənclər siyasəti müəyyən anlamda inkişafına davam etsə də, 2008-ci ilin iqtisadi böhranı Avropa Birliyi üçün arzuolunmaz nəticələrə gətirib çıxardı. OECD-in rəsmi statistik məlumatları göstərdi ki, 2007-2011-ci illər ərzində Avropa əhalisinin ən yoxsul əhalisinin (10%) güzəranı sözügedən böhrandan sonra daha da pisləşmişdir [12]. Nəticə olaraq, Avropa cəmiyyətlərində 1980-ci illər və 2008-ci il böhranından sonra qeyri-bərabərliyin artması müşahidə edilməkdədir [2, s. 6]. Avropa cəmiyyətlərində 2013-2014-cü illərdə sosial vəziyyət nisbətən mənfiləşməyə doğru getməyə davam etmiş və bu arzuolunmaz tendensiya xüsusilə gənc populyasiyanın yoxsulluq həddinə enməsi riskini doğurmuşdur. Nikaha marağın azalması və Qərb ənənələrinin diktə etdiyi individual həyat tərzinin populyarlaşması nəticəsində cəmiyyətin reproduktiv sağlamlığı və davamlılığında büdrəmələr müşahidə edilməyə başlanmışdır. Bunlar daha çox yeni sosial risklər doğuran Avropa cəmiyyətinin modern problemləri kimi xarakterizə olunur [6, s. 159].

**Qrafik 1.1.** *Dövlətin inzibati-idarəetmə sistemində seqmentləşən siyasət iyerarxiyasında gənclər siyasətinin yeri*




Avropa Birliyinin gənclər siyasətinə dair ilk spesifik sənədi ("Ağ sənəd") Avropa Komissiyası tərəfindən birillik müzakirələrdən sonra 2001-ci ildə qəbul edilmişdir. Sözügedən sənəd iki əsas komponentə əsaslanaraq Avropa ölkələrinə aşağıdakı istiqamətlərdə təklifləri ehtiva etmişdir: Birlik ölkələri arasında əməkdaşlığın dərinləşdirilməsi və seqmentləşdirilmiş siyasətdə gənclər siyasətinə daha çox önəm verilməsi. Sənəddə dörd əsas prioritet istiqamət göstərilir: ictimai həyatda gənclərin fəal iştirakı, Avropa dəyərləri barədə məlumatlanma, könüllülük hərəkatının təşviqi və gəncliyin problemlərinin daha dərindən araşdırılması (məşğulluq, təhsil, irqçilik, səhiyyə və s.). Sözügedən sənəd Avropa İttifaqı səviyyəsində gənclər siyasətinə dair qəbul edilmiş ən mühüm akt hesab olunur [4, s. 77]. Bu sənədin qəbul olunması nəticəsində gənclər siyasəti Avropanın əsas gündəliyinə daxil edilmiş və "Gənclik 2000-2006-cı illərdə", "Fəal gənclər 2007-2013-cü illərdə" kimi Avropa İttifaqı proqramlarının qəbul olunmasını da təşviq etmişdir. Avropa İttifaqı Lissabon Strategiyasının implementasiyası prosesində gənclər siyasətinə daha çox ağırlıq vermiş, sözügedən strategiyanın təsirilə, Avropa Şurası "Gənclərə dair Avropa Paktı"nı (2005) qəbul etmiş, bu isə öz növbəsində ictimai inkişafa töhfə vermişdir [7, s. 28].

2009-cu ildə Avropa Parlamentində 2001-2009-cu illəri əhatə edən Birliyin gənclik hərəkatına dair dinləmələr keçirilmiş və sözügedən siyasətin "o qədər də qaneedici" olmadığı qənaətinə gəlinmişdir. Nəticədə, bu məsələnin həll edilməsi üçün Avropa İcmalarının Şurası eyni ildə Avropada gənclər siyasətinin gələcək inkişafının normativ-hüquqi bazasını müəyyənləşdirən "Avropa Birliyinin Gənclik Strategiyası"nı (2010-2018) qəbul etmişdir [9]. Bu sənəd səkkiz fəaliyyət sahəsində islahatların aparılmasını təklif etmişdir:

- Təhsilin təşviqi və mütəmadi təlimlər aparılması;
- Məşğulluq və özünüməşğulluğun (fərdi biznesin) təşviqi;
- Səhiyyə problemləri və sağlam həyat tərzinin təşviqi;
- Cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakçılığın təmin edilməsi;
- Könüllülük fəaliyyətinin təşviqi;
- Sosial inteqrasiyanın təşviqi;
- Gənclərin dünyadakı mövcud problemlər haqqında maarifləndirilməsi;
- Mədəni həyatın inkişafı və yaradıcılığın təşviqi.

İlkin qiymətləndirmə sənədində aşağıdakı şüar əsas prioritet olaraq müəyyənləşdirilmişdir: "yenilənmiş islahat bazası və "Avropa 2020" arasında əlaqənin möhkəmləndirilməsi" [13]. Burada qeyd etmək lazımdır ki, "Avropa 2020" – Avropa Birliyinin cari onillik üçün dayanıqlı və inklüziv inkişaf istiqamətlərinin müəyyən edildiyi strateji sənəddir. Sözügedən strategiya gənclər arasında işsizliyin azaldılması, sosial müdafiənin gücləndirilməsi və onların özünüinkişaf təlimlərində iştiraka və təhsil almağa təşviq edilməsi kimi fundamentlərə söykənir. Üzv dövlətlərin öz əhalilərinin gənc qrupları arasında xüsusilə təhsil, təlim və məşğulluq sahəsində iş aparmaları tövsiyə olunur. Belə ki, gənclərin iş imkanların yüksəldilməsi və iş yerlərinin daha əlçatan olması, peşəkarlıqlarının artırılması üçün müntəzəm təlimlərə cəlb olunmaları və əmək bazarı üçün cəlbedici olmaları üçün hökumətlərə ciddi səylər göstərilməsi tapşırılır. Avropa Birliyinin Gənclik Strategiyası üçün hər hansı məxsusi istiqamət rəsmi şəkildə prioritet elan olunmasa da, qeyri-rəsmi olaraq bu siyasətin əsas ağırlıq nöqtəsi məşğulluq probleminin üzərinə düşür.

2012-ci ildə aparılan islahatların effektivliyini yoxlamaq üçün İllik Artım Sorğusu keçirilmiş və sorğu nəticəsində məlum olmuşdur ki, böhranın başlıca nəticələri – işsizlik və sosial narazılıq əsasən gənclər arasında geniş yayılmış, sözügedən mənfi proses ən çox gənc kəsimə təsir etmişdir [11]. Bu zaman üç təcili və ya təxirəsalınmaz addımın atılması nəzərdə tutulmuşdur:

- işsizliyə qarşı mübarizə;
- müvəqqəti iş yerlərinin yaradılması;
- təhsildən yayınma meyillərinin qarşısının alınması.

Bu zaman Avropa Birliyi nəzdində xüsusi "Gənclər üçün yeni imkanlar təşəbbüsü" (Youth Opportunities Initiative) irəli sürülmüş, sözügedən təşəbbüslə gənclər üçün iş yerlərinin əlçatanlığı, ilk iş yerinin uğurlu seçimi, təcrübə proqramlarına cəlbolunma və s. məsələlər ön plana çıxarılmışdır [13]. Təşəbbüsün qəbul olunması prosesində Avropa Şurası üzv dövlətlərə "Gəncliyin müdafiəsi" adlı xüsusi proqramın tətbiqini tövsiyə etmişdir. Bu proqram problemə yeni bir yanaşma idi və gənclərin (əsasən, 25 yaşadək olan gənclərin) məşğulluq orqanlarında qeydiyyatdan keçib-keçməmələrindən asılı olmayaraq təhsillərini başa vurandan və ya işsiz qalandan sonrakı növbəti dörd ay ərzində dərhal konkret iş təklifləri ilə təmin olunmalarını hədəfləmişdir. Bu zaman "keyfiyyətli təklif" anlayışı irəli sürülmüşdür ki, bu da, əsasən, tamştatlı iş, təlimə cəlbolunma, təhsilin davam etdirilməsi və s. kimi situasiyaları nəzərdə tutur.

Avropa Birliyi siyasi və sosial institutlar səviyyəsində gənclər siyasətini dəstəkləməyə 2013-cü ildə daha intensiv surətdə davam etmişdir. 2013-cü ilin fevralında Avropa Şurası ümumi büdcəsi 6 milyard avro olan və yeddi ili əhatələyən (2014-2020) "Gənclərin məşğulluğu təşəbbüsü"nü ("Youth Employment Inititative") irəli sürmüşdür. Sözügedən təşəbbüs gənclərin məşğulluq problemi üzərində fokuslanmaqla işsizlik həddi 25%-in üzərində olan üzv ölkələrdə xüsusi proqram və islahatlar vasitəsilə tam məşğulluğun təmin edilməsinə yönəlmişdir [9]. 2013-cü ilin aprelində Şura sözügedən siyasətin milli dövlətlər səviyyəsində uğurlu implementasiyası yönündə xüsusi izahedici qaydalar hazırlamışdır. İlkin olaraq, Məşğulluq təşəbbüsünün daha yaxşı nəticələr verməsi üçün iqtisadiyyatın fərqli kəsimlərindən olan sahibkarların birgə işinin və əməkdaşlığının önəmi vurğulanmışdır. İkincisi, təşəbbüs həyata keçirilməzdən əvvəl sondakı nəticələrin düzgün qiymətləndirilməsi üçün ön müşahidə və statistikanın aparılması tövsiyə edilmişdir. Üçüncüsü, Şura əmək bazarında, habelə, işsiz və passiv gənc əhali arasında məşğulluq sahəsində əsas problemlərdən biri kimi ortaya çıxan ixtisaslaşma və səriştə uyğunsuzluğunu aradan qaldırmağın önəmini qeyd etmişdir. Nəhayət, dördüncüsü, üzv dövlətlərin milli hökumətləri tərəfindən gənclər siyasətinin uğurlu şəkildə və dayanıqlı inkişaf etdirilməsi üçün lazımi büdcənin ayrılması, mütəmadi monitorinqlərin keçirilməsi və s. vacib hesab olunmuşdur.

Avropa Şurasının prezidenti və Avropa Birliyinin məşğulluq, sosial məsələlər və inteqrasiya üzrə müvəkkili sözügedən təşəbbüsü "üzv ölkələrdəki gənclərin işlə təmin olunması və gənclər arasında məşğulluğun arzuolunmaz səviyyələrinin aradan qaldırılması üçün ən yaxşı üsul" adlandırmış, təşəbbüsün reallığa çevrilməsi üçün bütün üzv dövlətlərin əllərindən gələn maksimum səyləri etmələrinin vacibliyini vurğulamış və bunun üçün ilk növbədə struktur islahatlarının önəmini qeyd etmişlər [12]. Təşəbbüs 2014-cü ildən aktiv surətdə tətbiq fazasına başlamış və uğurlar əldə etmişdir.

**Nəticə**

Avropa İttifaqı gənclər siyasəti, ittifaqa daxil olan ölkələrdə yaşayan gənclərin problemlərinin həlli üçün praktik nəticələr verən proqram və layihələrə əsaslanmışdır. Gənclərin cəmiyyətin istər bu günü, istərsə də gələcək inkişafında aparıcı qüvvə olduğunun qəbul edilməsi, onların bu potensialından istifadə edilməsi, həmçinin inkişaf etdirilməsini tələb edir. Məhz bu reallıq Avropanın gənclər siyasətini gənclərin hərtərəfli inkişafının müntəzəm olaraq həyata keçirilməsində ölçülə bilən nəticələr verməsini tələb edir.

**ƏDƏBİYYAT**


1. Akman E., Argun Ç., Akçay E.Y. Avrupa Birliği'nin değişen nüfus yapısında gençler ve AB'nin gençlik politikaları. Selçuk Universiteti, Sosial ve Ekonomik Araştırmalar Jurnalı, 2011, № 15/21, s. 41-71.
2. Atkinson A.B. Reducing income inequality in Europe, IZA Journal of European Labor Studies, 2013, № 2/12, pp. 1-14.
3. Ceylan H. European youth policies and volunteering. The Journal of International Social Research, 2016, № 9/42, pp. 1049-1061.
4. Cicchelli V. La Connaissance des Jeunes Comme Support aux Politiques de la Jeunesse: Quinze ans D`initiatives Europeennes, Informations Sociales, 2011, № 3, pp.72-79.
5. Marshall T.H. Citizenship and Social Class. 1987, Pluto Press, 181 p.
6. Taylor-Gooby P. New risks, new welfare. The transformation of the European Welfare State, 2004, Oxford: Oxford University Press, 264 p.
7. Williamson. H. Existe-t-il une politique européenne de la jeunesse? Informations sociales. 2011, № 3-4, pp. 25-34.
8. Verschelden G., Cousee F., De Walle T. and Williamson H. The history of Youth Work in Europe and its relevance for today`s youth work policy. 2010, https://www.researchgate.net/publication/265678272
9. Communication from the Commission to the Council, the European Parliament, the European Economic and Social Committee and the Committee of the Regions "A Clean Air Programme for Europe" (COM (2013) 918 final), EC 2013, https://www.eea.europa.eu/data-and-maps/indicators/main-anthropogenic-air-pollutant-emissions/ec-2013
10. Dynamics of standard rates of personal income tax (EC 2013b), https://www.researchgate.net/figure/Dynamics-of-standard-rates-of-personal-income-tax-EC-2013b_fig1_273851397
11. European Commission. Annual Growth Survey 2012, COM (2011) 815, ec.europa.eu/europe2020/pdf/ags2012_en.pdf
12. OECD, Income Inequality Update, June 2014, www.oecd.org/els/soc/OECD2014-Income-Inequality-Update.pdf
13. The European Council in 2012, Luxembourg: Publications Office of the European Union, 2013. https://www.consilium.europa.eu/media/21325/euco-annualreport-updated-2012-en.pdf

***Summary***

***Turana Asadova***

***Youth Policy in the Context of Sustainable Development (European Experience)***

The aim of this study is to study the youth policy of the European Union. For this, an analysis of the documents on which the European youth policy is based, methods of researching socio-economic programs and scientific works were used and as well as access to the electronic portals of the respective agencies.

Since young people are a sensitive and leading segment of society, it is important to work with them correctly. The correct organization of work with youth and the purposeful implementation of this activity should be regular. The implementation of this work is possible within the framework of the administrative-public policy mechanism of the nation-state model.

The article analyzes the youth policy of the European Union in the context of sustainable development, its scientific and theoretical foundations, mechanisms for implementing this policy, as well as government documents and programs adopted in the field of youth work.

European youth policy, youth development, self-confidence, active role in society this is a complex policy that combines the joint cooperation of political, administrative and state actors in the implementation of this policy, which reflects the promotion of activity in the socio-political sphere.

The “White document”, the first concrete document of the European Union on youth policy, was participating countries on youth policy: expanding cooperation in this area and paying more attention to youth policy within the framework of segmented policies. In the following years, the European Union adopted a number of documents in the field of youth work. Most of these documents touch upon such issues as self-realization of youth, employment of youth, solution of housing and housing problems, protection of their rightsadopted by the European Commission in 2001. The document contains two main proposals for the.


***Keywords:*** *European Union, sustainable development, youth, youth policy, youth employment*


***Резюме***

***Турана Асадова***

***Молодежная политика в контексте устойчивого развития (Европейский опыт)***

Целью данного исследования является изучение молодежной политики Европейского Союза. Для этого использовались анализ документов, на которых основана европейская молодежная политика, методы исследования социально- экономических программ и научных работ, а также доступ к электронным порталам соответствующих агентств.

Поскольку молодежь - чувствительный и ведущий сегмент общества, важно правильно с ними работать. Правильная организация работы с молодежью и целенаправленное выполнение этой деятельности должны быть регулярными.

Реализация данной работы возможна в рамках механизма административно-публичной политики модели национального государства.

Европейская молодежная политика, развитие молодежи, уверенность в себе, активная роль в обществе это комплексная политика, сочетающая в себе совместное сотрудничество политических, административных и государственных субъектов в реализации этой политики, что отражает продвижение активности в социально-политической сфере.

“Белый документ”, первый конкретный документ Европейского союза по молодежной политике, был принят Европейской комиссией в 2001 году. Документ содержит два основных предложения для стран-участниц по молодежной политике: расширение сотрудничества в этой области и уделение большего внимания молодежной политике в рамках сегментированной политики.

В последующие годы Европейский Союз принял ряд документов в области молодежной работы.

Большинство этих документов затрагивают такие вопросы, как самореализация молодежи, трудоустройство молодежи, решение жилищных и жилищных проблем, защита их прав.


***Ключевые слова:*** Европейский Союз, устойчивое развитие, молодежь, молодежная политика, занятость молодежи

Redaksiya heyətinin üzvü f.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlunun rəyi əsasnda çapa məsləhət görülmüşdür.

**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 930.1**

# QARABAĞDA EKOLOJİ FƏLAKƏT DÜNYA İNFORMASİYA MƏKANINDA

**Şəfəq ƏHMƏDOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 6 oktyabr 2021; çapa qəbul edilmişdir: 2 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 6 th October, 2021; accepted: 2 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər**: Qarabağ iqtisadi rayonu, Dağlıq Qarabağ münaqişəsi, ekoloji problemlərin həlli, informasiya, statistika, ictimai rəy*

## Giriş

İnsan biososial varlıqdır və insan cəmiyyəti açıq dinamik sistem kimi bütövlükdə bütün biosistemin tərkib hissəsidir. Buna görə də biz xarici mühitin təsirinə məruz qalaraq, ondan mümkün qədər qorunmağa çalışırıq. Yer kürəsi bizim evimizdir, eyni zamanda, müxtəlif təbii və sosial, o cümlədən ümumdünya miqyaslı fəlakətlərə məruz qalmayacağımıza zəmanət verilmir. İnsanlar çoxdandır ki havanı, landşaftın vəziyyətini, relyefi, heyvanların davranışını, bitkilərin inkişafını, su sakinlərini izləməyə və öyrənməyə başlamışlar. Bütün bunlar özünü mümkün arzuolunmaz və bəlkə də ölümcül nəticələrdən qorumaq üçün edilirdi. Özümüzün təbiətlə əlaqəsinin dərk edilməsi insan təfəkkürünün ən mühüm komponentlərindən biridir.

Bu baxımdan uzun müddət davam etmiş Dağlıq Qarabağ, Azərbaycan-Ermənistan münaqişəsinin ekoloji nəticələri bütün dünya ictimaiyyətini narahat edir. Uzun illər ərzində işğal olunmuş ərazilərdə talançılıq siyasəti hökm sürürdü. Hətta işğaldan azad edilmiş əraziləri tərk edən ermənilər özü ilə ən sağlam ağacları kəsib aparırdılar, tikdikləri evləri sökürdülər ki, ərazidə yalnız dağıntılar, viran edilmiş torpaq qalsın.

Vəziyyətlə bağlı Azərbaycan dəfələrlə Avropa Şurasının müvafiq komitələrinə müraciət etmişdi. Məsələn, 2001-ci ilin müraciətindən sonra AŞ Parlament Assambleyası bildirdi ki, Azərbaycan Respublikasının ərazisində (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Arazətrafı, Cəbrayıl) var. Nadir təbii relyefi, zəngin fauna və florası ilə tanınan həmin milli qoruqlar nəzarətdən kənarda qaldığına görə aramsız olaraq ermənilər tərəfindən qarət edilir.

Məsələn, adı çəkilən ərazilərdə meşələrin ümumi sahəsi 264.000 hektardır. Nadir ağac və heyvan növləri hər gün məhv edilir. Nəticədə təbii növlər arasında bioloji əlaqələr pozulur, bu isə ekoloji böhrana səbəb olur [5].

İnsanın özünü dərkin mühüm elementi Yer üzündəki biogeosenoz prosesinin tarazlığının qorunmasının vacibliyini dərk edilməsidir. Buna ekoloji şüur deyilir. Ekoloji şüur sürü həyat tərzindən ictimai həyat tərzinə keçən insanın düşünmək qabiliyyəti formalaşdıqca əmələ gəlməyə başlamışdır. İnsan bu zaman təbiətdən öz üstünlüyünü düşünürdü. Bütün qalan hallarda insan təbiətdən asılı olaraq qalıb və qalır. İnsan ətrafdakı

* siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə İnstitutu
*e-mail: shafag.ahmadova@gmail.com ORCİD: 0000-0002-8671-5757*

canlı və cansız dünyanı ekoloji cəhətdən qavrayır, yaranmış ağır vəziyyəti dərk edir, lakin son əsrlər və hətta onilliklər ərzində insan-təbiət münasibətləri özünün ən faciəvi həddinə çatmışdır.

Bu məqalədə Qarabağ ərazisində uzun illər ərzində yaranmış ekoloji vəziyyətlə bağlı informasiyanın siyasi müstəvidə istifadə edilmə xüsusiyyətləri nəzərdən keçiriləcək, informasiya təhlükəsizliyinin təmin olunması yolları təyin ediləcək.

Problemin işlənmə dərəcəsi ilə bağlı qeyd olunmalıdır ki, Qarabağ ərazisinin ekoloji vəziyyəti barədə kifayət qədər məqalələr nəşr olunur [12; 2; 4 və s.], İnternetin bir çox saytlarında məlumat verilir və problemə münasibət bildirilir. Bununla yanaşı ekoloji təhlükəsizlik məsələsi siyasi təhlükəsizliyin tərkib hissəsi olduğu üçün bu sahədə daha ciddi addımlar atılmalı, müntəzəm, ardıcıl olaraq beynəlxalq qurumlarla təmas yaradılmalı, dövlət siyasətinin mühüm hissəsi kimi inkişaf etdirilməlidir.

**Qarabağ ərazisində ekoloji fəlakətin sosial-siyasi tərəfi**

Sosial münasibətlərin formalaşması və inkişafı iki əsas şərtlə – əhali və təbii mühitlə təyin olunur. Məhz bu iki amil sayəsində insan cəmiyyəti mövcud ola bilir. Cəmiyyətdə insanların qarşılıqlı münasibətləri qanun və əxlaqın tələb etdiyi qaydalara əsaslanır. Hal-hazırda təbiətə simasız bir mühit kimi baxmaq, yalnız istifadə etmək, dəyişdirmək və insan maraqlarına tabe etdirmək kimi prinsip formalaşmışdır. Bu prinsip beynəlxalq münaqişələrin ərazilərində əmələ gələn ekoloji böhrana da aiddir. Münaqişə tərəfləri ilk növbədə öz mövqelərini möhkəmləndirmək barədə düşünürlər. Bununla belə işğalçı tərəf öz dağıdıcı addımlarında heç nə ilə hesablaşmır, təbii ehtiyatları qənimət kimi istifadə etməyə çalışır.

Burada tamamilə ümumbəşəri maraqlar unudulur, dünyanın vahid təbii və tarazlaşdırılmış, açıq və dinamik sistem olduğu unudulur. Unudulur ki, həmin zərbə mütləq qayıdıb onların özünə bir vaxt istiqamətləndiriləcəkdir. İqtisadi-siyasi səmərə ön plana çəkilir. Hesab edilir ki, səmərə və varlanmaq yaşamağın ən vacib meyarlarıdır. Ümumiyyətlə, insanın təbii mühitə təsiri elədir ki, təbii mühitin deqradasiyası son nəticədə ekoloji fəlakətlərin sayının artmasına gətirib çıxarır. Buna doğru aparan proseslərdən biri də sosial hərbi münaqişələr olmuşdur. Demək olar ki, yaranan faciəvi vəziyyətlərə gətirib çıxaran ən ciddi amil məhz müharibə və ona gətirib çıxaran hərbi münaqişədir.

Bu zaman işğalçı tərəfin ekoloji şüuru məhz hakim qüvvələrin yanaşmaları əsasında formalaşır. Yəni ekoloji şüurun formalaşmasına təsir yolu hakim elitanın ideologiyasıdır. Burada ictimai quruluşun ictimai-siyasi ideyaları, hakimiyyət nümayəndələrinin maraq və münasibətləri, ictimai həyatın təşkilinin siyasi-hüquqi normaları, iqtisadiyyatda və təhsildə aparılan islahatlar, əhalinin sosial təbəqələşməsi təşkil edir. Ermənistanda münaqişə zamanı sosial-siyasi və iqtisadi durumu belə idi ki, yalnız hazır ələ keçirilmiş təbii sərvətləri talan etməklə vəziyyətdən müəyyən dərəcədə çıxmaq mümkün olurdu.

Ermənilər işğal etdikləri torpaqlarda müvəqqəti mövqe tutduqlarını başa düşərək burada yerləşən faydalı qazıntı yataqlarını, təbii sərvətləri talan edirdilər. İşğal altında olan ərazilər yeraltı və yerüstü təbii sərvətlərlə zəngindir. İşğal altında olan ərazidə nadir və qiymətli faydalı qazıntılar geniş yayılmışdır. Ən çox yayılmış minerallar əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və s.-dir Ərazi həm də geniş kurort və rekreasiya potensialına malikdir. İşğal olunmuş ərazilərdə böyük müalicəvi əhəmiyyətə malik müxtəlif tərkibli mineral suların 120-yə qədər yatağı var. Elə nadir metal və maddələr mədənləri olub ki, Ermənistanın da iştirak etdiyi şirkətlərin talançılıq nəticəsində tam olaraq tükənmişdir.

İlk növbədə sosial ekologiya baxımından bu ərazi ilə bağlı baş verən itkilərə nəzər yetirək. Məlumdur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi

əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub.

Qarabağda erməni işğalı zamanı (1992-2020) 260 min hektar meşə sahəsindən 54000 hektar sahə məhv edilmişdir, elə olub ki, bu rəqəm Ermənistanın özündə qırılan meşə sahələdindən 2-3 dəfə çox olmuşdur. Qəsdən törədilən yanğınlar nəticəsində 10 min hektardan çox ərazi yarasız vəziyyətə düşmüş, bununla da ekoloji tarazlıq pozulmuşdur.

Bununla bağlı bölgəyə beynəlxalq təşkilatlar da baş çəkdilər. Gəldiyi qənaət belə olmuşdur: BMT-nin Baş Assambleyasının 7 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyəti" adlı qətnaməsi qəbul olunmuşdur [12].

**Ekosid barədə informasiya blokadasının aradan qaldırılması prosesi**

Ekoloji şüurda böhranın (aşağı istehsal mədəniyyəti, geridə qalmış texnologiyalar, iri yaşayış məntəqələrində və onun ətrafında ətraf mühitin çirklənməsi) iqtisadi əsası var ki, buna biz məhsuldar qüvvələrin səmərəsiz istifadəsi ilə bağlı sosial-siyasi amilləri də əlavə etməliyik. Nəticədə insanların şüurunda insanların ətraf mühitə qoruyucu münasibət hissi birdəfəlik məhv edilir.

Ekoloji vəziyyətin ağır olması barədə hökumətimiz ən yüksək tribunalardan bəyan etməsinə baxmayaraq, dünya ictimaiyyəti susmağa üstünlük verirdi. Bununla belə, Azərbaycan siyasi rəhbərliyi, mediası, sadə insanlar burada baş verən hadisələr barədə məlumatı bütün kanallarla yaymağa çalışırdı. Münaqişənin əvvəlki illərlə müqayisədə son zaman bu istiqamətdə işlər daha fəal həyata keçirilir. məsələn, son bir ildə regionda fəaliyyət göstərən dünya KİV-lərinin çoxsaylı reportajları buna sübut ola bilər. Onların arasında Reuters, BBC, StraitTimes, Euronews, France24, РБК və bir çox digər KİV var. Məlum olmuşdur ki, Kəlbəcərdə hətta elektrik stansiyası da yandırılmışdı. Bəzi reportajlarda özləri ilə apara bilmədikləri ev heyvanlarının kəsildiyi və güllələnərək öldürüldüyü faktları da qeydə alınmışdı. Kəlbəcərdən yüzlərlə arı pətəyinin yandığını əks etdirən kadrlar da var [8].

Məlum olduğu kimi, dövlətin həyata keçirdiyi sosial siyasət bir sıra ilkin şərtlərə əsaslanaraq ekoloji şüura təsir edir: 1) planetdə qlobal dəyişikliklər; 2) yerli coğrafi şərait, habelə regional biotanın xüsusiyyətləri; 3) tarixən formalaşmış sosial-iqtisadi və siyasi strukturlar; 4) ekologiya haqqında elmi, bədii və ekzistensial səviyyədə tarixən formalaşmış təsəvvürlər; 5) hakim elitanın maraq və münasibətləri, onların kütlənin maraq və münasibətləri ilə üst-üstə düşməsi dərəcəsi. Ermənistanın siyasəti, xarici siyasi və iqtisadi qüvvələrə arxalanaraq bölgədə dağıdıcı qüvvə rolunu oynamaqdan ibarətdir. Işğal edilmiş torpaqların talan edilməsi ilə yanaşı həm də öz ərazisində Metsamor atom elektrik stansiyasının indiyə qədər fəaliyyət göstərməsini (beynəlxalq qurumların xəbərdarlıqlarına baxmayaraq) qeyd etmək olar [9].

İnsanın canlı təbiətə (özü də daxil olmaqla) münasibəti ilə bağlı sosial ideyalarda aşağıdakı tendensiya müşahidə olunur: insanın özü və başqa insanlarla daxili harmoniyasına ehtiyac olduğuna dərin inam mütləq şəkildə onunla ətrafındakı təbii dünya arasında harmoniyanın zəruriliyi haqqında nəticə ilə başa çatır. Lakin dünyada ehtiyatlar uğrunda gedən açıq və gizli müharibədə bu harmoniya tez-tez pozulur. Aparılan müharibələr bunu sübut edir. Regional və beynəlxalq xarakterli toqquşmalar ilk növbədə təbiətə, insanlara (insan da canlı təbiətin bir hissəsidir) zərər vurur.

Azərbaycan təbii fəlakətlərin aradan qaldırılması və qarşısının alınması, həmçinin beynəlxalq strukturlarla əməkdaşlıq istiqamətində böyük təcrübə toplayıb. Lakin regional əməkdaşlıq səviyyəsinə Ermənistanla müharibə vəziyyəti, təcavüzkarın vaxtilə işğal etmiş torpaqlarda apardığı dağıdıcı işlər mənfi təsir göstərir və bunun nəticələrinin uzun illər aradan qaldırılması mümkün olmayacaqdır. Bundan əlavə, bölgənin iqtisadi və sosial inkişafının ümumi səviyyəsi ekoloji böhranların tezliyinə və xarakterinə mənfi təsir

göstərir - əkinçilik mədəniyyətinin aşağı səviyyəsi, təbii sərvətlərə talançı münasibət və s.

Avropada ekologiya məsələsinə çox ciddi yanaşılır. Təbiətə vurulan ziyan nəinki alqışlanmır, kəskin tənqid olunur. Özü də təkcə Avropanın təbiətinə yox, dünyanın istənilən regionunun, həmçinin də Qafqazın təbiətinə dəyən zərərdən söhbət gedir. Bu cür qeyri-bəşəri davranışların qarşısını almaq, zərərini yox etmək üçün hər il dövlət büdcələrindən, beynəlxalq təşkilatların maliyyə resurslarından külli miqdarda vəsait ayrılır [10].

Ermənistanın həyata keçirdiyi ekoloji cinayətləri "Azercosmos"un peyk şəkilləri də sübut edir. Şəkillərdən görünür ki, işğal altındakı ərazilərin flora və faunası məhv edilib. Ekspertlərin ilkin hesablarına əsasən, Ermənistanın ətraf mühitə və təbii resurslara vurduğu zərər 265,3 milyard dollar dəyərindədir [11].

Bütün bu illər ərzində faktları və hadisələri dünya ictimaiyyətinə çatdırmaq istiqamətində müəyyən işlər aparılmışdır. Bunun üçün həm ölkədə, həm xaricdə fəaliyyət göstərən medianın imkanlarından geniş istifadə olunurdu. Hadisələrin baş verdiyi ərazilərə müxbirlərin, diplomatik korpus nümayəndələrinin aparılması, onlar üçün xüsusi brifinqlərin keçirilməsi artıq adi bir hal alıb. Üstəlik xaricdə yaşayan diaspora imkanlarından, müxtəlif ölkələrdə akkreditasiya olunan diplomatik korpusların da imkanlarından mümkün qədər geniş istifadə olunur. Bu işlər indi də davam etdirilir.

Ikinci Qarabağ müharibəsinin ilk günlərindən etibarən Ekologiya və təbii Sərvətlər Nazirliyi tərəfindən Qarabağ ərazisində ekoloji vəziyyət barədə mütəmadi olaraq məlumat müvafiq təşkilatların nəzərinə çatdırılmışdır. O cümlədən “BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisi, BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycan üzrə ölkə nümayəndəsi ofisi və BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə Regional Nümayəndəliyinin ofisi ilə ayrı-ayrılıqda keçirilən onlayn görüşlərdə Qarabağ bölgəsinin təbii sərvətlərinə, ətraf mühitinə, biomüxtəlifliyinə zərər dəyməsi, qiymətli ağac və kol növləri ilə zəngin meşələrimizin məqsədli şəkildə məhv edilməsi barədə bir daha xarici təmsilçilər məlumatlandırılmışdır” [2].

Artıq aydın olmuşdur ki, qlobal xarakterli ekoloji problemlər əslində dünyanın hər bir güşəsində baş verən ekoloji böhranla birbaşa bağlıdır [8]. Yəni heç bir ölkə, heç bir adam bu böhrandan yan keçə bilməz. Azərbaycan Qarabağda yaranmış bu faciyəvi vəziyyətlə bağlı həm tədbirlər görür, həm də bu vəziyyətə cavabdeh olan ölkənin cəzalandırılmasını tələb edir. Artıq beynəlxalq təşkilatlara müvafiq sənədlər təqdim edilməklə müraciət olunub. Burada daha geniş və dəqiq məlumatın olması olduqca vacibdir. Bunun üçün Respublikanın bütün aidiyyatlı qurumları həm təbii, həm də sosial obyektlərə qarşı görülən cinayətlərlə bağlı dəqiq faktlar toplanılır və sistemləşdirilir. Eyni zamanda vəziyyəti aradan qaldırmaq üçün “Böyük Qayıdış” beynəlxalq proqramın reallaşdırılması da nəzərdə tutulur. Indiyə qədər ETSN tərəfindən 31 beynəlxalq təşkilata müraciət olunub və məlumatlar göndərilib. Beləliklə, 30 il ərzində işğal olunmuş torpaqlarını 44 günə qaytaran dövlət beynəlxalq hüquq müstəvisində hüquqlarını müdafiə etməyə də qadirdir. Uzun illər işğal olunmuş ərazilərdə Azərbaycanın təbii sərvətlərinin amansızcasına hasilatı, təbiətinin, endemik nümunələrinin, flora və faunasının məqsədli və sistemli şəkildə məhv edilməsi bu gün  yalnız ölkəmizin deyil, bütün digər dövlətlərin də diqqət mərkəzində olmalıdır [3].

Bütün münaqişənin aktiv fazasında beynəlxalq təşkilatlarla əlaqələr yaradılır, müəyyən işlər aparılırdı. Yəni əvvəldən baş verən ekoloji genosiddən həmin təşkilatlar xəbərdar idilər. Məsələn, bildiyimiz kimi, Lissabon sammitindən sonra 1997-ci ildə Fransa, Rusiya və ABŞ-dan ibarət həmsədrlik institutu yaradıldı (1992-ci ildən Minsk konfransına İtaliya (1992-1993), İsveç (1994), Rusiya (1995) və Finlandiya (1995-1996) sədrlik etmişlər). Bu təşkilatın nümayəndələri mütəmadi olaraq bölgəyə səfər edir və vəziyyətlə tanış olurdular. O cümlədən 1997-ci ilin aprel ayından etibarən həmsədrlərin bölgəyə səfərləri intensiv xarakter almağa başladı. Bu zaman səylər atəşkəs rejiminin gözlənilməsinə

yönləndirilmişdi. Ekoloji məsələlər ATƏT-in Minsk qrupu o qədər də maraqlandırmırdı.

Müəyyən dərəcədə vəziyyətə təsir edə biləcək sənədlər də mütəmadi olaraq qəbul olunurdu. Məsələn, 25 yanvar 2005-ci il tarixində Avropa Şurasının Parlament Assambleyası "ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi" adlı 1416 saylı qətnamə qəbul etdi. Parlament Assambleyası qətnamədə Azərbaycan ərazisinin böyük bir hissəsinin işğal olunduğunu bir daha təsdiq edərək, etnik düşmənçilik və onu müşayiət edən hərbi əməliyyatların çoxlu sayda insanın etnik əsasda qovulmasına və monoetnik ərazilərin yaradılmasına gətirib çıxardığına dair narahatlığını ifadə etdi. Assambleya Avropa Şurasının üzvü olan bir dövlətin digər dövlətin ərazisini işğal etməsinin həmin dövlətin üzvlük öhdəliklərini kobud şəkildə pozması demək olduğunu açıq şəkildə bəyan edərək, münaqişə zonasından didərgin düşmüş şəxslərin təhlükəsiz və ləyaqətlə geri qayıtması hüququnu bir daha təsdiq etdi [13].

Bütün illər boyu, dövlətimizin dəfələrlə beynəlxalq qurumlara müraciət etməsinə baxmayaraq ekoloji sahədə heç bir tədbirlər həyata keçirilmirdi. Hətta indi vəziyyətdə, Qarabağ ərazisində axan çayların suyunun hədsiz dərəcədə çirklənməsi halları barədə beynəlxalq qurumlara xəbər verilsə də, heç bir tədbir görülməyib.

Bu istiqamətdə aparılan işlər sırasında ilk növbədə Ermənistanın Azərbaycana qarşı təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi və müvafiq hüquqi-siyasi qiymətləndirilməsinə nail olmaq istiqamətində həm ikitərəfli əsasda, həm də ATƏT, BMT, NATO, Avropa İttifaqı, Avropa Şurası və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində iş davam etdirilmişdir, indi də davam edilməkdədir.

**Nəticə**

Hal-hazırda Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarının ekoloji bərpası istiqamətində işlər aparılır. Aparılan işlər barədə və real vəziyyətlə bağlı toplanılan faktlarla bağlı informasiya təhlikəsiziliyi istiqamətində lazımi işlər həyata keçirilir. Bununla belə ekoloji böhranın aradan qaldırılmasına tam zəmanət verilməsi üçün münaqişə tam olaraq öz həllini tapmalıdır, yəni sərhədlər delimitasiya olunmalı, sülh müqaviləsi imzalanmalıdır. Qarşı tərəf çalışır ki, vəziyyəti yenidən dondursun (qeyri-müəyyən bir müddətə) ki, problemi yenə də qaldırsın və müharibəyə keçsin. Bununla bağlı ekoloji təhlükəsizliyi təmin etmək üçün ümumi təhlükəsizlik tədbirləri həyata keçirilməlidir. Onlardan ən vacibi – dövlət sərhədlərinin bərpa edilməsidir. Demək olar ki, ümumi elmlərdən biri olan (məsələn, ümumi sistemlər nəzəriyyəsi və ya sinergetika) müasir ekologiyanın əsası və bu haqda ekoloji şüur səviyyəsində təsəvvürlər elmi dünyagörüşü səviyyəsində artıq formalaşmışdır. İnsan varlığının müxtəlif metodoloji əsaslarla bütün təfərrüatları ilə dərk edilməsi ekoloji şüurun yaranmasına səbəb olmuşdur. Bu gün insanın yaşamağının mənası məhz ekoloji mədəniyyətin tərbiyə edilməsindədir.

Siyasətdə hüquq və azadlıqları nəzərdə tutan tarixən sınanmış və normal qurulmuş idarəetmə normalarının seçimi var. Çoxqütblü münasibətlərə malik yeni dünya nizamı qurulur. Eyni zamanda "qızıl milyard" və dünya əhalisinin qalan hissəsi arasındakı böyük ziddiyyət müasir beynəlxalq siyasi münasibətləri xeyli çətinləşdirir. Bu da ekoloji problemləri daha ağırlaşdırır və bu sahədə obyektiv informasiyaya tələbatını bir qədər də artırır.

**ƏDƏBİYYAT**

1. Abbasov M.S. Əsrimizin qlobal ekoloji problemləri. Bakı: Elm, 2006, 420 s.
2. Bayramlı M. Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli daim dövlətin diqqət mərkəzindədir // Yeni Azərbaycan, 2021, 8 sentyabr. №161, s. 4.
3. Əliyeva M. Ekoloji terror bölgədə sülhə və təhlükəsizliyə də ciddi problem yaradır // Respublika, 2.10.2021.

4. İsmayılov K. İşğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlıq bərpa olunur: 23 may Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günüdür // Respublika, 2021, 23 may, №105, s. 7.
5. Azərbaycan Respublikasında ekoloji vəziyyət (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) (Strasburq, 27 iyun 2001-ci il) // Dağlıq Qarabağ problemi beynəlxalq təşkilatların müzakirəsində (https://files.preslib.az/site/karabakh/gl2.pdf)
6. Documents of international organizations on the Armenia-Azerbaijan conflict // (https://justice.gov.az//documents/ermenistan_elave_1.pdf)
7. Ermənistan-Azərbaycan Dağliq Qarabağ münaqişəsi (https://youthfoundation.az/about-us/)
8. Qarabağd ekosid (https://story.karabakh.center/az/qarabagda-ekosid)
9. Çaxmaqlı Q. Dağlıq Qarabağ işğaldan əvvəl və sonra. Bakı: Hərbi nəşriyyat, 2009, 106 s.
10. İsmayılov Q. Avropadan baxış: Dağlıq Qarabağ müharibəsi və ekologiya (https://qaynarinfo.az/az/)
11. Münaqişənin ekoloji bədəli (http://newtimes.az/az/politics/7114/)
12. Ermənilər tərəfindən təbiətin vəhşicəsinə talan edilməsinə son qoyulması üçün Azərbaycanın haqlı tələbi beynəlxalq təşkilatların diqqətinə çatdırılıb // (http://eco.gov.az/az/nazirlik/xeber?newsID=11639)
13. ATƏT-in Minsk Qrupu həmsədrlərinin bəyanatı (http://contact.az/docs)

***Резюме***

***Шафаг Ахмедова***

***Экологическая катастрофа Карабаха в мировом информационном пространстве***

В статье рассматривается информационная сторона экологического геноцида, совершенного армянами в связи с экологической агрессией на территории Карабаха. С точки зрения общей информационной безопасности, информация по вопросам окружающей среды также очень важна в информационной войне. Азербайджанской стороне удалось организовать международную оценочную миссию под руководством сопредседателей Минской группы ОБСЕ для расследования и надлежащей оценки ситуации с разграблением природных ресурсов и культурного наследия, незаконным поселением и нарушением прав собственности на оккупированных территориях. Отчет оценочной миссии планируется выпустить в январе 2011 года. Несмотря на постоянное осуществление подобных мер, во время конфликта природе был нанесен большой ущерб. Была проделана большая работа по устранению ситуации, однако все еще существуют пробелы в информировании международного сообщества о преступлениях, совершенных армянским государством в этой сфере. В настоящее время для заполнения информационных пробелов создаются различные электронные ресурсы и соответствующие центры (например, Karabakh.Center и др.). Информация о проводимой в Карабахе работе по обеспечению экологического баланса, как и во всей республике, используется для увеличения мощи нашего государства, для улучшения жизни людей. В связи с этим необходимо более эффективно использовать сформированную базу данных. Эти вопросы также обсуждаются на регулярных международных гуманитарных форумах. Опыт, накопленный Азербайджаном в рамках моделей устойчивого развития, может быть применен в международной практике. Устойчивое развитие также обеспечивает стабильную экономику. В этой связи распространение всех собранных фактов о реальной ситуации среди мирового сообщества может сыграть положительную роль практически во всех этих процессах. Преодоление надвигающегося экологического кризиса в ключевых областях, таких как «зеленая» экономика и человеческий капитал, также во многом зависит от предоставления информации.

***Ключевые слова**: Карабахский экономический район, нагорно-карабахский конфликт, решение экологических проблем, информация, статистика, общественное мнение*

***Summary***

***Shafag Akhmadova***

***Environmental Disaster in Karabakh in World Information Space***

The article examines the informational aspect of the environmental genocide committed by the Armenians in connection with the environmental aggression on the territory of Karabakh. From a general information security perspective, environmental information is also very important in information warfare. The Azerbaijani side managed to organize an international assessment mission under the leadership of the OSCE Minsk Group co-chairs to investigate and properly assess the situation with the plundering of natural resources and cultural heritage, illegal settlement and violation of property rights in the occupied territories. The assessment mission report is scheduled to be released in January 2011. Despite the constant implementation of such measures, great damage was caused to nature during the conflict. Much work has been done to eliminate the situation, but there are still gaps in informing the international community about the crimes committed by the Armenian state in this area. Currently, to fill information gaps, various electronic resources and corresponding centers are being created (for example, Karabakh.Center, etc.). Information about the work carried out in Karabakh to ensure the ecological balance, as in the entire republic, is used to increase the power of our state, to improve the lives of people. In this regard, it is necessary to use the generated database more efficiently. These issues are also discussed at regular international humanitarian forums. The experience gained by Azerbaijan within the framework of sustainable development models can be applied in international practice. Sustainable development also ensures a stable economy. In this regard, the dissemination of all the collected facts about the real situation among the world community can play a positive role in almost all of these processes. Coping with the looming environmental crisis in key areas such as the green economy and human capital also depends heavily on the provision of information.

***Keywords**: Karabakh economic region, Nagorno-Karabakh conflict, solution of environmental problems, information, statistics, public opinion.*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# XXI ƏSRDƏ ABŞ-ın MƏRKƏZİ ASİYADAKI GEOSİYASƏTİ VƏ İRAN FAKTORU

**Nərgiz CARÇIYEVA**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 19 oktyabr 2021; çapa qəbul edilmişdir: 18 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 19 th October, 2021; accepted: 18 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:** ABŞ, Mərkəzi Asiya, İran, əməkdaşlıq, təhlükəsizlik*

## Giriş

Ötən illərin bütün uğursuzluqlarına baxmayaraq, Birləşmiş Ştatlar ənənəvi olaraq müasir beynəlxalq münasibətlər sistemində aparıcı yer tutur. ABŞ-ın qlobal siyasətini nəzərə almadan Mərkəzi Asiyada həyata keçirdiyi siyasəti anlamaq çətindir. Mərkəzi Asiya regionunun özünün müasir geosiyasi proseslərdə əhəmiyyəti aşağıdakılarla müəyyən edilir:

1) bütün fəaliyyət göstərən, potensial və planlaşdırılan nəqliyyat və boru kəməri marşrutlarının qovşağında yerləşməsi;

2) zəngin təbii resursları;

3) qlobal çağırışların və dünya üçün təhlükələrin əksəriyyətinin (ərazi, etno-milli, dini və ekoloji və s.) regionda cəmləşməsi.

Bu kontekstdə Mərkəzi Asiya regionunun sabit demokratik inkişafının təmin edilməsi, onun təbii sərvətlərinə beynəlxalq çıxışın əldə edilməsi və bütün Mərkəzi Asiyanın qlobal iqtisadi məkana inteqrasiyası beynəlxalq münasibətlər sisteminin sabitliyi və inkişafı konsepsiyasına uyğundur. Bu vəzifələrin yerinə yetirilməsi həm də yeni dünya düzənində ABŞ-ın qlobal liderliyinin genişləndirilməsinə və möhkəmlənməsinə böyük töhfə verir ki, bu da ümumilikdə MA regionunun Birləşmiş Ştatlar üçün rolunu və əhəmiyyətini müəyyən edir.

ABŞ-ın Mərkəzi Asiya ilə bağlı siyasətindəki bu imperativlər Mərkəzi Asiyanın Soyuq Müharibədən sonrakı inkişafı dövründə də dəyişməyib. Bununla belə, aparıcı dövlətin MA regionunda öz planlarını həyata keçirmək üçün istifadə etdiyi konkret strateji konsepsiyanın, yol və metodların olmaması MA regionunda sabitləşmə proseslərinin həddən artıq uzanması və ABŞ strategiyasının ara-sıra dəyişmələrində özünü göstərir. (13, s. 21-25)

## ABŞ-ın Mərkəzi Asiyada strateji maraqları və mövcud gərginliklər

ABŞ və onların avropalı tərəfdaşları arasında geosiyasi və geoiqtisadi ziddiyyətlər İranda mötədil islahatçı Məhəmməd Hatəminin hakimiyyətə gəlməsi və onun 2001-ci ildə “sivilizasiyalararası dialoq” ideyasını irəli sürməsi ilə daha da dərinləşdi. Rusiya, Çin və MA dövlətləri də daxil olmaqla, getdikcə daha çox ölkə Avropanın İranla “konstruktiv dialoq” yanaşmasının tərəfdarına çevrildi. ABŞ-ın İranın iştirakı ilə həyata keçirdiyi layihələrə qarşı siyasətindən narazı olan MA dövlətləri arasında da narazılıq artırdı. Bununla yanaşı, Daşkəndin İrana münasibətində də tədricən dəyişikliklər baş verirdi. İki

[*] doktorant, Bakı Avrasiya Universiteti
*e-mail: ncarchiyeva@mail.ru*

ölkəni həm Tehranın Mərkəzi Asiya ilə bağlı ehtiyatlı və çevik taktikası, həm də Hatəminin qərbyönlü kursunun gücləndirilməsi və İran-Amerika münasibətlərinin normallaşması yaxınlaşdırırdı. Özbəkistan hökumətinin fikrincə, o zaman ABŞ regional təhlükəsizlik problemlərinə kifayət qədər diqqət yetirmirdi. Xüsusilə, Əfqanıstan ərazisindən qaynaqlanan durmadan artan qeyri-sabitlik və terrorizminin mümkün yayılması probleminə Qərb tərəfindən lazımi diqqət yetirilməmiş və Tacikistana diqqət 1994-cü ilin yanvarında rəsmi olaraq İranın hökmranlıq zonasını təşkil edən ölkələr siyahısına daxil edilməsi ilə məhdudlaşdırılmışdır. (12, s. 7-10)

2001-ci ilin sentyabrından sonrakı dövrdə ABŞ Mərkəzi Asiyada regional proseslərdə iştirakını xeyli sürətləndirdi. Regionun sabitliyi onun daxili demokratik, sosial və iqtisadi inkişafı məsələləri ilə, eləcə də ABŞ-ın özünün təhlükəsizliyi ilə sıx bağlı idi. Buna görə də Əfqanıstanın siyasi baxımdan yenidən qurulması, Mərkəzi Asiya (MA) dövlətlərinin modernləşmə prosesinin başa çatması və dünya birliyinə daxil olması yeni ABŞ mərkəzli dünya nizamının formalaşması ilə bağlı idi. 2002-ci ildə ABŞ-ın MA regionunda xarici siyasət doktrinasına yenidən baxılması iki strategiya sənədi ilə nəticələnmişdi:

- Təkcə Əfqanıstanda deyil, bütün Mərkəzi Asiyada demokratiya və vətəndaş cəmiyyətinin bərqərar olmasını nəzərdə tutan "Əfqanıstanda Azadlığa Dəstək Aktı" [16, s.26] ABŞ-ın Xəzər və Mərkəzi Asiya regionlarında həm geosiyasi maraqlarını, həm də Vaşinqtonun bu maraqları qorumağa hazır olduğunu təsdiqləyən yeni milli təhlükəsizlik strategiyası [13, s. 26].

ABŞ-ın MA regionunda fəal iştirakı Buş administrasiyasının aşağıdakı strateji hərəkətləri ilə səciyyələnirdi:

- qlobal təhlükəsizlik problemlərini həll edərkən qabaqlayıcı "birtərəfli hərəkətlər"in yeni doktrinalarına etibar və "xeyirxah niyyətin koalisiyasına" vurğu;
- 2001-ci ildən "şər oxu" dövlətləri siyahısına daxil edilmiş geoiqtisadi əhəmiyyətli regional Mərkəzi Asiya qonşusu – İrana qarşı sanksiyalar;
- humanitar hüquqlar və demokratiya məsələlərində MA dövlətlərinə siyasi və iqtisadi təzyiq;
- əsas Xəzər dövləti və eyni zamanda beynəlxalq enerji sferasında nüfuzlu neft-qaz oyunçusu kimi Qazaxıstana güvənməsi, onun Bakı-Tbilisi-Ceyhan layihəsi ilə əlaqəsi ABŞ-ın Mərkəzi Asiyada planlarının davam etdirilməsi üçün həlledici əhəmiyyət kəsb edirdi. [13, s. 27]

Qloballaşma şəraitində səmərəsiz olan birtərəfli tədbirlər və iqtisadi sanksiyalar ABŞ-ın Mərkəzi Asiyanın bir çox regional aktorları, o cümlədən Avropa İttifaqı və Türkiyə kimi ənənəvi müttəfiqləri ilə münasibətlərini xeyli çətinləşdirdi. Şiddətli ərazi mübahisələri səbəbindən artıq hərbiləşdirilmiş Xəzər zonasına ABŞ-ın hərbi-texniki müdaxiləsi vəziyyəti daha da gərginləşdirdi. İran-ABŞ qarşıdurmasının davam etməsi, anti-İran sanksiyaları və kifayət qədər iqtisadi yardımın olmaması şəraitində Mərkəzi Asiya üçün həyati əhəmiyyət kəsb edən enerji nəqli layihələrinin reallaşması faktiki olaraq dayandırılmışdı. Bu kontekstdə Qərbin Mərkəzi Asiyaya iqtisadi təzyiqinin davam etməsi və Tehranın enerji nəqli və digər layihələrdə iştirakını istisna etməklə, ABŞ-ın anti-İran strategiyası praktiki olaraq Mərkəzi Asiya regionunda sosial-iqtisadi və siyasi qeyri-sabitliyin uzanmasına zəmin yaratdı. Mərkəzi Asiya iqtisadiyyatlarına maliyyə dəstəyinin və investisiyaların qeyri-kafi olması, humanitar inkişaf və demokratikləşmə prosesləri məsələlərində Mərkəzi Asiya dövlətlərinə təzyiq göstərilməsi, habelə ənənəvi müttəfiqlərlə münasibətlərdə geosiyasi ziddiyyətlərin güclənməsi Mərkəzi Asiyalıların ABŞ-dan uzaqlaşması və Çin, Rusiya, İrana istiqamətlənməsi ilə nəticələndi. Xanabaddakı (Özbəkistan) Amerika bazasının bağlanması və keçmiş sovet respublikalarını Rusiyanın himayəsi altında birləşdirməyə yönəlmiş Avrasiya tərəfdaş ölkələrinin ŞƏT (Şanxay Əməkdaşlıq

Təşkilatı) və Avrasiya İqtisadi Birliyi çərçivəsində konsolidasiyası məntiqi olaraq bu meylləri tamamladı. Vaşinqtonun Mərkəzi Asiya reallıqlarına yenidən nəzər salması Mərkəzi Asiyanın ABŞ-ın maraqları üçün prioritet əhəmiyyətinə dair fikirləri ön plana çəkdi. ABŞ Mərkəzi Asiyadakı üç əsas strateji maraqlarını – enerji resursları, təhlükəsizlik və islahatlar vasitəsilə demokratiyanın genişləndirilməsi məsələlərini ön plana çəkdi (15, s. 2-6).

Mövcud vəziyyətə müsbət dəyişikliklər etmək üçün ABŞ-ın rəhbərliyi altında Qərb öz dayaq nöqtəsini gücləndirməyə can atdı və 2009-cu ildə Qazaxıstanın ATƏT-ə sədrliyi üçün müraciətini dəstəklədi. Bu dövrdə Amerikanın Mərkəzi Asiya strategiyasının uğursuzluqları Buşun Yaxın Şərq və Əfqanıstan siyasətinin səmərəsizliyi ilə daha da çətinləşdi. Belə ki, sosioloji sorğuların nəticələrinə görə amerikalı respondentlərin 79%-i (2005-ci ildəki 72%-lə müqayisədə) İslam fundamentalizmini milli təhlükəsizliyə "son dərəcə vacib" təhdid hesab edib. Onlar İslam fundamentalizmini İran kimi dövlətlərdən qaynaqlanan digər təhlükələr adlandırıblar. İranın nüvə problemi ətrafında yaranmış böhran fonunda Vaşinqton ənənəvi tərəfdaşlarından və müttəfiqlərindən ibarət anti-İran koalisiyasının yaradılması imkanını əldə etmişdi (9, s. 213-216).

Müvafiq olaraq Vaşinqton Avropa İttifaqı ilə mövcud ziddiyyətləri tənzimləmək və Ankara ilə münasibətlərini yeni, daha yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq üçün hər cür səy göstərməyə başladı. Buş administrasiyası Moskvaya doğru birmənalı olmayan yaxınlaşma meylli addımlar atdı. Vaşinqton Əfqanıstanın dinc yolla yenidən qurulması prosesində və Mərkəzi Asiya regionunda digər potensial qeyri-sabitlik ocaqlarının ləğvində Yaxın Şərq strategiyasına Rusiyadan dəstək almağa çalışırdı.

Bununla belə, eyni vaxtda Qazaxıstan tərəfindən Rusiya və İrandan yan keçməklə neft və qaz ixracının vacibliyi vurğulanan rəsmi bəyannamələr qəbul edilirdi. Mərkəzi və Cənubi Asiyanı birləşdirən yeni enerji şəbəkəsinin tikintisi vasitəsilə regionun Cənubi Asiyaya istiqamətləndirilməsi səyləri davam edirdi. Bu ideya öz ifadəsini ABŞ Dövlət Departamentinin yenidən təşkili, o cümlədən Cənubi və Mərkəzi Asiya məsələləri üzrə Bürosunun yaradılmasında göstərdi. Eyni zamanda, Mərkəzi Asiyada ABŞ diplomatiyası yenidən güclənməyə başladı. ABŞ Astanaya öz enerji sektoruna, o cümlədən neft və qaz ixrac marşrutlarının "şaxələndirilməsinə" əlavə investisiyalar vəd etdi.

Vaşinqton Özbəkistanın fəal iştirakı olmadan terrorla müharibə aparmağın səmərəsizliyini və hətta mümkünsüzlüyünü getdikcə daha çox dərk edirdi. Bölgənin kövrəkliyi və qeyri-sabitliyi ABŞ-ın MA dövlətləri ilə strateji tərəfdaşlığını təhlükə altına qoydu və sabitliyi pozdu, həmçinin ABŞ-ın bölgədəki hərbi siyasi mövcudluğunu əngəllədi (2, s. 205-208).

Yuxarıda qeyd olunan tendensiyaların məcmusu MA regionunda münaqişə potensialını və qeyri-sabitliyi əvvəlki səviyyədə saxlamış və Mərkəzi Asiyanın inkişafında Avrasiya vektorunu gücləndirmişdir. 2009-cu ildə Barak Obamanın hakimiyyətə gəlişi ilə Amerikanın Mərkəzi Asiyaya yanaşması regiona təsir alətləri və rıçaqlarının seçimində ciddi dəyişikliklərə məruz qaldı. Prezident Buşun birtərəfli fəaliyyət taktikasından imtina edərək, müttəfiqlik əlaqələrinin bərpası və möhkəmləndirilməsinə, strateji tərəfdaşlığın genişləndirilməsinə və İslam dünyası, o cümlədən İranla dialoqa diqqət yetirmişdir. Obama administrasiyası Mərkəzi Asiyada ümumi strateji məqsədlərə nail olmaq marağında regionda insan haqları və demokratiya sahəsində problemləri qiymətləndirərkən daha ehtiyatlı və təmkinli yanaşmaya üstünlük verib. Bu məqsədlərə uyğun olaraq, Çinin artan gücünə əks təsir axtarmaqla yanaşı, Vaşinqton Rusiya ilə münasibətlərin "strateji olaraq yenidən başlayacağını" elan etdi. 2009-cu ildə Obama administrasiyası MA dövlətləri ilə əməkdaşlığı genişləndirmək üçün xüsusi mexanizm işə saldı. Məsləhətləşmələr zamanı ticarət, insan haqları və demokratik islahatlar, müdafiə sahəsində əməkdaşlıq və regional təhlükəsizlik, o cümlədən Əfqanıstandakı vəziyyət müzakirə edilib.

Eyni zamanda, ABŞ daxilində yeni administrasiya siyasətinə kifayət qədər güclü mühafizəkar müxalifət və regiondakı qeyri-müəyyən vəziyyət gözlənilən nəticələrin əldə olunmasına mane oldu. Vaşinqtonun bəyanatları daha deklarativ və qeyri-müəyyən xarakter daşıyırdı, Mərkəzi Asiya ilə bağlı fərqli, səmərəli strategiyaya çevrilmirdi. Əfqanıstan və Pakistanda qeyri-sabitliyin dirçəlməsi, İranın nüvə proqramı, Qırğızıstan və Tacikistanda sabitliyin pozulması fonunda Özbəkistan Rusiya, Çin və İranın daxil olduğu "6+3" təmas qrupunun yaradılması təşəbbüsü ilə çıxış edib. Lakin ABŞ, Rusiya və Çin arasındakı uyğunsuzluqlar səbəbindən bu təşəbbüs praktiki olaraq həyata keçirilməmiş qaldı. Əvəzində ABŞ 2011-ci ildə Yeni İpək Yolu layihəsini (17) irəli sürdü ki, bu da əslində Amerikanın maliyyələşdirdiyi "Böyük Mərkəzi Asiya" konsepsiyasının məntiqi davamı idi. (18). Müəlliflərin fikrincə, strategiyanın uğuru tamamilə Mərkəzi Asiyada nəqliyyat və tranzit marşrutlarının reallaşdırılmasından, regionun Cənubi və Cənub-Qərbi Asiya ilə, daha sonra isə Avropa ilə birləşməsindən asılı idi (5, s. 7-10) .

Belə bir layihənin həyata keçirilməsi bütün Mərkəzi Asiyanın sabitləşməsinə və iqtisadi dirçəlişinə kömək edəcək, onu gələcəkdə Asiyada ticarət yollarının mərkəzi kəsişməsinə çevirəcəkdi. Müvafiq olaraq, ABŞ Vaşinqtonun Böyük İpək Yolunun yenidən qurulması üzrə uzunmüddətli planlarının həyata keçirilməsində Mərkəzi Asiyanın "həyati əhəmiyyətli rolu" olduğunu bəyan etmişdir.

Obamanın yeni "Milli Hərbi Strategiyası" Əfqanıstanda və ona bitişik ərazilərdə yeni hərbi bazaların yaradılmasını nəzərdə tuturdu. Regionun münaqişə potensialını görən ABŞ regional təhlükəsizlik qarantı rolunu oynamağı və Mərkəzi Asiyada hərbi və siyasi mövcudluğunu genişləndirməyi planlaşdırırdı (19). Buna görə də, regional təhlükəsizliyə, hərbi infrastruktura və Mərkəzi Asiyada bütün mümkün enerji arteriyalarının qovşağında yerləşən geostrateji mövqeyinə töhfə vermək qabiliyyətinə görə Özbəkistanın əsas ölkə kimi Amerika siyasətində əhəmiyyəti artırdı.

Eyni zamanda, Vaşinqton neft və qaz hasil edən Qazaxıstan və Türkmənistanı dəstəkləməyə davam etdi, Qırğızıstanda parlament demokratiyasını təşviq etdi və Tacikistanı regional planların həyata keçirilməsinə cəlb etdi. Bu baxımdan, Vaşinqton ilk növbədə, Mərkəzi Asiya ölkələrinə yalnız ABŞ-ın verə biləcəyi resursları (elmi, texniki, iqtisadi, hərbi və s.) hesablayırdı. Əvvəlki kimi yaxın tərəfdaşlar siyahısında Rusiya və Çin istisna edilmişdi. ABŞ-ın əsas üstünlükləri beynəlxalq siyasətdə rasional istifadə olunmaqla Mərkəzi Asiyada sabitliyin və inkişafın möhkəmlənməsinə kömək edə biləcək hərbi, siyasi, iqtisadi, elmi və təhsil resursları idi. Bu dövrdə ABŞ-ın Mərkəzi Asiya ilə bağlı prioritetləri dövlət katibinin Cənubi və Mərkəzi Asiya üzrə müavini Robert Bleyk tərəfindən vurğulanmış və aşağıdakı məqamlardan ibarət olmuşdur:

- Əfqanıstanda beynəlxalq səylərin dəstəklənməsi;
- Hindistan ilə strateji tərəfdaşlığın qurulması;
- MA dövlətləri ilə daha möhkəm və sabit münasibətlərin qurulması [13, s. 31-33].

ABŞ-ın Mərkəzi Asiya istiqamətində fəallaşması beynəlxalq gərginliyin artmasına və mürəkkəb ABŞ-Rusiya və ABŞ-Çin münasibətləri ilə təsdiqlənən "soyuq müharibə" düşüncəsi stereotiplərinin bərpasına səbəb oldu. Həqiqətən də, ABŞ, Aİ və Rusiya arasında açıq-aşkar yaxınlaşma əlamətləri mövcud idi. Şimali Atlantika Alyansının 2010-cu il üçün yeni strateji konsepsiyası vurğulayırdı ki, NATO artıq Rusiya üçün təhlükə deyil. Ekspertlərin fikrincə, NATO-nun yeni strategiyası qlobal anti-Çin koalisiyasının təşkili üçün çərçivə rolunu oynamalı idi. ABŞ etiraf edirdi ki, Rusiya olmadan Əfqanıstan problemini həll etmək, narkotik biznesinə qarşı mübarizə aparmaq və Qırğızıstanda vəziyyəti sabitləşdirmək praktiki olaraq mümkün deyil. Təsadüfi deyildi ki, ABŞ-ın vitse-prezidenti Bayden "Böyük oyun" və "təsir dairələri" adlandırılan çərçivələri dəyişməyə çağırdı. Digər tərəfdən, bəzi ekspertlər ABŞ-ın Xəzər hövzəsində təsirinin möhkəmlənməsinin Baltikyanı-Ukrayna-Qafqaz-ın Mərkəzi Asiya ilə birləşdirilməsi ilə nəticələnəcəyindən

narahat idilər. Bu, Rusiyanın bütün cənub perimetri boyunca təcrid olunması demək idi. Vaşinqton israr edirdi ki, 2014-cü ildən ölkədə təhlükəsizlik məsələləri Əfqan qoşunları tərəfindən həll olunacaqdır. Eyni zamanda, ABŞ-ın Avrasiya enerjisi məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstar enerjinin özünü təmin etməsinə nail olmağın vacib olduğunu bildirib (13, s. 33). Bununla da Vaşinqton təkcə Nabucco-nu deyil, bütün Cənub enerji dəhlizini – Qafqaz və Mərkəzi Asiya qazını Türkiyədən keçərək Avropaya nəql etməli olan qaz kəmərlərinin tam kompleksini dəstəklədi. Bu mənada Rusiya və İranın nüvə proqramını tənzimlədikdən sonra onunla qarşılıqlı əlaqə istisna olunmayıb.

Beləliklə, bütün uğursuzluqlara və müvəqqəti dalğalanmalara baxmayaraq, ABŞ-ın Mərkəzi Asiyadakı uzunmüddətli strategiyasının əsas istiqamətləri mahiyyətcə dəyişməsə də, onun 21-ci əsrin birinci onilliyinin sonunda həyata keçirilməsi alətləri transformasiyaya məruz qalmışdır.

**İran-Amerika münasibətləri prizmasından Mərkəzi Asiyada gedən geosiyasi proseslər (2007-2017-ci illər)**

2007-ci ildən 2017-ci ilin yanvarına qədər yeni dünya nizamı, həmçinin maraqların və qüvvələrin aparıcı güclər (ilk növbədə ABŞ və Rusiya) arasında bölüşdürülməsi yeni mərhələyə qədəm qoydu. İlkin olaraq bunu bir sıra beynəlxalq hadisələr şərtləndirdi:

- Yaxın Şərq və Ukrayna böhranları
- İranın nüvə proqramı ilə bağlı danışıqlar
- beynəlxalq qoşunların Əfqanıstandan çıxarılması
- Çinin yüksəlişi.

Bu şiddətli geosiyasi mübarizənin özəlliyi ərazilərin işğalı və anti-İran sanksiyalarının coğrafiyasının genişləndirilməsindədir. İranın təbii resursları uğrunda mübarizə beynəlxalq gərginliyi artırır və MA dövlətlərinin Çin İpək Yolu layihələrinə istiqamətini dəyişdirirdi. Əsas regional güc mərkəzləri olan Rusiya və Çin Mərkəzi Asiya ilə həmsərhəd ərazilərini, tarixi və mədəni əlaqələrini, regional və qlobal siyasi və iqtisadi statusunu nəzərə alaraq Mərkəzi Asiyada birbaşa və bilavasitə maraqlara malikdir.

Son onillikdə ABŞ Mərkəzi Asiya siyasətini, əsasən. özünün "Əfqanıstanda Azadlığa Dəstək Aktı"nın (2002) müddəaları əsasında qurmağa davam etmişdir. Bu, "ölkənin qonşuları ilə güclü regional iqtisadi əlaqə qurmaq üçün Əfqanıstan səylərini dəstəkləmək" zərurətini vurğulayan 2015-ci il Əfqanıstan Hesabatlılığı Aktından (13, s. 26) tamamilə aydın görünürdü. Amerika MA strategiyasının məlum müddəaları ilə yanaşı, ekspertlər açıq şəkildə vurğulayırdılar ki, Mərkəzi Asiyada iqtisadi islahatlar ABŞ-ın milli maraqlarına xidmət edir, Amerika malları və xidmətləri üçün yeni bazarlar açmağa imkan verir, enerji və mineral resurslar mənbəyinə çevrilirdi. Bununla əlaqədar olaraq, 17 yanvar 2014-cü il tarixli ABŞ Konqresi Aktı əlavə olaraq Əfqanıstanda transformasiya prosesləri ilə əlaqəli Cənubi və Mərkəzi Asiyada inkişaf proqramları üçün 150 milyon dollar ayrılmasını təsdiqlədi. Bununla belə, 2015-ci ilin sentyabr ayından etibarən daha məqsədyönlü strategiya olaraq MA dövlətləri ilə Birləşmiş Ştatlar "C5+1" mexanizmini irəli sürmüşdür. Mərkəzi Asiyanın ABŞ-la tərəfdaşlığı əsasən hərbi-siyasi səviyyədə həyata keçirilirdi və Əfqanıstanın və MA regionunun təhlükəsizliyinin təmin edilməsi məsələsi ilə bağlı idi (20). Bu məqsədlə 2013-cü ildən 2016-cı ilin payızına kimi Daşkənddə NATO-nun regional ofisi fəaliyyətə başlamışdı. Bundan əlavə, 2015-ci ilin avqustunda Pentaqon Özbəkistan Müdafiə Nazirliyinə 328 müasir zirehli avtomobilin pulsuz tədarükünü başa çatdırıb və bu, tarixdə ən böyük akta çevrilmişdir. (13, s. 46)

2016-cı ilin fevral ayında Pentaqon 2016-2017-ci illərdə MA ştatlarına 50 milyon dollar ayrılmasını nəzərdə tutan terrorizmlə mübarizədə tərəfdaşlıq proqramı dərc etmişdir (13, s. 47). Ümumilikdə MA respublikaları regionun inkişafı üçün təxminən 8,8 milyard dollar yardım alıb. Eyni zamanda, Vaşinqton MA dövlətləri ilə əməkdaşlığı iqtisadiyyat,

enerji və ekologiya, təhsil və mədəniyyət sahələrində genişləndirməyi planlaşdırırdı. Həmçinin ABŞ İran və Rusiyanın bölgədəki hökmranlığına qarşı mübarizəni davam etdirirdi. Şimal Paylayıcı Şəbəkəsinin fəaliyyəti praktiki olaraq layihələndirilən nəqliyyat və tranzit marşrutları sisteminə çevrilməmiş və yalnız regional oyunçular arasında mövcud ziddiyyətləri kəskinləşdirmişdir. Vaşinqtonun Mərkəzi Asiyada təsirinin artması və Əfqanıstanda Amerika kontingentinin bir hissəsini qeyri-müəyyən müddətə qoruyub saxlaması ilə bağlı ABŞ və Rusiya arasında yaranmış ixtilafı xüsusilə qeyd etməliyik. Digər tərəfdən, İranın rolu Mərkəzi və Cənubi Asiya regionunda, Yaxın Şərqin inteqrasiyası məsələlərində artmaqdadır. Üstəlik, İran kartından regional aktorlar öz geosiyasi məqsədlərini (Rusiya, Çin və s.) həll edərkən daha fəal istifadə ediblər. Lakin bu proses 2011-ci ildə başlanmış və demək olar ki, bütün Orta Asiya aktorlarını əhatə edən və İran-Səudiyyə (şiə-sünni) qarşıdurması ilə müşayiət olunan uzunmüddətli Suriya böhranı ilə daha da ağırlaşmışdır. Bütövlükdə, bu sabitliyi pozan amillər MA regionunda çağırışların və təhdidlərin (narkotik ticarəti, İslam Dövləti, ekstremizm, qeyri-qanuni miqrasiya və s.) artması üçün əlverişli mühit formalaşdırırdı. Bu səbəbdən regional iqtisadi inteqrasiya templəri və deməli, Avro-Atlantik strategiyanın Mərkəzi Asiyada həyata keçirilməsi prosesi cilovlanmışdır (8, s. 7-11). O vaxta qədər ABŞ-da MA regionuna qarşı iki əsas yanaşma üstünlük təşkil edirdi: Amerikanın regionda mövcudluğunun yekun şəkildə məhdudlaşdırılması və ya əksinə, daha fəal iştirakın tərəfdarları. ABŞ-ın Mərkəzi Asiyadakı hazırkı strategiyasını tənqid edənlər iddia edirdilər ki, Yeni İpək Yolu konsepsiyası romantik illüziyadan başqa bir şey deyil və real vəziyyətlə heç bir əlaqəsi yoxdur. Şimal marşrutu artıq öz uğursuzluğunu sübut etmişdir. Ona görə də ABŞ-ın strateji yanaşmasında Mərkəzi Asiyanın Əfqanıstana açılan qapı kimi əhəmiyyətinin azalacağı gözlənilirdi. Burada amerikalı ekspertlər MA regionunun daxili xarakterindən çıxış edirdilər. Region ABŞ-ın transformativ diplomatiyası sferasından kənarda qalacaq, çünki onun özünün daxili və regional inkişaf dinamikası, spesifik geosiyasi mühiti vardır.

2016-cı ilin əvvəlinə Amerikanın Yeni İpək Yolu strategiyası ABŞ-ın regional siyasəti üçün əvvəlki əhəmiyyətini tamamilə itirmişdi. Yaxın Şərq hadisələri və Mərkəzi və Cənubi Asiyanın qeyri-sabitliyi (ilk növbədə Əfqanıstan və Pakistan ərazilərinə aiddir), region ətrafında geosiyasi gərginlik və MA-da radikalizmin artması ilə müşayiət olunan kontekstdə MA dövlətlərində ABŞ-ın maliyyələşdirdiyi hər hansı layihələrin səmərəliliyi ilə bağlı şübhələr yaranmışdı. Bununla belə, Mərkəzi Asiya ilə bağlı ABŞ-ın səmərəli konsepsiyasının olmaması böyük dövlətlərin regiona marağını azaltmamışdı. Buna görə də, digər ekspertlər MA dövlətlərinin maraqlarını və problemlərini düzgün nəzərə almağı tövsiyə edirlər. Hətta pessimistlər belə düşünür ki, uzunmüddətli perspektivdə MA dövlətlərində daxili dəyişikliklər Amerikanın Yeni İpək Yolu kimi təşəbbüslərinin irəliləməsinə imkan yarada bilər. Bu arada ABŞ-ın marağını da xüsusi vurğulayırlar:

- kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması;
- Mərkəzi Asiyanın radikal islam yaraqlılarının sığınacağına çevrilməməsini təmin etmək;
- Mərkəzi Asiyada Əfqanıstan, Cənubi Asiya, Avropa və Şərqi Asiya ilə əlaqəli regional enerji bazarının qurulması;
- Mərkəzi Asiya dövlətləri arasında daha geniş regional inteqrasiya.

Bu vəzifələrdən ən mühüm olanı qonşu İranla münasibətlərin normallaşdırılması məsələsidir ki, bu da MA regionunda sülh və təhlükəsizliyə böyük kömək edə bilərdi (10). Regional strategiyalarındakı maneələri aradan qaldırmaq üçün ABŞ və Aİ İranın nüvə proqramı ilə bağlı beynəlxalq danışıqlar təşkil etmişlər - bu, Tehranla Qərb dialoqunun inkişafında əsas maneədir. Bəzi fikir ayrılıqlarına baxmayaraq, Moskvanın Ukrayna siyasətinə, daha sonra isə Suriya hadisələrinə və bütün dünyada terror aktlarının şiddətlənməsinə ümumi etirazları səbəbindən ABŞ və Avropanın yanaşmaları eynilik təşkil edir.

**Mərkəzi Asiyada İran faktoru və İranın nüvə məsələsi**

XXI əsrin ikinci onilliyinin əvvəllərində ABŞ-İran münasibətləri əsasən İranın nüvə proqramı ilə bağlı məsələnin həllindən asılı idi. Proqramın hazırlanması, şübhəsiz ki, İran İslam rejiminin ayaqda qalması üçün əsas məsələlərdən biridir. Bütün qruplar və siyasi partiyalar bu məsələdə ölkənin xarici mövqeyini dəstəkləyir. Nüvə proqramının beynəlxalq danışıqlarda ölkənin uğurlu gələcəyi kimi qəbul edilən strateji əhəmiyyət 2013-cü il prezident seçkilərində Həsən Ruhaninin qələbəsini əvvəlcədən müəyyənləşdirdi. Beynəlxalq Nüvə Enerjisi Agentliyinin 22 may 2013-cü il tarixli İran hesabatında qeyd edildiyi kimi İran nüvə proqramına davam edirdi: 1) Natansdakı nüvə obyektində ikinci nəsil sentrifuqaların (İR-2m) yaradılması (əvvəlki hesabatda qeyd edilən bu cür avadanlıqların sayı 180-dən indiki hesabatda 689-a çatdırılmışdır); 2) uranın 20% səviyyəsinə çevrilməsi; 3) Araqda nüvə avadanlığının fəaliyyəti; 4) 5%-ə qədər zənginləşdirilmiş uranın saxlanması imkanlarının genişləndirilməsi (21). Ekspertlərin əksəriyyəti İranın texniki imkanlarının atom bombası yaratmaq üçün yetərli olmadığına işarə edərək, İrana qarşı hərbi əməliyyatların perspektivinin olmadığı barədə xəbərdarlıq etmişdilər. Müharibə yalnız İranda nüvə silahının daha da inkişaf etdirilməsinə təkan verə və Qərbin xeyrinə başa çata bilməzdi. Bu baxımdan Qərb Tehranla konstruktiv dialoqa başlamaq imkanlarını ciddi şəkildə öyrənirdi. Beynəlxalq Böhran Qrupunun analitikləri vurğulayırdılar ki, yalnız qarşılıqlı kompromislərə və güzəştlərə əsaslanan danışıqlar bugünkü vəziyyətdən çıxış yolu ola bilər. İran üçün nüvə proqramı üzrə danışıqlarda iştirak regional (narkotik, qaçqınlar, terror və s.) və daxili təhlükəsizlik məsələlərinin həlli üçün zəruri idi. İran iqtisadiyyatında 2013-cü ilin əvvəlindən inflyasiyanın səviyyəsi 42%-ə çatıb və eyni dövrdə ölkənin iqtisadi artımı 5,4%-ə qədər yavaşlayıb. Bu reallıqları nəzərə alaraq, 2013-cü il noyabrın 23-də Cenevrədə İranın nüvə probleminin tənzimlənməsi ilə bağlı İranın nümayəndələri ilə “altılıq” beynəlxalq vasitəçilər arasında aralıq saziş – “Birgə Fəaliyyət Planı” (BFP) imzalanıb (11, s. 23-28).

20 yanvar 2014-cü il tarixində BFP qüvvəyə minmişdir (13, s. 50). Buna uyğun olaraq, İran nüvə proqramının bir hissəsini məhdudlaşdırmalı, Qərb isə İranın banklarındakı aktivlərinin bir hissəsini boşaltmalı və Tehrandan müəyyən miqdarda iqtisadi sanksiyaları ləğv etməli idi. Bu hadisələrlə eyni vaxtda ABŞ və onun Qərb müttəfiqləri İranı terrorizmi dəstəkləməkdə, insan hüquqlarının pozulmasında, regional proseslərdə ittiham edirdi.

Müxalifəti sakitləşdirmək üçün ABŞ administrasiyası əsas anti-İran sanksiyalarının qüvvədə qalmasına diqqət yetirdi. BFP problemin hərtərəfli həlli istiqamətin6.də atılan ilk addım idi. İranla danışıqlar prosesi beynəlxalq ictimaiyyət tərəfindən başlayıb və Krımın 2014-cü ilin martında Rusiya tərəfindən ilhaqından sonra sürətlənmişdir. Nəticədə, 2015-ci ilin aprelində “altılıq”ın İranla danışıqları zamanı xeyli irəliləyiş əldə edilmişdi. İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planı (BHFP) təsdiq edilib (13, s. 51-52). 2015-ci il iyulun 15-də İran və “altılıq” ölkələri (ABŞ, Fransa, İngiltərə, Almaniya, Çin və Rusiya) İrana qarşı sanksiyaların ləğvi müqabilində nüvə məsələsində razılığa gəliblər. 20 iyul 2015-ci ildə BMT TŞ İranın nüvə proqramına dair razılaşmanı dəstəkləmək üçün yekdilliklə 2231 saylı qətnaməni qəbul etmişdir (22). Bu qətnamədə Tehrana qarşı beynəlxalq sanksiyaların 10 il müddətində aradan qaldırılması qaydası o şərtlə nəzərdə tutulurdu ki, İran müqavilələrə əməl etsin. Qətnaməni qəbul etməklə BMT TŞ həmçinin İslam Respublikası tərəfindən müqavilənin pozulması halında bütün əvvəlki məhdudlaşdırıcı hərəkətlərin yenilənməsi mexanizmini işə salmışdı. Təxminən eyni zamanda, BAEA-nın hesabatında İranda bəyan olunmamış nüvə materialı və nüvə fəaliyyətinə dair heç bir əlamət yox idi. Daha sonra 2016-cı ilin yanvarından İran İslam Respublikasına qarşı sanksiyaların mərhələli şəkildə ləğvi prosesinə başlanıldı (13, s. 52-55). Bu addımdan əvvəlki xarici siyasət səbəbləri arasında aşağıdakı amilləri qeyd etmək olar:

▪ Son prezidentlik müddətini başa vurmaq ərəfəsində Barak Obama İranla bağlı seçkiqabağı vədlərini yerinə yetirməkdə və ABŞ-ın imicini beynəlxalq arenada yaxşılaşdırmaqda çox maraqlı idi.

▪ İranın Çin və Rusiya ilə əməkdaşlığının genişləndirilməsi ilə yanaşı, Avropa dövlətləri İran ərazisində (Almaniya, Fransa, İtaliya, İngiltərə və s.) mövcudluqlarını yeniləməkdə fəallıq göstərirdilər.

▪ Geosiyasi baxımdan Vaşinqton enerji ilə zəngin İranı heç kimə verməyə meylli deyildi və nəzarət və tarazlığa əsaslanan, hamı üçün məqbul olan beynəlxalq münasibətlər sistemi yaratmağa can atırdı.

▪ Dünya birliyinin İslam Dövləti ilə getdikcə artan mübarizəsi və Əfqanıstanda sabitliyin bərqərar olması baxımından İranla əməkdaşlıq zəruri idi. Ona görə də məsələnin 2015-ci il dekabrın 18-də Nyu-Yorkda keçirilən BMT Təhlükəsizlik Şurasının rəhbərlik etdiyi beynəlxalq danışıqlara bağlanması təsadüfi deyildi.

Təhlükəsizlik Şurası 2015-ci il noyabrın 13-də Vyanada razılaşdırılan Suriya münaqişəsinin sülh yolu ilə həllini təmin edib ki, bu da İranın prosesdə iştirakı olmadan mümkün deyildi.

Bununla belə, ümumilikdə ABŞ-da müxalifət və anti-İran stereotipləri kifayət qədər güclü idi, ona görə də İran-Amerika yaxınlaşmasından danışmaq hələ tez idi. Həm Ruhani, həm də Obama administrasiyası geniş dialoqa yanaşmalarında çox ehtiyatlı idi. Bununla belə, onlar Vaşinqtonun Əfqanıstan, Yəmən və İraqdakı maraqlarını tarazlaşdıraraq, kommunikasiyanın tədricən qeyri-nüvə sahələrində genişləndirilməsini istisna etməyiblər. Obama administrasiyası belə bir fikrə sadiq qalıb ki, İranın nüvə problemi ilə bağlı davam edən müzakirələr zamanı bütün tərəflərin öz öhdəliklərini necə yerinə yetirməsini təmin etmək və Yaxın Şərqin gələcək konsolidasiyası ilə bağlı sabitliyin pozulmasına yol verməmək barədə danışmaq daha yaxşıdır. Obama administrasiyası səlahiyyətlərinin son aylarında İranla çoxtərəfli nüvə sazişini "gücləndirmək" üçün tədbirlər görməyi planlaşdırırdı ki, gələn ABŞ prezidenti və onun komandası beynəlxalq razılaşmanı poza bilməsin. Planlaşdırılan tədbirlərə daha çox ABŞ biznesinin İran bazarına daxil olması üçün lisenziyaların verilməsi və ABŞ-ın İrana qarşı əlavə sanksiyalarının ləğvi daxil idi.

Buna baxmayaraq 2016-cı ilin sonunda senatorlar böyük səs çoxluğu ilə İrana qarşı sərt iqtisadi sanksiyaların 10 il müddətinə uzadılması qərara alınmışdır. (13, s. 51)

ABŞ və İran arasında qalan digər əsas fikir ayrılığı hər iki ölkənin maraqlarının ayrıldığı Suriya hesab olunurdu: Obama administrasiyası Suriya prezidenti Bəşər Əsədi hakimiyyətdən devirməkdə maraqlı idi və İran, əksinə, bu rejimi qoruyurdu. Eyni zamanda, ABŞ-ın əvvəlki administrasiyası rəsmi olaraq Suriya böhranının sülh yolu ilə həllini təşviq etsə də, Suriya məsələsində İran-Rusiya tərəfdaşlığının artması ilə razılaşmırdı. Beləliklə, Obamanın İranla bağlı siyasəti qeyri-ardıcıl və qeyri-müəyyən idi və əslində elan edilmiş məqsədlərinə çatmadı.

Gələcək prezident Donald Tramp İranla BHFP sazişini mənfi qiymətləndirir və bu inkişaf İranla bütün danışıqlar prosesini təhlükə altına alır və ABŞ-İran münasibətlərini qeyri-müəyyənlik içində qoyurdu. Beləliklə, bütün Mərkəzi Asiya çağırışları yerində qalmış olurdu.

## Nəticə

Bu müzakirə əsasında aşağıdakı nəticələrə gəlmək olar:

1) Amerikanın Mərkəzi Asiya siyasətinin əsas məqsədləri faktiki olaraq dəyişməz qalmışdır. Belə ki, aparıcı güclərin güc balansına və maraqlarına əsaslanan ABŞ mərkəzli dünya nizamının qurulması və bütövlükdə ABŞ-ı enerji və siyasi təhlükəsizliklə təmin etməyə yönəlmişdir. Bununla belə, ABŞ regionda əvvəlki siyasi təsirə malik deyildi və

regional güc və müttəfiqlərin hərəkətlərindən asılı idi.

2) Bölgənin aparıcı güclər – ABŞ, Çin və Rusiya arasında geosiyasi mübarizənin episentrinə çevrilməsi ilə MA regionunun rolu əhəmiyyətli dərəcədə artırdı. Güclərin hər biri öz geosiyasi inkişaf modellərini təklif edir – Amerika Yeni İpək Yolu, Çin Bir Kəmər və Yol Təşəbbüsü və Rusiya Avrasiya İqtisadi İttifaqı məsələlərini irəli sürürdü.

3) ABŞ-ın Vaşinqtonda çoxlu sayda lobbi qruplarının iştirakı ilə formalaşmış qeyri-ardıcıl yanaşmaları çoxtərəfli regional tərəfdaşlığı çətinləşdirirdi. Beləliklə, bəyan edilmiş məqsədlərlə ABŞ-ın real siyasəti arasında uyğunsuzluq yaranırdı.

4) MA regionuna iqtisadi və siyasi təhlükəsizlik maraqları prizmasından baxılırdı. İran Mərkəzi Asiyaya "qapı" və neft, qaz və nəqliyyat üçün tranzit marşrutu rolunu təmin etmək istəyirdi.

5) Müdafiə olunan layihələrin heç biri İranın iştirakı olmadan həyata keçirilə bilməzdi və buna görə də dünya gücləri İranı öz tərəflərinə çəkməyə çalışırdılar.

İran Mərkəzi Asiyadakı xüsusi statusunu və Əfqanıstanda böyük şiə diasporunun mövcudluğunu nəzərə alaraq, bu layihələrin həyata keçirilməsinə kömək və ya mane ola bilərdi. Bu, Tehranın ehtiyatlı və qeyri-müəyyən siyasətini: bir tərəfdən, müxtəlif regional strukturlarla əlaqəni, digər tərəfdən, sanksiyaların birdəfəlik ləğvi və Qərblə münasibətlərin normallaşması uğrunda mübarizəni əvvəlcədən müəyyənləşdirirdi.

## ƏDƏBİYYAT


1. Yaşar S., Birol A. Büyük Orta Doğu Jeopolitiğinde İran-ABD ilişkileri //SÜ İİBF Sosyal ve Ekonomik Araştırmalar Dergisi, Yıl: 2005, Cilt: 5, Sayı: 9, s. 163-181.
2. Юлдашева Г. Геополитические процессы в современной центральной азии: Иран и США. Ташкент: Niso Poligraf, 2018, 241 c.
3. Федорова И.Е. ИРАН - США: диалог и противостояние. Москва: ИВ РАН 2004, 143 c.
4. Christopher L.Re thinking American Grand Strategy? Hegemony or Balance of Power in the Twenty-First Century // World Policy Journal, 1998, 15/2: 8-28.
5. Mətin M. Mərkəzi Asiyada təhlükəsizlik mühiti regional geosiyasi proseslər kontekstində, 2021, s.1-12 (https://aircenter.az/uploads/files/Metin%20Memmedli%20tehlil.pdf)
6. Егисман В. США – Иран: политика максимального давления, 2019 (https://www.golosameriki.com/a/vj-iran-oil-sanctions/4899577.html)
7. Тимофеев И.Н. Безопасность России – 2011. Экспертно-аналитическое обозрение. – М.: ИД Критерий 2010, 12 c. (https://mgimo.ru/upload/iblock/6eb/6ebd22d93be21c8119ffdff967722521.pdf)
8. Ainur N. ABD, Rusya ve Çin'in Nüfuz Mücadelesinde Orta Asya: Araçlar ve Süreçler, 2012, 22 s. (http://www.ajindex.com/dosyalar/makale/acarindex-1423873034.pdf 10)
9. Ferhat P. Soğuk Savaş Sonrasinda ABD'nin Orta Asya Politikasi: Beklentiler ve Gerçeklikler. Ankara Üniversitesi // SBF Dergisi, 2008, Yıl 2008, Cilt 63, Sayı 01, s. 207 - 235 (https://dergipark.org.tr/tr/pub/ausbf/issue/3081/42681)
10. Suinbay S. ABD'nin Orta Asya Politikaları. 21.yüzyıl Türkiye Enstitüsü, 2020 (https://www.21yyte.org/tr/merkezler/bolgesel-arastirma-merkezleri/orta-asya-arastirmalari-merkezi/abd-nin-orta-asya-politikalari)
11. Bryan T. An Analysis of U.S. Policies Targeting the Iranian Nuclear Program Hamilton University of South Florida, 2010, p. 146. (https://digitalcommons.usf.edu/cgi/viewcontent.cgi?article=4781&context=et)
12. Cohen S.B., "Geopolitical realities and United States foreign policy", Political Geography 2002, p.1–33 (https://www.fpvmv.umb.sk/drive/2020-08-28/seminar-5-1.pdf)
13. Guli Dr. Y. The Role of Iran and the United States of America in Geopolitics of Central Asia. Latvian İnstitute of İnternational affairs. 2017, 232 p. (https://www.lai.lv/publikacijas/the-role-of-iran-and-the-united-states-of-america-in-geopolitics-of-central-asia-619?get_file=1)
14. Lance A., Sean M. K., Madina Y.S., Mariam T., Richard W. U.S Policy Towards Central

Asia under Trump. Hudson Institute, 2017, p. 27 (https://www.redalyc.org/pdf/767/76754084003.pdf)
15. Stephen B. The Strategic Importance of Central Asia: An American View. 2008, p.1-16 (https://apps.dtic.mil/sti/pdfs/ADA485885.pdf)
16. https://www.congress.gov/bill/107th-congress/house-bill/3994
17. https://2009-2017.state.gov/p/sca/ci/af/newsilkroad/index.htm
18. https://www.state.gov/united-states-strategy-for-central-asia-2019-2025-advancing-sovereignty-and-economic-prosperity/
19. https://obamawhitehouse.archives.gov/sites/default/files/docs/2015_national_security_strategy_2.pdf
20. https://sgp.fas.org/crs/misc/R43992.pdf
21. https://www.iaea.org/sites/default/files/gov2013-27.pdf
22. https://www.un.org/press/en/2015/sc11974.doc.htm

***Резюме***

***Наргиз Джарчиева***

***Геополитика США в Центральной Азии и Иранский фактор в 21 веке***

В статье рассматриваются основные приоритеты политики США в Центральной Азии, ее проекты, сотрудничество со странами Центральной Азии в национальных интересах, влияние отношений с Ираном на центральноазиатский регион и безопасность в регионе.

В статье также освещается подход США к обеспечению стабильности и безопасности в регионе Центральной Азии и их стратегическая деятельность в этой области. В частности, напряженность в американо-иранских отношениях по-разному повлияла на центральноазиатский регион. Одной из главных проблем США были проблемы с ядерной программой Ирана. В этой связи внешняя политика США неоднократно обсуждала вопросы, связанные с иранской ядерной проблемой, принимала различные концепции и предпринимала шаги. Разногласия в правительстве США, а также наличие сильных оппозиционных партий, препятствующих осуществлению умеренной политики в отношении Ирана, привели к периодическим изменениям в стратегиях США в отношении Ирана. Американо-иранские отношения, варьировавшиеся от переговоров до санкций, оказали значительное влияние на внешнюю политику Центральной Азии. С точки зрения как политической, так и экономической стратегии между странами Центральной Азии сформировалась определенная линия против великих держав (Россия, США).

Учитывая благоприятные экономические и географические преимущества региона, США планировали усилить свое влияние в регионе и стать ключевым игроком в экономических проектах. В данном случае эскалация политической напряженности между США и Ираном также беспокоит страны Центральной Азии, ставя под сомнение их надежды на нее в результате санкций США. При том, что страны Центральной Азии время от времени заявляли о слабом присутствии США в регионе с точки зрения безопасности. В этой связи правительство США стремилось получить преимущество в национальных интересах, решив вопрос ядерной программы Ирана как можно скорее.

Интерес США к центральноазиатскому региону рос, где происходят различные политические и экономические процессы.

***Ключевые слова:*** *США, Центральная Азия, Иран, сотрудничество, безопасность*

***Summary***

***Nargiz Jarchiyeva***

***US Geopolitics in Central Asia and the Iranian Factor in the 21st Century***

The article discusses the main priorities of US policy in Central Asia, its projects, cooperation with Central Asian countries in the framework of national interest, the impact of relations with Iran on the Central Asian region and security in the region.

The article also highlights the US approach to ensuring stability and security in the Central Asian region and its strategic activities in this area.

In particular, tensions in US-Iranian relations have affected the Central Asian region in various ways.

Problems with Iran's nuclear program have been a major concern for the United States. In this regard, US foreign policy has at various times discussed issues related to the Iranian nuclear issue, adopted various concepts and taken steps. The differences in the US government, as well as the presence of strong opposition parties that hinder the implementation of a moderate policy against Iran, have resulted in periodic changes in US strategies on Iran. US-Iranian relations, which ranged from negotiations to sanctions, had a significant impact on Central Asian foreign policy. In terms of both political and economic strategies, a certain line was formed between the Central Asian countries against the great powers (Russia, the United States).

Given the region's favorable economic and geographical advantages, the United States planned to strengthen its influence in the region and become a key player in economic projects. In this case, the escalation of political tensions between the United States and Iran also worries Central Asian countries, casting doubt on their hopes for it as a result of US sanctions. Given that Central Asian countries have from time to time voiced the weak US presence in the region in terms of security. In this regard, the US government sought to gain an advantage in the national interest by resolving the issue of Iran's nuclear program as soon as possible.

The US interest in the Central Asian region, where various political and economic processes were taking place, had been growing.

***Keywords:*** *USA, Central Asia, Iran, cooperation, security*

Baş redaktorun müavini, s.e.d, prof. Gülzar İsaxan qızı İbrahimovanın rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 32**

# AZƏRBAYCANLILARIN DEPORTASİYASI MİQRASİYANIN ZORAKI-MƏCBURİ FORMASI KİMİ: TARİXİ-SİYASİ TƏHLİL

**Rasim RZAXANOV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 26 oktyabr 2021; çapa qəbul edilmişdir: 16 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 26 th October, 2021; accepted: 16 th November, 2021; published online: 29 th December, 2021.*

***Açar sözlər:*** *Azərbaycan, Qərbi Azərbaycan, erməni vandalizmi, miqrasiya, soyqırım, zorakılıq, informasiya, köçkünlük, deportasiya, şovinizm, demoqrafiya, tarixi təhlil*

## Giriş.

XX əsrin sonlarında SSRİ-də millətlərarası münasibətin qəti şəkildə pisləşməsi sovet liderinin – Leninin milli siyasət formasının böhranıyla əlaqədardır. O zamandan xalqların milli xüsusiyyətləri, milli özünəinamı, milli şüuru əhəmiyyət kəsb edir. Bu kontekstdə Cənubi Qafqazda müasir etnik münaqişə xüsusilə diqqətəlayiqdir. Regionda üç böyük münaqişə var. Bunlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə bağlı işğalçı Ermənistan Respublikası ilə münaqişə və Gürcüstan Respublikasında Abxaziya və Cənubi Osetiya münaqişəsidir. Hər üç münaqişədə minlərlə insan zorakılıqla mühacirətə və deportasiyaya məruz qaldı və dolanışıq vasitələrini, yaxınlarını və evlərini itirdi.

Məqalədə çar Rusiyasının, sonra isə Ermənistanın Qərbi Azərbaycan və Azərbaycan Respublikası ərazilərində həyata keçirdikləri etnik təmizləmə siyasətinin elmi-siyasi təhlili verilmiş, burada xalqımızın zəngin tarixi keçmişinə aid maddi-mənəvi mədəniyyətin çoxsaylı nümunələri göstərilmişdir. Dağlıq Qarabağ respublikamızın ərazisində lazımsız yerə yaradılmış geniş hüquqlara malik muxtar orqan kimi DQMV bir çox sosial-iqtisadi üstünlüklər əldə etmişdir. Rayonun əhalisini əsasən azərbaycanlılar və ermənilər təşkil etsə də, Ermənistanın xalqımıza qarşı apardığı terrorçu-separatçı siyasəti azərbaycanlıların Qərbi Azərbaycandan zorla deportasiyası ilə nəticələnməklə yanaşı, həm də müasir beynəlxalq təhlükəsizliyə ciddi təhdid yaratmış, Azərbaycanın tarixi ərazilərinin işğalı ilə nəticələnmişdir.

## I. Müasir beynəlxalq münasibətlər

Müasir beynəlxalq münasibətlərdə baş verən ciddi dəyişikliklər ötən əsrin 90-cı illərində dünyanın geosiyasi simasını dəyişdi, böhranlar və təlatümlər bütün planetə yayıldı, dünya siyasəti az müddət ərzində də olsa monolitləşdi, yeni geosiyasi mənzərə formalaşmağa başladı. Bütünlüklə bunlar ciddi toqquşma və münaqişələrlə müşayiət olunur, etnik münaqişələr təkcə regional deyil, həm də nəzarətdən çıxır, fiziki məhv olmaq təhlükəsi qarşısında xalqlar, etnik qruplar, milli azlıqlar və qruplar zorla deportasiya edilir. Bu cür zorakı köçkünlər qaçqınlar, və kütləvi soyqırımlarla müşayiət olunub və biz ötən əsrdə etnik münaqişələr və lokallaşdırılmış müharibələri əsas gətirərək belə hadisələrin, demək olar ki, geniş vüsət aldığını görürük.

* dissertant, Bakı Dövlət Universiteti
*e-mail: rasimrzaxanov@mail.ru*

Sosialist dünya sisteminin süqutu ilə əvvəllər beynəlxalq münasibətlər sistemində geniş təsir dairəsinə malik olan bir sıra siyasi və sosial-iqtisadi qüvvələr meydandan çıxdı, yeni güc münasibətləri və güc mərkəzləri, bir çox müstəqil dövlətlər yarandı. Dünyanın siyasi mənzərəsini dəyişdirən, dünya siyasi arenasına çıxan bu yeni aktyorlar özləri ilə nəinki yeni qaydalar gətirdilər, həm də bəzən həlli çətin olan ciddi problemlər yaratdılar ki, bu da dünyanı daha xaotik edir.

Elə bu dövrdən də insanların hüquq və azadlıqları məsələsi tədricən yeni düşüncə tərzi formalaşdıraraq dünyanın diqqətini cəlb edən məsələlər sırasına keçdi. Həll edilməli olan problemlər və münaqişələr arasında regional çərçivədən xeyli kənarda beynəlxalq xarakter almış Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi xüsusi yerdədir. Bunun nəticəsində də Azərbaycana məxsus ərazi bütövlüyü pozulmuş, bir milyondan çox insan evsiz-eşiksiz qalmış, öz doğma şəhərlərində qaçqın vəziyyətinə düşmüş, torpaqların 20 %-i Ermənistana məxsus silahlı qüvvələr tərəfindən işğal edilmiş, deportasiya isə ən bariz və faciəli forma olmuşdur [12, s. 24].

Azərbaycan xalqının tarixən Cənubi Qafqazın yerli xalqları olduğunu təkcə bir çox tədqiqatlar deyil, həm də çoxsaylı maddi mədəniyyətin dəlilləri sübut edir. Ölkəmizə məxsus təbii sərvətlər, coğrafi mövqeyimiz, dinimiz və dilimiz həmişə bu ölkəni nəzərdə tutan dövlətlərin mənafeyinə uyğun olub və zaman-zaman xaricdə təcavüzlər həyata keçirilib. Sovet imperiyası dağılmazdan əvvəl Ermənistan SSR ərazisində Dağlıq Qarabağın ərazisini zəbt etmək istəyiylə etnik azərbaycanlıları sıxışdırmağa başladı. Nəticədə bu geniş vüsət alan hal digər ətazilərə də yayıldı. Belə bir vəziyyət zorakı miqrasiya kimi qiymətləndirilməlidir.

Yığılmış sənədlərin və materialların tədqiqi onu sübut edir ki, azərbaycanlıların öz vətəni Qərbi Azərbaycandan deportasiya edilməsi məqsədli olaraq 4 etapda, sistemli formada həyata keçirilib [4, s. 91]. Qərb tədqiqatçılarının fikrincə, SSRİ ərazisində Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla əllidən çox potensial münaqişə ocaqları mövcud olmuşdur [1, s. 26]. Lakin məhz burada məcburi köç başladı və bir növ Dağlıq Qarabağda sovet dövlətinin süqutu başladı, proses tezliklə zəncirvarı xarakter aldı.

Yeni fikrin əsas vəzifəsi SSRİ-nin süqutunda  baş vermiş münaqişələr və onların Azərbaycanda, həmçinin Cənubi Qafqazda törətdiyi fəsadlar, onların səbəb və nəticələri, müasirlik işığında Rusiyanın rolu və məqsədlərini aydınlaşdırmaq olmalıdır. Onlarsız azərbaycanlıların deportasiyasının tarixini, səbəblərini və məqsədlərini mühakimə etmək, fövqəldövlətlərin planlarını aydınlaşdırmaq mümkünsüzdür [8, s. 4]. Bu, onun ictimai-siyasi xarakterini aydınlaşdırmaq üçün deportasiyanı kəmiyyət və keyfiyyətcə mühacirətin xüsusi halı kimi təsvir etməyə imkan verir.

**XX əsrin sonlarında SSRİ-də millətlərarası münasibətin qəti şəkildə pisləşməsi sovet liderinin** – Leninin milli siyasət formasının böhranıyla əlaqədardır. O zamandan xalqların milli xüsusiyyətləri, milli özünəinamı, milli şüuru əhəmiyyət kəsb edir. Bu kontekstdə Cənubi Qafqazda müasir etnik münaqişə xüsusilə diqqətəlayiqdir. Regionda üç böyük münaqişə var. Bunlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə bağlı işğalçı Ermənistan Respublikası ilə münaqişə və Gürcüstan Respublikasında Abxaziya və Cənubi Osetiya münaqişəsidir. Hər üç münaqişədə minlərlə insan zorakılıqla mühacirətə və deportasiyaya məruz qaldı və dolanışıq vasitələrini, yaxınlarını və evlərini itirdi.

Lakin Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi digərlərindən çox fərqlidir. Abxaziya və Cənubi Osetiyada yaşayan abazin və osetinlər yerli xalq idilər və özlərinin ərazilərində milli kimliklərini qorumaq üçün Rusiya imperiyasının himayədar-

lığından yararlanırdılar. Dağlıq Qarabağ məsələsi tamam başqadır. Ona görə də bu bölgədə münaqişənin səbəbkarı sayılan erməni milləti yerli deyil, XIX əsrin əvvəllərindən ruslar tərəfindən köçürülmüşdür [14, s. 69]. XIX əsrdə çoxsaylı mənbələr, dövrün rus yazıçıları və əsgərləri, 1828-ci ildəki Türkmənçay müqaviləsinin şərtləri və erməni müəlliflərinin özləri bunu aydın şəkildə əsaslandırır.

Xalqımızın maddi və mənəvi mədəniyyətinin çoxlu nümunələrinə rast gəlinən Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində geniş hüquqlara malikdir. Rayonun əhalisini əsasən ermənilər və azərbaycanlılar təşkil edirdi. Erməni əhalinin sistemli şəkildə bu ölkələrə köçürülməsi Azərbaycan xalqının mühacirətinin əsasını təşkil etmişdir. Ərazidəki dəyişiklik nəticəsində millətin 77 faizi ermənilər, 22 faizi isə azərilərdən ibarət oldu. 14 may 1805 - Kürəkçay müqaviləsi Qarabağ xanlığının Rusiyaya birləşdirilməsi ilə əlaqədar Dağlıq Qarabağın mədəni-etnik simasının tədricən dəyişməsinin başlanğıcı oldu [2, s. 271-276].

**XIX əsrin əvvəllərində Qarabağ xanlığının Rusiya imperiyasına birləşdirilməsindən sonra** 1805-ci ildə imzalanmış sədaqət andının giriş hissəsində Qarabağ xanlığının əsl azərbaycanlı kimi Rusiya imperiyasına birləşdirildiyi bildirilirdi. Xanlıq, biz, yəni Şuşa və Qarabağ xanı İbrahim xan və bütün rus qoşunlarının piyada qoşunlarının generalı, Qafqaz inspektorunun piyada inspektoruyuq. Pavel Sisianov, mərhəmətli böyük İ.A.Aleksandr Pavloviçin tam səlahiyyəti və iradəsi ilə, Allahın köməyi ilə bütün ailənin, İbrahim xanın nəslinin və Şuşa və Qarabağ torpağı [2, s. 276] Rusiyanın tabeliyinə qəbul etdik. Görünür, "ermənilər" sözü nə burada, nə də bütün müqavilədə qeyd olunmayıb. Ona görə də ermənilərin bu əraziləri özlərinin tarixi vətəni elan etmələrinin heç bir əsası yoxdur və burada aparılan etnik təmizləmə siyasəti xalqımızın mühacirət tarixində ilk mərhələ sayılır.

Tarixi faktları saxtalaşdırmaqda erməni siyasətçilərinin yazıları ilə həqiqətin uzlaşmaması dünya ictimai fikrində tədricən dəyişikliklərə səbəb olur. Erməni separatçılarının ideoloqu Zori Balayanın şovinist məzmunda "Ocaq" kitabı məlum tarixi faktları məqsədli saxtalaşdırır və sanki gələcəyə ideoloji zəmin hazırlayır. Müəllif heç bir işarə göstərmədən yazırdı ki, "keçən əsrin əvvəllərində Ermənistanın bölgələrindən olan Qarabağda ermənilərin 28 %-i yaşayırdı. Necə oldu ki, bir neçə immiqrant birdən-birə Rusiyadakı başqa bir ölkəyə könüllü qoşulmağa qərar verdi?" [9, s. 41]. Əksinə, Qafqazdakı rus qoşunlarının baş komandiri knyaz P.D.Sisianov 22 may 1805-ci il tarixli məruzəsində belə yazırdı: "Qarabağ coğrafi baxımdan Azərbaycanındır" [3, s. 38]. Diqqət etsək ki, ermənilər həmişə azlıq təşkil ediblər və kompakt olmalarına baxmayaraq, Qafqaza məxsus ərazilərdə demoqrafik gedişata təsir gücündə olmayıblar, o zaman onların sıxışdırıldığını faktlarla sübut etmək mümkünsüzdü. Rusiya imperatoru I Pyotrun dövründən faktlara və sənədlərə əsaslanaraq görə bilərik ki, ermənilər sistemli, dönməz və davamlı olaraq Azərbaycan ölkələrinə köçürülərək sosial baza kimi istifadə olunublar.

**2. Türkmənçay müqaviləsi**

XIX əsrə dair faktlara əsasən, çar Rusiyasının tabeliyinə daxil olduqdan bəri Qarabağ quberniyasında Şuşa şəhəri və 450-si müsəlman kəndi olmaqla 600-ə yaxın kənd var idi. Bu kəndlərdə 20 minə yaxın ailə və ya 90 min nəfər yaşayırdı ki, onlardan da yalnız 11 minə yaxını erməniydi [2, s. 277-283]. Rus müəlliflərinin qeydlərində ermənilərə ancaq xristian olduqları səbəbinə himayədarlıq edilir, baxmayaraq ki, onların xəyanəti hər kəsə məlumdur.

**Türkmənçay müqaviləsi** bu problemin əsas mənbəyi olmuşdur. On dördüncü və on beşinci maddələrinə və Ədirnə sülh müqaviləsində [11, s. 16] ermənilərin müxtəlif ərazilərdən Azərbaycana müxtəlif üsullarla, o cümlədən Qarabağa köcürülməsinə start verilmişdir.

Ermənilərin Azərbaycana köçürülməsi yerli əhali tərəfindən açıq qarşılanmasa da, çar hökuməti tərəfindən himayə olunan ermənilərə təsir etmək sadə bir proses olmasa da demoqrafik nisbətlərin dəyişməsi ermənilərlə azərbaycanlıların arasında etnik münaqişələrə səbəb oldu. Lakin bir tək bu müharibənin baş vermə səbəbi deyil. Müharibənin başlama səbəbi də tarixdə gizlidi. Yəni ermənilər həmişə yaşadıqları yeri özlərinə "vətən" görüb, yerli xalqı nəyin bahasına olursa-olsun deportasiya edirlər.

Erməni əhalisinin məskunlaşdığı ölkələrin ərazilərini mənimsəmələrində 2 amil hərbi və siyasi amil əsas olmuşdur. XX əsrin əvvəllərindən erməni könüllülərinin bu cür məqsədli fəaliyyəti artaraq ilk əvvəl Rusiya imperiyasının süqutundan sonra ilk əvvəl Türkiyə dövlətinə qarşı döyüşmüşlər, daha sonra Nejdenin, Dronun və başqa quldurluq edən başçılar ilə Azərbaycana təcavüz edərək əhaliyə soyqırım yaşadırlar [13, s. 118].

Məlum olduğu kimi, ermənilər Türkiyəyə qarşı hərbi əməliyyatlarda Birinci Dünya Müharibəsinin başlanmasından istifadə edərək rus qoşunlarının tərkibində silahlı birləşmələr yaradaraq türklərə qarşı çoxsaylı terror aktları və soyqırımlar həyata keçirmiş, lakin türk ərazisində erməni dövləti yarada bilməmişlər. 1918-ci ilin oktyabrında Antanta dövlətləri ilə Türkiyə arasında Mudros müqaviləsi imzalandıqdan sonra türk qoşunları Cənubi Qafqazdan, o cümlədən Bakıdan geri çəkilməli oldu. Bu fakt erməni separatçı dəstələrinin Azərbaycan xalqına qarşı qırğın siyasətini yenidən başlatdı. Zəngəzurdakı ingilis-fransız missiyasının dəstəyindən ruhlanan ermənilər yenidən fəallaşaraq Zəngəzuru, Naxçıvanı və Qarabağı əldə etmək üçün növbəti uğursuz cəhdə əl atdılar [13, s. 43].

**3. Sovet imperiyasının dağılması və dövlət müstəqilliyinin bərpası**

1919-cu ildə Azərbaycan-Ermənistan müharibəsi və Ermənistanın xalqımıza qarşı etnik təmizləmə siyasəti amansızcasına həyata keçirildiyi zaman Britaniya rəhbərliyi Azərbaycanın xeyrinə silsilə addımlar atmağa məcbur oldu. V.İ.Tomson Qarabağ və Zəngəzuru Azərbaycanın müvəqqəti idarəsində saxlamağa qərar verdi. Ermənistanın təxribat cəhdi uğursuz oldu, lakin ermənilər bu qərarla razılaşmadılar və onların hərəkətləri vəziyyəti xeyli pisləşdirdi. Lakin 15 avqust 1919-cu il tarixində ermənilərin Qarabağda keçirilən iclasında "Dağlıq Qarabağ erməniləri ilə Azərbaycan hökuməti arasında müvəqqəti müqavilə"nin müəyyən edilməsi haqqında qərar qəbul edildi [7, s. 29]. Bu, etnik təmizləmə və qırğınlara baxmayaraq beynəlxalq dəstək tapmayan Ermənistanın Dağlıq Qarabağ siyasətini iflasa uğratdı.

**Sovet imperiyasının dağılmasından və dövlət müstəqilliyinin elan edilməsindən sonra** Azərbaycanla Ermənistan arasında etnosiyasi münaqişələr Ermənistanın respublikamıza qarşı elan edə bilmədiyi müharibə xarakteri almışdır. Azərbaycanlıların Qərbi Azərbaycandan deportasiya edilməsi yekunlaşdıqdan sonra Ermənistan bu siyasi addımı Qarabağda daha amansızcasına tətbiqinə başladı. "SSRİ-nin dağılmasından sonra ölkədəki erməni diasporunun güclü təzyiqi ilə Rusiya Ermənistanla strateji əməkdaşlıq konsepsiyasını xarici siyasət kursuna çevirdi. Nəticədə azsaylı könüllü azərbaycanlı dəstələrə qarşı hərbi əməliyyatlara Ermənistan silahlı qüvvələri ilə qoşulan Rusiya ordusu 1992-ci il fevralın 25-dən 26-na keçən gecə əsrin Xocalı soyqırımını törədilib ki, bu da Azərbaycana 60 milyard ABŞ dolları məbləğində ziyana səbəb olub." [5, s. 92]. Onu da əlavə edək ki, nəticədə qaçqın düşmüş 1 milyondan çox soydaşımız başqa ölkələrdə mühacirətə

getməyə və ya qaçqın həyatı yaşamağa məcbur olub.

Ermənistanın hərbi və diplomatik-siyasi səylərinə baxmayaraq, nə tarixən, nə də bu gün Azərbaycan əraziləri hesabına genişlənmək cəhdləri istənilən uğuru verməyib və verməyəcək. Ermənistanın müxtəlif cəbhələrdə rus təşkilatlarından maddi və mənəvi dəstək almasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin qüvvələri 1918-1919-cu illərdə öz silahlı qüvvələrini Şimali Azərbaycanından çıxarıblar. Şimali Azərbaycanın yenidən Rusiya tərəfindən işğalı Ermənistanın qollarını yenidən açdı. Ancaq Gümrü, Qars və Moskva sazişlərinin imzalanması ermənilərin Azərbaycan torpaqlarına genişmiqyaslı hücumlarının qarşısını aldı.

Lakin 1920-ci ilin aprelində Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ermənilər yerli əhalini deportasiya edərək Azərbaycan ölkəsini işğal etməyə başladılar. Respublika ərazilərinin təhlükəsizliyini təmin etməyi öhdəsinə götürən bolşeviklər buna əhəmiyyət vermədilər. AXC-nin rəhbərləri tərəfindən ona verilən torpaqda yaradılmış Ermənistan dövləti hələ sovet dövründə Zəngəzur, Naxçıvan və Qarabağ torpaqlarına iddia qaldırmağa başlayıb. Rusiyanın təzyiqiylə Azərbaycan Sovet hökumətinin başçısı N.Nərimanov 1920-ci il dekabrın 1-də bəyan etdi ki, “o vaxtdan bəri əsrlər boyu heç bir ərazi mübahisəsi həll olunmayıb” [1, s. 34]. Bəyannamədə göstərilir ki, Azərbaycan “Dağlıq Qarabağda zəhmətkeş kəndlilərə öz müqəddəratını təyin etmək hüququ verir” [1, s. 39].

### 4. Dağlıq Qarabağ Muxtar Vilayəti

Dağlıq Qarabağın status məsələsi 1921-ci il iyulun 5-də RK(b)P MK Qafqaz İdarəsinin plenumunda müzakirə olundu. İ.V.Stalin, Mərkəzi Komitənin üzvü, Q.K.Orconikidze, F.İ.Maharadze, Qafqaz İdarəsinin üzvləri S.M.Kirov, N.N.Nərimanov, A.F.Myasnikov, A.Nazaretyan, M.Oraxelaşvili və Y.P.Fiqatnerin iştirakı ilə müzakirə çox gərgin keçdi. Çətin müzakirədə N.Nərimanovun qətiyyəti səbəbindən qərar verildi ki, müsəlmanlar və ermənilər arasında milli sülh, yuxarı və aşağı Qarabağın iqtisadi ehtiyacı, onların Azərbaycanla daimi əlaqəsi, Dağlıq Qarabağ Azərbaycan SSR-in ərazi diapazonunda muxtar vilayət şəklində qalsın və mərkəsi Şuşa şəhəri olsun.

Lakin Ermənistanın iddiaları nə olsa da, Dağlıq Qarabağda yaşayan erməni milləti Ermənistanla birləşmək istəyi olmayıb və bu faktı Ermənistan dəstə başçılarından biri olan A.Mikoyan deyirdi. Belə ki, 1919-cu il mayın 22-də V.İ.Leninə yazdığı məktubda deyilir: “Erməni daşnak agentləri Qarabağı Ermənistana birləşdirməyə çalışırlar, lakin qarabağlılar üçün bu, Bakıda dolanışığını itirmək demək olardı. İrəvanla heç nə bağlı ola bilməz” [6, s. 85]. Bu fakta görə Ermənistan dövləti qərarı qəbul etməyə məcbur qalsa da onların azərbaycan xalqına qarşı təcavüzkarlıq niyyəti bitmədi.

Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) mövcudluğundan sonra rayonun inzibati orqanları çox fəal işləməyə başladılar. Bu tədbirin əsas məqsədi həm bölgə işlərində, həm də mərkəzdə azərbaycanlıların xüsusi çəkisini azaltmaq idi və sonralar bu siyasət davam etdirildi və hətta rayonun Ermənistan SSR-ə birləşdirilməsi təkrarlandı. Lakin sovet dövründə buna nail ola bilməyən ermənilər Ermənistan SSR-də yaşayan azərbaycanlıların böyük bir hissəsini deportasiya etməyə nail olublar. 1946-1953-cü illərdəki deportasiyalar yüz minlərlə soydaşımızın itkisi ilə nəticələndi. Bundan sonra bölgənin ermənilər arasında birləşməsi – “miatsum” təbliğatı davam etdirilmiş, erməni soyqırımı adı altında Azərbaycan türklərinə qarşı təzyiqlər güclənmiş və azərbaycanlıların xüsusi çəkisi azaldılmışdır.

**Nəticə**

Ermənilər Dağlıq Qarabağda Sovet İttifaqının dağılması əsnasında növbəti Demarşı başladığında Rusiyanın "obyektiv" mövqe tutmayan, qərəzli mətbu orqanları, Dağlıq Qarabağın muxtariyyəti, onların orijinal Azərbaycan torpaqları olması faktını qeyri obyektiv elan edərək ətrafdakı yaranmış hadisələri daha da qızışdırmışdır. Məsələn, 1988-ci il martın 20-də "Moskva Nyus" qəzeti "Öz müqəddəratını təyinetmə və hərəkətsizliyin bəhrələri" sərlövhəli məqaləsində qərəzli yazır ki, V.İ.Lenin 1920-ci ildə bu qərarı həyata keçirmək üçün Dağlıq Qarabağı Ermənistana bağışlamışdır. Nərimanov vəzifə səlahiyyətlərinə söykənərək qərarın icrasını mümkünsüz etmişdir. Belə bir mövqeyi konkret vəziyyətlə əlaqələndirmək üçün məlumdur ki, erməni əhalisinin demoqrafik üstünlüyünü təmin etmək üçün azərbaycanlı əhalinin məcburi köçürülməsi zəruri idi. Oxşar mövqe bir çox Rusiya mediası, radio və televiziyası tərəfindən də ifadə olunub. Rusiyadan, ABŞ-dan, Fransadan və başqa ölkələrdən efirləri və medianı dezinformasiyalarla dolduran müxtəlif informasiya mənbələri silsilə verilişlər, analitik məqalələr həsr etməklə Azərbaycan türklərini dünyaya "aqressiv xalq" kimi tanıdırlar. Onlar kitablarla "məzlum ermənilərin" Azərbaycandan deportasiyası, digər tərəfdən azərbaycanlıların soyqırımlarını, deportasiyalarını məharətlə ört-basdır etməyi bacardılar. Bu baxımdan, Rusiyada daha geniş təbliğat auditoriyası olan mərkəzi televiziyanın "Pozitiv" proqramının moderatoru və müəllifi Haynrix Boroviçin fəaliyyəti erməniləri xüsusilə sevindirdi. Onun televiziyada hadisələri birbaşa saxtalaşdırması ölkəmizə, xalqımıza qarşı aparılan informasiya blokadasının tərkib hissəsi idi. H.Borovik birbaşa televiziya vasitəsilə "Dağlıq Qarabağın 1920-ci ildə Ermənistana məxsus olduğunu və 1923-cü ilə qədər Azərbaycana qaytarılmadığını" elan etdi [10]. Təsadüfi deyildi ki, bu informasiya blokadasına görə xalqımız müstəqilliyin ilk illərində ölkəmizlə bağlı həqiqətləri və Ermənistanın ölkəmizə qarşı apardığı separatçı terror siyasətinin mənfi nəticələrini dünya ictimaiyyətinə çatdıra bilmədi.

Ümumiyyətlə, XIX əsr və XX əsrin əvvəllərinə qədər olan dövrdə  xalqımız və dövlətimizə qarşı keçirilən məkrli rus-erməni siyasəti nəticəsində azərbaycanlıların Qərbi Azərbaycandan deportasiyasına başlanılması, tarixi Azərbaycan dövlətlərinin ermənilər tərəfindən özəlləşdirilməsi nəticəsində məcburi köçkün və deportasiya edilən xalqımız nəinki dünyanın müxtəlif yerlərində qaçqın həyatı yaşayıb, hətta dünyanın müxtəlif ölkələrinə mühacirət etmək məcburiyyətində qalıblar.

**ƏDƏBİYYAT**

1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqrım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 129 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1989, 400 s.
3. Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar və ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı: Azərnəşr, 2003, 72 s.
4. Əliyev İ. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı: Elm, 1989, 120 s.
5. Güləliyeva A.A., Məmmədov Q.H. Beynəlxalq münasibətlərin formalaşmasının əsasları və təkamülü (Azərbaycan Respublikasının ATƏT-də iştirakı timsalında). Dərs vəsaiti. Bakı: Bakı Universiteti, 2007, 253 s.
6. İsmayılov F. Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri və müasir dövr. Bakı: İnformasiya Texnologiyaları, 2009, 268 s.
7. Köçərli T. Qarabağ: Yalan və həqiqət. Bakı: Əbilov, Zeynalov və oğulları, 1998, 153 s.

8. Səmədzadə Z. Dağlıq Qarabağ: Naməlum həqiqətlər: Regionun sosial-iqtisadi və demoqrafik inkişafının bəzi cəhətləri haqqında. Bakı: 1995, 57 s.
9. Алиев И. Лжеистория очередная попытка оправдать агрессию. Баку: Нурлан, 2003, 48 с.
10. Гаджиев Ш. Правда и домыслы // Молодежь Азербайджана, 1988, 14 июля. № 2, с.16-18.
11. Дипломатический словарь. Т. 2. М.: Наука, 1985, 504 с.
12. Исторические факты о деяниях армян на азербайджанской земле. Сборник статей. Баку: Элм, 2003, 208 с.
13. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XX вв.). Баку: Элм, 2002, 395 с.
14. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку: Элм, 1990, 156 с.

***Summary***

***Rasim Rzakhanov***

***Deportation of Azerbaijanis as a Violent form of Migration: a Historical-Political Analysis***

Migration processes have historically and recently played an important role in the resettlement of the population, and in this process, different civilizations have united, and rare examples of world culture have served the spiritual enrichment of all peoples. Although the events of the millennium played an important role in demographic change, ethnic conflicts had a devastating effect on the migration process. Among these conflicts, which play a tragic role in the mass and violent migration of the population, the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh, which has taken on an international character beyond the regional framework, stands out.

The sharp deterioration of interethnic relations in the USSR in the late 20th century was due to the crisis of the national policy of the Soviet leader - Lenin. Since then, the national characteristics, national self-confidence and national consciousness of the peoples have become important. In this context, the modern ethnic conflict in the South Caucasus is particularly noteworthy. There are three major conflicts in the region. These are the conflict with the occupying Republic of Armenia over the Nagorno-Karabakh region of Azerbaijan and the conflict between Abkhazia and South Ossetia in the Republic of Georgia. In all three conflicts, thousands of people were forcibly displaced and deported, losing their livelihoods, relatives and homes.

The article provides a scientific and political analysis of the policy of ethnic cleansing pursued by Tsarist Russia, and then Armenia in Western Azerbaijan and the Republic of Azerbaijan, and shows numerous examples of material and spiritual culture of our people with a rich history. Nagorno-Karabakh, as an autonomous body with a wide range of rights created in the territory of our republic, has gained many socio-economic advantages. Although the population of the region is mainly Azerbaijanis and Armenians, Armenia's terrorist-separatist policy against our people has resulted in the forced deportation of Azerbaijanis from Western Azerbaijan, as well as a serious threat to modern international security and the occupation of seven surrounding regions.

***Keywords:*** *Azerbaijan, Western Azerbaijan, armenian vandalism, migration, genoside, violence, information, displacement, deportation, chauvinism, demography, historical analysis*

***Резюме***

***Расим Рзаханов***

***Депортация Азербайджанцев как насильственная форма миграции: историко-политический анализ***

Миграционные процессы исторически и в последнее время играли важную роль в расселении

населения, и в этом процессе объединились разные цивилизации, а редкие образцы мировой культуры послужили духовному обогащению всех народов. Хотя события тысячелетия сыграли важную роль в демографических изменениях, этнические конфликты оказали разрушительное воздействие на процесс миграции. Среди этих конфликтов, которые играют трагическую роль в массовой и насильственной миграции населения, выделяется армяно-азербайджанский конфликт из-за Нагорного Карабаха, который принял международный характер за пределами региональных рамок.

Резкое обострение межнациональных отношений в ССР в конце 20 века было связано с кризисом национальной политики советского лидера - Ленина. С тех пор национальные особенности, национальная самоуверенность и национальное самосознание народов стали важными. В этом контексте особого внимания заслуживает современный этнический конфликт на Южном Кавказе. В регионе есть три основных конфликта. Это конфликт с оккупирующей Республикой Армения из-за Нагорно-Карабахского региона Азербайджана и конфликт между Абхазией и Южной Осетией в Республике Грузия. Во всех трех конфликтах тысячи людей были насильственно перемещены и депортированы, лишившись средств к существованию, родственников и домов.

В статье дается научный и политический анализ политики этнических чисток, проводимой царской Россией, а затем Арменией в Западном Азербайджане и Азербайджанской Республике, показаны многочисленные примеры материальной и духовной культуры нашего народа с богатым историческим прошлым. Нагорный Карабах, как автономный орган с широким кругом прав, созданный на территории нашей республики, получил множество социально-экономических преимуществ. Хотя население региона в основном азербайджанцы и армяне, террористическая сепаратистская политика Армении в отношении нашего народа привела к принудительной депортации азербайджанцев из Западного Азербайджана, а также к серьезной угрозе современной международной безопасности и оккупации семи прилегающих регионов.

***Ключевые слова:*** *Азербайджан, Западный Азербайджан, армянский вандализм, миграция, геноцид, насилие, информация, смещение, депортация, шовинизм, демография, исторический анализ.*

Baş redaktorun müavini, s.e.d, prof. Gülzar İsaxan qızı İbrahimovanın rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**
**UOT 342.5**

# 10 NOYABR ÜÇTƏRƏFLİ BƏYANATIN TƏHLİLİ

**Ülkər MƏMMƏDZADƏ***

*Məqalə redaksiyaya daxil olmuşdur: 8 oktyabr 2021; çapa qəbul edilmişdir: 9 noyabr 2021; online-da çap edilmişdir:29 dekabr 2021.*
*Received: 8 th October, 2021; accepted: 9 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:** İkinci Qarabağ müharibəsi, prezident, İlham Əliyev, Ermənistan-Azərbaycan münaqişəsi, Qafqaz*

## Giriş

Azərbaycanda bütün istiqamətlərdə olduğu kimi, ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş müstəqil xarici siyasət kursu da Prezident İlham Əliyev tərəfindən ardıcıl olaraq davam etdirilir. Ümummilli lider Heydər Əliyevin timsalında Azərbaycan xalqı əsrlərin və minilliklərin qovuşub-ayrıldığı nadir bir tarixi məqamda real istəklərindən əlavə, romantik ideallarını da gerçəkləşdirmiş əfsanəvi liderin ətrafında görünməmiş bir vüsət və coşqu ilə səfərbər olunmuşdur. Bu dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin şəriksiz və misilsiz qələbəsi idi. Həmin qələbə isə XXI əsrin ilk illərində ölkə daxilində və beynəlxalq aləmdə ulu öndərin gerçək siyasi varisi kimi qəbul edilən İlham Əliyevin qarşısında yüksək fəaliyyət perspektivləri, yeni siyasi-iqtisadi, mənəvi-ideoloji üfüqlər açırdı. [1] Ulu Öndər Heydər Əliyevin həyata keçirməyi yarım qalan mühüm məsələlər bu gün artıq Prezident İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir.

Müstəqilliyin 30-cu ilinə qədəm qoyan Azərbaycan bu zaman ərzində önəmli uğurlar əldə etmişdir. Azərbaycan Qafqaz regionu ilə yanaşı, həm də beynəlxalq arenada öz sözünü deyən, və xüsusi çəkisi olan ölkələrdəndir. Azərbaycan Respublikası beynəlxalq təşkilatlardakı nüfuzunun yüksək olmasını artıq iki ildir ki, Qoşulmama Hərəkatına sədrlik etməsi ilə sübuta yetirir və bu, ölkəmizin çox vacib diplomatik uğurudur. Azərbaycanın beynəlxalq arenadakı nailiyyətlərindən bəhs edərkən ölkəmizin iqtisadi baxımdan Qafqaz bölgəsində həlledici rola malik olduğunu xüsusi vurğulamaq lazımdır. Bunun isbatı kimi məhz Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən genişmiqyaslı layihələrin nəticələrini göstərmək olar.

Qafqazın ən böyük etnik-ərazi konflikti olan Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan dövlətinin qarşısında duran ən mühüm məsələlərin birincisi olduğundan bu problem Prezident İlham Əliyevin xarici siyasətində hər zaman önəmli əhəmiyyət kəsb etmişdir. Artıq 30 ilə yaxın bir dövr idi ki, minlərlə Azərbaycanlı öz doğma dədə-baba yurdlarından didərgin düşərək erməni vandalizminin qurbanına çevrilmişdir, Ermənistan tərəfi Azərbaycanın əzəli ərazilərini işğal etmişdir. Bir milyona yaxın məcburi köçkün səbrsizliklə bütün bu illər ərzində Prezident İlham Əliyevə böyük ümid bəsləyərək öz doğma yurdlarına qayıdacaqları günü gözləmişdir. Artıq 1 ildir ki,bu ümidlər doğruldu., Ali Baş Komandan Prezident İlham Əliyevin liderliyi və qətiyyəti ilə Azərbaycan ordusu Azərbaycanın yeni, şanlı tarix səhifələrini yazdı və biz tarixçilər, bu fəxarət dolu şanlı zəfər tarixini gələcək nəsillərə böyük qürur hissi ilə çatdıracağıq!

* doktorant, Bakı Dövlət Universiteti
*e-mail: Ulkar_m23@hotmail.com*

**İkinci Qarabağ müharibəsinin başlaması**

Sentyabrın 27-də saat 6 radələrindən başlayaraq təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmrilə Ermənistan Silahlı Qüvvələri Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının təmas xəttində sıx məskunlaşma olan kəndləri ilə yanaşı, cəbhə xəttindən yüz kilometrlərlə aralıda yerləşən Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrinin mülki infrastruktur obyektlərini ballistik raketlərlə, fosforlu və kasetli bombalarla, klaster silahlarla atəşə tutaraq mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə başladı. Ərazisinə minlərlə mərmi düşən Tərtər şəhəri İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyirdi. Erməni silahlılarının bu vandallıqları Ali baş komandanın əmri ilə Azərbaycan Ordusunu əks tədbirlər görməyə vadar etdi. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar olaraq, Prezident fərmanı ilə 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edildi. 28 sentyabrda imzalanmış sərəncama görə isə respublikada qismən səfərbərlik elan edildi. [6]

Azərbaycan Ordusunun həyata keçirdiyi “Dəmir Yumruq” əməliyyatının ilk günlərində Füzuli və Tərtər rayonları istiqamətində, o cümlədən Murovdağda bir çox strateji məntəqələr azad edilərək irimiqyaslı hərbi əməliyyatlar davam etdirildi. Oktyabrın 3-də şimal cəbhəsində irəliləmək üçün yüksək əhəmiyyətə malik olan Tərtərin Madagiz kəndi işğaldan azad edilərək orada Azərbaycan bayrağı qaldırıldı. Elə həmin gün kəndin tarixi adı da Prezident tərəfindən bərpa edildi – Suqovuşan. Cənub cəbhəsi boyu irəliləyərək oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə Hadrut (pəhləvi dilində İkiçayarası deməkdir) qəsəbəsini düşməndən təmizləyən Azərbaycan Silahlı Qüvvələri Xocavənd rayonunun ərazisində əlverişli mövqeləri ələ keçirdi.

Düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan ordusunun ermənilər tərəfindən uydurulan “məğlubedilməz erməni ordusu” mifini məhv etməsi Ermənistan hakimiyyətini atəşkəs istəməyə məcbur etdi. Rusiyanın təşəbbüsü ilə münaqişə tərəflərinin xarici işlər nazirlərinin Moskva şəhərində 9-10 oktyabr görüşündə atəşkəslə bağlı razılıq əldə etməsinə baxmayaraq, bir neçə saatdan sonra Ermənistan tərəfi yenidən hücum cəhdi göstərdi. Əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələri oktyabrın 17-də Füzuli şəhərini işğalçılardan təmizlədi, 18-də Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı, 20-də isə Zəngilan şəhərini azad etdi. Hər qarış torpaq Azərbaycanın igid əsgər və zabitlərinin canı və qanı bahasına azad edilirdi. Ali baş komandan televiziya ilə xalqa müraciət edərkən Füzuli şəhərinin azad edilməsinin çətinliyini xüsusi vurğulamış, 30 il ərzində düşmənin orada çox möhkəm istehkamlar qurduğunu söyləmişdi. Tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini azad etmək aylarla vaxt alacaq. Lakin qəhrəman Azərbaycan ordusu hərbi kitablara daxil ediləcək mürəkkəb əməliyyatla bu missiyanı yerinə yetirdi və bayraq asmağa bircə salamat binanın da qalmadığı şəhəri azad edə bildi.

Oktyabrın 22-də Zəngilanın Ağbənd qəsəbəsini azad etdikdən sonra Arazın o tayındakı soydaşları tərəfindən alqışlarla müşayiət olunan Azərbaycan əsgərləri İranla dövlət sərhədini tam nəzarətə götürdülər. Erməni hərbi birləşmələrinin geri oturdulması N.Paşinyanı bu dəfə danışıqlar üçün ABŞ-a üz tutmağa məcbur etdi. Oktyabrın 24-də ABŞ Dövlət katibi müavininin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birgə görüşündən sonra münaqişə tərəfləri arasında 10 oktyabr tarixli Moskva bəyanatına uyğun olaraq humanitar atəşkəs haqqında razılıq əldə olundu. Lakin ertəsi günün səhər saatlarında düşmən ölkənin ordusu yenidən Azərbaycanın mövqelərinə hücum etdi. Məşhur “aypara” və ya “qurd tələsi” taktikası ilə əks-hücuma keçən Azərbaycan hərbçiləri Laçın dəhlizinə doğru irəliləyərək Dağlıq Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun 10 kilometrliyindən artilleriya vasitəsilə buraya

nəzarət etməyə başladı. Oktyabrın 25-də Qubadlı rayonu işğaldan azad edildi.

Qarabağ müharibəsi yalnız ön cəbhə ilə məhdudlaşmırdı. Bu müharibə dünya azərbaycanlılarının birliyini bir daha nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin apardığı çirkin kampaniyalara qarşı fədakar fəaliyyət göstərirdilər. Müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycan Respublikasının bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı. Arxa cəbhədə olan vətəndaşlar vuruşan orduya kütləvi yardım kampaniyaları keçirir, qanvermə aksiyaları təşkil edir, həmçinin müxtəlif formalarla mənəvi dəstək olurdular. Müxtəlif təşkilatlar, özəl müəssisə və şirkətlərlə yanaşı, xeyli sayda vətəndaş müharibə zamanı, eləcə də atəşkəsdən sonra orduya daimi maddi dəstək verir, geyim, ərzaq, tibbi ləvazimat və s. yardım göndərməklə vətəndaşlıq borclarını yerinə yetirirdilər. Bu yardımlar o qədər geniş hal almışdı ki, Müdafiə Nazirliyi yardımlara ehtiyacın olmadığı, ordunun hər bir şeylə təmin edildiyi barədə ictimaiyyətə dəfələrlə açıqlamalar verməli olmuşdu. Ermənistana aid bəzi kütləvi informasiya mənbələri isə bu vəziyyətə heyrətini gizlədə bilmirdi.

Azərbaycan dövləti hərb meydanı ilə yanaşı, diplomatik və ideoloji cəbhədə də mübarizə aparırdı. Ölkə başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı. Ölkə Prezidenti Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti haqqında dünya ictimaiyyətini məlumatlandırırdı. Hərbi əməliyyatların nəticəsi Prezidentin rəsmi Twitter hesabından operativ olaraq paylaşıldığından, vətəndaşlar o səhifədəki xəbərləri səbirsizliklə gözləyir, KİV nümayəndələri də oraya istinad edirdilər. Müharibənin gedişində müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına verdiyi müsahibələrdə Ali baş komandan beynəlxalq aləmdə Azərbaycan haqqında formalaşmış yanlış təsəvvürləri aradan qaldırırdı.

Azərbaycan Prezidenti erməni yalanlarına uymuş bəzi xarici müxbirlərin qərəzli suallarını soyuqqanlılıqla cavablandıraraq onları məntiqli arqumentlər əsasında susdururdu. Məsələn, Almaniya televiziya kanallarından birinin müxbirinin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına İlham Əliyev çox sərrast cavab vermişdi: "Elzas və Lotaringiya sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? ... Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir ...". [7]

Azərbaycan növbəti dəfə hücuma məruz qalsa da, çoxsaylı ölkələr və təşkilatlar münaqişəni kəskin şəkildə qınamış və dinc əhalini hədəfə alan Ermənistana sərt reaksiya vermək, işğala son qoymaq çağırışı etmək əvəzinə hər iki tərəfi gərginliyi azaltmağa və danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır. Türkiyə, Pakistan, İsrail, Ukrayna, Əfqanıstan, Şimali Kipr Türk Respublikası və bir neçə başqa ölkə isə Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu dəstəkləmiş, onun ərazi bütövlüyünü tanıdıqlarını bildirmişdir. Türkiyənin mənəvi və siyasi dəstəyi, yüksək vəzifəli rəsmilərinin müharibə müddətində Azərbaycana çoxsaylı səfərləri diplomatik mübarizədə xüsusilə əvəzedilməz rol oynadı.

Ölkəmizin uğurlu xarici siyasətinin əsas istiqamətlərindən biri də Qoşulmama Hərəkatı təşkilatının işində fəal iştirak, bu təşkilata üzv ölkələrlə yaxın əməkdaşlıq münasibətlərinin qurulmasıdır. Belə ki, məhz bu ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi gedişində BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə uyğun olmayan qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alınmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən Azərbaycanda fəaliyyət göstərən ölkələrin səfirliklərinin məsul işçiləri, hərbi nümayəndələri və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərlərinin hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri tərəfindən vandalizmə məruz qalmış Tərtərə, Gəncəyə və digər bölgələrə

səfərləri təşkil olundu. Erməni işğalçılarının azərbaycanlılara məxsus abidələrə qarşı dağıdıcı və hörmətsiz davranışı dünya ictimaiyyətinə nümayiş etdirildi.

Azərbaycan ordusu oktyabrın axırında Çanaqçı kəndini işğaldan azad etdi, ardından da strateji Şuşa-Laçın yolunun bir hissəsinə nəzarəti ələ keçdi. Bu zaman Şuşa şəhəri ətrafında lokal döyüşlər başladı. Azərbaycan tərəfinin hesablamalarına görə, həm ərazi, həm də seçilən marşrut nəqliyyat vasitələri üçün uyğun olmadığından Azərbaycan qüvvələri beş gün Şuşa istiqamətində piyada hərəkət etməli idi. Erməni komandanlığı Azərbaycan qoşunlarının Qırmızı Bazar istiqamətində hücuma keçəcəyini güman edirdi. Çünki Şuşaya qalxan ən rahat Şuşakənd yolu buradan keçirdi. Ermənistan ordusunun Azərbaycan qoşunlarının Şuşaya həmləsini gözlədiyi ikinci istiqamət isə Laçın idi. Lakin Azərbaycan ordusunun komandanlığı öz miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş qərar verərək Şuşaya sıx Qarabağ meşələrindən 3 gün ərzində onlarla kilometr uzunluğunda yeni yol açdı. Azərbaycan ordusunun Laçın dəhlizinə nəzarət etməsi nəticəsində Şuşadakı işğalçı erməni hərbi birləşmələri əlavə dəstək almaqdan məhrum oldu. Yüngül silah-sursatla silahlanmış Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırım qayalarına iplərlə dırmaşaraq, yaralı döyüş yoldaşlarını çiyinlərində daşıyaraq bir neçə yerdən şəhərə daxil oldu. İşğaldan azad edilmiş Daşaltı kəndindəki hərbi bölmələrin atəş dəstəyi ilə Azərbaycan ordusunun dağ piyadaları qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı. Şuşanın azad edilməsi zamanı yüzlərlə erməni hərbçisi məhv edildi, xeylisi itkin düşdü.

Noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan etdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa döyüşləri barədə bunları söylədi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir".

Şuşa azad edildikdən dərhal sonra noyabrın 9-u Dövlət Bayrağı günündə Azərbaycan ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad etdi. Bununla, hərbi əməliyyatlar gedişində işğaldan azad edilmiş yaşayış məntəqələrinin sayı 300-ə çatdı. Şuşanın və ətraf yüksəkliklərin alınması Ermənistanın bütün manevr imkanlarını puça çıxardı. Azərbaycan Ordusu müasir döyüş strategiyasında pilotsuz uçuş aparatlarından (dronlardan) yüksək effektlə faydalanmaqla dünya hərb tarixinə öz şanlı adını yazdı. Azərbaycanın yalançı hədəf kimi istifadəsiz köhnə təyyarələrdən istifadə edərək Ermənistanın hava hücumundan müdafiə sistemlərinin mövqe rayonunu üzə çıxarması, ardınca o sistemləri məhv etməsi fəndi hərb tarixində yenilik kimi qəbul edilir. Türkiyə Respublikası və İsraildən alınmış "Bayraktar" və "Harop", habelə Azərbaycan istehsalı olan "Zərbə" dronları ermənilərin qiyməti milyard dollarla ölçülən hərbi texnikasını, habelə çoxlu miqdarda canlı qüvvəsini məhv etmişdir. Ümumilikdə müharibənin gedişində ölkəmizin hərbi sənaye kompleksinin istehsalı olan geniş çeşiddə silah və hərbi sursatlardan uğurla istifadə edilmişdir. Alınmaz hesab edilən Şuşanın azad edilməsində xüsusi təyinatlılar yüngül atıcı və soyuq silahdan mahir istifadə etməklə Azərbaycan ordusunun şücaətini nümayiş etdirmişdir. Eyni zamanda, həm müasir, həm də ənənəvi hərbi strategiya və taktikanı uğurla tətbiq etmiş Azərbaycan ordusu Ermənistan ordusundan fərqli olaraq, düşmənin dinc əhalisinə insanpərvər münasibət bəsləmişdir. Prezident İlham Əliyev

müharibə ərzində demişdir: "Biz günahsız insanların qisasını yalnız döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki şəxslərə atəş açmayacağıq". [8]

Şuşanın azad edilməsi müharibədə ermənilərin öz məğlubiyyətlərini etiraf etmələrinə gətirib çıxaran həlledici döyüş olmuşdur. Şuşanın azad edilməsindən sonra qondarma rejimin rəhbər vəzifəli şəxsləri başda olmaqla, demək olar, bütün sakinlər Xankəndini tərk etməyə başlamışdı. Döyüşdən bir neçə gün sonra Ermənistan məğlubiyyəti qəbul etməyə məcbur oldu. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin birgə bəyanat qəbul etdilər. Bu bəyanat aşağıda verilir:

"Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir”. [3]

**10 Noyabr sazişi**

10 Noyabr gecəsi, Ermənistan, Azərbaycan və Rusiya liderləri, tanınmamış Dağlıq Qarabağ Respublikasının ərazisində atəşkəs razılaşmasının əldə edildiyini elan etdilər. Hərbi əməliyyatlar sentyabrın 27-dən bəri aparılırdı, hər iki tərəfdə də bir neçə min ölənlər vardı (Rusiya məlumatlarına görə).

Azərbaycan prezidenti İlham Əliyev müqaviləni qələbə adlandırdı, Ermənistanın baş naziri Nikol Paşinyan bununla razılaşmağa məcbur olduğunu, bunu cəbhədəki vəziyyətin tələb etdiyini bildirdi. Rusiya Prezidenti Vladimir Putin, razılaşdırılmış müddəaların "Dağlıq Qarabağ ətrafındakı böhranın ədalətli əsaslarla uzunmüddətli və geniş miqyaslı həlli üçün lazımi şərtlər" yaradacağını bildirdi.

Razılaşma Moskva vaxtı ilə 10 noyabr gecə yarısından etibarən münaqişə bölgəsində tam atəşkəs və hərbi əməliyyatların aparılmasını nəzərdə tuturdu, Azərbaycan və Ermənistan qüvvələri mövqelərində dayanacaqdılar. Rus sülhməramlı kontingentinin dərhal yerləşdirilməsinə başlanıldı: kiçik silahlı 1.960 hərbçi, 90 zirehli personal daşıyıcısı, 380 ədəd avtomobil və xüsusi texnika əraziyə yerləşdirildi. Uyğunluğa nəzarət etmək üçün atəşkəsə nəzarət mərkəzi yaradıldı.

Ermənistan da əraziləri Azərbaycana təhvil verməyə başladı. [10]

İmzalanan müqaviləyə görə, erməni tərəfi Azərbaycana əvvəllər müzakirə edilmiş sülh yolu ilə həll planları ilə nəzərdə tutulandan daha çox ərazini qaytarmalı olacaqdı. 1992-1994-cü illər Qarabağ müharibəsi nəticəsində erməni tərəfi təkcə Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinə deyil, Azərbaycan SSR-in tərkibinə daxil olan yeddi bölgəyə də nəzarət qurmuşdu. Əvvəlki illərdə yeddi rayonun köçürülməsi müzakirə edildikdə, Cəbrayıl, Füzuli, Laçın, Zəngilan, Kəlbəcər, Ağdam və Qubadlı bölgələri haqqında söhbət gedirdi deyə erməni politoloq Aleksandr İskandaryan xatırlayır. “Razılığa əsasən, hamısının Azərbaycanın nəzarətinə keçəcəyi məlum oldu. Bundan əlavə, Şuşi şəhəri (Şuşa) və Hadrut və Martuni bölgələrinin bir hissəsi də daxil olmaqla 27 sentyabrdan bəri ələ keçirilmiş ərazilərin bir hissəsi Bakının nəzarətindən keçəcək. Kəlbəcər bölgəsi 15 noyabr, 20 noyabr - Ağdam və Qazax bölgəsindəki ərazilər, 1 dekabr - Laçın bölgəsi qaytarılmalıdır. Erməni tərəf Dağlıq Qarabağın Ermənistanla əlaqəsini təmin edəcək, lakin Şuşi şəhərinə təsir etməyəcək 5 km enində Laçın dəhlizindən istifadə edə biləcək. Lakin Qazax bölgəsindəki ərazilərlə bağlı vəziyyət hələ tam aydınlaşdırılmamışdır. Paşinyanın gecə sitat gətirdiyi sazişin mətnində bölgənin ərazisinin ötürülməsi göstərilirdi, lakin 10 noyabrda Kremlin internet səhifəsində yerləşdirilən sazişin mətnində Qazax bölgəsinin ərazilərinə dair müddəalar yoxdur. Rusiya Prezidentinin Mətbuat Katibi Dmitri Peskov, Kremlin internet səhifəsində yayımlanan versiyanı rəhbər tutmağa çağırdı”. [2, 145]

“Azərbaycanın Dağlıq Qarabağdakı fəth mövqelərində qaldığını nəzərə alsaq, ermənilər tanınmamış DQR və Ermənistan ərazilərin bir hissəsini, o cümlədən qədim və simvolik əhəmiyyətə malik Şuşa şəhərini itirirlər. Erməni mediası yazır ki, 9 may 1992-ci ildə "gələcək zəfərlər üçün təməl rolunu oynayan və Ermənistanın hərbi şöhrətinin dirçəlməsində mühüm bir mərhələ" Şuşanın ələ keçirilməsi idi.

Razılaşma daxili siyasi sabitliyə əhəmiyyətli təsir göstərəcəkdir. Ermənistanın hazırkı Baş Naziri Nikol Paşinyan 2018-ci ilin yazında kütləvi etirazlar nəticəsində hakimiyyətə gəldi (2018-ci ilin payızında keçirilən seçkilərdə onun "Mənim addımım" partiyası bloku 132 yerdən 88-i parlamentdə çoxluq qazandı). On il hakimiyyətdə olan, Konstitusiyanı dəyişdirən və ölkənin parlamentli respublikaya çevrilməsindən sonra baş nazir vəzifəsinə keçən prezident Serj Sarkisyana qarşı apardığı mübarizə ilə dəstək qazandı.

Lakin döyüşlər artdıqca və ərazilər itirildikcə müxalif siyasətçilər Paşinyan hökumətinin hərəkətlərini tənqid etməyə başladılar. 9 Noyabrda 17 müxalifət partiyası, o cümlədən Sarkisyan Respublika Partiyası və parlamentdəki ikinci ən böyük partiya (24 yer) Çiçəklənən Ermənistan Partiyası da onun istefasını tələb etdi. Paşinyan 10 noyabr səhəri hamını sakitliyə çağırdı. Lakin prezident Armen Sarkisyanın açıqlaması hakimiyyətdəki parçalanmaya dəlalət edirdi. O, sazişin mahiyyəti barədə mediadan məlumat aldığını söylədi. Ermənistandakı daxili siyasi vəziyyət, indi Paşinyanın "özü üçün siyasi ölüm hökmü imzaladığı" ilə razılaşmaqla, razılaşmanın həyata keçirilməsinin əsas amillərindən birinə çevrilir" politoloq Stanislav Pritçin deyir.

Qarabağın gələcək statusuna dair heç bir işarə yoxdur. İmzalanmış müqavilədə, bütün son sülh danışıqlarının aparıldığı ATƏT-in Minsk qrupundan bəhs edilmədiyi kimi, Dağlıq Qarabağın statusunun gələcəkdə müəyyənləşdirilməsinə dair heç bir istinad yoxdur. "Bu, işləmdə ola bilər" Pritçin deyir. [4] İndi döyüş əməliyyatlarını dayandırmaq daha vacib idi, çünki Şuşa ələ keçirildikdən sonra Azərbaycanın Xankəndini alması üçün fürsət yarandı, deyə mütəxəssislər bildirdilər. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov, Qarabağın gələcək statusu ilə bağlı sualı cavablandırarkən, BMT Təhlükəsizlik Şurasının qətnamələri də daxil olmaqla əvvəlki bütün hüquqi aktların qüvvədə qaldığını söylədi. Azərbaycanın ərazi bütövlüyünə sadiq olduqlarını bəyan edirlər.

Ermənistanda əldə olunan razılaşmalar etiraz aksiyalarına səbəb oldu - həmin gecə insanlar hökumət binasına və parlamentə soxularaq spikeri, hakim “Mənim addımım” blokunun nümayəndəsi Ararat Mirzoyanı döydülər.

Azərbaycan ərazilərin əhəmiyyətli bir hissəsinin - yalnız rayonların və Şuşanın qaytarılmasına deyil, həm də Naxçıvanla yerüstü rabitənin bərpasına nail oldu. Razılaşma bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılmasını təmin edir. Ermənistan Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrini təmin etməlidir, nəqliyyat əlaqələrinə nəzarət Rusiya FSB-nin sərhəd xidməti tərəfindən həyata keçiriləcəkdi. Pritçin, əldə edilən razılaşmanın, İlham Əliyevin dövlət başçısı kimi rolunu gücləndirdiyini söylədi. 58 yaşlı Əliyev ölkəni 2003-cü ildən bəri idarə edir, bundan əvvəl atası Heydər Əliyev prezident idi (1993-cü ildən). Böyük Əliyev, Qarabağdakı müharibənin səbəb olduğu daxili siyasi qeyri-sabitlik fonunda hakimiyyətə gəldi, ancaq müharibədə qələbə qazana bilmədi. Kiçik Əliyev atasının Qarabağı qaytaracağı vədini yerinə yetirir. Mütəxəssis bu mövzunun əhəmiyyətini nəzərə alaraq, yaxın 20-30 ildə gücün onun ətrafında cəmləşəcəyini vurğulayır.

Türkiyə ilə ittifaq möhkəmlənir. Döyüş əməliyyatları başlayandan bəri Ankara Bakıya aktiv hərbi-texniki dəstək verdi. Prezident Rəcəb Tayyib Ərdoğan diplomatik səviyyədə Azərbaycanın ərazilərin hərbi qaytarılması hüququnu müdafiə etdi.

Münaqişənin başlanğıcından bəri mütəxəssislər Kremlin təmkinli mövqeyinə diqqət çəkirlər. Hər iki tərəfi atəşkəsə çağırdı, ilk atəşkəs razılaşması Moskvada (10 oktyabr) edildi, ancaq bir gün davam etmədi.

Mövcud razılaşma Cənubi Qafqazdakı lider rolunu Moskvaya qaytarır, çünki Rusiya üçün hazırkı nəticə olduqca uğurludur, deyə Global Affairs jurnalında Rusiyanın baş redaktoru Fyodor Lukyanov bildirir. “Erməni tərəfinin artıq hərbi qarşıdurmada qələbə qazanmağa qadir olmadığı aydın olduqdan sonra status-kvo saxlanıla bilmədi. İndiyə qədər ermənilərin qələbə fərziyyəsindən çıxış etməsi adət idi, amma bu dəfə azərbaycanlılar daha yaxşı hazırlaşmışdılar” mütəxəssis izah etdi.

Rusiya üçün yeni model əlverişlidir, bölgədəki əsas oyunçu olaraq qalır, Ermənistan onun varlığından daha da asılı vəziyyətə gəlir, Lukyanov deyir. Ekspert qeyd edir ki, ATƏT-in Minsk qrupunun mövcudluğunun faktiki olaraq dayandırılması barədə danışmaq olar. Sazişin mətnində ATƏT-in adı heç bir şəkildə çəkilmir, həmsədrlər Fransa və ABŞ-ın bu mətnin hazırlanmasında fəal iştirakçı kimi adı göstərilmir. [13]

Planın yerinə yetirilməsinin əsas xərcləri də Moskvanın üzərinə düşür. Sülhməramlılar ən azı beş il müddətinə, bu müddətin uzadılması ehtimalı ilə Dağlıq Qarabağda qalırlar. Naxçıvana nəqliyyat dəhlizi də Rusiya sərhədçiləri tərəfindən təmin edilir.

“Türkiyə Cənubi Qafqazda dayaq nöqtəsi yaratdı. “Türkiyənin faydaları olduqca aydındır, inanılmaz bir müvəffəqiyyət qazandı, ən əhəmiyyətli regional münaqişənin iştirakçısı oldu. Son illərdə Türkiyə bir şəkildə Osmanlı İmperiyasına aid bütün ərazilərə təsirini genişləndirdi. Dağlıq Qarabağda heç bir şey risk etmədən və xüsusi xərclər çəkmədən parlaq bir oyun oynadı” Lukyanov qeyd edir. "Türkiyə son on ildə bir dəfə təkcə regional bir güc mərkəzi statusuna iddia edən bir ölkə olaraq deyil, həm də bu iddiaları praktikada müdafiə edib möhkəmləndirə biləcək bir dövlət olaraq özünü göstərdi" Yuri Mavaşev deyir. “Cənubi Qafqaz bölgəsində nəzarət olmadan Türkiyənin enerji təhlükəsizliyini düşünmək olmaz. Bunlar ilk növbədə boru kəmərləridir. Üstəlik həm mövcud olanlar (TANAP, Bakı-Tbilisi-Ceyhan), həm də Orta Asiya ölkələri ilə perspektivli olanlardır” deyə Mavaşev izah edir. Əlavə olaraq, Cənubi Qafqazda nəzarət olmadan, Türkiyə Orta Şərqdə tam hüquqlu bir dövlət ola bilməyəcəyinə diqqət çəkdi. [6]

Razılaşmanın beşinci bəndi hələ də mübahisələrə səbəb olur. Əliyev Rusiya və Türkiyənin ortaq sülhməramlı missiyasını nəzərdə tutduğunu söyləyir. Rusiya Xarici İşlər Nazirliyinin spikeri Mariya Zaxarova təkcə rus sülhməramlılarından bəhs edildiyində israr edir (o, bu barədə “Exo Moskvaya” deyib).

**10 Noyabr üçtərəfli sazişindən sonrakı vəziyyət**

Azərbaycan Prezidenti, Ermənistanın daxili proseslərə baxmayaraq, 10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşma çərçivəsində öhdəliklərini yerinə yetirəcəyinə ümid etdiyini bildirdi.

"İndi Ermənistanda böhran vəziyyəti var. Onların daxili prosesləri barədə fikir bildirmək istəməzdim. Başqa ölkələrin daxili işlərinə heç vaxt qarışmırıq, xüsusən belə həssas məqamda. Ancaq müharibədən sonrakı nəticələr (İkinci Qarabağ - İ.F.) ) dəyişməz olaraq qalır və 10 noyabr 2020-ci il tarixli xarici razılaşmaya hörmət edilir və həyata keçirilməlidir". Əliyev xarici mətbuata verdiyi müsahibədə belə deyib.

Onun sözlərinə görə, razılaşmanın əksər bəndləri artıq yerinə yetirilib. "Bununla yanaşı, hazırda müzakirə predmeti olan bəzi məqamlar var. Ümid edirəm ki, Ermənistan daxili vəziyyətə baxmayaraq, 10 noyabr tarixli üçtərəfli razılaşma çərçivəsində öhdəliklərini yerinə yetirəcəkdir. Əks təqdirdə, Ermənistan özünü daha da çətin vəziyyətə salacaq" Əliyev əlavə etdi.

Əliyev vurğulayıb ki, bu gün Ermənistan elə bir çətin vəziyyətdədir ki, yeni reallıqları qəbul etməkdən başqa çarəsi yoxdur. "Ermənistanın seçimi azdır. Yeni həqiqətləri qəbul etməli və onlarla hesablaşmalıdır. Biz bu yeni reallıqları yaratdıq" - İ.Əliyev dedi.

Eyni zamanda, Prezident 30 il ərzində bir sıra beynəlxalq təşkilatların Azərbaycana ilk Qarabağ müharibəsində məğlubiyyəti qəbul etməsini necə tətbiq etməyə çalışdıqlarını xatırladı. "Bizə pis bir və daha da pis bir seçim arasında seçim təklif olundu. Ancaq hər zaman bu kimi təklifləri rədd etdik, mövqeyimizdən bir addım da kənara çəkilmədik, həmişə bu barədə danışdım. İndi bəyan edirəm ki, Azərbaycan yeni həqiqətlər yaradıb, yaratdı və bununla Ermənistan və digər ölkələr barışmalı və qəbul etməlidirlər. Ermənistanın bir neçə seçimi var. Bunlardan ən məqbul həll yolu 10 Noyabr razılaşmasının bəndlərinin həyata keçirilməsidir". İ.Əliyev dedi. [9]

Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanı Qarabağda hərbi personal yerləşdirməkdə günahlandırdı ki, bu da Azərbaycan və Rusiya prezidentlərinin, eləcə də Ermənistan Baş nazirinin 2020-ci il 10 noyabr tarixində imzaladığı üçtərəfli razılaşmanın müddəalarına ziddir.

"Bütün hərbi əməliyyatların dayandırılması da daxil olmaqla, 10 noyabr 2020-ci il

tarixində Azərbaycan və Ermənistan arasında birgə bəyanat imzalandıqdan sonra, Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində hərbi xidmətə göndərilməsi, beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasıdır" Xarici İşlər Nazirliyi bildirdi.

Azərbaycan Xarici İşlər Nazirliyi qeyd edir ki, Ermənistanda fəaliyyət göstərən beynəlxalq mediaya görə, Ermənistan Silahlı Qüvvələrinin şəxsi heyəti aldandılar və ya Qarabağda hərbi xidmət aparmaq üçün zorla cəlb olundu ki, bu da hərbçilərin və onların ailə üzvlərinin etirazına səbəb oldu.

"Bu baxımdan qeyd edirik ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində Azərbaycanın razılığı olmadan erməni qüvvələrinin yerləşdirilməsi beynəlxalq hüququn norma və prinsiplərini, xüsusən suverenliyi, ərazi bütövlüyünü və beynəlxalq sərhədlərin toxunulmazlığını pozur. Ermənistan qoşunlarının qanunsuz yerləşdirilməsi hazırda Rusiya sülhməramlı qüvvələrinin yerləşdirildiyi Azərbaycan ərazisi də Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr tarixli ortaq bəyanatını kobud şəkildə pozur" – Nazirlik belə deyir.

Xarici İşlər Nazirliyi, 10 Noyabrdakı ortaq açıqlamada, Rusiya sülhməramlı qüvvələrinin yerləşdirilməsinə paralel olaraq sülhməramlı qüvvələrin Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxmasını təmin etdiyini, Laçının hər iki istiqamətində vətəndaşların, nəqliyyat vasitələrinin və malların təhlükəsizliyini təmin edildiyini vurğulayır.

"Bu dəhlizin hərbi məqsədlər üçün, xüsusilə gizli şəkildə, mülki formada və mülki nəqliyyat vasitələrində istifadəsi Laçın dəhlizi rejiminin kobud şəkildə pozulmasıdır. Bu, sülhməramlı kontingentin nəzarət mexanizmlərinin pozulmasıdır və kontingentin səylərinə xələl gətirir. Biz, bölgədəki vəziyyəti sabitləşdirmək, silahlı qüvvələrinin Azərbaycan ərazisinə qanunsuz yerləşdirilməsinə son qoymaq və beynəlxalq ictimaiyyəti Ermənistanın bu cür təxribatçı hərəkətlərinə son qoymaq üçün lazımi tədbirləri görməyə çağırırıq" Nazirlik bəyan etdi. [8]

Bu gün Ermənistanda Nikol Paşinyan hər tərəfdən tənqid olunur. Hətta cənab Paşinyanın əvvəllər yaxşı münasibətdə olduğu ölkə prezidenti Armen Sarkissyan da onun ünvanına xoş olmayan ifadələr bildirir. “Rusiya və Azərbaycan prezidentləri ilə Qarabağ müharibəsinin sona çatmasına dair bir bəyanat imzalandığını mətbuatdan öyrəndim. Müharibəyə son qoymağın şərtlərini də mətbuatdan öyrəndim. Cümhuriyyət prezidenti olaraq təəssüf ki, mənimlə bu sənədlə bağlı heç bir məsləhətləşmə və müzakirə aparılmadı, heç bir danışıqda iştirak etmədim", Sarkisyan bildirir.

3 tərəfli saziş imzalandıqdan sonra tərəflər arasında bir neçə dəfə müxtəlif mövzularda münaqişələr yaşanmışdır.

ATƏT-in fəaliyyətdə olan sədri, İsveç xarici işlər naziri Ann Linde Bakıda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşdü. [10]

ATƏT sədri iclasdan sonra keçirdiyi mətbuat konfransında, 10 noyabr 2020-ci il tarixində atəşkəsdən sonra bölgədəki vəziyyətin dəyişdiyini söylədi.

Ann Linde münaqişənin uzunmüddətli həllinə ehtiyac olduğunu bildirdi.

APA Azeri xəbər agentliyinin verdiyi məlumata görə, Bayramov üçtərəfli razılaşmaya əsasən Azərbaycanın bütün hərbi əsirləri Ermənistana qaytardığını bildirdi. Azərbaycanda tutulan məhbusların üçtərəfli müqavilə imzalandıqdan sonra Ermənistanın Şirak bölgəsindən Qarabağa gəldiklərini və bir sözlə “bu şəxslərin terror aktları törətdiklərini və istintaqın Azərbaycanda da davam etdirildiyini” söylədi. Bayramov Ermənistanın Qarabağa hərbi personal göndərməyə davam etdiyini də bildirdi.

Ann Linde qeyd etdi ki, bütün məhbusların geri qaytarılması proseslərin gedişatını yumşaltmağa xidmət edəcək.

Bundan əvvəl regional səfər çərçivəsində ATƏT-in fəaliyyətdə olan sədri Ann

Linde də Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmüşdür.

ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycandakı iclasları başa çatdıqdan sonra o, Ermənistana da səfər edib.

Ermənistan tərəfinin müxtəlif mənbələrinə görə, bu gün Azərbaycan ərazisində 200-dən çox erməni hərbi əsir var. İndiyə qədər 69 məhbus Ermənistana qaytarıldı. Livan ermənisi olan Maral Najaryan da sərbəst buraxıldı və Beyruta döndü.

Bununla birlikdə, Azərbaycan yalnız 70 nəfərin tutulması faktını təsdiqlədi, üstəlik, Ermənistanın Şirak bölgəsindən ehtiyatda olan, Dağlıq Qarabağın Hadrut bölgəsindəki Xtsaberd yaxınlığında əsir götürülmüş 54 nəfərin əsir olmadığını, "terrorçular və təxribatçılar" olduğunu iddia etdi.

Rusiya Prezidenti Vladimir Putinin Moskvadakı yığıncaqda söylədiyi kimi, 48 mindən çox "köçkün və qaçqın", yəni bölgə əhalisinin üçdə biri DQR-ə qayıtdı. Bu proses davam edir. Öz növbəsində, Azərbaycan 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində müharibə zamanı Qarabağı və qonşu Azərbaycan bölgələrini tərk etmək məcburiyyətində qalan vətəndaşlarını geri qaytarmağı planladığını açıqladı, lakin bu proses erməni tərəfinə nisbətən daha yavaş irəliləyir.

Rusiya Dağlıq Qarabağda təxminən 2000 hərbi personalından ibarət bir sülhməramlı kontingent yerləşdirdi, bunun üçün Rusiya Müdafiə Nazirliyi may ayına qədər 32 hərbi şəhərcik inşa etməyi planlaşdırır. Moskvada keçirilən yığıncaqlardan birində Prezident Putin, Rus sülhməramlılarının statusu məsələsini qaldırdı və bunun "aydınlaşdırılmasını" təklif etdi. Bundan əvvəl Kremlin rəhbəri, Rusiya Federasiyası, münaqişə tərəfləri istəsə, sülhməramlılarının sayını artırmağa hazır olduğunu söylədi. Atəşkəsə nəzarət Ağdam bölgəsindəki ortaq Rusiya-Türkiyə mərkəzi tərəfindən həyata keçirilməlidir və bu il tamamlanması gözlənilir. [10]

Əraziləri geri qaytardıqdan sonra Azərbaycan dərhal infrastruktur layihələrinə başladı. Rəsmi məlumatlara görə, Bakı 2021-ci ildə "bərpa" üçün 1,3 milyard dollar ayırmağı planlaşdırır. Artıq dilə gətirilən niyyətlər arasında dəmir yollarının və bölgədəki ən azı iki hava limanının inşası da var, bunların məqsədi digər məsələlərlə yanaşı, Azərbaycanı Naxçıvanla və onun vasitəsi ilə Türkiyə ilə daha sıx bağlamaqdır. Azərbaycan nəqliyyat dəhlizinin Ermənistan ərazisindən necə və hara keçəcəyi hələ bəlli deyil. Gələcəkdə Ermənistanı özünün elan etdiyi DQR ilə birləşdirən və rus sülhməramlıları tərəfindən qorunan Laçın dəhlizinin yeni marşrutu da olacaq. Bundan əlavə, Ermənistana Azərbaycan ərazisi vasitəsilə Rusiya və İranla dəmir yolu bağlantısı veriləcək.

Azərbaycan ordusu, Azərbaycan xalqı, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək düşmən üzərində öz Vətən müharibəsində layiqli zəfər çalmışdır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan bununla nəinki öz torpaqlarını işğaldan azad etdi, həm də erməni faşizminin qarşısını aldı. İkinci Qarabağ müharibəsi bir daha sübut etdi ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək iqtidarındadır. Bu şanlı qələbə, Azərbaycan tarixinə ən qürur verici səhifələr kimi əbədi həkk olundu.

**ƏDƏBİYYAT**


1. Hüseynova İ. İlham Əliyev yeni əsrin lideridir // Dirçəliş. 2003, №59, s. 108-119.
2. Hüseynova İ. İlham Əliyev və Zəfər tariximizin şanlı səhifələri. 2021, 227 s.
3. Behbudov K. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində mövcud status-kvo tezliklə dəyişməlidir // Xalq qəzeti. 2020, 4 aprel.
4. Schmidt H.-J. The Four-Day War Has Diminished the Chances of Peace in Nagorno-Karabakh // In: IFSH (ed.), OSCE Yearbook 2016, Baden-Baden 2021, pp. 111-123.

5. Оганесян В.В Анализ развития экономики Армении на рубеже веков // Международная торговля и торговая политика. 2021. № 1 (9). с. 64-67.
6. Bayramov A. Silencing the Nagorno-Karabakh Conflict and Challenges of the Four-Day War // Security and Human Rights. 2016, Vol. 27, Issue 1-2, p. 116–127 DOI: https://doi.org/10.1163/18750230-02701009mnb
7. The Armenia-Azerbaijan Crisis - Svante Cornell at Westminster Institute. 13 November 2020. (http://silkroadstudies.org/silkroadstudies-news/item/13395-the-armenia-azerbaijan-crisis-svante-cornell at-westminster-institute.html)
8. Walter M. The Conflict In Nagorno-Karabakh Within The International Scenario // Journal Global Policy and Governance: 2017, Vol 6, №2. (https://doi.org/10.14666/2194-7759-6-2-005)
9. http://www.qusar-ih.gov.az/news/241.html
10. https://azertag.az/xeber/Ikinci_Qarabag_muharibesi_Otuz_ilde_bizi_basa_dusmeyenlere_otuz_gunde_chox_seyi_basa_saldiq-1625747
11. https://azlogos.eu/ikinci-qarabag-muharib%C9%99si-s%C9%99b%C9%99bl%C9%99r-v%C9%99-ilkin-s%C9%99rtl%C9%99r/
12. https://www.bbc.com/azeri/azerbaijan-54878139
13. https://www.gazeta.ru/politics/2021/01/11_a_13432358.shtml
14. https://www.rbc.ru/politics/10/11/2020/5faa0bfb9a79472d1159c5e8

***Summary***

***Ulker Mammadzade***

***Analysis of the November 10 tripartite agreement***

Thanks to the unchanging position, determination and policy of the President of the Republic of Azerbaijan Ilham Aliyev in line with the national interests of the people, Azerbaijan's diplomatic successes have consistently resulted in a difficult situation for the Armenian leadership. As a result of the counter-offensive carried out by the victorious Azerbaijani army and the Supreme Commander-in-Chief, President Ilham Aliyev, from September 27 to November 10, Karabakh was liberated from occupation. During these battles, Azerbaijan showed its military and political strength. Such factors mentioned in the article are one of the factors explaining Russia's continued interest in resolving the Armenian-Azerbaijani conflict over Nagorno-Karabakh in accordance with its interests. In the Karabakh war, Armenia saw the strength of the Azerbaijani Armed Forces. The whole world witnessed how professionalism, heroism and skill the Azerbaijani Army showed in these battles. During the Karabakh war, he made a serious blow to the propaganda of Armenia, which fabricated lies and myths about his army, and shook the Armenian society. They were defeated on the battlefield and did not receive any support in the political arena. The Karabakh war was not limited to the front. This war once again demonstrated the unity of Azerbaijanis around the world. Azerbaijanis living in different countries of the world, as well as representatives of other nations who support the cause of Azerbaijan, were selfless against the ugly campaigns of the Armenian lobby. During the war, the unity of the people-state-army was further strengthened. Along with the military field, the Azerbaijani state also fought on the diplomatic and ideological fronts. Thanks to the high political skills of the President, great success has been achieved on the diplomatic front.

***Keywords:*** *Second Karabakh War, President, Ilham Aliyev, Armenian-Azerbaijani conflict, Caucasus*

***Резюме***

***Мамедзаде Улкер Карим гызы***

***Анализ подписанного 10 ноября трехстороннего соглашения***

Благодаря неизменной позиции, решимости и политике Президента Азербайджанской Республики Ильхама Алиева в соответствии с национальными интересами народа дипломатические успехи Азербайджана неизменно приводили к тяжелой ситуации для руководства Армении. В ре-

зультате контрнаступления победившей азербайджанской армии и Верховного главнокомандующего президентом Ильхамом Алиевым с 27 сентября по 10 ноября Карабах был освобожден от оккупации. Таким образом, наши победы заставили армянскую сторону капитулировать. Победа Азербайджана в боях доказала, что Вооруженные силы Азербайджана способны в кратчайшие сроки освободить все оккупированные территории. Вторая карабахская война навсегда вошла в историю Азербайджана как победная война. В ходе этих сражений Азербайджан показал свою военно-политическую мощь. Подобные факторы, упомянутые в статье, являются одним из факторов, объясняющих сохраняющуюся заинтересованность России в урегулировании армяно-азербайджанского конфликта вокруг Нагорного Карабаха в соответствии со своими интересами. В карабахской войне Армения увидела силу Вооруженных сил Азербайджана. Весь мир стал свидетелем того, насколько профессионализм, героизм и мастерство азербайджанской армии проявили в этих боях. Во время карабахской войны сохраняющуюся заинтересованность он нанес серьезный удар по пропаганде Армении, сфабриковавшей ложь и мифы о его армии, и потряс армянское общество. Они потерпели поражение на поле боя и не получили поддержки на политической арене. Карабахская война не ограничилась фронтом. Эта война еще раз продемонстрировала единство азербайджанцев всего мира. Азербайджанцы, проживающие в разных странах мира, а также представители других народов, поддерживающие дело Азербайджана, самоотверженно противостояли безобразным кампаниям армянского лобби. Во время войны единство народа-государства-армии еще больше укрепилось. Наряду с военной сферой Азербайджанское государство сражалось также на дипломатическом и идеологическом фронтах. Благодаря высокому политическому мастерству президента удалось добиться больших успехов на дипломатическом фронте.

***Ключевые слова:*** *Вторая карабахская война, президент, Ильхам Алиев, армяно-азербайджанский конфликт, Кавказ*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# AVROPA BİRLİYİNİN YARANMASINI ZƏRURİLƏŞDİRƏN TARİXİ ŞƏRAİT

**Cəlal XƏLİLOV**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 20 oktyabr 2021; çapa qəbul edilmişdir: 8 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 20 th October, 2021; accepted: 8 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:** Avropa Birliyi, Avropa İttifaqı, inteqrasiya, iqtisadiyyat, Avropa*

## Giriş

XVIII əsrdə Avropada başlayan birləşmə hərəkatları 1951-ci ildə Avropa Kömür və Polad Birliyinin qurulması ilə rəsmi xarakter aldı. İqtisadi və kommersiya xüsusiyyətlərinə malik olan bu Cəmiyyət zamanla sosial, iqtisadi, hüquqi və siyasi cəhətdən dəyişdi və 1957 -ci ildə imzalanan Roma Müqaviləsi ilə Avropa İqtisadi Birliyini qurdu. Altı ölkə ilə başlayan və indi iyirmi səkkiz ölkəni özündə birləşdirən bu formalaşmanın məqsədi ortaq siyasi və iqtisadi inteqrasiyanı təmin etmək idi. Bu inteqrasiyanın düzgün şəkildə həyata keçirilməsi isə qurulmuş ümumi siyasətin ən yaxşı şəkildə həyata keçirilməsi ilə mümkündür.

Birliyə üzv olan dövlətlərin qanunları və təcrübələri də sürətlə dəyişdi. Avropa İqtisadi Birliyinin adı dəyişdi və 1993-cü ildə qüvvəyə minən Maastrich Anlaşması ilə bu qurum Avropa Birliyinə çevrildi. Bununla da quruma üzv olan Avropa ölkələrində sosial-iqtisadi tərəqqi sürətləndi və gücləndi. Bu inteqrasiya hərəkatları, müxtəlif iqtisadi və sosial quruluşlu ölkələrin makro mövzularda razılığa gəlməsi baxımından çox çətin və uzun bir prosesə səbəb oldu. Avropa Birliyi baxımından ortaq hədəfləri təyin etmək, ən yüksək səviyyədə qurulacaq birlik siyasətini formalaşdırmaq və rəqabət prinsipinə əsaslanaraq azad bazar iqtisadiyyatını tamamlamaq zəruri idi. İlk olaraq, Avropa Birliyinin formalaşması zamanı Birliyin yaranmasına qədər qurulan cəmiyyətləri, üzv ölkələrin bu birliyə nə üçün ehtiyac duyduqları və Birliyin qurulmasına qədər hansı mərhələlərdən keçdiyini araşdıraq. Daha sonra isə Avropa Birliyinin yaradılması məqsədinə nəzər salaq.

## 1. Avropa Birliyinin yaradılması

Fəlsəfi təməlləri çox qədimlərə gedib çıxan Avropa Birliyini yaratmaq səyləri, kömür və polad qaynaqları olan ölkələrin milli ticarət sərhədlərini aradan qaldıraraq iqtisadi birlik yaratmağı hədəfləyən Avropa Kömür və Polad Birliyinin qurulması ilə rəsmi xarakter aldı. Avropa Birliyi adlanan bu böyük quruluşun məqsədi altı ölkə ilə başlayan və indi iyirmi səkkiz ölkəni birləşdirən ortaq bir siyasi və iqtisadi inteqrasiyanı təmin etməkdir.

Avropadakı birləşmə hərəkatları ilk olaraq XVIII əsrdə İngiltərə ilə Fransa arasında bağlanmış ticarət müqaviləsi şəklində başladı və Fransada baş verən inqilabla sona çatdı. 1815-ci il Almaniya ilə Prussiya öz əyalətləri arasında imzaladıqları Maasen Tarifi ilə

[*] *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail: jalal_khalil@mail.ru*

daxili gömrüyü qaldırmış, İngiltərə və Fransa isə öz aralarında bağladıqları müxtəlif müqavilələrlə gömrükləri azaltmışlar. Ancaq Almaniya, Fransa və İtaliya öz millətinin mənafelərini üstün tutaraq gömrükləri yenidən qaldırır.

1920-ci illərdə birlik yaratmaq üçün ciddi səylər göstərildi və Birinci Dünya Müharibəsindən sonra, daha doğrusu 1923-cü ildə Count Richart Coodenhove-Kalergi "Pan Avropa Hərəkatı" adlı bir təşkilat quruldu. Daha sonra, 1926-cı ildə Cenevrədə Avropa Əməkdaşlıq Dərnəyi adı altında yeni bir təşkilat yaradıldı.

1932-ci ildə imzalanan Quchy müqaviləsi ilə həyata keçirilən Belçika, Hollandiya və Lüksemburqun birləşməsi Avropada ilk iqtisadi inteqrasiya oldu. Benelux adlanan bu birləşmədə arzu olunan məqsəd 1944-cü ildə əldə edildi və Gömrük İttifaqı tətbiq edildi. Benelux ölkələri arasındakı bu birləşmə hərəkatı yeni fikirlər ortaya çıxardı və 1946 -cı ildə Amerika Birləşmiş Ştatlarının Prezidenti V.Çörçill Almaniya və Fransanın ayrı bir birlik, İngiltərə və İngilis Millətlər Birliyinin də ayrı birlik yaratmasını və bu iki birliyin "Birləşmiş Avropa Dövləti" adı altında bir konfederasiyada toplanmasını təklif etdi.

Bundan sonra birliyi quracaq ölkələrin səlahiyyətlərinin ləğv edilməsinə qarşı federalist fikir və səlahiyyətlərin ölkələrin əlində qalmasını nəzərdə tutan funksionalist fikir ortaya çıxdı və bu fikirlər bir çox təşkilatların yaranmasına səbəb oldu. Bu təşkilatlar 1947 -ci ildə birləşərək bir komitə yaratdılar, lakin təşkilatlar arasında müxtəlif fikir ayrılıqları yaşandı. Nəticədə komitə öz məqsədinə nail ola bilmədi.

1870-ci ildən XX əsrin 2-ci yarısınadək Fransa və Almaniya arasında 3 dəfə müharibə olub. Nəticədə bir çox insan həlak oldu. Bu müharibələrdən sonra əksər region ölkələrinin liderləri sülhün təminatının yeganə yolunu ölkələrin iqtisadi və siyasi baxımdan birləşməsində görməyə başladılar. Avropada milli qarşıdurmaların üstəsindən gələ biləcək yeni bir təşkilatın formalaşması II Dünya müharibəsi zamanı totalitar rəhbərliklərə qarşı mübarizə aparan hərəkatlarından qaynaqlanmışdır.

Sonrakı dövrlərdə Avropa ölkələrinin çoxunda, xüsusən də Şərqi Avropa ölkələrində güclənən sosialistlər Amerika Birləşmiş Ştatlarının maraqlarını təhdid etməyə başladılar və buna son qoymaq istəyən ABŞ qərar verdi: yardımın miqdarının müəyyənləşdirilməsi, iqtisadi bir proqramın hazırlanması və ticarət maneələrinin azaldılması kimi bəzi şərtləri yerinə yetirmək müqabilində müharibəni tərk etmək, inkişaf etməkdə olan Avropa dövlətlərinə maliyyə yardımı təklif etmək.

Marşall Planı çərçivəsində bu təklifi qəbul edən Avropa dövlətlərinə yardımlar göstərilməyə başlandı və Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı Avropa dövlətlərinə yardım çatdırmaq məqsədi ilə Avropa Birləşmiş Ştatlarının konqresini çağıraraq yaradılmışdır. İlk altı ayda müsbət nəticələr alındı və 1950-ci ildə Avropa Ödəniş Birliyi quruldu. Bütün bu müsbət inkişaflar nəticəsində ABŞ, Kanada və Yaponiyanın iqtisadi cəhətdən sabit bir quruluş əldə etmək üçün üzv ölkələrə qoşulması nəticəsində bu təşkilat genişlənərək İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına çevrildi.

Almaniyanın güclənməsi və SSRİ-nin Çexoslovakiya və Şərqi Almaniyanı öz tərəfinə çəkərək Avropa ölkələri üçün təhlükə yaratması, 1951-ci ildə Avropa Birliyinin təməlinin atıldığı Avropa Kömür və Polad Birliyinin yaranmasına səbəb oldu. Müharibə sənayesinin ən əsas tələbləri olan kömür və polad qaynaqlarının qarşılıqlı nəzarəti, beləliklə Fransa ilə Almaniya arasında qarşılıqlı asılılıq əlaqəsi yaratmaq və bununla da Avropa sülhünü təmin etmək Avropa Kömür və Polad Birliyinin yaranmasında ən əsas rolu oynamışdır. Avropa Kömür və Polad Birliyinin məqsədi Almaniya və Fransa, Belçika, Lüksemburq, Hollandiya və İtaliya da daxil olmaqla altı üzv ölkənin milli ticarət sərhədlərini aradan qaldıraraq iqtisadi birlik yaratmaqdır. Digər məqsədlər cəmiyyət tərəfindən təyin olunan investisiya layihələrini tez bir zamanda həyata keçirmək, dəmir - polad sənayesində məşğulluğu artırmaq, işçilərin mənzil sahibi olmasını təmin etmək, dəmir və polad istehsalını artırmaq və investisiyalara sərmayə qoymaqdır.

Avropada birləşmə müddətinə sürət qazandıran biri federasiya, digəri isə funksional olan iki hərəkatın tərəfdarları İtalyan federalist A.Spinelli və 1951-ci ildə Avropa Kömür və Polad İttifaqının yaranmasına təkan verən Şuman planın ilham qaynağı J.Monnetdir. Hər iki cərəyanın fərqli fikirləri var idi. Nəticədə, 1951-ci ildə Belçika, Qərbi Almaniya, Fransa, Lüksemburq, Niderland və İtaliyadan ibarət 6 üzv ölkədən ibarət Avropa Kömür və Polad İttifaqı yarandı. Bu ölkələrdə kömür və polad sənayesi ilə əlaqədar qəbul ediləк qərarlar bu yeni quruma tapşırıldı və ilk başçısı Jan Monnet oldu.

Kömür və Polad sənayesi üzrə başlayan uğurlu birləşmə hərəkatları iqtisadiyyatın əksər sahələrini əhatə edən inteqrasiya işləri ilə əvəzlənmişdir. Yaxın Şərqdə Misir-İsrail müharibəsi nəticəsində yaranan neft ehtiyacını tənzimləmək üçün 25 Mart 1957-ci ildə Avropa Atom Enerjisi Birliyi (EURATOM), iqtisadi birləşmə üçün isə Avropa İqtisadi Birliyi yaradıldı. Avropa İqtisadi Birliyinin qurulmasının məqsədi üzv ölkələrin rifahını maksimum dərəcədə artırmaq və üzv dövlətlərin iqtisadi siyasətlərinin uyğunluğunu təmin edərək davamlı olaraq genişləndirmək üçün ortaq bir bazarın qurulmasıdır. Bundan əlavə, ədalət və daxili işlər sahəsində əməkdaşlığın təmin edilməsi, ortaq təhlükəsizlik və xarici siyasətin qurulması Maastrixt müqaviləsinin AB -yə verdiyi digər ümumi siyasətlərdir. Roma Müqaviləsi ilə Aİİ -nin altı orqanı, yəni Şura, Komissiya, Parlament, Ədliyyə Məhkəməsi, Hesablama Məhkəməsi və İqtisadi, Sosial və Məsləhət Komitələri müəyyən edildi.

Artıq XX əsrin ikinci yarsından Avropa Birliyinin formalaşmasının əsası qoyulmuşdur. 1951-ci ildə “Avropa kömür və metal birliyi” adlanan qurumun əsası qoyulmuşdur (5, s. 398). Avropa İqtisadi Birliyini quran Roma müqaviləsi ilə alınan qərara görə, ilk gömrük endirimləri 1959 -cu ildə həyata keçirildi. 1965-ci ildə imzalanan Füzyon Müqaviləsi (Birləşmə Müqaviləsi) ilə, yuxarıda qeyd olunan üç icma (Avropa Kömür və Polad Birliyi, Avropa İqtisadi Birliyi və Avropa Atom Enerjisi Birliyi) üçün vahid bir Şura və vahid Komissiya yaradıldı və Avropa Birlikləri adlandırıldı. Bütün bu proseslərin nəticəsində, 1967-ci il müqaviləsinə əsasən Avropa Birlikləri termini işlədilməyə başlanmışdır (1, s. 232).

1968 -ci ildə üzv dövlətlər arasında malların giriş və çıxışında ekvivalent təsiri olan gömrük rüsumlarını və tədbirləri ləğv etmək üçün Gömrük İttifaqı yaradıldı.

## 2. Avropa Birliyinin məqsədləri və fəaliyyət istiqamətləri

Avropa Birliyinin məqsədləri dedikdə birincisi yaradılış məqsədləri, ikincisi isə Birliyin məqsədləri olaraq iki qrup hüquqi müddəa nəzərdə tutulur.

Avropa Birliyinin yaradılmasının məqsədləri, üzv dövlətlərin və onların xalqlarının iradəsini, istəklərini, dəyərlərini əks etdirir. Bu məqsədlər təsis müqavilələrinin giriş hissələrində göstərilmişdir və ilk növbədə, "Avropa Birliklərinin yaradılması ilə başlayan Avropa inteqrasiyası prosesində yeni bir mərhələyə keçmək" əzmi və "tarixinə, mədəniyyətinə və adət-ənənələrinə hörmət edərkən xalqları arasında həmrəyliyi dərinləşdirmək" arzusu.

Nizamnamənin girişi özlüyündə hüquqi qaydaların mənbələri hesab edilmirdi. Onlarda qeyd edilmiş müddəalar hüquqi cəhətdən məcburi deyildir. Məhkəmələr tərəfindən Avropa Birliyi qanunlarının müddəalarının teleoloji (məqsədyönlü) təfsiri üçün də geniş istifadə olunur.

Avropa Birliyinin məqsədləri təşkilatın hüquqi aktlar və digər qərarlar hazırlayarkən və qəbul edərkən səy göstərməli olduğu ictimai həyatdakı əlverişli dəyişikliklərdir.

Bundan əlavə, Birlik özünün qarşısına bir sıra iqtisadi və sosial hədəflər qoyur. Başqa sözlə, Birlik təşkilata mənsub xalqların rifahını yaxşılaşdırmaq məqsədi ilə bir sıra fəaliyyət istiqamətləri üzrə ayrı-ayrılıqda siyasətlər yeridir. Bu fəaliyyət istiqamətlərindən aşağıdakıları qeyd etmək mümkündür.

### 3. Avropa Birliyinin sənaye və ticarət siyasətləri

Avropa Birliyinin ticarət siyasəti dedikdə şəxslər, xidmətlər və kapitalın sərbəst hərəkətini təmin etmək məqsədi ilə yaradılmış daxili bazar və gömrük ittifaqı başa düşülür. Romanın qurduğu yeni ticarət müqaviləsinin 23-cü maddəsində icmanın bütün əmlakının sərbəst dövriyyədə olması nəzərdə tutulurdu. O, üzv ölkələr arasında idxal, ixrac və gömrük rüsumlarına əsaslanır. O, həmçinin üçüncü ölkələrə qarşı Vahid Gömrük Tarifinin tətbiqini əhatə edir ki, bu da idxal və ixrac gömrük rüsumlarını və üzv ölkələr arasında ekvivalent təsirə malik digər rüsumları, ödənişləri və vergiləri əhatə edir.

Aİ-nın davamlı inkişaf strategiyasının təməl daşı istehsal sənayesinin rəqabət qabiliyyətidir. Aİ-da davamlılığı təmin etmək üçün üç sahədə irəliləyiş əldə edilməlidir: iqtisadi, sosial və ekoloji. Aİ-nın sənaye siyasətinin əsas məqsədi olan rəqabətqabiliyyətli istehsal sənayesi yaratmaq üçün biliyə, innovasiyaya və sahibkarlığa önəm verilməlidir.

### 3.1 Avropa Birliyinin büdcə siyasətləri

Avropa Birliyinin yaradılması haqqında müqavilənin 269-cu maddəsi Birliyin bütün büdcəsinin İttifaqın öz vəsaitləri hesabına maliyyələşdirilməsinə aiddir. Aİ-nin illik büdcəsinin böyük bir hissəsi Avropa cəmiyyətlərinin xeyrinə istifadə olunur. Birliyin büdcə vəsaitləri kənd təsərrüfatı, daxili və xarici siyasət, inzibati xərclər, birləşmə fondları və ittifaqa üzvlükdən əvvəl yardım xərclərini maliyyələşdirir. Bundan əlavə, Aİ büdcəsi ətraf mühitin təmizlənməsi, qida təhlükəsizliyi və xərçəng tədqiqatları kimi sahələrə ayrılır. Bildiyimiz kimi, Avropa Birliyinin müstəqil büdcəsi, müstəqil valyuta sistemi var (2, s. 33).

Eyni zamanda, Aİ büdcəsi üzv dövlətlərin müəyyən etdiyi ümumi siyasətləri həyata keçirmək, siyasi, sosial və iqtisadi inteqrasiyanı təmin etmək üçün istifadə edilən ən təsirli vasitədir. Avropa İttifaqının büdcə gəlirləri gömrük rüsumu, kənd təsərrüfatı vergiləri, ƏDV payı (1%), ümumi milli məhsulun payı (1,27%), şəkər və qlükoza vergiləri olmaqla beş səhmdən ibarətdir.

### 3.2 Avropa Birliyinin iqtisadi və pul siyasəti

Məlum olduğu kimi, yaxın tarix boyu qurulmağa çalışılan iqtisadi-valyuta ittifaqı yaratmaq cəhdləri müəyyən müqavimətlə üzləşmiş və uğursuzluqla nəticələnmişdir. Bu uğursuzluğun səbəbləri üzv ölkələrin sosial və iqtisadi şərtlərindəki fərqlər, eləcə də ölkələrin pul məsələlərini milli müstəqillikləri ilə eyni səviyyədə qiymətləndirməsi ola bilər. Bundan əlavə, dünya iqtisadiyyatında baş verən neqativ proseslər, hüquqi infrastrukturun zəifliyi və böhranlara ortaq müqavimət də bu uğursuzluğun səbəblərindəndir.

İqtisadi və pul inteqrasiyasına keçiddə həyata keçiriləcək mərhələlər üzv ölkələr arasında valyuta ittifaqının yaradılması, kapitalın hərəkətinin liberallaşdırılması, ümumi ehtiyat fondunun yaradılması, pulun yaradılması və məhv edilməsi səlahiyyətinə malik ümumi mərkəzi bankın yaradılmasıdır. 2002-ci ildən ortaq valyuta (avro) qəbul edən Aİ-yə üzv dövlətlər milli suverenliklərini təmsil edən valyuta ilə bağlı səlahiyyətlərini ittifaq institutlarına keçiriblər. Aİ-nin ortaq pul sistemini ən uyğun şəkildə həyata keçirə bilməsi üzv ölkələrin iqtisadi və maliyyə siyasətlərinin Maastrixt müqaviləsində müəyyən edilmiş "eyniləşmə meyarları"na uyğunlaşdırılmasından asılıdır. Bu meyarlar iqtisadiyyatların homogenləşmə dərəcəsini göstərmək üçün istifadə olunan dəyişənlərdir.

Bildiyimiz kimi, Avropa Birliyi və Azərbaycan arasında bir sıra müqavilələr bağlanmışdır. Bu müqavilələrin əsasında kapital qoyuluşu ilə bağlı olan məsələlər daha önəmli yer tutur. Ən əsası Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Müqavilənin 43-cü maddəsi "Azərbaycan və Birlik arasında iqtisadimünasibətlərin inkişafı və möhkənmləndirilməsi üçün mühüm şərt kimi tərəflərin qanunvericiliyinin uyğunlaşdırılmasını nəzərdə tutur" (3, s, 140).

### 3.3 Avropa Birliyinin ətraf mühit siyasəti

Avropa Birliyində ətraf mühitin mühafizəsinin əhəmiyyəti 70-ci illərdən hiss edilməyə başlayıb. Avropa Birliyinin ətraf mühit siyasətinin əsas məqsədi ətraf mühitin çirklənməsinin qarşısını almaq, təbiətin və təbii resursların ekologiyaya zərər verməyəcək şəkildə istifadəsini təmin etməkdir (5, s. 143). Ətraf mühitin mühafizəsi indiki və gələcək nəsillərin həyat keyfiyyətinin əsas şərti olduğundan, yaşayış mühitinin keyfiyyətinin və yaşayış şəraitinin yüksəldilməsi ümumi ekoloji siyasətin əsasını təşkil edir. Lakin iqtisadi artımla paralel olaraq bu vəzifəni uzunmüddətli perspektivdə saxlamaq çətindir. AB-nin ətraf mühit siyasəti innovasiya və biznes imkanlarını təşviq edən yüksək ekoloji standartlara inanmağa əsaslanır.

### 3.4 Avropa Birliyinin enerji siyasəti

Avropa Birliyinin ən qədim siyasətlərindən biri olan Enerji Siyasəti ilə üzv ölkələrin enerji istehlakında kömürün payının qorunub saxlanılması, təbii qaz və alternativ enerjinin payının artırılması, rəqabət qabiliyyəti, enerji təchizatının təhlükəsizliyi və ətraf mühitin təmizliyi arasında tarazlıq hədəflənir. Enerji ehtiyatlarının tükənəcəyi düşüncəsi ilə birliyin alternativ enerjilərə ehtiyacı var, çünki davamlı inkişaf üçün neftdən daha az və ağıllı istifadə tələb olunur. Avropa Komissiyasının enerji siyasətində ən mühüm məqsədlərindən biri külək, su və günəşdən əldə edilən alternativ enerjiyə keçərək ətraf mühitə olan təzyiqi və xarici asılılığı azaltmaqdır. Alternativ enerjidən istifadə ilə bağlı Avropa İttifaqının məqsədi yaxın gələcəkdə alternativ enerjinin ümumi enerji istehlakında payını 6%-dən 12%-ə çatdırmaqdır.

## 4. Avropa Birliyinin genişlənməsi

Altıların uğuru Birləşmiş Krallıq, Danimarka və İrlandiyanı İcma üzvlüyünə müraciət etməyə sövq etdi. Bu üç ölkə, 1973-cü ildə General de Gaulle başçılıq etdiyi Fransanın 1963-cü ildə və 1967-ci ildə Britaniya üzvlüyünə qarşı iki dəfə veto hüququndan istifadə etdiyi çətin bir bazarlıq dövrünün ardından üzv oldu.

1981-ci ildə Yunanıstan birliyə qoşuldu. 1986-cı ildə İspaniya və Portuqaliyanın qoşulması ilə birlik cənuba doğru genişləndi və bununla da üzvlərin sayı 12-yə çatdı.

Dünyadakı tənəzzül və maliyyə yükü paylaşımı ilə əlaqədar daxili qarşıdurmalar 1980-ci illərin əvvəllərində "Avropa pessimizmi" atmosferinə səbəb oldu. Lakin 1984-cü ildən sonra bu, Birliyin canlanması üçün daha ümidverici perspektivlərlə əvəz olundu. 1985-ci ildə Jacques Delorsun başçılıq etdiyi Komissiya tərəfindən hazırlanan Ağ Sənədə əsaslanaraq, Birlik 1 Yanvar 1993 -cü ilə qədər vahid bazar yaratmağı hədəfləyir. Vahid Avropa Aktı 17 Fevral 1986-cı ildə Almaniya, Belçika, Fransa, Hollandiya, İngiltərə, İrlandiya, İspaniya, Lüksemburq və Portuqaliya, 28 Fevral 1986 -cı ildə Danimarka, İtaliya və Yunanıstan tərəfindən imzalanmışdır.

1987-ci ildə qüvvəyə minən Vahid Avropa Aktı və Avropa Birliklərini quran Müqavilələr geniş dəyişikliklərə məruz qalmışdır.

1992-ci ildə imzalanan və 1993-cü ildə qüvvəyə minən və rəsmi adı “Avropa Birliyi Müqaviləsi” olan Maastrixt Müqaviləsi Roma Müqaviləsinin bəzi maddələrini çıxarmaqla iqtisadi, siyasi və sosial birliyi təmin etmək məqsədi güdürdü. Məhz 1994-cü ildə Avstriya, Norveç, Finlandiya və İsveçin qoşulması ilə bu birliyin üzvlərinin sayı 15-ə çatmışdır (4, s. 398).

Avropa Birliyi əsasında qurulan Maastrixt müqaviləsi ilə Avropa İqtisadi Birliyinin adı Avropa Birliyinə çevrildi və sosial -iqtisadi tərəqqini sürətləndirən və gücləndirən 3 əsas prinsip qəbul edildi:

- Rəqabət prinsipinə əsaslanan sərbəst bazar iqtisadiyyatı.
- Dövlət maliyyəsinin düzgün idarə olunması.
- Əvəzetmə prinsipi.

1957-ci il Roma müqaviləsi ilə müəyyən edilən ortaq siyasətlər 7 Fevral 1992 -ci ildə Maastrixtdə imzalanan müqavilə ilə dəyişdi. Avropa Birliyi anlayışı Avropa Birliyi vasitəsi ilə həyata keçirilən məqsəd və siyasətləri və Avropa Birliyinin gətirdiyi üç yeni hərəkatın (İqtisadi və Valyuta Birliyi, Avropa Vətəndaşlığı və Ümumi Təhlükəsizlik və Xarici Siyasət) əhatə etdiyi məqsəd və siyasətləri həyata keçirmək üçün istifadə olunur.

1995-ci ildə Avstriya, Finlandiya və İsveçin iştirakı ilə Avropa Birliyi üzvlərinin sayı 15-ə qalxdı. Ümumi Avropa valyutası olan Avro, 1 Yanvar 2002-ci ildə rəsmi olaraq dövriyyəyə buraxıldı və 12 ölkədə istifadə edilməyə başlandı. 2004 -cü ildə Avropa Birliyi tarixində ən böyük genişlənmə dalğası baş verdi və 10 yeni ölkə (Çexiya, Estoniya, Kipr, Latviya, Litva, Macarıstan, Malta, Polşa, Slovakiya və Sloveniya) Avropa Birliyinə qoşuldu. 2007-ci ildə Bolqarıstan və Rumıniyanın qoşulması ilə AB üzvlərinin sayı 27-yə yüksəldi. 2013-cü ildə Xorvatiyanın qoşulması ilə Avropa Birliyinə üzv dövlətlərin sayı 28-ə çatdı.

**Nəticə**

Ümumi nəticəyə gələrək qeyd etməliyik ki, II Dünya müharibəsindən sonrakı dövrdə Avropa ölkələrində yaranmış iqtisadi və sosial zəifləmə nəticəsi olaraq Avropa Birliyi kimi bir qurumun yaranması bütün Avropa ölkələrinin tərəqqisi üçün zəruri hesab edilirdi. Başqa sözlə desək, Avropa Birliyinin yaranması sülhü təşviq etmək, vahid iqtisadi və pul sistemi qurmaq, inklüzivliyi təşviq etmək, ayrı-seçkiliklə mübarizə aparmaq, ticarət və sərhədlər üçün maneələri aradan qaldırmaq, texnoloji və elmi inkişafları təşviq etmək, ətraf mühitin mühafizəsini dəstəkləmək, eyni zamanda rəqabətli qlobal bazar və sosial tərəqqini təmin etmək üçün bir cəhd idi. Sözsüz ki, yarandığı ilk dövr üçün Avropa Birliyi yaxın gələcəkdə bu qədər yükü öz üzərinə götürəcəyini təsəvvür etmirdi. Avropa Kömür və Polad Birliyi kimi yaranmış bu birlik, hazırda Avropa ölkələrinin davamlı iqtisadi inkişafı cəhətdən əvəzedilməz xarakter daşımağa davam edir. Bütün ölkələrə məlumdur ki, hazırki dövrdə Avropa ölkələrinin sosial-iqtisadi inkişafı fərdi olaraq Birliyin inkişafından asılıdır. Buna görə də birliyə üzv olan dövlətlər davamlı inkişaf üçün öz öhdəliklərini layiqincə yerinə yetirməyə çalışacaqlar.

## ƏDƏBİYYAT


1. Babaoğlu H. Dünya Siyasəti və Beynəlxalq Münasibətlər. Bakı: Çinar-Çap, 2010, 587 s.
2. Əkbərov R. Avropa Hüququ. Bakı: Elm və Təhsil, 2016, 180 səh.
3. Eyvazova S. Avropa İttifaqı və Azərbaycan Respublikası Əməkdaşlığının Hüquqi Əsasları. Bakı: Azərnəşr, 2018, 288 s.
4. Həsənov Ə. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. Bakı: Azərbaycan, 2005, 398 s.
5. Kaya A. Avropa Birliği Hakkında Merak Ettikleriniz. İstanbul: Hiperlink Yayınları, 2013, 143 s.


***Summary***

***Jalal Khalilov***

***Historical Conditions Necessitating the Establishment of the European Union***

The idea of creating a Union in Europe coincides with the emergence of nation states on this continent. In the peace treaties signed as a result of the war between the countries of continental Europe, the idea of creating a "Union" or "Federation" in Europe came to the fore. However, the idea of creating a Union in Europe did not appear in earnest until during the Second World War.

The split between the two countries led to a new general war in Europe. After the war, Jean Monnet, president of the French Planning Organization, came up with the idea of creating an organization called the European Coal and Steel Community. Monnet, who pioneered the idea of creating the European Union.

Robert Schumann, French Foreign Minister of the period, was responsible for the pooling of coal and steel resources between France and Germany on May 9, 1950, and for the responsibility of supranational authorities for the production and use of these substances. which were the mainstay of the war industry. The European Union has developed over time, and before that it was an organization with an economic character and political identity. During this process, the Fellowship followed a style of behavior that scientists described as moving a bicycle at double speed and tried to overcome problems within itself.

When we want to study the historical development of the European Union from the very beginning, it is necessary to study the institutions that actually form the European Communities and the agreements that ensure the existence and continuation of the Community. The most important of these treaties are the Paris Agreement of 1951, the Treaty of Rome in 1957, the Treaty of Brussels in 1965 and the Treaty of Maastricht in 1992.

An organization whose main goal was to unite the coal and steel markets of the member countries, increase productivity and ensure the creation of new unions in Europe, now it becomes a guarantor of the sustainable development of its member states and a defender of its citizens. A community that at first did not even expect its founders to go this far is still considered insufficient, despite the fact that today it has achieved so many successes. The future of the European Union; In fact, it is directly related to development in the historical process. Because it doesn't matter how many problems the European Union has experienced within itself; in the world, now under the auspices of the European Union continues to be a good example.

***Keywords:*** *Germany, European Union, Federation, France, Organization, Europe*

**_Резюме_**

**_Джалал Халилов_**

**_Исторические условия, обусловившие необходимость создания Европейского Союза_**

Идея создания Союза в Европе совпадает с появлением национальных государств на этом континенте. В мирных договорах, подписанных в результате войны между странами континентальной Европы, на первый план вышла идея создания «Союза» или «Федерации» в Европе. Однако идея создания Союза в Европе всерьез возникла только во время Второй мировой войны.

Раскол между двумя странами привел к новой всеобщей войне в Европе. После войны Жан Моннет, президент Французской организации планирования, высказал идею создания организации под названием «Европейское сообщество угля и стали». Моннет, который был пионером идеи создания Европейского Союза.

Роберт Шуман, министр иностранных дел Франции того периода, 9 мая 1950 года отвечал за объединение ресурсов угля и стали между Францией и Германией, а также за ответственность наднациональных властей за производство и использование этих веществ. которые были опорой военной промышленности. Европейский Союз со временем развивался, и до этого он был организацией с экономическим характером и политической идентичностью. Во время этого процесса Сообщество следовало стилю поведения, который ученые описали как движение велосипеда с двойной скоростью, и пыталось преодолеть проблемы внутри себя.

Когда мы хотим изучить историческое развитие Европейского Союза с самого начала, необходимо изучить институты, которые фактически образуют Европейские Сообщества, и соглашения, обеспечивающие существование и продолжение Сообщества. Наиболее важными из этих договоров являются Парижское соглашение 1951 года, Римский договор

1957 года, Брюссельский договор 1965 года и Маастрихтский договор 1992 года.

Основной целью данной организации было - объедение рынков угля и стали стран, являющихся её членами, а также явилось повышение производительности труда и обеспечение создания новых профсоюзов в Европе, но теперь она стала гарантом устойчивого развития государств - членов во многих областях, а также защитником своих граждан во многих других отраслях. Сообщество, которое вначале даже не ожидало, что его основатели зайдут так далеко, по-прежнему считается недостаточным, несмотря на то, что сегодня оно добилось стольких успехов. Будущее Европейского Союза; Фактически, с развитием в историческом процессе имеет прямое отношение. Потому что не важно, сколько проблем Евросоюз испытал внутри себя; в мире, в настоящее время под эгидой Европейского Союза продолжает быть хорошим примером.

***Ключевые слова:*** *Германия, Европейский Союз, Федерация Франция, организация, Европа*

Baş redaktorun müavini, s.e.d., prof. Gülzar İsaxan qızı İbrahimovanın rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

# MÜASİR ARXEOLOGİYA ELMİ İCTİMAİ-İQTİSADİ TƏHLİL OBYEKTİ KİMİ

**Sahib VƏLİYEV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 25 oktyabr 2021; çapa qəbul edilmişdir: 15 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 25 th October, 2021; accepted: 15 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:*** *Mənəviyyatımız, mədəniyyətimiz, milli-mənavi dəyərlərimiz ideologiya, tarix və arxeologiya*

## Giriş

Son zamanlar Azərbaycan tarixinin müxtəlif sahələri üzrə sanballı elmi araşdırmalar aparılmış, siyasi, iqtisadi, etnik problemlərin, o sıradan mədəniyyət məsələlərinin tədqiqində müəyyən nailiyyətlər əldə edilmişdir. Lakin qədim qaynaqların azlığı, həm də onların birtərəfli tədqiqi Azərbaycan xalqının tarixinin subyektiv izahına gətirib çıxarmışdır. Ötən müddət ərzində bu sahənin də öyrənilməsində yeni addımlar atılmış, qaynaqların araşdırılması, elmi təhlili xeyli genişlənmiş və dərsliyin yazılması üçün kifayət qədər elmi-pedaqoji imkanlar yaranmışdır.

Əlbəttə, yazılı qaynaqların kifayət qədər olmaması Azərbaycan tarixinin bütün sahələrini və dövrlərini eyni səviyyədə tədqiq etməyə, qaranlığı işıqlandırmağa imkan vermir. Ən çətin və mübahisəli problem azərbaycanlıların soykökünün tarixidir. Həmin problemin bəzi məsələləri üzrə hələ də vahid fikir yoxdur. Çünki bir tərəfdən xalqımızın etnik tarixinin subyektiv baxımdan izah edən və müəyyən siyasi məqsədlər güdən tendensiyalar uzun müddət öz mövqeyini saxlamış və təəssüf ki, indi də saxlamaqdadır. Güya azərbaycanlılar türk dillərinin birində danışan xalq kimi bu torpaqlara yaxın keçmişdə gəlmişlər. Digər tərəfdən qədim zamanlardan azərbaycanlıların soykökünün bu ərazi ilə bağlı olması, Azərbaycan xalqının yaranması və formalaşmasında bilavasitə iştirak edən türk etnoslarının qədimdən burada yaşamaları barədə mövzular 60-cı illərdən başlayaraq tədqiqat obyektinə çevrilmiş və son illər daha da genişləndirilmişdir. Bu müddəanın əsas məzmununu qədim zamanlardan Azərbaycanda və qonşu ərazilərdə türk etnoslarının məskun olması fikri təşkil edir. Qaynaqların təhlili bu müddəanı təsdiqləyir. Tarix boyu Azərbaycanda məskunlaşan və müxtəlif dillərdə danışan etnoslar islam dini çərçivəsində azərbaycanlılarla yaxın iqtisadi və mədəni əlaqədə olmuşdur. Onlar indi də dillərini saxlamaqla Azərbaycan türk xalqı ilə sıx təmasdadır. Bu səbəbdən də keçən uzun müddət ərzində sülhsevər, müdrik və ərazisindəki azsaylı etnik qrupların adət-ənənəsinə hörmətlə yanaşan bir xalq kimi azərbaycanlılar arasında beynəlmiləl ənənə yaranmış və inkişaf etmişdir. Dərslikdə, qaynaqların verdiyi imkan daxilində, bu etnik azlıqların da erkən tarixinə nəzər yetirilmişdir. Azərbaycan xalqının etnik azlıqları öz ətrafında toplaması qarşılıqlı təsirə də səbəb olmuş-

* tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
*e-mail: s.valiyev70@gmail.com*

dur. Həmin təsir Azərbaycan mədəniyyətinin çoxşaxəli zənginləşməsinə şərait yaratmışdır. Bu barədə mövcud müddəalar imkan daxilində oxuculara təqdim olunan «Azərbaycan tarixi» dərsliyində öz əksini tapmışdır. (1, s. 216-217; 3, s. 519-520)

Şübhə yoxdur ki, tarixi materiala yeni baxım, bu və ya digər mülahizələrin üstünlük təşkil etməsi, tarixi hadisələrə əvvəlkindən fərqli münasibət müəyyən elmi mübahisə doğura bilər. Bir sıra, xüsusilə qədim və erkən orta əsr tarixinə aid fikir və mülahizələr uzun illərdən bəri tarixşünaslıqda kök salmış müddəaları təkzib edir və qismən də ehtimal şəklində qoyur. Lakin elm bir yerdə dayanmır, inkişaf edir, buna görə də Azərbaycan xalqının vacib tarixi problemlərinin yeni istiqamətdə qoyuluşunu və həllini zəruri hesab etməklə bu münasibəti ancaq alqışlamaq olar. Şübhəsiz, tarixşünaslığımızda təhlil edilmiş faktlarla yanaşı, keyfiyyət qədər araşdırılmamış, mübahisəli, bəzən də ziddiyyətli mülahizələr də vardır. Aydındır ki, mübahisələr obyektiv və elmi mübadilə səpkisində aparılmışdır. (2, s.46-47)

Bunlar qeyd etməkdə məqsədim ondan ibarətdir ki, bütün xalqların bildiyi kimi bizim xalıqın kökünü araşdıranda o araşdırma gedib lap-lap qədimlərə çıxır. Tariximizlə, mədəniyyətmizlə bağlı olan araşdırmalar da bunlara sübutdur ki, bizim xalqın böyük bir tarixi var. Mən bu yerdə çoxlu-çoxlu misallar gətirə bilərəm Nizami Gəncəvidən qabaqkı dövrlərdən. Nizamini yaşadan, Firdovsini yetirən tarixdən. Ulu babalarımızın at oynatdıqları Qarabağ elindən və s. və i.a.

**Arxeologiya elmi-ictimai-iqtisadi təhlil obyekti kimi**

Azərbaycan Respublikası ərazisində Daş dövrü abidələrinin tədqiq olunmasının xalqımızın uzaq keçmişinin öyrənilməsində mühüm elmi əhəmiyyəti vardır. 1918-1953-cü illərdə Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji kəşfiyyat və qazıntı işləri zamanı respublikamızın ərazisinin qədim keçmişinə aid yüzlərlə maddi mədəniyyət abidələri qeydə alınmışdır. Gədəbəy, Kəlbəcər, Şəmkir, Tovuz, Göyçə gölü, Çaykənd və Şurtəpə ətrafında Mustye mədəniyyəti dövrünə aid olan daşdan düzəldilmiş əmək alətləri də bunlara əyani sübutdur. (4, s. 417-418)

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, çaxmaqdaşı Azərbaycan Respublikasının Qarabağ ərazisində, dəvəgözü daşı isə Kəlbəcər, Gədəbəy rayonlarının ərazilərində, Göyçə gölü ətrafında, Şurtəpə (indiki Şahdağ keçmiş Şurabad kəndi) Əyrivəng və Çaykənd açıq tipli yaşayış məskənlərində daha çox yayılmışdır. Mustye mədəniyyəti dövründə daşdan əmək alətləri hazırlamaq üçün xammal toplamaqla xüsusi insanlar qrupu məşğul olmuşdur. Həmin insanlar qrupunun Gədəbəy rayonunun ərazisindəki Çobankənd kəndi yaxınlığındakı "Dəmirlik", Yenikənd kənd ərazisində "Kilsə", "Pirbudaq", "Qırcıllı" kimi və "Şurabad" kəndinin (vaxtilə Şurtəpə kimi tanınan ərazi) yaxınlığındakı "Qalaça", Göyçə gölü mahalının yaxınlığındakı Orta Şurtəpə kimi adlanan yaşayış yerlərində yaşamaları məlum olmuşdur. Bunlar arxeoloji qazıntılar və tapıntılar kimi də tarixə düşmüşdür. Onu da qeyd edim ki, yerli camaatın bu günə qədər "Qalaça" kimi tanıdıqları və gördükləri qədim qəbirlər hələ də qalmaqda davam edir. Həmin ərazilərə yaxın olan yerlərdən də biri də "Kilsə" kimi tanınan qədim yer adıdır. Haqqında danışdığımız və yazmaq istədiyimiz Kilsə dərəsi o yerlərdir ki, bu günə kimi həmin yerlər öz adları ilə çağırılır və qədim qalıqları ilə hamının diqqətini cəlb etməkdədir. Saratovka-İvanovka yolunun üstündəki "Kilsə dərəsi" kimi tanınan ərazisinin kilsə qalıqları nə dünənin nə də bu günün yox eramızdan əvvəl XII -VII əsrləri əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi kimi tariximizə daxil olmuşdur. (4, s. 516-517; 5, s. 261-262)

Çoxcildlik Azərbaycan arxeologiyasının yazılmasında əsas məqsəd son 150 ildə və

xüsusən, XX əsrdə Azərbaycan dövləti iki dəfə müstəqillik əldə etdikdən sonra respublikamızın ərazisində aparılmış arxeoloji tədqiqat və kəşfiyyat işləri nəticəsində tapılmış maddi-mədəniyyət qalıqlarını arxeologiya elminin müasir səviyyəsində tədqiq edib, onun nailiyyətlərini beynəlxalq və ölkəmizin geniş ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Uzaq keçmişin tədqiqində ən mühüm mənbə arxeoloji tapıntılar hesab olunur. Arxeoloji mənbələr əsasında ilk ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixini dəqiq öyrənmək olur. Məhz buna görə də arxeologiya elmi 20 insanın uzaq keçmişini maddi mədəniyyət qalıqları vasitəsilə tədqiq edir. 1953-cü ilə qədər Azərbaycan Respublikası ərazisində Paleolit dövrünə aid qədim insan düşərgələrinin olmadığı barədə elmi ədəbiyyatlarda yanlış fikir söylənilirdi. Hətta1881-ci ildə Tiflis şəhərində keçirilən V arxeoloji qurultayda Zaqafqaziya və o cümlədən Azərbaycan ərazisində ibtidai insanların yaşamadığı və bu bölgələrdə qədim insan düşərgələrinin olmaması barədə qərar çıxarılmışdı. Təəssüf ki, 1953-cü ilə qədər Azərbaycan tarixinə aid yazılmış bəzi əsərlərdə bu qərarın düzgün olduğunu söyləyən arxeoloqlar da var idi. Tarixi mənbələr, coğrafi və paleogeoloji ədəbiyyatlardan məlum olurdu ki, Azərbaycan Respublikasının ərazisi ən qədim zamanlardan ibtidai insanların məskunlaşması üçün olduqca əlverişli təbii coğrafi şəraitə malik olmuşdur. Daş dövrünün görkəmli tədqiqatçısı Sergey Nikolayeviç Zamyatnin 1950-ci illərin əvvəllərində yazırdı ki, Azərbaycan ərazisində, onun kimi də Gədəbəy rayonunun ərazisində daş dövrünün ən qədim tapıntılarına rast gəlmək mümkündür. Azərbaycan Respublikası ərazisində paleolit düşərgələrinin aşkar olunması məqsədilə 1953-cü ilin noyabrında rus alimi S.N.Zamyatnin Leninqraddan Bakıya dəvət olunmuş və bir neçə rayonlarla bərabər Gədəbəy rayonunun ərazisində yenidən arxeoloji qazıntı ilə məşğul olmuşdur. (6, s. 412-413; 7, s. 19-20)

**Arxeologiya elmi Azərbaycan tarixinin öyrənilməsində bir mənbə kimi**

M.M.Mənsurovun rəhbərlik etdiyi dəstə 1962-1966-cı illərdə Qazax, Tovuz və Gədəbəy rayonları ərazisində apardıqları arxeoloji kəşfiyyat işləri zamanı Paleolit dövrünə aid Qayalı, Acıdərə, Tatlı, Əlibayramlı, Şişquzey, Qədirdərə, Çınqıltəpə, Uzundərə, Caxmaqlı, Marallı, Köçəsgər, Yataq, Qızılqaya, Tikdaş, Qalaça, Dəmirlik, Kilsə, Qızılvəng, Şurtəp, Orta Şurtəp, Şurtəpə, Çaykənd, Daşəsəri, Qaraqaya, Çömçəli, Daşapxac, Sarıqaya, Sarıyol, Cillitala, Dərbənd, Çiçəkli, Şoraq, Qırcıllı, Pirbudaq, Yalpaya, Tayçarıx, Orta kənd, Kötüklü, Zeynaltala, Xanımtalası, Almatala, Qədirtalası, Dumanlıtala və başqa yerli abidələrini bunun kimi də yaşayış yerlərini qeydə almışdır. Bunların tarixi qaynaq kimi əhəmiyyətini də xüsusi vurğulamaq yerinə düşərdi. (7, s. 45-46; 8, s. 26-27, 458-459; 15, s. 63-64)

Qədim Aşel mədəniyyətinə aid olan VI təbəqədə aparılan arxeoloji qazıntılar zamanı zəngin daş məmulatı ilə birlikdə heyvan sümükləri, ocaq və kömür qalıqları tapılmışdır. Azıx düşərgəsinin qədim Aşel mədəniyyətinə aid olan VI təbəqədən aşkar olunmuş maddi mədəniyyət qalıqlarının zənginliyi göstərir ki, qədim Aşel dövründə düşərgədə uzun müddət məskunlaşmış qədim insanlar ovçuluq və yığıcılıqla məşğul olmuşlar. Paleolit düşərgəsində ibtidai insanların ovçuluq təsərrüfatı ilə məşğul olmasını əks etdirən daş alətlərlə yanaşı, müxtəlif heyvanlara aid olan zəngin sümük məmulatının tapılması göstərir. Qədim Aşel mədəniyyətinə aid olan sümük məmulatının bəziləri daşlaşmış vəziyyətdə tapılmışdır. Qədim Aşel mədəniyyətinə aid təbəqədən 100 mindən artıq 11 heyvan növünə məxsus olan sümük məmulatı tapılmışdır. (8, s. 211-212; 9, s. 35)

Gədəbəydən aşkar edilmiş arxeoloji tapıntılar nəticəsində son Tunc və ilk Dəmir dövrünə (e.ə. XIV-VII əsrlər) aid Xocalı-Gədəbəy mədəniyyəti müəyyən edilmişdir. Bu

dövrdə Gədəbəydə qalaça adlanan qurğular tikilmişdir. Bu ərazinin əhalisi orta əsrlərdə də Azərbaycan tarixində mühüm rol oynamışdır.

Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan abidələrin bir qismi siklop tikintiləridir. Azərbaycanda Son Tunc və Erkən Dəmir dövrləri abidələrinin böyük bir qismi Xocalı-Gədəbəy mədəniyyətinə aiddir. Tədqiqatlardan bəlli olur ki, bu mədəniyyətin əhatə etdiyi tarixi dövrdə Azərbaycan tayfalarının qonşu regionlarla geniş əlaqələri olub. Təsadüfi deyil ki, hələ XX əsrin əvvəllərində Xocalı yaxınlığında aparılan qazıntılar zamanı üzərində Assur hökmdarının adı həkk olunan muncuq aşkar olunmuşdu.(10, s. 121-122)

Xocalı-Gədəbəy mədəniyyəti abidələri həm də emalatxanalar, qəbirlər və ibadətgahlardan ibarətdir. Mədəniyyətin yayıldığı ərazidə misəritmə kürələri, mis və tunc məmulatları hazırlayan emalatxanaların qalıqları, çaxmaq daşından alət və silahların istehsal tullantıları aşkar edilmişdir. Torpaq, daş qutu qəbirlər və kurqanlarda ölülər bükülü, uzadılmış, oturdulmuş vəziyyətdə dəfn olunmuşdur. Qəbirlərin keramikası, demək olar ki, eynidir. Qəbirlərdən tunc qılınc, təbərzin, toppuz, ox, yaba, xəncər, nizə ucluğu, bardaq, qazan, cilov, bilərzik, üzük, sümükdən düzəldilmiş bəzək əşyaları, gildən və daşdan hazırlanmış müxtəlif məmulatlar aşkar edilmişdir. (10, s. 130-131)

Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti nümunələri Naxçıvan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin Gədəbəy qrupu üçün xarakterik olan mədəniyyət geniş yayılmışdır. Bu, onu göstərir ki, e.ə. II minilliyin sonunda Gədəbəy qrupuna aid olan etnoslar üstünlük təşkil etmiş və Azərbaycanın cənub rayonlarına da yayılmışdır. Ola bilsin ki, bu dövrdə Xocalı-Gədəbəy mədəniyyətinə aid tayfalar vahid bir etnos halında birləşmişdir. Bəzək əşyaları Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən aşkar olunan tunc kəmərlər yüksək sənətkarlıqla hazırlanmaları ilə fərqlənir. Xocalı və Mingəçevirdən tapılan belə kəmərlərin bəzəmə motivi zəngindir. (12, s. 17-18; 15, s. 46)

**Arxeologiya elminin formalaşması**

Bu yerdə XVIII əsrin ortalarında, 30-40-cı illərində yaradılmış İrəvan xanlığına bir baxış keçirmək istərdim. Xanlığın əsasını XVIII əsrin ortalarında Mirmehdi xan qoymuşdur. Ərazisi Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasındakı torpaqları təşkil edirdi. Xanlıq 15 mahala bölünmüşdür. Əhalinin hamısını Azərbaycan türkləri təşkil edirdi. Xanlığın mərkəzi İrəvan şəhəri idi. Mirmehdi xandan sonra hakimiyyətə Hüseynəli xan gəlmişdir. 1795-ci ildə Ağaməhəmməd Xan Qacar İrəvan xanlığına hücum etmiş, həmin dövrdə İrəvan xanı Məhəmməd xanı hakimiyyətdən uzaqlaşdırmışdır. 1797-ci ildə Ağaməhəmməd şah Qacarın ölümündən sonra Məhəmməd xan hakimiyyətini bərpa etmişdir. Əgər biz burada Ağaməhəmməd şah Qacarın İrəvan xanlığına hücumunu torpaq iddiasına düşmüş kimi qiymətləndirmiş olsaydıq, onun başqa görünən tərəflərinə hansı adı qoyacağımız haqqında düşünmədən çarın apardığı təbliğatı yadımıza salmağa calışacağıq. İkinci tərəfi. Mirmehdi xan hakimiyyətə gəlmişdisə Ağaməhəmməd şah Qacar burada hansı rolu oynayırdı ki, Mirmehdi xandan sonra hakimiyyətə Hüseynəli xan gəlmişdir. Üçüncüsü, 1795-ci ildə Ağaməhəmməd şah Qacar İrəvan xanlığına hücum etmiş, həmin dövrdə İrəvan xanı Məhəmməd xanı hakimiyyətdən uzaqlaşdırmışdır. 1797-ci ildə Ağaməhəmməd şah Qacarın ölümündən sonra Məhəmməd xan hakimiyyətini bərpa etmişdir. Bu maraqlı məqamın siyasi oyun olduğuna yəqin ki, hər kəs diqqət yetirmiş oldu. Bu mövzuya başqa bir səpkidən yanaşmış olsaydıq, onda deyə bilərdikmi ki, o zamanda,, görəsən xanlıqları yerli camaatmı təyin edirdi, yoxsa Nikolaylar, ya da Ağaməhəmməd şah Qacarlar? Nikolayların və yaxud Ağaməhəmməd şah Qacarların bizlərə canı yanırdısa, nə üçün "Mart soyqrımı"nda (31mart 1915-ci il soyqrımı haqqında, yəqin ki, xəbəriniz var)

bizlərə onların heç biri yaxın durmadı. Türkiyədən gələn Nuru paşa bizi o qəddarların və himayəçilərin əllərindən aldı? Bu sualın görünən tərəfləri və tutarlı cavabı olmasına baxmayaraq, məqsədimizdən uzaqlaşmamaq üçün əsas məqama toxunmaq istərdik. (12, s. 46-47; 13, s. 99)

1896-cı ildə Moskva arxeoloji cəmiyyətinin üzvü A.A.İvanovski Gədəbəydə yenidən arxeoloji qazıntı işləri aparıb və tədqiqat üçün 72 daş qutu qəbir qazıb. Burada skeletsiz qəbirlərə də rast gəlinib. Qəbirlərdə insan dəfn edilməsə də onlardan saxsı qablar və iribuynuzlu heyvana aid ayaq sümükləri tapılıb. “Göyəmin yanı” və “Çal” nekropolunda qazılmış daş qutu qəbirlərdə dəfn olunmuş heyvanın ayaq sümüyünün qurban kəsilmiş öküzün ayağı olduğunu ehtimal etmək olar. Görünür, öküz dəfn mərasimində qurban kimi kəsilib, bir hissəsi ehsan paylanıb, ayağının biri isə qəbirə və ya “qurbangaha” qoyulub. Ehtimala görə, heyvan (öküz) budunun qəbirlərdə dəfni və kəmərlərin üzərindəki təsvirləri Qafqazda, o cümlədən Azərbaycanda yaşamış qədim əhalinin axirət dünyası ilə bağlı dini təsəvvürləri ilə bağlıdır. Skeletsiz qəbirlərdə təkcə saxsı qablar olur, bəzək əşyalarına, silahlara, əmək alətlərinə təsadüf edilmir. Tamamilə boş, skeleti, avadanlığı olmayan qəbirlərə də rast gəlinir. V.Belk, A.Ivanovski, E.Resler, Y.Qummel və b. tədqiqatçılar Qərbi Azərbaycanın son tunc və ilk dəmir dövrünə aid nekropollarında apardıqları arxeoloji qazıntılar zamanı onlarla skeletsiz qəbirlər aşkar ediblər. (12, s. 39-40; 14, s. 25)

Daş dövrünün görkəmli tədqiqatçısı Sergey Nikolayeviç Zamyatnin 1950-ci illərin əvvəllərində yazırdı ki, Azərbaycan ərazisində, onun kimi də Gədəbəy rayonunun ərazisində daş dövrünün ən qədim tapıntılarına rast gəlmək mümkündür. Bunun kimi də Məmmədəli Hüseynovun 1975, 1976-cı illərdə apardığı arxeoloji qazıntılar zamanı qələmə aldığı elmi tədqiqat və elmi əsərlərdə o yerlərin VII-IX və X təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı mühüm elmi əhəmiyyətə malik maddi mədəniyyət nümunələri tapıldığını qeyd edib göstərmişdir. Bundan başqa o yerlərdə aparılan kompleks elmi tədqiqatlar zamanı paleolit düşərgəsinin VII-X təbəqəsindən tapılmış daş məmulatının dünya arxeologiyasında oxşarı olmadığı və bunların tamamilə yeni bir arxeoloji mədəniyyətə məxsus olması müəyyən edilmişdir. (15, s. 77-78)

Başqalarının gündəlikləri tariximiz üçün qiymətli qaynaqlar kimi xüsusi qeyd edilməlidir. 1965-ci ildə Bakıda keçirilən SSRİ arxeoloq və etnoqraflarının ümumittifaq elmi konfransının iştirakçıları - P.İ.Boriskovski, V.P.Lübin, İ.İ.Korobkov, N.D.Praslav və başqaları Gədəbəy rayonunun ərazisindəki Şurtəpə, Qədim Tağılar, Tayçarıx, Qalakənd rayonu (İndiki Bert rayonu), Kötüklü, Zeynaltala, Xanımtalası, Almatala, Qədirtalası, Dumanlıtala“ Xınna dərəsi”ndə, “Dikdaş”da, “Qızılqaya”da, “Kəsəmən”də, “Kilsə dərəsi” “Şahocağı”, “Qaraqaya” və “Çətindərə” «Qalakənd» yaşayış düşərgələrinə gedərək o yerlərin stratiqrafiyası ilə tanış olmalarını xüsusi olaraq qeyd etmək lazımdır. (16, s. 43)

1962-1963-cü illərdə V.Belk, A.Ivanovski, E.Resler, Y.Qummel və başqaları kimi ediblərin və tədqiqatçıların əsərlərini tarixi araşdırmalara cəlb etməyin vacib olduğunu da nəzərdən qaçırmamaq lazımdır. Bu yerdə onu da qeyd etmək istərdim ki, Qərbi Azərbaycanın (yəni yuxarıda adlarını qeyd edib və edə bilmədiyimiz yaşayış yerlərinin) son tunc və ilk dəmir dövrünə aid nekropollarında apardıqları arxeoloji qazıntılar zamanı onlarla skeletsiz qəbirlər aşkar ediblər. (17, s. 61)

Ən qədim memarlıq və ilk mədəniyyət abidələri ilə zəngin olan bu yerlərə, respublikamıza kənarlardan Azərbaycanımıza dəvət olunmuş P.İ.Boriskovski, V.P.Lübin, İ.İ.Korobkov, N.D.Praslav və başqalarının, istərsə də M.M.Hüseynovun, M.Mənsurovun rəhbərlik etdiyi dəstələr 1962-1966-cı illərdə Qazax, Tovuz və Gədəbəy rayonları ərazisində

apardıqları arxeoloji kəşfiyyat işləri zamanı paleolit dövrünə aid qiymətli faktlar yer almışdır, həm də qarşılıqlı münasibətlər öz əksini tapmışdır. (15, s. 45)

**Nəticə**

Bu yerdə arxeoloji mədəniyyətin bir neçə inkişaf mərhələsi olması müəyyən etmiş olsaq görərik ki, çoxtəbəqəli Tağlar paleolit düşərgəsində ilk dəfə olaraq 1963-cü ilin iyun-iyul aylarında M.M.Hüseynovun rəhbərliyi altında paleolit arxeoloji ekspedisiyası arxeoloji qazıntı işləri aparmışdır. Tağlar düşərgəsində ilkin arxeoloji qazıntılar zamanı 36 düşərgənin çöküntülərində 3 mədəni təbəqə qeydə alınmışdır. 1964-1967-ci illərdə M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Tağlar düşərgəsində arxeoloji qazıntı işləri aparmış, minlərlə daş məmulatı və ovlanmış heyvan sümükləri aşkar edilmişdir.

Əldə olunan mənbələr, eləcə də tarix və arxeoloji tapıntılar, onu göstərir ki, Azərbaycanın bir çox əyalətləri antik dövrdə, iqtisadi cəhətdən inkişaf etmiş və sıx əhaliyə malik olan qədim tarixə malik olan iri yaşayış məskənidir. Gədəbəy rayonu qədim zamanlarda təkcə Cənubi Qafqazda deyil, eləcə də Yaxın Şərqdə əhalinin sıx məskunlaşmış ərazilərindən biri kimi tanınmışdır. Əlverişli iqlimi, təbii coğrafi şəraiti, təbii sərvətlərin bolluğu, beynəlxalq əhəmiyyətli ticarət yolları, bu yaşayış düşərgəsinin iqtisadi cəhətdən inkişafına kömək etmişdir. Yüksək təpələr üzərində salınmış qədim tarixə malik olan yaşayış düşərgələri bir tərəfdən Zəyəm çayı, digər tərəfdən isə Şəmkir çayı, yuxarı hissədən isə Kiçik Qafqaz dağları ilə əhatə olunur. Üçqat qala divarları və Qız qalası, sanki bütövlükdə möhtəşəm müdafiə istehkamını xatırladır. Ulu babalarımızın, qədimlərdən bəri vətəni qorumaq məharəti bu gün milli ordumuz tərəfindən öyrənilir. Bu yerdə onu da qeyd edə bilərəm ki, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyev bizə azərbaycançılıq kimi dərin bir fəlsəfi konsepsiyanı bəxş edərək, Azərbaycan dilini, tarixini, mədəniyyətini və milli-mənəvi dəyərlərimizi qorumağı, dönə-dönə tövsiyə etmişdir. (18, s.279-280)

Bu son on il ərzində bütün istiqamətlər üzrə aparılan islahatlar irəli sürülmüş, təşəbbüslər ölkəmizi daha da gücləndirmişdir. Bu yerdə onu da qeyd etməyimiz yerinə düşərdi ki, qədim tarixə malik olan Gədəbəy diyarının əhalisinin, ziyalısının zəhmətinə və istedadına güvənirik. Əlbəttə ki, əsas prioritet məsələ ərazi bütövlüyümüzün bərpasıdır. Bu bizim ən ağrılı, ən vacib problemimizdir. Ölkəmizin bütün bütün istiqamətində aparılan arxeoloji qazıntılar və arxeoloji tədqiqatlar haqqında bu gün qəbul edilən hər bir qərar cəmiyyətimizin xeyrinə düşünülərək verilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı: Elm, 1998. 520 s.
2. Azərbaycan Respublikasının “Mədəniyyət və Turizm qanunvericiliyi toplusu”. İki cilddə. I c. Bakı: Avrasiya Press, 2011, 522 s.
3. Azərbaycan tarixi: 7 cilddə, II c., Bakı: Elm, 2007, 608 s.
4. Azərbaycan arxeologiyası. VI c., Bakı: Şərq-Qərb, 2008, 632 s.
5. Azərbaycan Etnoqrafiyası. I c., Bakı: Şərq-Qərb, 2007, 543 s.
6. Azərbaycan Etnoqrafiyası. III cilid Bakı: Şərq-Qərb, 2007, 567 s.
7. Azərbaycanın arxeoloji abidələri. Bakı, 1981, 181 s.
8. Baxşəliyev V. Azərbaycan arxeologiyasi, Bakı, 2006, 236 s.
9. Əliməmmədov A. İslamaqədərki inamların öyrənilməsində qayaüstü təsvirlərin roluna dair

// Milli Azərbaycan Tarixi Muzeyi, Məqalələr toplusu. Bakı: Ziya, 2013, s. 34-39.
10. Cəfərov Ə.Q. Azərbaycan qədim insan məskənidir. Azərbaycan abidələri. Bakı: Azərnəşr, 1989, 157 s
11. Cəbiyev Q, Azərbaycan arxeologiyası: uğurlar, problemlər, vəzifələr // Xalq qəzeti, 2018, 5 oktyabr.
12. Cəfərzadə İ.M. Azərbaycan tarixinin ən qədim dövrü. Bakı, 1956, 196 s.
13. İsmayılzadə Q., İbrahimli B. Qızılburun nekropolu. Bakı; Elm və Təhsil, 2013, 120 s.
14. Kərimov Ə.S. Azərbaycan milli mentaliteti və müasirlik // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası tematik məcmuə, III buraxılış, 2006, s. 26-32.
15. Kərimov V.İ. Azərbaycanın qədim məskənləri. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2013. 292 s.
16. Meşşaninov İvan. Kateqoriyalar: Arxeoloji mədəniyyətlər, 1967, s. 136.
17. Məmmədova G.H, Hacıyeva S.X. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2013. 272 s.
18. Nağıyev N.H., Hüseynov F.M. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. V c., Bakı; "Şərq-Qərb" nəşriyyat evi, 2013. 352 s.

***Резюме***

***Сахиб Велиев***

***Развитие современной археологической науки на фоне общественно-экономического анализа***

Археологические памятники, материальные культурные ценности, историческое и архитектурное наследие с древнейших времен до наших дней дают основание говорить о том, что народ Азербайджана входит в число самых передовых народов в области культуры. Развитие нашей идеологии на научной основе, такой как археология, история, развитие нашей независимости, духовности и культуры, отражается в сегодняшней жизни.

Сегодняшние археологические исследования, археологические исследования и социально-экономические изменения в нашей стране являются результатом исторического развития нашей страны, глубочайших пластов ее прошлой истории, обретения национальной независимости и суверенитета сегодня и восстановления национальных ценностей нашей страны. азербайджанский народ. Серьезные археологические исследования, поиски и раскопки в городах и селах Азербайджанской Республики являются одним из факторов, отвечающих уровню сегодняшних требований, и позволяют проводить археологические раскопки и находить новые материальные и духовные, а также материальные культурные останки.

Появление подобных артефактов в новейшей истории и археологических исследованиях, однозначное объяснение сущности, структуры, происхождения теории информационной борьбы различными научными группами и некоторыми учеными привели к объективным трудностям в формировании этой теории. Как правило, становление и развитие археологической науки связано с изучением этого вопроса. Полученные здесь образцы богатой материальной культуры привели к растущему интересу к археологическим памятникам и древней культуре Азербайджана, и преобладает базовый подход.

С того момента, как они пришли на Землю, человечество продолжило силы природы и создало такой уникальный динамический механизм для их сосуществования с ними, что его движения стали последовательными и постоянными. Этот уникальный механизм, возникший с возникновением первой социально-экономической формации, является одним из археологических исследований общества.

Проведенные здесь археологические факты показывают, что уникальность общества заключается в том факте, что без него человеческая жизнь в цивилизованном виде в месте, называемом вселенной, не может существовать. Основываясь на археологических фактах, можно сказать, что это неоспоримый факт, что люди предотвращают стихийные процессы в общении друг с другом и с природой.

Археологические раскопки и археологические раскопки показали, что все существующее, включая речь, имеет форму и содержание. Здесь мы также можем отметить, что содержание речи состоит из знания, а форма этого знания состоит из способа существования, форм выражения, их

языко-речевых единиц, то есть слов, предложений и их комбинаций в результате археологических находок.

Основываясь на археологических исследованиях, если мы попытаемся оценить национальный менталитет нашего народа с точки зрения существующих реалий, мы увидим, что потрясения нашей истории, тот факт, что наша земля долгое время была объектом интереса ближних и дальних государств и завоеватели как источник богатства.

***Ключевые слова:*** *Наша духовность, культура, национальные и духовные ценности - это идеология, история и археология.*

***Summary***

***Sahib Veliyev***

***Modern Archaeological Science as an Object of Socio-Economic Analysis***

Archaeological monuments, material cultural riches, historical and architectural heritage from ancient times to the present day give grounds to say that the people of Azerbaijan are among the most advanced peoples in the field of culture. has been one. The development of our ideology on a scientific basis, such as archeology, history, the development of our independence, spirituality and culture, is reflected in life today.

The archeological researches, archeological researches and socio-economic changes taking place in our country today have contributed to the historical development of our country, to the deepest layers of its past history, to the achievement of national independence and sovereignty today. It is the result of the development of the restoration of the national values of the Azerbaijani people. Significant research of archeological researches, searches and excavations in the cities and villages of the Republic of Azerbaijan is one of the factors meeting the level of today's requirements and allows to conduct archeological excavations and find new material and spiritual, as well as material culture remains. .

The emergence of such archaeological facts in modern history and archeological research has led to objective difficulties in the formation of this theory due to the ambiguous explanation of the essence, structure and origin of the theory of information struggle by various scientific groups and some scientists. As a rule, the formation and development of archeological science in the study of this issue. The rich material culture samples obtained here have led to a growing interest in Azerbaijan's archeological monuments and ancient culture, and the basic approach prevails.

From the moment they came to earth, mankind has continued the forces of nature and created such a unique dynamic mechanism for their coexistence with them that its movements have become consistent and permanent. This unique mechanism, which emerged with the emergence of the first socio-economic formation, is one of the archeological researches of the society.

The archeological facts presented here show that the uniqueness of society lies in the fact that without it is impossible for human life to be established in a civilized form in a place called the universe. Based on archeological facts, we can say that it is an undeniable fact that people prevent spontaneous processes in communication with each other and with nature.

As is clear from archeological excavations and archeological excavations, everything that exists, including speech, has a form and content. We can also note here that the content of speech consists of knowledge, and the form of that knowledge consists of the method of existence, forms of expression, their language-speech units, ie words, sentences and their combinations as a result of archeological finds.

Based on archeological research, if we try to assess the national mentality of our people in terms of existing realities, we will see that the turmoil of our history, the fact that our land has long been the object of interest of near and far states, conquerors as a source of wealth.

**Key words:** Our spirituality, culture, national and spiritual values are ideology, history and archeology.

Redaksiya heyətinin üzvü t.e.d., prof. Qasımlı Musa Cəfər oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

## QARABAĞIN XRİSTİAN MƏLİKLİKLƏRİ

**Vahab FƏTƏLİYEV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 4 oktyabr 2021; çapa qəbul edilmişdir: 11 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*
*Received: 4 th October, 2021; accepted: 11 th November, 2021; published online: 29 th December, 2021.*

***Açar sözlər**: məlikliklər, xanlıqlar dövrü, xristianlar*

### Giriş

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra onun yaratdığı nəhəng imperiya parçalandı. Təəssüf ki, bu imperiyanın bir parçası olan Azərbaycan ondan bütöv şəkildə deyil, parçalanmış halda ayrıldı. Ölkə ərazisində çoxlu xanlıqlar meydana gəldi ki, bunlardan biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığının ərazisində fəaliyyət göstərmiş "erməni məlikləri" Azərbaycan tarixinin aktual problemlərindən biridir. Qarabağ xanlığının ərazisində mövcud olmuş bu xristian məliklərin etnik mənşəyi tam olaraq öyrənilməmişdir. Orta əsr mənbələrində keçən erməni sözü daim etnik ad kimi qeydə alınmış, başqa mənalarına fikir verilməmişdir. Bu cür yanaşma isə özlüyündə Azərbaycan, xüsusən Qarabağ ərazisində yaşamış bir sıra xristian xalqların etnik mənşəyinin düzgün təyin olunmasında problemlər yaratmışdır. Bu cür qarışıq vəziyyətin yaranmasından istifadə edən bir sıra erməni müəllifləri torpaqlarımızın bir qismini qədim Armenia coğrafi ərazisinə aid edirlər. Onların təbiri ilə desək, Şimali Azərbaycanın qərb torpaqları və Qarabağ Armenia coğrafi ərazisinə daxil olmuşdur. Ancaq XVIII yüzillikdə yazılmış olan bir xristian müəllifi olan Yesai Həsən Cəlalın "Alban ölkəsinin qısa tarixi" əsərinə baxdıqda görürük ki, o, Azərbaycan ərazisində yaşayan xristianları erməni adlandırsa da ölkə ərazisini heç də Armenia adlandırmır. Buradan bu nəticəyə gəlmək olar ki, ermənilərin iddia etdiyi kimi Qarabağ Armenia ərazisinə deyil Albaniya və ya Arran ərazisinə aid olmuşdur. Yesai Həsən Cəlal həmin ərazilərdə olan şəhərləri də Ağvan, yəni Alban şəhərləri adlandırır.

### 1. Məlikliklərin yerləşdiyi coğrafi ərazi

Məlum olduğu kimi Qarabağ ərazisində 5 xristian məlik mövcud olmuşdur. Bu məlikliklərin yerləşdiyi ərazilər haqqında "Qarabağnamələr"də geniş məlumata rast gəlirik. Məlikliklərin coğrafi mövqeyini yazarkən Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsəri əsas götürülmüşdür. Mirzə Yusif məlikləri təsvir edərkən onların coğrafi yerləşmələrini geniş vermişdir. O, öz təsvirinə Dizaq məlikliyi ilə başlamışdır. Dizaq mahalının uzunu Əkərə çayı və Kültəpədən başlayaraq, Maltəpəyə kimi, eni isə Araz çayından Xurat dağına kimidir. Bu mahalın torpağı çox məhsuldardır. Burada yaxşı pambıq, çəltik, ipək və taxıl yetişdirilir (3, s. 16). O, Vərəndə məlikliyinin sərhədlərini isə bu cür təsvir edir: "İkinci, Vərəndə mahalıdır ki, o, Kirs dağından başlayaraq Əli-baba düzənliyinə qədər uzanır. Eni Kirs dağından Şuşakənd çayına və Xəlifəliyə qədərdir. Bu ərazi çox gəlirli və məhsuldardır. Burada buğda və başqa dənli bitkilər yaxşı yetişir" (3, s. 17). Mirzə Yusif Xaçın mahalının eninin Qarqar çayından başlayıb Qabartıya, uzununun isə Qırxqız və

* AMEA Elm Tarixi İnstitutu, kiçik elmi işçi
*e-mail: vahabfataliyev@gmail.com*

Mıxtökən dağından Bayat meşəsinə 17 qədər olduğunu, burada keyfiyyətcə Vərəndədən yaxşı olmasa da buğda və sair məhsulların bol olduğunu, bəzi yerlərində çəltik də yetişdirildiyini, bu yerlərin çoxunun meşəlik və cəngəllik olduğunu yazır. Çiləbörd mahalından bəhs edərkən bu mahalın uzunluğunun Qırxqızdan başlayıb Bərdə və Bayat meşəsinin kənarına qədər, eninin isə Xaçın və Qabartı çayından Tərtər çayına qədər olduğunu qeyd edir. Həmçinin burada toxumluq buğda və başqa taxıl məhsulu yaxşı yetişdirildiyini də yazır. Talış mahalının uzunluğunun Murov və Gülüstani-İrəm dağından, Kürün kənarına qədər, eni isə Tərtər çayından Gorana qədər, buranın torpağının çox münbit olduğunu, burada taxıl və sair dənli məhsulların yaxşı əmələ gəldiyini qeyd edir (3, s. 18). Qeyd edilən ərazilərin hamısı Qarabağ, yəni tarixi Azərbaycan ərazilərinə düşür ki, bunun da Armenia coğrafi ərazisi ilə heç bir əlaqəsi yoxdur. XVIII yüzilliyin əvvəllərində yazılmış bir mənbə olan Yesai Həsən Cəlalın "Albaniya ölkəsinin müxtəsər tarixi (1702-1722)" əsərində də Qarabağ ərazisi Atrpatakan, yəni Azərbaycan ərazisi kimi verilir. Həsən Cəlal Xaçın mahalından idi və XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin ərazisində baş verən üsyanlar və ləzgi hücumlarından danışarkən onları "bizim ölkənin-Atropatenanın qədim düşmənləri" adlandırır (5, s. 13). Buradan da bu nəticəyə gələ bilərik ki, ermənilərin iddia etdiyi kimi Antik Armenia ərazisi heç də Qarabağı özündə əhatə etməmişdir. Erməni tarixçisi Raffi də özünün "Xəmsə məlikliklləri" əsərinin I fəslində Qarabağdan bəhs edərkən bu ərazinin qədimdə Ağvan dövlətinə aid olduğunu qeyd etmişdir (1).

**2. Qarabağın xristian məlikliklərinin etnik tərkibi**

Adətən, tarixşünaslıqda məlikliklərin əhalisi erməni adlandırılır və bu ad etnik məna daşıyır. XIX əsrin birinci yarısında qələmə alınmış Qarabağnamələrdə biz erməni adına rast gəlmirik. Bu Qarabağnamələrə Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" və Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərləri aiddir. Bu əsərlərdə biz Xəmsə məlikləri ifadələrinə və bu məliklərin əhalisinin xaçpərəst olması ilə bağlı məlumatlara rast gəlirik. Bu mənbələrdə məlikliklərin etnik mənsubiyyəti ilə bağlı hər hansısa bir məlumat yoxdur. XIX əsrin ikinci yarısından sonra yazılmış Qarabağnamələrdə isə biz erməni Xəmsə məlikləri ifadəsinə rast gəlirik. Bunun da səbəbi çox güman ki, Çar Rusiyasının 1828-ci il Türkmənçay müqaviləsi və 1829-cu il Ədirnə sülhündən sonra Qacar və Osmanlı dövlətlərinin ərazisində yaşayan erməniləri Azərbaycanın Qərb ərazilərinə və Qarabağ bölgəsinə köçürməsi olmuşdur. Bu köçürmələr nəticəsində Qarabağda yaşayan xristian əhali öz etnik mənsubiyyətini itirmiş və erməniləşmişdir. Məhz bunun və həmin dövrdə olan erməni təbliğatının nəticəsində artıq bu dövrdə Qarabağ tarixi yazmış tarixçilərimiz burada mövcud olmuş xristian məlikliklərini erməni kimi qeyd etmişlər. Əsəri XVIII əsrin əvvəllərinə aid olan Yesai Həsən Cəlal da əsərində Qarabağda yaşayan əhalini erməni adlandırır (5, s. 13). Bəs bu erməni adı həmin dövrdə etnik ad olaraq işlənirdimi? Bunu aydınlaşdırmaq üçün Yesai Həsən Cəlalın əsərinin bir sonrakı səhifəsində Şirvan ölkəsinin Qəbələ əyalətində yaşayan xristianları da erməni adlandırmasını nəzərə almaq lazımdır. Qeyd etmək lazımdır ki, Qəbələdə yaşayan xristianlar udinlərdir və onlar bu gün də Qəbələdə Nic kəndində öz mövcudiyyətlərini davam etdirirlər. Udinlərin isə Albanların Qafqaz mənşəli tayfalarından biri olduğu elmə məlumdur. Belə olan halda belə bir nəticəyə gələ bilərik ki, burada erməni adı etnik mənada deyil, müəyyən bir xristian məzhəbinə aid edilirdi. Bu məzhəbdə olan insanlar isə erməni adlanırdı. Həsən Cəlal Gürcü çarı Vaxtanqla Qarabağdakı məlikliklərin birləşərək ləzgilərə qarşı ordu yaratmasını belə təsvir edir: "Həmin gün o, (Vaxtanq) məni çağırdı və əmr etdi ki, Qarabağ ölkəsinə ondan tez gedim və orada məliklərin və dörd cavan sərkərdənin – Avan, Şrvan, Şaxni və Saruxan - başçılığı altında toplanmış erməni ordusunu onun yanına aparım. Vaxtanqın ilk gəlişindən və pers hakimiyyətinin zəifləməsindən sonra onlar Qarabağ məliklikləri ilə birgə Ağvan ölkəsinin bütün igid və cəsur

gənclərini toplayaraq 12000-dən çox olan böyük ordu topladılar və Arsaxın əlçatmaz yerlərində möhkəmləndilər (5, s. 20). Burada da gördündüyü kimi Həsən Cəlal Ağvan yəni Albaniya ölkəsindən bəhs edir ancaq burada yaşayan xristianları erməni adlandırır. Bu bir daha bizə səbəb verir ki, burada erməni adının etnik mənada deyil, dini mənada işləndiyi fikrini qəbul edək. Fikrimizi daha da əsaslandırmaq üçün əlavə olaraq da bir neçə nümunə verilməsini lüzum görürük. Həsən Cəlal yuxarıda verdiyimiz istinadın ardınca qeyd edir ki, "Onun (Vaxtanqın-V.F) əmri ilə biz onların yanına gəldik, hərb qanunlarına əsasən intizam yaratdıq, çünki onlar hərb işini bilmirdilər və 10000 cəsur və silahlı adam, onlarla yanaşı keşiş və dinləyicilərimizi topladıq və Alban ölkəsini bərpa edilmiş hesab edərək hərəkət etdik və 3 gündən sonra Gəncə yaxınlığındakı Çolak adlı yerdə dayandıq, belə ki, Vaxtanq da həmin bölgədə ... idi" (5, s. 20). Burada da açıq aşkar Albaniya ölkəsinin bərpası qeyd edilir, baxmayaraq ki, burada yaşayan xristianları erməni adlandırır. K.E.Qriqoryan adlı erməni tədqiqatçı ermənilərin 11 subetnosa bölündüyünü qeyd etmişdir. O həmçinin ermənilərin bir çox cəhətə görə müxtəlif olduqlarını və onlara ümumiləşdirici "erməni etnosu" adı altında birləşdirilmiş "müxtəlif xalqlar" tərifini tətbiq etməyin mümkün olduğunu təsdiq etmiş və ermənilərin monolit mədəniyyətinin müxtəlif etno-mədəni törəmələrdən ibarət olduğunu qeyd etmişdir (6, s. 135). XIX əsrin sonunda yaşamış digər erməni müəllifi A.E.Xan-Aqov yazırdı ki, "Persiyadan (Qacar dövləti-V.F) köçürülmüş ermənilər bir çox cəhətdən, həm dil, həm də geyim baxımından yerli Qarabağ ermənilərindən fərqlənir. Persiya ermənilərinin ləhcəsi yerli ermənilər üçün tamamilə başa düşülən deyil" (6, s. 142). Rus Qafqazşünası S.P.Zelinski də Zəngəzurda müxtəlif yerlərdə yaşayan ermənilərin bir-birindən əsas fərqlərinin ləhcədə olduğunu qeyd edir və burada, demək olar ki, nə qədər dairə, kənd varsa, o qədər də ləhcənin olduğunu yazır (6, s. 149). XX yüzilliyin əvvəlində yaşamış digər rus Qafqazşünası V.L.Veliçko ermənilərin mənşəyinin bəlli olmadığını, əhəmiyyətli dərəcədə yəhudi, Suriya-xaldey və qaraçı qanı ilə qarışdıqlarını və özünü ermənilərə aid edənlərin heç də hamısının əsl erməni tayfasına mənsub olmadığını yazır (6, s. 150). Castin və Karolin Makkartilərin birgə yazdıqları əsərdə də erməni millətçiliyinin köhnə dini bölgülərə əsaslandığı və ermənilərin "erməni" anlayışını protestant və katolik erməniləri də bu anlayışa daxil edərək genişləndirdikləri qeyd edilir. Müəlliflər həmçinin qeyd edirlər ki, Avropada mövcud olan millətçilik növlərindən fərqli olaraq dil və mədəniyyət "erməni" anlayışını təyin edə bilməzdi (4, s. 7). Bütün bu məlumatlardan bu qərara gəlmək olar ki, istər Orta əsrlərdə, istərsə də Yeni dövrün əvvəllərində erməni adı daha çox dini, məzhəbi məna daşımışdır. Bu ad XIX əsrdə Türkmənçay və Ədirnə müqavilələrindən sonra "erməni" dini-məzhəbi adı altında tanınan xalqların Azərbaycanın Qərb bölgələrinə və Qarabağa köçürülməsindən sonra milli ad daşımağa başlamışdır. Köçürülmüş xalqları vahid bir etnosa çevirmək üçün addımlar atılmışdır. Ancaq gördüyümüz kimi, bu uzun zaman davam etmiş, hələ XIX yüzilliyin sonunda da başa çatmamışdır. Bu məqsədlə 1836-cı ildə Alban kilsəsi ləğv edilmiş və bundan sonra alban dini-ədəbi irsinin məhv edilməsinə, "ermənniləşməsinə" başlanmışdır. Belə olan təqdirdə Qarabağda mövcud olmuş xristian məlikliklərin milli cəhətdən erməni olmasını iddia etmək elmi baxımdan gülünc olardı.

### 3. Məlikliklıklərin Qarabağ xanlığına qarşı "azadlıq" mübarizəsi

Qarabağnamələrdən və bir sıra digər mənbələrdən məlumdur ki, Qarabağda mövcud olmuş xristian məlikliklər xanlığa qarşı mübarizə aparmışlar. Erməni müəllifləri adətən bu mübarizəni azadlıq mübarizəsi, dini mübarizə kimi qələmə verirlər. Ancaq mənbələrə baxarkən bunun heç də belə olmadığını görürük. Bu mübarizə əslində dini və ya azadlıq mübarizəsi deyil, sadəcə mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri idi. Hər bir iri feodal kimi məliklər də mərkəzi hakimiyyətə tabe olmaq istəmirdilər. Yəni bu sırf siyasi mahiyyət daşıyırdı. Məsələn məlikliklər Qarabağ xanlığına tabe olmamaq üçün bu

xanlığa qarşı digər xanlıqlarla ittifaqlar yaradırdılar. Buna misal olaraq Xəmsə məliklərinin Şəki xanı Hacı Çələbi ilə birləşərək Bayat qalasına hücumda iştirak etmələrini misal çəkə bilərik. Digər yandan məlikliklər arasında da hər hansısa bir ittifaq yox idi. Onlar da öz aralarında daim münaqişə halında idilər. Mirzə Adıgözəl bəy Çiləbörd və Talış məliklərinin münasibətlərinin yaxşı olmadığını yazır. Burada həmçinin Vərəndə məliyi Məlik Hüsü öz qardaşı oğlu Məlik Şahnəzər tərəfindən öldürüldükdən sonra digər məliklərin ona qarşı birləşməsindən və Vərəndəyə hücum edərək oranı yağmalarından bəhs edilir. Bundan sonra Vərəndə məliyi Şahnəzər Pənahəli xana sığınmalı olur (2, s. 42). Bu məlumatdan da görünür ki, burada baş verənlər sadəcə feodal itaətsizliyindən başqa bir şey deyildi. Mirzə Adıgözəl bəyin məlumatına görə Pənahəli xana qarşı çıxan ilk məliklik Dizaq olmuşdur. Ancaq uzun mübarizədən sonra Pənahəli xan məlikliyi özünə tabe edə bilmişdir (2, s. 45). Göründüyü kimi məliklərin mərkəzdənqaçma siyasətləri elə də uğurlu olmamış, Pənahəli xan, ondan sonra isə İbrahim xan onların öhdəsindən gəlməyi bacarmışlar. Beləliklə məlikliklər Qarabağ xanlığının hakimiyyətini qəbul etməli olmuşdular.

**4. Alban məbədlərinin və əsərlərinin məhv edilməsi və ya "erməniləşdirilməsi"**

Erməni kilsəsinin alban məbədlərini, kilsələrini və əsərlərini məhv etməsi və ya onları özününkiləşdirməsi əslində 705-ci ildə Albaniya dövlətinin xilafət tərəfindən məhv edilməsindən sonra başlanmışdı. Ancaq bunun intensiv xarakter alması XIX əsrin birinci yarısından, daha dəqiq 1836-cı ildə Alban katolikosluğunun ləğv edilməsindən sonra başlanmışdır. Erməni katolikoslarının 1836-cı ilədək alban xristianları üzərində hökmranlıq etmədiyini göstərən kifayət qədər sübutlar var. M. Barxudaryants adlı erməni tarixçisi 1633-cü ildə Eçmiədzində Armenia ölkəsini ikinci dəfə işıqlandıran ter Moiseyin, Albaniya patriarxlığında isə ter Hovannesin əyləşdiyini göstərir (7, s. 26). Albaniyanın süqutundan Alban kilsəsinin ləğvinədək alban tarixi üçün əhəmiyyətli sayıla biləcək çoxlu sayda İncillər yazılmışdır. Bu İncillərin kolofonları alban tarixinə dair vacib məlumatları əhatə edirdi. Bu İncillərin bir qismi Arsaxda (Qarabağ-V.F) qələmə alınmışdır. Məsələn, onlardan birinin kolofonunda həmin İncilin Gəncə ölkəsində Arsanqist kəndindəki Müqəddəs Malaznabert kilsəsində yazıldığı qeyd olunmuşdur. Başqa bir İncilin kolofonunda həmin kitabın Arsaxın Vərənd mahalında Xaçmaz kəndində yepiskop Aleksandros tərəfindən 1569-cu ildə yazıldığı qeyd olunur (7, s. 26). Əsərdə bir sıra digər İncillərin də adları və Qarabağın hansı bölgələrində yazılması ilə bağlı məlumatlar verilmişdir. Bu kolofonlarda ayrı-ayrı alban katolikosları, patriarxları ilə yanaşı, müəyyən tarixi hadisələr haqqında da məlumatlar verilmişdir. Qardaman mahalında Metsbanants kəndinin Müqəddəs Maarifçi kilsəsində bir neçə İncil qorunub saxlanmışdır ki, onların kolofonlarında öz dövrlərində baş vermiş təbii fəlakətlərdən bəhs edilmişdir. Burada Dizaq, Vərəndə, Xaçın, Çiləbörddə tarlalara çəyirtkə və tırtıl düşməsindən, bunun uzun müddət davam etməsindən, ölkədə aclıq və epidemiyanın baş alıb getməsindən bəhs edilir. Burada həmçinin qeyd olunur ki, bu hadisələr 1717-ci ildə bütün albanların katolikosu ter Yesainin patriarxlığı dövründə baş vermişdir (7, s. 41). Göründüyü kimi, bu alban incillərinin kolofonları həmin dövr alban tarixinin öyrənilməsi üçün əhəmiyyətli rol oynayıb. Ancaq çox təəssüf ki, 1828 və 1829-cu illərdən etibarən ermənilərin Azərbaycan ərazilərinə, xüsusən Azərbaycanın qərb bölgələrinə və Qarabağa köçürülməsindən sonra bu ərazilərdə mövcud olmuş alban abidələri ya tamamilə məhv edilmiş, ya da ermənilər həmin mən abidələri özününkiləşdirmişdilər. Bu gün də Qarabağ ərazisində mövcud olan xeyli sayda Alban monastırlarını ermənilər mənimsəyərək dünyaya erməni kilsələri adı ilə tanıtmağa çalışırlar. Yuxarıda qeyd olunan İncillərin də böyük əksəriyyətinin kolofonları ermənilərin köçürülməsindən sonra onlar tərəfindən məhv edilmişdir.

**Nəticə**

Yazılanlardan bu nəticəyə gəlmək olur ki, Qarabağ ərazisində böyük xristian alban mədəniyyəti olmuş və ermənilər həmin mədəniyyəti və tarixi mənimsəmək üçün əllərindən gələni edirlər. Dövrün mənbələrinə nəzər saldıqda görürük ki, nəinki azərbaycanlı müəlliflər, hətta erməni və digər xristian müəlliflər də Qarabağın və ya Arsaxın Aremenia ərazisində yerləşdiyini təsdiq etmir, əksinə bu ərazini ya Azərbaycan, ya da Ağvan torpaqları adlandırırlar. Bu da ermənilərin bu gün Qarabağı öz torpaqları sayması, burada 3000 illik tarixlərinin olmasını iddia etmələrinin nə qədər gülünc olduğunu göstərir. Hətta XIX əsr erməni tarixçisi Raffi də bu ərazilərin albanlara məxsus olduğunu, ermənilərin bu ərazilərə sonradan gəldiklərini qeyd edir. Ancaq nədənsə müasir erməni tarixçiləri bu həqiqətləri görmək istəmir. Məlikliklərin etnik tərkibinə nəzər saldıqda isə xristian müəlliflərin onları erməni adlandırmasına baxmayaraq, XIX yüzilliyin birinci hissəsində yazılmış Qarabağnamələrdə biz erməni adına rast gəlmirik. Bu kitablarda sadəcə onların dini mənsubiyyətinə toxunulur. Yuxarıda Yesai Həsən Cəlalın Qəbələdə yaşayan udinləri erməni adlandırmasını nəzərə alaraq, digər xristian müəlliflərin məlikliklərin əhalisini erməni adlandırmasını etnik mənada deyil, dini-məzhəbi mənada başa düşmək lazımdır. Həmçinin rus şərqşünasları Zelinski və Veliçkonun, həmçinin Castin və Karolin Makkartilərin əsərlərindən də belə məlum olur ki, hətta XIX yüzillikdə belə hansısa vahid erməni millətindən danışmaq mümkün deyil. Müxtəlif adətə, dilə və ənənəyə, ancaq eyni dini məzhəbə sahib olan xalqları erməni adı altında birləşdirərək onu XX əsrin əvvəllərində vahid bir millətə çevirmişlər. Belə olan halda Qarabağın xristian məliklərinin etnik mənsubiyyətinin erməni olmasını söyləmək tamamilə elmilikdən kənardır. Ermənilərin albanlara məxsus olmuş abidələri mənimsəməyə çalışmasına və müəyyən mənada buna nail olmalarına baxmayaraq, real tarixi tədqiqatlar bu abidələrin albanlara məxsus olduğunu göstərir. Qarabağdakı kilsələrlə Azərbaycanın digər bölgələrindəki kilsələri müqayisə etdikdə biz bunu açıq aşkar görə bilirik.

**ƏDƏBİYYAT**


1. Qarabağnamələr, I hissə, Bakı: Şərq-Qərb. 2006, 216 s.
2. Qarabağnamələr, II hissə, Bakı: Şərq-Qərb. 2006, 288 s.
3. Джастин Маккарти, Каролин Маккарти, Тюрки и Армяне, Баку: Азербайджанское Государственное Издательство, 1996, 159 s.
4. Хасан-Джалалян Есаи. Краткая История Страны Албанской (1702-1722), Bakı: Elm. 1989, 28 c.
5. Гусейнзаде Рауф. Кавказ и Армяне, Bakı: Apostrof, 2014,486 c.
6. Гаджиева Ульвия. Деэтнизация Кавказских Албан в XIX. Bakı: Nurlan, 2004, 120 c.
7. http://www.armenianhouse.org/raffi/novels-ru/khamsa/meliks1_14.html


***Summary***

***Vahab Fatalıyev***

***Christian Melikdoms of Karabakh***

The article examines the geographical area to which the Karabakh melikdoms of the 18th century belonged. The geographical and political boundaries of the each melikdom were presented on the basis of Karabakhnames. At the same time, brief information was provided about the main occupation of the population of these melikdoms, what kind of plants were grown in each area. It is clear from this information how important these melikdoms were for the Karabakh khanate, because the meliks, as they depended on the Karabakh khan, both paid taxes to him and provided him with troops when it was necessary. The article also discusses the struggle for "freedom" of the Christian meliks against the Karabakh khan. The article

identifies the real essence of this struggle. It was not a "freedom" war, as Armenian historians want to show, but feudal uprisings. These uprisings were not neither national, nor religious. At the same time, the ethnic origin of the population of the melikdoms was also touched upon, and this issue was clarified to some extent. We do not see the term of "Armenian kings" was used for the Christian melikdoms that existed in Karabakh in Karabakhnames written in the middle of the 19th century or a little earlier. This expression began to be developed in the late nineteenth and early twentieth centuries. Examining previous works, we come to the conclusion that the name "Armenian" is used not in the national-ethnic sense, but in the sense of religion and sect. Additionally, did the territory of Karabakh belong to the geographical territory of Armenia in ancient times and the Middle Ages, as noted by a number of Armenian authors? The main sources here are Yesai Hasan Jalal's "A Brief History of the Albanian Country" and the Karabakhnames. In addition to these primary sources, a number of historical researches have been referred to. Along with native authors, the works of a number of foreign authors were used in this article. Looking at these works, it is clear that the Armenian-Hay national identity appeared in the late 19th and early 20th centuries.

***Keywords:*** *melikdoms, khanate period, Christians*

***Резюме***

***Вагаб Фаталиев***

***Христианские меликства Карабаха***

В статье исследуется географический ареал карабахских меликств, существовавших в XVIII веке. Географические и политические границы каждого меликства представлены на основе «Карабахнаме». Также была дана краткая информация об основном занятии населения этих меликств, и о том, какие виды растений в основном выращивали на участках. Из этой информации мы можем видеть, насколько важны эти меликства для Карабахского ханства, поскольку мелики платили налоги карабахскому хану, находясь в его зависимости и, причем при необходимости предоставляли ему войска. В статье также обсуждается «свободная» борьба христианских меликов против карабахского хана. Была показана истинная суть этой борьбы, это была не «война за свободу», как хотят показать армянские историки, а феодальные восстания. Эти восстания не имели ни национальный, ни религиозный характер. При этом в определенной степени затрагивалась и этническая принадлежность населения меликств, и этот вопрос был прояснен. В карабахских письмах середины XIX века мы не находим термин «армянские меликства» для обозначения христианских меликств, существовавших в Карабахе. Это выражение начало развиваться в конце XIX и начале XX веков. Изучая предыдущие работы, мы приходим к выводу, что название «армянин» употребляется не в национально-этническом смысле, а в смысле религии и секты. Кроме того, относилась ли территория Карабаха к географической территории Армении в древности и в средние века, как отмечает ряд армянских авторов? Основными источниками здесь являются «Краткая история страны Албании» Есаи Гасана Джалала и «Карабахнаме». Помимо этих первоисточников, упоминается ряд исторических исследований. В статье помимо местных авторов были использованы работы ряда зарубежных авторов. Глядя на эти работы, становится ясно, что армяно-хайская национальная идентичность возникла в конце XIX - начале XX веков.

***Ключевые слова:*** *меликства, период ханства, христиане*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94**

# ПОЯВЛЕНИЕ НОВЫХ СОЦИАЛЬНО-КУЛЬТУРНЫХ ПРИВЫЧЕК В ОСМАНСКОМ ОБЩЕСТВЕ XIX ВЕКА

**Натаван АГАЕВА***

*Məqalə redaksiyaya daxil olmuşdur: 4 oktyabr 2021; çapa qəbul edilmişdir: 11 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 4 th October, 2021; accepted: 11 th November, 2021; published online: 29 th December, 2021.*

***Ключевые слова:*** *Османская империя, интеллигенция, частные газеты, театр, социально-культурные привычки*

## Введение

Турецкая интеллигенция, какую мы встречаем со второй половины XIX века, была порождением тех ранних реформ, которые осуществлялись в первой половине столетия. Тогда, как известно, государство ставило себе задачу в первую очередь воспитание нового по-современному образованного чиновничества, способного решать задачи времени. «Эти просвященные указы, в сочетании с той великой реформой, проведенной в сфере образовательных учреждений в Османской империи, были рассчитаны на осуществление более важных и благотворных изменений в стране» (18, с. 317). Благодаря первым реформам образования уже к середине XIX века «каждый турок был обязан отправить своего ребенка в школу, а государство брало на себя обязанность его обучить» (18, с. 317). Более того, со вступлением Османской империи в систему международных отношений понадобились новые знания, для чего молодых служащих отправляли заграницу:

*Paris'e git hey efendi akl-ü-fikrin var ise*
*Âleme gelmiş sayılmaz gitmeyenler Paris'e.* (19, c. 151)

*«Отравляйся в Париж, эй эфенди, если у тебя есть ум. Не считается, что ты достиг знаний, если ты не побывал в Париже»* (Ходжа Тахсин-эфенди).

Именно из этого чиновничества в дальнейшем сформируется новая социальная прослойка, которая будет определять политический курс империи и задавать тон культурному развитию общества. Из этого сословия выйдут первые турецкие интеллигенты. Таким образом, первая турецкая интеллигенция вышла из ««служилого класса», то есть состояла из профессиональных слуг государства» (1, с. 25), в основном из военной и бюрократической среды. В последствии, с ростом числа образованных людей, получением знаний в области светских наук, увеличивающимися контактами с иностранцами в различных сферах деятельности, возвращением на родину первых выпускников из-за границы с новыми бытовыми привычками и взглядами, облик османского общества начнет постепенно меняться. С изучением иностранных языков в начале XIX века усилится и интерес к иностранной литературе. Вычитанные в этих книгах новые идеи, многочисленные беседы и дискуссии в интеллектуальных салонах страны начнут оказывать определенное влияние на

* диссертант, Институт востоковедения им. акад. З. Буниятова НАНА,
*e-mail: n.aghaeva@gmail.com*

молодую турецкую интеллигенцию, волнуя в ней желание действовать. И в таких условиях своим начальным «орудием» она выберет просвещение.

**Первые шаги на пути просвещения**

Первым небольшим шагом станут переводы произведений западных авторов и публикации статей в газетах. «После политического Танзимата под влиянием сильного присутствия западной, непосредственно французской, литературы произведения различных жанров ряда известных личностей были переведены» на османский язык (12, с. XIII). Дальше, «переводимые романы европейской литературы брались в пример... западные романисты и господствующие литературные течения изучаться» (11, с. V), и таким путем в турецкую литературу вошли новые жанры. Неизвестные раннее традиционной османской литературе дивана такие жанры, как роман, повесть, пьеса, критическая статья, мемуары и письма впоследствии явились движущими причинами изменений социокультурных привычек общества. Так, например, желание довести современные проблемы до более широкой аудитории побудило воспитанника «Бюро переводчиков» Агях Эфенди открыть в Османской империи первую частную газету на турецком языке. «В своем обращении в Меджлис-и Maариф («Meclis-i Maarif» - «министерство просвещения») для выпуска газеты «Tercümân-ı Ahvâl» («Толкователь событий») Агях Эфенди писал, что местные и иностранные подданные империи издают газеты на арабском, турецком и других языках, и что он тоже имеет желание издавать газету на турецком языке, при этом все расходы и доходы будут принадлежать ему» (7, с. 495). Данная инициатива была отмечена похвалой в Меджлисе, и разрешение было получено. Так, в 1860 году первый номер первой частной газеты на турецком языке в Османской империи вышел в свет. Этот факт послужил награждению Агях Эфенди титулом «основателя журналистики» (16, с. 41) в Османской империи. В предисловии к первому выпуску «Tercümân-ı Ahvâl» было написано, что «целью издания данной газеты является создание печатного органа для размышлений и дискуссий», а для «просвещения народа наряду с внутренними и внешними новостями на понятном для всех языке публиковались образовательные и полезные сведения» (7, с. 496). После него немало молодых представителей интеллигенции начали издавать собственные печатные органы. Хотя привычка читать газеты в обществе сформировалась еще с 1831 года, когда вышел в свет первый номер официальной османской газеты «Таквим-и Векаи» («Takvim-i Vekai»), публиковаться, писать критические статьи, а иногда и письма в редакцию, а следом и публиковать ответ на письмо оппонента превратилось в новоприобретенную привычку и стало отныне общепринятой практикой. Даже в первом турецком детективном романе Ахмеда Митхата «Esrar-ı Cinayat» - «Тайна убийства» преступление было раскрыто благодаря письмам преступника в одну из частных столичных газет (10). Однако, стоит отметить, что хотя издателем первой частной газеты и был Агях Эфенди, «характер» ей придавали статьи Ибрагима Шинаси. Его статьи составляли основное содержание первых двадцати четырех выпусков.

После возвращения из Парижа в Стамбул Шинаси под влиянием идей Французской революции о равенстве, свободе, просвещении увлекся распространением наук среди народа, реформой османского языка, придерживаясь мысли о том, что книги должны писаться не только для избранных, но и для всего народа. Следуя основному литературному течению времени - романтизму, героем своих первых произведений он выбирал человека исключительных умственных способностей, противопоставленного толпе, которая его не понимает и высмеивает. В своем произведении «Женитьба поэта» («Şair evlenmesi»), которая вышла в 1860 году в газете

«Толкователь событий», главный герой - поэт, мечтатель, человек, живущий в собственных представлениях об идеальном мире, окруженном искусством и красотой. Желая жениться на молодой особе, он сталкивается с интригами и проявлениями самого низменного характера у толпы. Но ум выручает его, позволяя добру восторжествовать (15). Показанные в произведении невежество, нечестность духовных лиц, взяточничество, обман, нелепые традиции (ибо невеста, на которой хочет жениться главный герой, является младшей дочерью в семье, и ей не разрешено выходить замуж раньше старшей) призваны заставить общество задуматься над своими недостатками, которые препятствуют его развитию. А для большей наглядности жанром данного произведения была выбрана пьеса. Таким образом, «Женитьба поэта» («Şair evlenmesi») стала первым театральным произведением - пьесой в османской литературе.

Выбор такого жанра, как пьеса, был сделан, безусловно, неслучайно. Так, в период модернизации, когда помимо экономических и политических структур западничество стало переживать также культура, эстетика и быт, театр стал одной из сфер, которая сыграла важную роль в данном преобразовании. Театр как «форма общественного сознания» и «способ художественного отражения действительности» (2, с. 89) на начальном этапе своего развития в Османской империи стал очередным «орудием» распространения новых знаний и взглядов среди простого народа.

**Театр как новое социокультурное явление**

Чтение газет и книг требовало средств и навыков, которые несмотря на реформы и усилия отдельных лиц и прививались населению, однако до начала XX века всё ещё были не у каждого. А «зрелищные» виды искусства имели в стране глубоко укоренившиеся традиции. Например, театр теней Карагёз и «орта оюну» («orta oyunu») - народные представления существовали в империи еще задолго до XIX столетия и многие века служили «рупором» народного мнения. «В условиях абсолютизма Карагёз был символом безграничной свободы: это был герой бесцензурного водевиля, безбожная, не знающая запретов, непослушная газета» (3, с. 43). Появившись в XVI веке во дворце в качестве праздничного развлечения театр Карагёз, позже вышел за его пределы и сильно полюбился в народе. Осмеивая правителя, его везирей, важных государственных и религиозных деятелей, главный персонаж Карагёз имел «свойственную ему неприкосновенность. Даже религиозные деятели в своих фетва находили ему оправдания, зная при этом, что им нарушаются пусть и не основы ислама, но определенно некоторые его практики» (3, с. 42). Французский поэт романтической школы Теофиль Готье в своих воспоминаниях о путешествии в Константинополь так описывает свой опыт посещения театра Карагёз: «Представление проводилось в саду, засаженным деревьями... Голубое вечернее небо, усыпанное звёздами, было потолком нашего театра, луна играла роль канделябра; а мальчики в это время ловко разносили зрителям чашки с кофе и стаканы с водой - неотъемлемый аккомпанемент всех турецких развлечений» (20, с. 165-166). Отсутствие какого-либо написанного текста позволяло охватывать широчайший спектр тем, от мелких бытовых событий до в некоторой степени политических реалий страны. В представлениях могли осмеиваться представители различных профессий, традиционные религиозные и светские ритуалы (такие как женитьба, сватовство или пост), а также различные государственные церемонии. Как пишет другой французский писатель-путешественник, последователь течения романтизма Жерар де Нерваль, процесс трансформации и перехода театра Карагёз «из сераля в кофейные дома был завершен предположительно в «алафранга» эпоху после объявления

Танзимата» (21, с. 162). С растущей популярностью этого жанра возникла потребность в отдельном здании, куда можно было бы пригласить и иностранных гостей. Так, с первой половины XIX века в Османской империи начинают строить самые известные театральные здания. «Именно постройка зданий театра явилась самым важным шагом для укоренения западного театра» в стране (3, с. 67). Благодаря Шинаси и первым турецким интеллигентам появились пьесы на турецком языке, что усилило интерес к данному роду искусства среди всех слоев местного населения, от высших государственных и интеллектуальных кругов до простого народа. «Идея ставить спектакли на турецком языке пришла в 1857 году, когда пьесы под названием «Виновник» и «Лицемер» («Müsebbip» и «Riyakâr») были впервые опубликованы на турецком языке и завоевали благоволение со стороны публики» (13, с. 139). Отныне «искусство театра, которое является одновременно как продуктом, так и носителем вестернизации в Османской империи» (8, с. 19) со второй половины XIX века выходит из разряда «искусства, доступного только для проживающей в Бейоглу и его окрестностях определенной элиты и превращается постепенно в часть повседневной жизни» (8, с. 19). Знаменитый исследователь Метин Анд в своем труде «История турецкого театра» (3) интересно описывает рождение у общества такой новой культурной привычки, как посещение театра. Как известно, первые театры и театральные представления давались в Бейоглу. Несмотря на интерес к данному виду развлечения, иностранный язык, плохие дороги, отсутствие транспорта, более того небезопасность прибывания в вечерние часы на улице только у самых смелых «алафранга» вызывали желание их посещать. Нередко наличие вблизи театра питейных заведений, где играли в азартные игры, приводило к столкновению между их посетителями и зрителями театра: проигравшиеся игроки нападали и грабили вышедших со спектакля, и полиции не раз приходилось расследовать дела, в которых зачастую участвовал нож. Более того, хулиганы были не только на улице, но и в самом зрительном зале. В государственном архиве Турецкой Республики хранится документ от 17 декабря 1856 года о «предупреждении лиц о непристойном поведении во время театрального представления с разрешением их дальнейшего ареста в случае неповиновения», в котором говорится, что во время представлений в находящемся в Бейоглу театре и проводимых там балов происходили случаи, когда некоторые иностранные лица с целью унижения актеров свистели и бросали неподходящие предметы, а также демонстрировали другого рода непристойное поведение. По причине того, что эти мероприятия посещают члены уважаемых и благородных семей такое поведение «уважаемым государственным советником считается неприемлемым». Для этого им было принято решение поручить жандармерии сначала делать предупреждение таким нарушителям, а в случае их неповиновения сразу арестовывать (5, с. 103). Таким путем государство боролось с преступлениями, происходившими возле или в самом театре. В 1867 году на азиатской стороне Стамбула был построен собственный театр, получивший известность под названием «Театр Гедикпаша». «Весть об этом театре избавила народ от поездок в Бейоглу, сложностей с отелями и ресторанами. А регулярные спектакли на этот раз стали причинами приезда зрителей из Бейоглу сюда» (3, с. 69). Так, театр стал постепенно завоевывать все большую аудиторию. Стали появляться первые произведения на турецком языке, формироваться культура османского театра. «130 лет назад, когда создавался театр западного типа (ред. - в Османской империи) не было ни зрителя, ни театральных деятелей, ни писателей, ни режиссеров, ни декораторов. Османский театр за короткий срок смог всё это создать» (14, с. 78). В 1862 году Шинаси, оставив редакцию «Толкователя событий», начинает издавать свою собственную газету «Tasvir-i Efkâr» («Изображение мыслей»).

Эта газета стала самым известным печатным изданием - трибуной западнических идей турецких писателей-просветителей. Шинаси привлек к сотрудничеству с газетой молодых талантливых писателей, среди которых были Намык Кемаль, Ахмед Вефик-паша, Самипашазаде Субхи и другие. Эти имена впоследствии войдут в ряд самых известных представителей Танзимата. Они вместе с Ахмедом Митхатом Эфенди, Абдулхаком Хамидом Тарханом, Ахмедом Вефик-пашой, Теодором Касапом и другими составят цвет нового поколения турецкой интеллигенции. Благодаря их усилиям в стране начнет формироваться литература нового типа, которая войдет в историю под названием литература Танзимата. Среди их произведений немалое место займут и театральные пьесы. Также, их роль в формировании западного театра в стране будет решающей.

**Вывод**

Таким образом, адаптированный постепенно светской бюрократией «алафранга» образ жизни сформировал в обществе новые социокультурные привычки. Такое ранее неширoко распространенное занятие, как чтение, отныне стало атрибутом «нового» человека. Более того, знание иностранных языков позволяло читать зарубежную художественную литературу. «В 19 веке в Стамбуле и других крупных портовых городах началась новая жизнь... Читались газеты, журналы, а самое главное, появились романы» (9, с. 438). Идеи, заложенные в этих романах, находили широкий отклик среди образованной молодежи, становясь предметом их салонных споров. Именно желание донести до более широкой массы свои идеи побудили некоторых представителей турецкой интеллигенции выпускать собственные печатные издания. С этого времени в жизнь «алафранга» османца вошли такие явления, как частные газеты и журналы. Вместе с ними в османской литературе появились новые жанры, такие, как статьи, критика, письмо, роман, рассказ, повесть. Однако, самым распространенным жанром стала пьеса. Появление большого количества произведений для сцены впоследствии поставило вопрос о создании собственного театра западного типа. С постройкой новых специальных театральных зданий западная традиция посещать театры начала развиваться и в Османской империи. Отныне в больших городах страны, в частности в Стамбуле, Бурсе и Измире, ставились регулярные представления, создавались труппы, писались произведения. Таким образом, новые социокультурные привычки у турецкой интеллигенции открыли новый этап в трансформации турецкого общества.

**ЛИТЕРАТУРА**

**На русском:**

1. Лотман Ю.М. Беседы о русской культуре: Быт и традиции русского дворянства (XVIII - начало XIX века). СПб: «Азбука-Аттикус», 2015. 606 с.
2. Театр // Театральная энциклопедия. Т. 5. М.: Советская энциклопедия, 1967. 593 с.

**На турецком:**

3. And Metin. Başlangıcından 1983’e Türk Tiyatro Tarihi. İstanbul: İletişim Yayınları, 2019. 208 s.
4. And Metin. Tanzimat ve Istibdat Döneminde Türk Tiyatrosu. İstanbul: İş Bankası Kültür Yayınları, 1972. 465 s.
5. Arşiv Belgelerine göre Osmanlı’da Gösteri Sanatları / Proje yön. Uğur Ünal. TC Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı. Yayın nu: 138. İstanbul: Bion Matbaacılık, 2015. 484 s.

6. Aydın Abdulhalim. Batılılaşma Döneminde Şinasi ve Fransız Etkisi // İstanbul: Hacettepe Üniversitesi Edebiyat Fakültesi Dergisi, 2000. Cilt: 17. Sayı 2, s. 105-131.
7. Çakır Hamza. Tercümân-I Ahvâl // İstanbul: TDV İslâm Ansiklopedisi, 2011. Cilt 40, s. 495-497.
8. Firidinoğlu Nilgün. Osmanlı İmparatorluğu'nda Sosyal Yardımlaşma ve Tiyatro (1870-1907). İstanbul: Tiyatro Eleştirmenliği ve Dramaturji Bölümü Dergisi, 2013. Sayı: 22. s. 19-40.
9. İnalcık Halil, Mehmet Seyitdanlıoğlu. Tanzimat. Değişim sürecinde Osmanlı imparatorluğu. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2008. 826 s.
10. Mithat Ahmet Efendi. Esrar-ı Cinayat. İstanbul: Bilge Kültür Sanat, 2018. 304 s.
11. Mithat Ahmet Efendi. Şeytankaya Tılsımı. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2018. 83 s.
12. Namık Kemal'in Hususi Mektupları, I: İstanbul, Avrupa ve Magosa mektupları. Haz.: Fevziye Abdullah Tansel. Ankara: Türk Tarih Kurumu, 2013. 518 s.
13. Öztahtalı İbrahim İmran. XIX. Yüzyılda Bursa'da Tiyatro Faaliyetleri ve Bursa Gazetesinde Bazi Tiyatro Haberleri. Bursa: U.Ü. Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 2013, Sayı: 24. 135-153 s.
14. Sarı Eren. Osmanlı'da Sanat. Antalya: Nokta E-book Publishing, 2016. 1. Baskı. 88 s.
15. Şinasi. Şair Evlenmesi. 1. Baskı, İstanbul: Beyaz Balina Yayınları, 2019. 55 s.
16. Şinasi // Türk Dili ve Edebiyatı Ansiklopedisi. Devirler, İsimler, Eserler, Terimler. Cilt 1. İstanbul: Dergah Yayınları, 1977. 557 s.
17. Yilmaz Nazende. Sur İçi ve Üsküdar'da Batı Müziği Mekanları // İstanbul: Istanbul Araştırmaları Yıllığı, 2013, Sayı 2, s.183-188

**На английском:**

18. Deans William. History of the Ottoman Empire from the earliest period to the present time. London: A. Fullarton & Co. 1854. 322 p.
19. Findley Carter. Bureaucratic reform in the Ottoman Empire. The Sublime Port, 1789-1922. Princeton: Princeton University Press. 1980. 496 p.
20. Gould Robert Howe. Constantinople, from the French of Theophile Gautier. New York: Henry Holt and Company. 1875. 397 p.
21. Puchner Walter. Karagöz and the History of Ottoman shadow theatre in the Balkans from the seventeenth to the twentieth centuries: diffusion, functions and assimilations // Wien: Ottoman Empire and European Theatre, Volume II: the time of Joseph Haydn: from sultan Mahmud I to Mahmud II (r.1730-1839). Hollitzer Verlag, 2014. 157-194 s.

***Xülasə***

***Natəvan Ağayeva***

***XIX-cu əsrdə Osmanlı cəmıyyətındə yenı sosıal-mədənı fəalıyyətlərın yaranması***

XIX əsrin ikinci yarısından etibarən tanış olduğumuz türk ziyalı təbəqəsinin yaranmasında bu əsrin ilk yarısında keçirilən ilkin islahatların rolu danılmazdır. O zaman dövlətin qarşısına qoyduğu dövrün problemlərini həll edə biləcək yeni, müasir təhsilli bir bürokratiya yetişdirmək vəzifəsi dünyəvi elmlər sahəsində bilik alan, müxtəlif fəaliyyət sahələrində əcnəbilərlə əlaqəsi olan, xaricdən vətəninə dönən yeni gündəlik vərdişlər və münasibətlər əldə edən savadlı gənclərin sayının artmasına səbəb olmuşdur. O vaxtdan bəri özəl qəzet və jurnallar kimi məfhumlar müasir Osmanlının gündəlik həyatının bir parçasına çevrilmişdir. Dövrün aparıcı ədəbiyyat və ictimai xadimləri əsas məqsədlərini xalqın maariflənməsində görüb öz vəsaitinə şəxsi mətbu orqanları çap etməyə başlamışdılar. Bu mətbu orqanlarla birlikdə Osmanlı ədəbiyyatında məqalə, tənqid, yazı, roman, hekayə kimi yeni janrlar da meydana çıxdı. Yeni əsərlər ortaya çıxmağa başladı, Qərb müəlliflərinin əsərlərinin tərcümələrinin sayı artdı, oxucular yeni fikirlər, süjetlər və qəhrəmanlarla tanış olmağa başladılar. Yeni janrlarla birlikdə Qərbdə ənənəvi olan və geniş yayılan teatr kimi bir sənət növü müasir inkişaf istiqamətini almışdır. Osmanlı ədəbiyyatında səhnə üçün yazılan əsərlərin sayının artması sonradan Qərb tipli osmanlı teatrının yaranması məsələsini gündəmə gətirdi. Bunun üçün ilk zərurət tamaşaların qoyula biləcək uyğun müasir yeni teatr binasının inşa edilməsi idi. Yeni xüsusi teatr binalarının inşası ilə teatra getmək kimi Qərb ənənəsi Osmanlı İmperiyasında da geniş yayılmağa

başlamışdır. Artıq ölkənin hər yerində, xüsusilə İstanbul, İzmir, Bursa və s. kimi böyük şəhərlərdə müntəzəm tamaşalar qoyulur, aktyor truppaları yaradılır və əsərlər yazılmağa başlamışdır. Bu sözügedən məfhumlarla birlikdə yeni sosial və mədəni vərdişlər ortaya çıxmağa başlamışdır. Belə, kitab oxumaq və teatra getmək kimi əvvəllər geniş yayılmamış fəaliyyətlər indi "yeni" bir insanın atributuna çevrilmişdir.

***Açar sözlər:*** *Osmanlı imperiyası, teatr, qəzet, sosial-mədəni vərdişlər*

***Summary***

***Natavan Aghayeva***

***New socio-cultural habits in the ottoman society of 19$^{TH}$ century***

The Turkish intelligentsia which we meet since the second half of the 19$^{th}$ century is a product of reforms held in the first part of the century. The aim of the state at the early 1900s to bring up a new, modernly educated bureaucracy, capable of solving the issues of the time, led to an increase in the number of educated people who received knowledge in the field of secular sciences, who have contacts with foreigners in various fields of activity and returned to their homeland with new daily habits and preferences. Since that time, such phenomena as private newspapers and magazines have entered the life of the modern Ottoman. Leading public and literary figures of that time strove to publish their own printed press, pursuing the main goal - the education of the people. Along with them, new genres appeared in Ottoman literature, such as articles, criticism, letter, novel. New works began to appear, the number of translations of the works by Western authors raised, readers began to get acquainted with new ideas, stories and characters. With new genres, such traditional and widely spread in Europe direction of art as theater has also received modern development. The appearance in the Ottoman literature of the large number of works for the stage subsequently raised the issue of building of their own theatre of the Western style. For this, the first necessity was the construction of a new modern suitable for performances building. With the construction of new special theatre buildings, the Western tradition of visiting theaters began also to develop in the Ottoman Empire. From now on, in all big cities of the country, such as Istanbul, Izmir, Bursa etc., regular performances started to be staged, troupes were created, new works written. Thus, these new phenomena brought new social and cultural habits. Hence, such previously not widespread activities as reading and visiting a theater have now become an attribute of a “new” person.

***Key words:*** *Ottoman Empire, theatre, newspapers, socio-cultural habits*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**F İ L O L O G İ Y A**

**UOT 82**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ MİLLİ ÜNSÜRLƏRLƏ FORMALAŞAN SOYADLAR VƏ ONLARIN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

**Nərmin QOCAYEVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 oktyabr 2021; çapa qəbul edilmişdir: 5 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*

*Received: 18 th October, 2021; accepted: 5 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:*** *onomastik vahidlər, soyadlar, familiya, nəsr əsərləri, üslubi çalar, köməkçi adlar, milli soyad sonluğu, soyadların üslubi xüsusiyyətləri*

## Giriş

Xalqın milli kimliyinin əsas əlaməti hesab olunan və ulu soykökdən miras qalan soyadların bədii əsərlərdə tədqiqi dilimizi və tariximizi öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Antroponimlərin müəyyən bir qrupunu da belə soyadlar təşkil edir. Azərbaycan dilinin izahlı lüğətlərində soyad sözünün mənası bu cür izah olunur: "Şəxsi addan başqa nəslən verilən ad; familiya" (1, s. 41). Soyadlar bu və ya digər bir ailəni başqasından fərqləndirməklə yanaşı, həmin nəslin tarixini də qoruyub saxlayır. Soyadlar insana ulu soykökdən miras qalmışdir və nəslin, kökün ulu adını bildirir. Bəzi tədqiqatçılar soyad sözü ilə familiya sözünün eyni məna ifadə etdiyini qeyd edir, bəzilərinə görə isə bu iki söz bir-birindən fərqlənir. A.Bağırovun fikrincə, soyad familiyaya nisbətən geniş məna ifadə etməklə, nəslin, kökün ulu adını bildirir, heç zaman dəyişməyə məruz qalmır. Ancaq familiya insan həyatının müəyyən mərhələsində dəyişə, yaxud qoşalaşa bilir (6, s. 36). A.Paşayev "Azərbaycan antroponimikası" adlı monoqrafiyasında qədim türklərdə soyadlardan istifadənin tarixi qədimliyinə aid faktlar gətirir: "XIX əsrdə türk xalqlarında "familiya" termini və rus formantlı soyadları meydana gəlsə də, bu termin funksiyasını yerinə yetirən soy – ailə-nəsil adları ən qədim dövrlərdən mövcud olmuşdur" (22, s. 61). Fikrini davam etdirərək qeyd edir ki, "Tarixi faktlar göstərir ki, istər qədim türklərdə, istərsə də ərəb və ruslarda həm ata adı, həm də soyadlardan istifadə, ilk növbədə, hakim təbəqələri ilə əlaqədar olmuşdur. Onlar ictimai həyatın məhsulu olsa da, bir ictimai mühitdə hamiya eyni dərəcədə xidmət edə bilməz.

Soyadlarının bir mühitdə mənsub olduğu xalqın bütün vətəndaşlarına qeyri-bərabər şəkildə xidmət etməsi faktları bütün xalqlarda, o cümlədən bizdə də, ruslarda da eyni səciyyəyə malik olmuşdur. Soyadlardan istifadə kütləviləşdikdən sonra hamısına eyni dərəcədə xidmət etmişdir" (22, s. 55-56). Beləliklə, soyadların meydana gəlməsini əksər tədqiqatçılar cəmiyyətdə insanların çoxalması və adların azlıq təşkil etməsi ilə əlaqələndirirlər.

Apardığımız tədqiqatlar bunu deməyə əsas verir ki, Azərbaycan dilçiliyində XIX əsrə qədər familiya leksemindən istifadə olunmayıb. Onun əvəzinə ata adlarından, köməkçi adlardan və nisbələrdən istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanında biz ata adının soyad kimi işlənməsinə çox rast gəlirik. Məsələn, *Ulaş oğlu Salur Qazan,*

* doktorant, Bakı Avrasiya Universiteti
*e-mail: qocayeva.nermin1991@gmail.com*

*Qazlıq Qoca oğlu Yeynək, Qaragünə oğlu Qarabudaq* və s. Tədqiqatçı alimlərimizdən A.Qurbanov, M.Çobanov da familiyaların XIX əsrdən etibarən təşəkkül tapdığını, H.Həsənov isə daha əvvəl – XVIII əsrdə formalaşdığını qeyd edir. M.Çobanov familiyalardan bəhs edərkən onların müxtəlif xalqlarda müxtəlif zamanlarda formalaşdığını qeyd edir (10, s. 85). Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra soyadlar sistemində də dəyişikliklər oldu. Belə ki, soyad termini familiya termininə nisbətən daha cox üstünlük qazandı.

Onomastika sahəsində mövcud olan əsas problemlərdən biri də soyad sonluqlarının milli ünsürlərlə əvəz olunmasıdır. Y.Cəfərlinin fikrincə, müasir anlamda nəsil adı bildirmənin şərtlərinə tam cavab verdiyinə görə -lı[4] və sıfır formantının milli soyad sonluğu kimi seçilməsi daha məqbul olardı (8, s. 10).

**1. Soyadların üslubi xüsusiyyətləri**

"Onomastik vahidlər üslubi tədqiqat üçün də zəngin material verir. Belə ki, adların bədii əsərlərdə seçilib işlədilməsi, onların bədii əsərdə daşıdıqları müxtəlif funksiyaların aşkar edilməsi, ədəbi əsərin növündən asılı olaraq onomastik adlardan istifadə edilməsi və s. kimi məsələlərlə yanaşı, bədii obrazlar yaradılmasında adların rolunun düzgün müəyyənləşdirilməsi də xüsusilə əhəmiyyətlidir" (21, s. 282). Digər onomastik vahidlər kimi soyadlar da bədii əsərlərdə müəyyən üslubi funksiya daşıyaraq, yazıçının bədii məqsədlərinə xidmət edir. Q.Mustafayeva yazır ki, "adətən, adi danışıq üslubunda, səmimi münasibətlərdə müəyyən bir şəxsin familiyası yox, adı çəkilir. Familiyalardan isə, əsasən, rəsmi üslubda istifadə olunur. Buna görə də bədii əsərdə bir surətin digər bir surətin adını və familiyasını deməsindən asılı olaraq, onun başqalarına münasibəti anlaşılır" (19, s. 58).

Biz isə belə hesab edirik ki, soyadlar xarakterlərin açılmasında, obrazların daxili aləminin verilməsində də müəyyən rol oynayır. Xüsusilə də sovet dövründə yazılan bədii nəsr nümunələrində biz bunun şahidi oluruq. Yazıçılar mənfi surətləri fərdiləşdirmək və komik çalar yaratmaq üçün mənfi məna ifadə edən, uydurma soyadlardan istifadə etmişlər. M.Cəlalın yaradıcılığında *Keçiyev, Cinayətov, Kəmtərov, Kəmfürsətoğlu* və s., S.Rəhimovun əsərlərində *Gülmalıyeva* və s. buna nümunədir. Sovet dövründən fərqli olaraq, müstəqillik illərində belə soyadlardan demək olar ki, çox az hallarda istifadə olunub. Daha çox real həyatdan alınma soyadlara üstünlük verilib. Bu cür soyadlardan istifadə etməklə yazıçı obrazı oxucunun nəzərinə daha canlı, daha real çatdırmağa çalışır, bir növ bu adların köməyi ilə müəyyən üslubi çalarlıq yaradır. Obraza olan müəyyən münasibətə görə bəzi soyadlar ya qısaldılır, ya da uzadılır. Məsələn, *"Millət vəkili Hasan Kərim oğlu Kərimoviçin kürəkəni, tanınmış yazıçı Rüfətin itməyi ilə bağlı rayon prokurorluğunda cinayət işi açılıb"* (15, s. 41). Nümunədə işlənən Kərimov soyadını müəllif bilərəkdən obrazın xarakterinə uyğun olaraq *Kərimoviç* kimi işlətmişdir.

Üslubi məqsədlərdən biri də yazıçıların öz əsərlərində obrazları onların adları ilə deyil, soyadları ilə təqdim etmələridir. Əsasən, ziyalılara, yüksək rütbə sahiblərinə hörmət əlaməti olaraq, onlara soyadları ilə müraciət olunur. Məsələn, A.Məsudun "Azadlıq" romanında deyilir: *"- Mən üzr istəyirəm... Bu akademik Siracovun evidir?"* və ya əsərin başqa bir yerində oxuyuruq ki, *"- Mən həkiməm. Psixator Veyisov".*

Bəzən yazıçılar komik çalar yaratmaq üçün obrazın xarakterinə, davranışına uyğun olaraq uydurma soyadlardan istifadə edirlər. Məsələn, İ.Hüseynovun "İsahəq, Musahəq" əsərində oxuyuruq: *"Bir dəfə Yazıçılar İttifaqında keçirilən dərnəkdə dekanımız Həbibulla onu Səfquluyev əvəzinə "səfehquluyev" çağıranda, ürəkdən gülən dərnək üzvlərindən biri də mən oldum*" (23, s. 424).

Bu dövrə aid nəsr əsərlərində olan soyadların üslubi xüsusiyyətlərindən biri də onların cəm şəklində işlənərək nəslin bütün üzvlərinə şamil olunmasıdır. Yazıçı bununla da həmin nəslin xarakteri barədə oxucuda müəyyən təsəvvür yaradır. Məsələn, "Mən

özlüyümdə müşahidə etmişəm ki, Cəmillilər və Həmidzadələr adlanan bu iki qardaş nəsil arasında nəsə bir sərinlik var. Bir-birlərinə üzdə "əmioğlu" desələr də, münasibətlərində nəsə doğmalıq, yaxınlıq hiss olunmur" (25, s. 10).

Bəzən də soyadlar təkrar işlənməsin deyə iki və ya daha artıq obrazın adları bir soyadla işlənir. Məsələn, *"Bakıda yaşayan Azər və Bəxtiyar Həmidzadə qardaşları bir əvvəl Türkərən kəndinə gəliblər"* (25, s. 10).

**2. Soyadların leksik-semantik xüsusiyyətləri**

Bu dövrə aid nəsr əsərlərindəki soyadları leksik-semantik mənalarına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Şəxs adları əsasında düzələn soyadlar.** Bu dövrə aid bədii nəsr əsərlərində əksər soyadlar bu yolla yaranmışdır. S.Səxavətin "Rəmiş" hekayəsində *Elnur Abbasov, Qədir Rüstəmov,* E.Elatlının "Pəncərədə görünən kölgə" əsərində *Qanbay Qasımlı, Mahir Talıbov, Rafael Vəliyev, Zeynalov, Nemət Sabirli,* A.Məsudun "Azadlıq" romanında *Qulam Hüseynli* və b. göstərmək olar.

**2. Titullar əsasında formlaşan soyadlar.** Belə soyadların bəziləri təkcə titullardan, bəziləri şəxs adı ilə titulların birləşməsindən düzəlmişdir. V.Yolçuyevin "Sonuncu ölən ümidlərdir" romanında *Abbas Şeyxzadə,* E.Elatlının "Xəyanət" romanında *Niyazi Məlikxanlı, Telman Əmirəliyev,* M.Niyarlının "Qürbətə aparan qatar" hekayəsində *Əli Əlibəyov* buna nümunədir.

**3. Yazıçıların uydurduğu soyadlar.** Bu cür soyadlar üslubi çalar daşıyaraq yazıçıların müəyyən məqsədlərinə xidmət edir. Adətən, belə soyadlar mənfi obrazlara verilir və onların daxili aləmi ilə bağlı olaraq, hər hansı bir çatışmayan cəhətinin tənqidinə yönəlir. Müstəqillik illərinə aid nəsr əsərlərində belə soyadlara çox nadir hallarda rast gəlirik. Məsələn, İ.Hüseynovun "İsahəq, Musahəq" əsərində *Bəkir Səfquluyev,* E.Elatlının "Xəyanət" romanında *Elnur Qatarlı* buna nümunədir.

Müstəqillik illərində nəsr əsərlərinə verilən soyadlar müxtəlif vasitələrlə düzəlir:

**1. -lı$^4$ şəkilçisi ilə düzələn soyadlar.** Milli morfoloji ünsürlərlə soyadlar yaradılması müstəqillik illərində Azərbaycan soyadlar sistemində mühüm yer tutur. A.Qurbanov qeyd edir ki, "bu morfemlərlə yaradılmış familiyalar həm məzmun, həm də formaca daha münasibdir" (22, s. 42). "Tarixi qaynaqlara əsaslansaq, bu formata hələ XVII əsrə dair mənbələrdə azərbaycanlılara məxsus nəsil, tayfa adlarının tərkibində rast gələ bilərik: *Xəzərli, Çavuşlu* və s." (22, s. 119).

Real həyatda olduğu kimi, bədii nəsr əsərlərində də milli ünsürlərlə düzələn soyadlara tez-tez rast gəlirik. E.Elatlının "Xəyanət" romanında *Niyazi Məlikxanlı, Ramin Əlibəyli, Fazil Məmmədli, Qanbay Qasımlı, Nemət Sabirli, Elnur Qatarlı, Səyavuş Nəzərli* kimi obrazların soyadları milli ünsürlərlə düzəlmişdir: *"Bu işdə təkcə Ruslan deyil xəyanətkar. Elə Məlikxanlının özünü götürək. Ona o boyda iş tapşırmışdılar. İmkan yaratmışdılar ki, xalqına, dövlətinə xeyir versin. Ancaq o, iş görmək əvəzinə görün nə qədər obyektlər açdırıb özü üçün..."* (12, s. 362). *"Artıq Qanbay Qasımlı podpolkovnik rütbəsində idi"* (12, s. 34). Nümunələrdən də göründüyü kimi, milli ünsürlərlə düzələn soyadlara maraq yazıçıların da diqqətindən yayınmamış, əsərlərində belə soyadlara yer ayırmışlar ki, bu da milli özünüdərklə bağlıdır.

**2. -ov, -yev, -ova, -yeva şəkilçiləri ilə düzələn soyadlar.** XIX əsrdə dilimizə rus dilinin təsirilə keçən bu şəkilçilər vasitəsilə yaranan soyadlar müstəqillik illərində də aparıcı mövqedədir. Demək olar ki, həm Azərbaycan dilinin soyadlar sistemində, həm də bu dövrə aid bədii nəsr əsərlərində işlənən soyadların əksəriyyəti bu şəkilçilər vasitəsilə düzəlmişdir. E.Elatlının "Xəyanət" romanında *Ələsgər Atayev, Ağatural Binyətov, Həsənağa Nurəhmədov, Ruslan Dadaşov, Mahir Talıbov, PərvizSeyidli,* "Şokalad paylayan" hekayəsində *Zülfiyyə Mehdiyeva* və s.

**3. -zadə şəkilçisi ilə düzələn soyadlar.** Fars dilindən dilimizə keçən bu şəkilçiyə müstəqillik illərinə aid bədii nəsr nümunələrində milli və rus mənşəli formantlarla müqayisədə az rast gəlinir. Nəsr nümunələrindən fərqli olaraq, dilimizin soyadlar sistemində bu şəkilçilərdən çox istifadə olunur. E.Elatlının "Xəyanət" romanında *Əlisəttar Muradzadə,* "Xəstə ruhlar" romanında *Azər və Bəxtiyar Həmidzadə qardaşları, Həmidağa Həmidzadə,* V.Yolçuyevin "Sonuncu ölən ümidlərdir" romanında *Abbas Şeyxzadə,* S.Səxavətin "Qaçaqaç"romanında *Ələkbər Salahzadə, Yusif Əzimzadə, Camal Yusifzadə və b.* buna nümunə ola bilər.

**4. Oğlu və ya qızı morfemlərinin ata adları ilə birləşməsindən yaranan soyadlar.** Son zamanlar belə soyadların real həyatda artmasının şahidi oluruq. Lakin müstəqillik illərinə aid nəsr əsərlərinin dilində belə adlar azlıq təşkil edir: *Ruhiyyə Ziyadxan qızı* (20, s. 4)*, Nailə Seyidəli qızı* (23, s. 411)*, Çingiz Əlioğlu* (11, s. 15.) və s.

**5. Sıfır formantlı soyadlar.** Belə soyadların yaranmasında heç bir şəkilçidən istifadə olunmur. Məsələn, S.Səxavətin "Qaçaqaç" roman-memuarında *Əhəd Muxtar, Tofiq Bayram, Rauf Soltan* (11, s.15) və s.

## Nəticə

Müstəqillik illərində yazılı ədəbiyyatda işlənən soyadlar da digər onomastik vahidlər kimi dilimizin, həyat tərzimizin canlı şahidləri olaraq müəyyən dil faktlarının daşıyıcılarındandır. Onların tədqiqi dövrümüz haqqında zəngin material verməklə yanaşı, bədii obrazların yaradılmasında da əhəmiyyətli rol oynayır. Bu dövrə aid nəsr nümunələrində işlənən soyadların əsas səciyyəvi xüsusiyyətləri onların real həyatdan alınması, asan, diləyatımlı olması, eyni zamanda, oxucu tərəfindən yadda qalan olmasıdır. Bu dövrdəki nəsr nümunələrini əvvəlki dövrlərdə yazılan bədii əsərlərlə müqayisə etdikdə görürük ki, müstəqillik illərində milli ünsürlərlə formalaşan soyadlar daha çoxdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan dilinin izahlı lüğəti. IV c., Bakı: Şərq-Qərb, 2006, 712 s.
2. "Azərbaycan" ədəbi bədii jurnalı. 2016, № 6, 192 s.
3. "Azərbaycan" ədəbi bədii jurnalı. 2018, № 12, 207 s.
4. "Azərbaycan" ədəbi bədii jurnalı. 2015, № 3-4, 192 s.
5. Azərbaycan onomastikasında gedən proseslər. Respublika konfransının materialları, 25 may 2007, Bakı, 2008, 2008, 68 s.
6. Bağırov A. Onomalogiya problemləri. I c., Bakı: Elm və təhsil, 2010, 436 s.
7. Bağırova F. Azərbaycan bədii onomastikasının bəzi məsələləri // Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II elmi-nəzəri konfransın materialları. Bakı: APİ nəşri, 1988, 307 s.
8. Cəfərli Y. Azərbaycan dilinin onomastikası müstəqillik dövründə. Bakı: Elm və təhsil, 2014, 386 s.
9. Cəfərova Z. Tarixi romanlarda onomastik vahidlər // Azərbaycan onomastikası problemləri II. Bakı: APİ nəşri, 1988, 307 s.
10. Çobanov M. Familiya, Təxəllüs. Tbilisi, 1987, 92 s.
11. Elatlı E. "Xəyanət" romanı. Bakı: Qanun, 2015, 135 s.
12. Elatlı E. "Xəstə ruhlar" romanı. Bakı: TEAS Press Nəşriyyat evi, 2019, 404 s.
13. Hüseynova H. Bədii əsərlərdə onomastik vahidlərin rolu. Bakı: ADPU nəşriyyatı, 2017, 190 s.
14. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları. Bakı: Memar NəşriyyatPoliqrafiya, 2008, 302 s.
15. Muğanna İ. Seçilmiş əsərləri. 6 cilddə, V c., Bakı: Avrasiya-press, 2009, 480 s.
16. Mustafayeva Q. Adların üslubi imkanlar. Bakı: APİ nəşri, 1990, 98 s.
17. Mustafayeva Q. Bədii dildə antroponimlərin ekspressivliyi // Azərbaycan onomastikası

problemləri, II, Bakı: APİ nəşri, 1988, 307 s.
18. Mustafayeva Q. S.Rəhimovun romanlarında antroponimlərin üslubi-linqvistik xüsusiyyətləri // Azərbaycan onomastikası problemləri, VIII, Bakı: APİ nəşri, 2000, 151s.
19. Nuriyeva M. Onomastik vahidlərin obrazlılıq imkanları // Azərbaycan onomastikası problemləri, II. Bakı: APİ nəşri, 1988, 307 s.
20. Qiyas Ə. "Qara işıq" // "Azərbaycan", 2018, № 12, s.4- 41.
21. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları". II c., Bakı: Elm və təhsil, 2019, 436 s.
22. Paşayev A. Azərbaycan antroponimikası. Bakı: Elm və təhsil, 2015, 320 s.
23. Plyus bədii yaradıcılıq (ədəbi almanax). II kitab. Bakı: Elm və təhsil, 2018, 500 s.
24. Verdiyeva Z. Bədii surətin xarakterini əks etdirən adlar // Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II elmi-nəzəri konfransın materialları. Bakı: APİ nəşri, 1988, 307 s.
25. Elatlı E. "Pəncərədə görünən kölgə". (https://www.kitabyurdu.org)
26. Məsud A. "Azadlıq" romanı. https://www.afaqmesud.az
27. Yolçuyev V. "Bir ovuc torpaq" romanı. https://www.kitabyurdu.org

***Резюме***

***Нармин Годжаева***

***Фамилии, образованные национальными элементами в годы независимости, и их стилистические особенности***

В статье рассматриваются фамилии, их значение, различные особенности, в том числе предпочтение фамилий с национальным элементом в годы независимости и т. д. был проинформирован. При этом обсуждались стилистические возможности и лексико-семантические особенности фамилий, используемых в прозаических произведениях, написанных в годы независимости. По лексико-семантическим признакам фамилии делятся на разные группы и объясняются на примерах. В статье также обсуждается происхождение фамилий.

В статье также показано, что фамилии, образованные с национальными элементами, ценны как индикатор национальной идентичности народа и источник, хранящий историю его языка. На примерах также объясняются различные способы образования фамилий в азербайджанской прозе. В реальной жизни было замечено, что фамилии, возникающие из комбинации морфем сына или дочери с именами отца, в последнее время в реальной жизни увеличились. Однако фамилии с суффиксом «заде», перешедшие с персидского на наш язык, в прозе лет независимости встречаются реже, чем в национальной и русской формах.

Положительные и отрицательные черты фамилий наиболее очевидны в вымышленных выражениях. Как следует из названия, такие имена не входят в нашу национальную систему имен, а просто созданы любым писателем в соответствии с идеей и сутью произведения. Вымышленные фамилии, являющиеся показателем индивидуального творчества писателя, обладают богатым стилистическим потенциалом. Таким образом, вымышленные имена, как и личные имена, служат для создания определенной эмоциональности и гармонии в языке. Вымышленные фамилии в произведениях искусства являются знаками различных фонетико-стилистических особенностей и средств выражения.

Наконец, можно сказать, что фамилии в азербайджанском языке структурно и семантически богаты, а также стилистически разнообразны.

***Ключевые слова:*** *ономастические единицы, фамилии, фамилии, прозаические произведения, стилистические оттенки, вспомогательные имена, окончания национальных фамилий, стилистические особенности фамилий.*

***Summary***

***Narmin Gojayeva***

***Surnames Formed by National Elements During the Years of İndependence and Their Stylistic Features***

The article considers surnames, their meanings, distinctive features, including the preference of surnames with a national element in the years of independence, and so on. was informed. Stylistic possibilities and lexical-semantic peculiarities of surnames used in prose works, written in the years of independence

were discussed. According to lexical-semantic signs, surnames are divided into different groups and explained by examples. The article also discusses the origin of surnames.

The article also shows that surnames formed with national elements are valuable as an indicator of the national identity of a people and a source that stores the history of its language. Examples also explain the different ways of forming surnames in Azerbaijani prose. In real life, it has been noticed that surnames arising from the combination of the son's or daughter's morphemes with the father's names have recently increased in real life. However, surnames with the suffix "zade", which have passed from Persian into our language, are less common in the prose of the years of independence than in the national and Russian forms.

The positive and negative traits of surnames are most evident in fictional expressions. As the name suggests, such names are not included in our national naming system, but simply created by any writer in accordance with the idea and essence of the work. Fictional surnames, which are an indicator of the individual creativity of a writer, have a rich stylistic potential. Thus, fictitious names, like personal names, serve to create a certain emotionality and harmony in the language. Fictitious names in works of art are signs of various phonetic and stylistic features and means of expression.

Finally, we can say that surnames in the Azerbaijani language are structurally and semantically rich, as well as stylistically diverse.

***Key words:*** *onomastic units, surnames, surnames, prose works, stylistic shades, auxiliary names, endings of national surnames, stylistic features of surnames.*

Redaksiya heyətinin üzvü fil.ü.f.d.,dos. Məmmədova Elmira Kekeç Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

PEDAQOQİKA

**UOT 373.1.02:372.8**

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AŞIQ ƏLƏSGƏR YARADICILIĞININ DÜNYA ƏDƏBİYYATI İLƏ MÜQAYİSƏLİ TƏDRİSİ MƏSƏLƏLƏRİ

**Arif ƏSƏDOV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 23 oktyabr 2021; çapa qəbul edilmişdir:23 noyabr 2021; online-da çap edilmişdir: 29 dekabr 2021.*

*Received: 23th of October, 2021; accepted: 23th of November, 2021; published online: 29 th of December, 2021.*

**Açar sözlər:** *Aşıq Ələsgər, Sergey Yesenin, aşıq yaradıcılığı, rus ədəbiyyatı, müqayisəli tədris*

## Giriş

Aşıq Ələsgər Azərbaycan elmi-intellektual, pedaqoji irsində bədii təfəkküründə olduğu kimi ciddi iz qoymuş tanınmış mütəfəkkirdir. Ədəbiyyatşünaslığımız və ümumilikdə humanitar elmimiz Aşıq Ələsgərin yaradıcılığını təkcə onun ideya-bədii keyfiyyətlərinə, yaratdığı onlarla yeni xalq şeiri formalarına görə deyil, həm də irsinin elmi-pedaqoji əhəmiyyəti baxımından da qiymətli və misilsiz hesab edir. Araşdırmamızın məqsədi və əsas hədəfi də Aşıq Ələsgər poeziyasının dünyəvi xarakter daşıması, öz zəngin həyatı əksetdirmə vasitələri ilə, gerçəkliyi bədii şəkildə təsvir imkanları ilə bərabər, müqayisəli tədris imkanlarını işıqlandırmaq, dərs prosesinin idarə edilməsi üsul və yollarını təhlil etməkdir. Ən əsası isə orta ümumtəhsil məktəblərində Aşıq Ələsgər yaradıcılığının tədrisi zamanı onun dünya ədəbiyyatı nümayəndələrinin bədii irsi ilə, xüsusən Sergey Yeseninin yaradıcılığı ilə müqayisəli tədris imkanlarını işıqlandırmaqdır.

## 1. Mətbuat və dərsliklərdə Aşıq Ələsgər yaradıcılığı

Aşıq Ələsgərin yaradıcılığı uzun müddət ədəbiyyat dərsliklərində yer almış, proqramlarda aşığın bədii irsindən nümunələrə müəyyən dərs saatları ayrılmışdır. Bildirməyi vacib hesab edirik ki, Aşıq Ələsgərlə bağlı ilk məlumatı rus şairi və jurnalisti Y.N.Polonski vermişdir. O, 1851-ci ildə "Kavkaz" qəzetində çap etdirdiyi məqalələrinin birində o zaman gənc olan Ələsgərdən danışmış, aşığın söylədiyi "Əsli və Kərəm" dastanına heyran qaldığını bildirmişdir [7].

Azərbaycan mühitində Aşıq Ələsgərlə bağlı mətbuatda ilk məlumat 1926-cı ilə aiddir [8, s. 28-30]. Burada Şəmsülcədid adlı müəllif "Dan yıldızı" jurnalının 1926-cı il 4-cü nömrəsində "El şairləri" başlığı altında Miskin, Dilkəm, Aşıq Hüseyn və Aşıq Ələsgər haqqında məlumat vermişdir. Aşıq Ələsgərin ilk mətbu əsərləri isə "Dağlar" və "Bizim dağlar" şeirləridir ki, onlar da 1927-ci ildə "Yeni kənd" jurnalında (№3) çap olunmuşdur [2, s. 61-65].

Aşığın yaradıcılığını ilk dəfə toplayaraq nəşr etdirən H.Əlizadə olmuşdur. Aşığın nəvəsi İslam Ələsgərov, oğlu Aşıq Talıb Ələsgər irsini toplayaraq bir neçə dəfə nəşr etdirməyə nail olmuşlar. H.Əlizadə yazırdı ki, Ələsgər özü salığında şeirlərini bir yerə

* filologiya üzrə fəlsəfə doktoru; doktorant, ARTİ
*e-mail: arif_alim@mail.ru*

toplamaq istəmişdirsə də, nail ola bilməmişdir. O, 1937-ci ildə "Aşıq Ələsgər" adlı kitabın nəşrinə nail olmuşdur. Bundan başqa, Əhliman Axundovun, Həmid Araslının, Mürsəl Həkimovun, Səttar Axundovun, Osman Sarıvəllinin, Hüseyn Arifin, Məmməd Aslanın, İlyas Tapdığın, Vaqif Vəliyevin və digər ziyalılarımızın və alimlərimizin Aşıq Ələsgər irsinin toplanıb araşdılrmasında böyük xidmətləri olmuşdur.

1972-ci ildə Aşıq Ələsgərin 150 illiyi, 1988-ci ildə 175 illiyi SSRİ miqyasında təntənə ilə qeyd edilmiş, aşığın yaradıcılığına ciddi şəkildə müraciətlər edilmiş və tədqiqatlar aparılmışdır.

2011-ci ilin Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Aşıqlar Birliyi tərəfindən "Aşıq Ələsgər ili" elan edilməsi ilə əlaqədar M.F.Axundov adına Milli Kitabxana tərəfindən "Aşıq Ələsgər-190" biblioqrafik göstərici tərtib edilmişdir. Bu Aşıq Ələsgər haqqında tərtib edilmiş ilk vəsait idi. Biblioqrafiyada 1927-cı ildən 2011-ci ilə qədər olan dövrdə Aşıq Ələsgərin həyat və yaradıcılığı haqqında olan zəngin materiallar əksini tapmışdır.

Aşıq Ələsgərin xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilib. Onun adına küçə, mədəniyyət sarayı, respublika Xalq Yaradıcılığı evi fəaliyyət göstərir, Bakıda isə Hüseyn Hacı Qulu oğlu tərəfindən "Aşıq Ələsgər muzeyi" yaradılmışdır.

Aşıq Ələsgərin yaradıcılığından nümunələrin ilk dəfə ali və orta məktəblərin ədəbiyyat tarixi dərslərinə daxil edilməsi akademik M.F.Qasımzadənin adı ilə bağlıdır.

Ədəbi dünyagörüşü formalaşdırmaq, şagirdlərin yurd sevgisini, təbiət sevgisini inkişaf etdirmək, estetik zövqü inkişaf etdirmək məqsədi ilə Aşıq Ələsgərin yaradıcılığı uzun müddət tədris edildiyi kimi, indi də ədəbiyyat dərsliklərində istifadə edilir. Ümumtəhsil məktəblərində istifadə olunan dərsliklər üzrə hazırda VIII və X siniflərdə Aşıq Ələsgərin yaradıcılığından nümunələr var, hətta məktəb təcrübəmə, sorğu və müşahidələrimə əsasən yaza bilərəm ki, aşığın yaradıcılığı yaxşı da tədris edilir.

VIII sinif üzrə Ədəbiyyat dərsliyində Aşıq Ələsgərin "Bahar fəsli, yaz ayları gələndə" qoşması [ 5, s. 80-81] təqdim edilib. Müəllim üçün Metodik Vəsaitdə həmin dərsə aid dərslik müəlliflərinin tövsiyə və nümunələri yer alıb. Orada qeyd olunur ki, Aşıq Ələsgərin "Dağlar" qoşması 3 saat üçün nəzərdə tutulub. I dərsdə əsərin məzmunu üzrə iş aparılmalıdır. Burada 1.1.1., 1.1.5, 2.1.1., 2.2.1 alt standartların reallaşdırılması nəzərdə tutulub. II dərsdə əsərin təhlili üzrə iş aparılmalıdır və bu dərs üzrə 1.2.3., 1.2.4., 3.1.1., 3.1.2, 3.1.3 standartlarının reallaşdırılması nəzərdə tutulub. III dərs üzrə isə tətbiq, müzakirə və yaradıcı iş nəzərdə tutulub. Burada 1.1.2, 1.1.5, 1.2.3., 2.2.1 alt standartlarının reallaşdırılması tövsiyə edilib.

İlk dərsdə motivasiya mərhələsi üçün Ş.Ələkbərovanın ifasında S.Vurğunun "Dağlar" əsərinə bəstələnmiş mahnının səsləndirilməsi tövsiyə olunur. [4, s. 124].

Dərslikdə bu əsərin tədrisi zamanı əsasən təbiət mövzusu ilə bağlı şagirddə fikir formalaşdırılır, bununla bağlı da ədəbiyyat nəzəriyyəsi üzrə metafor və təşbeh haqqında məlumat verilir.

Dərsdə əsas məqsəd şagirdin təbiətlə əlaqəli düzgün fikirlər formalaşdırmaq, onda təbiətlə bağlı estetik estetik zövqü inkişaf etdirmək və təlim məqsədindən irəli gələn standartları reallaşdırmaqdır. Dərslik üzrə şagirdlərə ünvanlanan bəzi sual və tapşırıqları dərsin məqsədini daha aydın təsvir etmək məqsədi ilə sıralayaraq diqqətə çatdırmaq istəyirik:

1. Təbiətə həsr olunmuş hansı şifahi ədəbiyyat nümunələri ilə tanışsınız?
2. Şifahi və yazılı ədəbiyyatda dağlara çoxlu əsərin həsr edilməsinə səbəb, sizcə, nədir?
3. "Yurdumuzun təbiəti "Dağlar"da necə əks olunub?" mövzusunda inşa yazın.
4. "Füsunkar dağlar ölkəmizin bəzəyidir" mövzusunda esse yazın.
5. "Əsərdə müəllifin doğma yurdumuza sonsuz məhəbbəti ifadə olunmuşdur" fikri ilə razılaşmaq olarmı?

6. İlin müxtəlif fəsillərində dağların-təbiətin aldığı mənzərə qoşmada uğurlu ifadə edilmişdirmi? Fikrinizi əsaslandırın.

7. Aşıq Ələsgərin "Yaylaq" şeirini [5, s. 177] oxuyun. "Dağlar" qoşması ilə oxşar və fərqli cəhətlərini aydınlaşdırmağa çalışın. Çıxartdığınız nəticələri Venn diaqramında, yaxud müqayisəli cədvəldə qeyd edin. [5, s. 82, 83]

Fikir verirsinizsə, "Dağlar" qoşmasının tədrisi zamanı istiqamət daha çox təbiətlə bağlı məqamları diqqətə çatdırır.

Aşıq Ələsgərin orta ümumtəhsil məktəblərində tədris olunan digər əsəri ədəbiyyatlarda daha çox "İkinci Dağlar" qoşması kimi adlandırılan "Bir ay yarım növbahardan keçəndə" misraları ilə başlayan "Dağlar" qoşmasıdır.

Bu qoşmada təbiət təsvirləri ilə yanaşı, doğma yurdun qəmgin görkəmi, dağların pərişan halı, doğma yurddan bir müddət ayrı düşən aşığın kədərli halı təsvir edilir. Qoşmanın yaranma səbəbi də həmin kədər ovqatıdır. Rus çarizminin dəstəyi və gizli siyasi proqramı ilə doğma Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər aşığın yaşadığı ərazilərdə qırğınlar törətmiş, xalq, yerli əhali öz yurd-yuvalarını tərk etməyə məcbur olmuşlar. Elindən, obasından, doğma yurdundan ayrı düşən Aşıq Ələsgər yalnız iki ildən sonra ata yurdu Ağkilsəyə geri qayıda bilmişdir. Yurdumu pərişan, qəmgin görən aşıq bu kədərli təəssüratını "Ölsün Ələsgər tək qulların, dağlar" nidası ilə ifadə edir.

X sinif dərsliyi üzrə ikinci "Dağlar" qoşması və Aşıq Ələsgər yaradıcılığının tədrisinə ümumilikdə 3 saat ayrılmışdır. Bunlardan 1 saat "Aşıq Ələsgərin" həyatı, yaradıcılıq yolu", 1 saat "Dağlar" qoşmasının məzmunu, 1 saat "Dağlar" qoşmasının təhlili üzrə işə ayrılıb [3, s. 11].

MMV-də Aşıq Ələsgərin həyat və yaradıcılığının öyrədilməsi, təqdim edilmiş əsərinin daha yaxşı tədris edilməsi ilə bağlı nümunələr də göstərilib.

X sinifdə şairin yaradıcılığı üzrə 1.1.1, 1.1.5, 1.2.2, 1.2.3, 1,2,4, 2.1.1, 2.1.2, 2.2.1, standartlarının reallaşdırılması təklif edilib.

Deməli, hazırda orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üzrə ədəbiyyat fənnində Aşıq Ələsgərin yaradıcılığına ümumilikdə 6 saat vaxt ayrılmış, aşığın 2 qoşmasının tədrisi nəzərdə tutulmuşdur.

## 2. Aşıq Ələsgər yaradıcılığı müqayisəli tədrisdə

Aşıq Ələsgərin yaradıcılığı türk-Azərbaycan təfəkkürünün, minillik yazılı və şifahi ədəbiyyatın XIX əsr üçün yeni kontekstdə və məzmunda təzahürüdür. Maraqlı bir faktı qeyd etmək istəyirik. Yəni Aşıq Ələsgərə savadsız, dünyəvi məsələlərdən və elmdən məlumatsız biri kimi yanaşmaq məntiqi və real deyil. Aşıq Ələsgər gənclik çağında sistemli və modern təhsil almayıb, amma xalq düşüncəsini və pedaqogikasını dərindən mənimsəyib. Məsələn, Həmid Araslı yazırdı ki, "..Aşıq Ələsgərin qoşmaları bədii ifadə baxımından çox zəngindir. Bu əsərlərdə bir tərəfdən aşıq şeirinin oynaq, sadə, səmimi ifadə və sözləri, digər tərəfdən isə klassik, Azərbaycan şeirinin bədii təsvir vasitələri işlədilmişdir" [1, s. 12] Klassik şeirin məzmunu və əsas xüsusiyyətlərini mükəmməl bilmədən həmin nümunələri xalq şeirinin ritminə uyğunlaşdırmaq mümkün deyil.

Orta ümumtəhsil məktəblərində ədəbiyyat fəninin tədrisinə yeni yanaşma olaraq dərsləri fənn saatlarına müdaxilə etmədən milli ədəbiyyat nümunələri ilə dünya ədəbiyyatı nümunələrinin müqayisəsi, paralelliyin, inteqrativliyin təmin edilməsi üzərində qurmaq nəzəriyyəsini təklif edirik. Bir Azərbaycan sənətkarı ilə başqa bir xalqın ədəbiyyatının tanınmış nümayəndəsinin əsərlərinin müqayisəli şəkildə təhlil etmək, şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürünü daha dəqiq və mükəmməl inkişaf etdirmək üçün böyük metodiki əhəmiyyətə malikdir. Bu cəhətdən Aşıq Ələsgərin yaradıcılığını rus şairi Sergey Yeseninin yaradıcılığı ilə müqayisəli şəkildə tədris etmək uyğun olardı. Burada suallar ortaya çıxa bilər? İlk sualımız bu olar? Yeseninin müqayisə edilməsi üçün bizim məktəblərdə baza, resurs varmı?

Cavabımız budur ki, Sergey Yesenin XX əsrin ən görkəmli şairlərindən biridir. Yeseninin yaradıcılığı haqqında Azərbaycan ədəbiyyatşünaslığında kifayət qədər tədqiqatlar aparılmış və onun əsərləri dilimizə tərcümə edilmişdir. Eyni zamanda Yeseninin yaradıcılığı dünya miqyasında maraq kəsb etmiş, dünyanın bir çox dillərinə tərcümə edilmiş, oxucular tərəfindən də maraqla qarşılanmışdır. Hazırda ali təhsil müəssisələrində dünya ədəbiyyatı ixtisasında bakalavr və magistrlərlə Yeseninin yaradıcılığı tədris edilir. Odur ki, orta ümumtəhsil məktəblərinə qədər qoyan müəllimlər Yesenin yaradıcılığından xəbərdardırlar, onların baza ali təhsilində Yeseninin yaradıcılığı haqqında məlumatlar vardır.

İkinci sualımız ondan ibarətdir ki, niyə məhz Aşıq Ələsgərin yaradıcılığı ilə Yeseninin yaradıcılıq nümunələrini müqayisəli tədrisə cəlb etmək lazımdır? Bu suala cavab tapmaq üçün bəzi fakt və məqamlara nəzər salmaq zəruridir. Bunların təhlili və işıqlandırılmasından sonra paralelliyin yaradılması ilə bağlı addımlarımız aydınlaşa bilər. Amma vurğulamağı zəruri hesab edirik ki, tədrisdə yazıçıların yaradıcılığının paralelliyinin təşkil edilməsi yalnız motiv və xüsusiyyətləri uyğun olan əsərlərlə məhdudlaşmamalıdır. Biz şagird təfəkkürünün inkişaf etdirilməsi və dövlət standartlarının reallaşdırılması baxımından uyğun gələn, münasib hesab edilən əsərlərin müqayisəli tədrisini həyata keçirə bilərik. Qeyd etməliyik ki, Yesenin və Azərbaycan, Yesenin və Aşıq Ələsgər arasında paralellik kifayət qədərdir.

Əvvəla, Yesenin yaradıcılığının formalaşmasında da Aşıq Ələsgərdə olduğu kimi, xalq şeirinin rolu kifayət qədər olub. Elə bəlkə də, məhz ona görədir ki, hər iki sənətkarın yaradıcılığında xalq ruhu ilk baxışdan özünü göstərir. Hər iki sənətkarın həyatı boyu ciddi maddi çətinlikləri olub və bu da yaradıcılıqlarında müəyyən qədər hiss edilib. Hər ikisi kəndli ailəsində doğulub, böyüyüb. Hər iki sənətkarın bəhrələndiyi sənətkarlar da xalq ruhunun daşıyıcıları olmuşlar. Aşıq Ələsgərdə atası Alməmməd kişi, Aşıq Alı, Yesenində isə bu, Aleksandr Blokdur. Yesenin Azərbaycanda bir neçə dəfə olub. Azərbaycan mühiti və həyatı ilə bu və ya digər formada tanışdır. Həm Aşıq Ələsgərin, həm də Yeseninin yaradıcılığında doğma torpağa bağlılıq hissi aşılanır və tərənnüm olunur.

Xüsusi olaraq vurğulamağı lazım bilirik ki, Azərbaycanın 30-a yaxın tərcüməçisi Yeseninin 150-yə qədər şeirini dilimizə çeviriblər. Hətta Yeseninin elə şeirləri var ki, ayrılıqda 15, 16 tərcüməçi həmin nümunəvi dilimizə çevrilib. Şairin "Əlvida Bakı", "Hələlik, mənim dostum, hələlik" şeirləri bu sıradadır.

Yeseninin əsərlərinin dilimizə əsas tərcüməçiləri Əliağa Kürçaylı, Ramiz Rövşən, Eyvaz Borçalı, Rəfiq Zəka, Anar, Əhməd Cəmil, Nüsrət Kəsəmənli, Tofiq Bayram, Mahir Qarayev, Kamal Abdulla, Fikrət Qoca, Səlim Babullaoğlu, Hamlet İsaxanlı, Knyaz Aslan, Firuz Mustafa və başqalarıdır.

Ədəbiyyatımızda hətta Yesininə şeir həsr edən yazıçılarımız da olmuşdur. Əli Nazim, Süleyman Rüstəm, Əliağa Kürçaylı, Məmməd Rahim, Nəbi Xəzri, Mahir Qarayev, Rəfiq Zəka, Fikrət Qoca, Eldar Baxış, Oqtay Rza, Ramiz Rövşən və başqaları Yeseninə şeir həsr etmiş yazıçılarımızdır.

"Təsadüfi deyil ki, yeseninşünaslar bu dövrü onun (Yeseninin - A.Ə) yaradıcılığının qızıl dövrü" adlandırır və həmin dövrü Puşkin yaradıcılığının "Boldino payızı" ilə müqayisə edirlər. Onu da qeyd etmək kifayətdir ki, 1924-1925-ci illərdə Yesenin Bakıda olduğu dövrdə Bakı mətbuatında onun 39 əsəri (37 şeir və 2 poema) dərc edilmiş, o cümlədən sevgi poeziyasında xüsusi yeri olan Yesenin sevgi himni sayıla biləcək "İran nəğmələri" silsiləsindən bir sıra şeirlər burada – Bakıda yazılmışdır" [6, s. 10].

Nəriman Həsənzadə Yeseninin tədqiqatçılarından olan İsaxan İsmayılzadəyə "Yesenin – Puşkindən sonrakı Rusiyadır (Müəllifə məktub)" yazısında bildirirdi ki, qədim romalılar Yunanıstanı əsir edəndə, Afina mədəniyyətinin qarşısında özləri əsir olduqları kimi, rus hərbçi məmurları da Qafqazı işğal edəndə Rusiyanın dahi oğulları Lev Tolstoy da, Puşkin də, Lermontov da, Bestujev-Marlinski də Yeseninə qədər Qafqazın nəinki

təbiətinə, həm də insanlarına, məişətinə, mənəvi paklığına və mərdliyinə də özləri əsir olmuşlar" [6, s. 15].

Aşıq Ələsgərin də yaradıcılığı ilə müqayisə etdikdə, fikrimizcə, Yeseninin aşağıdakı əsərləri müqayisə üçün seçilə bilər. Bunlardan biri Yeseninin 1910-cu ildə yazdığı aşağıdakı şeirdir:

*Qış oxuyur – haray salır,*
*Minbir səslə layla çalır*
*Qalın meşə göy şamlara.*
*Hər tərəfdə qəm-kədərlə*
*Ağ buludlar dəstələrlə*
*Uçur uzaq bir diyara.*
*Çöldə boran çox havalı,*
*Sərir yerə ipək xalı, -*
*Qan donduran bir soyuq var*
*Sərçələr boz yumaq kimi*
*Yetim qalmış uşaq kimi*
*Pəncərəyə sığınıblar.*
*Üşüyürlər körpə quşlar,*
*Onlar acdır, yorulmuşlar, -*
*Bir-birinə sığınıb bərk.*
*Tufan isə dəlisayaq*
*Pəncərəni döyür taq-taq,*
*Daha güclü hirslənərək.*
*Bax, bu qarlı qasırğada,*
*Pəncərənin qabağında*
*Yuxulayıb zərif quşlar.*
*Onlar yuxu görür bu dəm:*
*Günəş doğub, gülür aləm*
*Bahar gəlib, gözəl bahar.* [9, s. 9]

Məzmun baxımından uyğun olan başqa bir şeir isə bu ola bilər:

*Pəncərəmin önündə*
*Ağcaqayın görünür,*
*Gümüşdəndir elə bil,*
*Bəyaz qara bürünüb.*

*Salxım budaqlarında*
*Qar donubdur şaxtadan,*
*Sallanan saçaqları*
*Sanki bəyaz baftadan.*

*Dayanıb ağcaqayın*
*Sükut içrə uyğulu,*
*Şəfəq altda yanan qar*
*Andırır qızıl pulu.*

*Oyanıb tənbəl-tənbəl*
*Şəfəq ətrafı öpür;*
*O, qarlı budaqlara*

*Təzədən gümüş səpir.*

Təbiət mövzusu da əks olunmuş başqa bir şeiri isə aşağıdakıdır:

*Axşam düşür gölün üstə,*
*Par-par parıldayır şəbnəm.*
*Mən durmuşam yolun üstə,*
*Bir söyüdə söykənmişəm.*

*Düşür ayın gur şöləsi*
*Evimizin üzərinə.*
*Haradasa bülbül səsi*
*Eşidirəm bu dəm yenə.*

*Nə gözəldir, necə xoşdur,*
*Ətraf isti ocaq kimi.*
*Ağcaqayın dayanmışdır*
*Nəhəng bir şam-çıraq kimi.*

*Lap uzaqda - o sahildə*
*Ətəyində bir meşənin*
*Toxmağının səsi gəlir*
*Yuxulu bir gözətçinin.*

Orta məktəb müəllimləri Aşıq Ələsgərin yaradıcılığı ilə Yesenin yaradıcılığını inteqrasiyanı təşkil etmək üçün şairin başqa əsərlərinə də müraciət edə bilərlər.

İnteqrasiyanı qurmaq üçün aşağıdakı dərs modelini təqdim edirik.

Dərs 10-cu siniflərdə Aşıq Ələsgərin həyatı ilə bağlı keçirilən ilk dərsə tətbiq edilə bilər. Burada Aşıq Ələsgər və Yeseninin yaradıcılığı, şəxsiyyəti müqayisəli təhlil edilmədidir. Bununla təxmini olaraq eyni tarixi dövrdə və eyni dövlətin tərkibində yaşamış iki sənətkarın yaradıcılıq qayəsi, yaradıcılıqları müqayisə edilərək şagirdlərin məntiqi və tənqidi təfəkkürünü inkişaf etdirmək mümkündür.

Yadda saxlamaq lazımdır ki, əvvəlki dərsdə şagirdlərə Sergey Yesenin haqqında araşdırma aparmaq tapşırılmalıdır. Şagirdlər evdə müstəqil şəkildə Yeseninin həyat və yaradıcılığı haqqında araşdırma aparırlar. Dərsdə aşağıdakı resurslar, üsul və formalardan istifadə edilərək:

**Resurslar.** İş vərəqləri, yazı taxtası, dərsliklər, təqdimat vərəqələri;

**Tədris üsulları.** BİBO, Klaster, Venn diqaramı;

**Təlim formaları.** Fərdi iş, cütlərlə iş, qruplarla iş.

Dərsdə müəllim üçün metodiki vəsaitdə nümunə olaraq verilmiş mövcud dövlət standartlarını və təlim nəticələrini saxlamaq mümkündür (Sxem 1).

***Sxem 1.***

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə |

| | |
|---|---|
| əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | dözümlülük nümayiş etdirir. |

Dərsə başlayarkən şagirdləri tədqiqat aparmağa istiqamətləndirmək məqsədi ilə "Aşıq Ələsgər Azərbaycan üçün buna görə dəyərlidir..." fikri üzrə düşünmək tapşırığı verilir. Şagirdlər fərdi şəkildə bu suala cavab axtararkən müəllim yazı taxtasında BİBÖ cədvəli çəkir (Sxem 2).

***Sxem 2. BİBÖ cədvəli***

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| **1.**<br>**2.**<br>**3.**<br>**4.**<br>**5.**<br>**6.** | **1.**<br>**2.**<br>**3.**<br>**4.**<br>**5.**<br>**6.** | **1.**<br>**2.**<br>**3.**<br>**4.**<br>**5.**<br>**6.** |

Sonra müəllim şagirdlərin hər birindən fərdi şəkildə fikirlərini soruşur və Bilirəm cədvəlini şagird sayına uyğun olaraq cavablarla doldurur. Daha sonra İstəyirəm bilim sütunu şagirdlərin cavablarına uyğun olaraq doldurulur. Sonra evdə verilən tapşırığa uyğun Sergey Yesenin haqqında məlumatları toplayaraq ümumiləşdirmək üçün cütlər şəklində aşağıdakı klaster əks olunmuş iş vərəqlərini şagirdlərə parlayır (Sxem 3).

***Sxem 3.***




Şagirdlər klasteri doldururlar. Bu zaman şagirdlərə 3 dəqiqə vaxt vermək kifayətdir. Hər cütdən biri təqdimatını edir. Əyləşmiş şagirdlərə təqdimatlar bitdikdən sonra ümumi 5 dəqiqə ərzində təqdimatı edən şagirdə sual vermək tapşırılır.

Bu tapşırıqdan sonra şagirdlər qruplara bölünür və onlara üzərində Aşıq Ələsgər və Sergey Yesenin müqayisəsi aparılacaq Venn diaqramı təqdim edilir (Sxem 4). Tapşırığın həlli üçün 5 dəqiqə vaxt verilir. Bu zaman müəllim qrupun üzvü olan hər bir şagirdin müzakirələrdə və diaqramın doldurulmasında fəal iştirak etməsini təmin etməsinə çalışmalıdır. Venn diarqamı üzrə işin təşkili şagirdlərin iki böyük sənətkarın yaradıcılığının, həyatının əsas xüsusiyyətlərinin və məqamlarının oxşar və fərqlin cəhətlərini, bir-birindən hansı xüsusiyyətlərinə görə fərqlənməsini ortaya çıxarmaq məqsədi daşıyır. Apardığımız eksperimentlərdə də müşahidə etmişik ki, şagirdlərin müqayisə etmək, təhlil etmək, oxşar və fərqli cəhətlərin üzə çıxarmaq məqsədi üçün bu tipli diaqramların rolu əvəzsizdir.

***Sxem 4.***

**Aşıq Ələsgər** **Sergey Yesenin**



Qrupların hər birində bir nəfər qalxaraq təqdimat edə bilər. Təqdimat bitdikdən sonra digər qrup nümayəndələri bir-birinə təqdimatla bağlı suallar verə bilərlər. Müəllim diqqət etməlidir ki, şagirdlər sənətkarların müqayisəsi zamanı diaqramın qrafalarına uyğun məlumatları düzgün daxil etsinlər.

Dərsin sonunda müəllim yazı taxtasında verilmiş BİBÖ cədvəlinin Öyrəndim sütununun fərdi şəkildə şagirdlərdən soruşmaqla doldurmalıdır. Müəllim dərsin sonunda aşağıdakı qiymətləndirmə meyarına uyğun olaraq formativ qiymətləndirmə aparmalıdır.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

**Nəticə**

Azərbaycan ədəbiyyatı bazasında dünya ədəbiyyatı nümunələrinin tədris edilməsi şagirdlərin təfəkkürünün inkişaf etdirilməsi üçün əsas vasitələrdən biridir. Şagirdlərin doğma ədəbiyyatı daha yaxşı mənimsəməsi, milli nümunələrlə dünya ədəbiyyatı nümunələrini müqayisə etməsi onların təhlil etmə, müqayisə etmə bacarıqlarını inkişaf etdirir. Eyni zamanda müqayisəli tədris milli ədəbiyyatımızı daha mükəmməl mənimsəməni və

qiymətləndirməni təmin edir.

## ƏDƏBİYYAT


1. Araslı H. Azərbaycan aşıq şeirindən seçmələr. Ön söz. 2 cilddə. I c., Bakı: Şərq-Qərb, 2005, 376 s.
2. Aşıq Ələsgər. Dağlar; Bizim dağlar // Yeni kənd. 1927. №3, s. 61-65.
3. Ədəbiyyat-10. Ümumtəhsil məktəblərinin 10-cu sinifləri üçün dərslik. Bakı: Bakı nəşr, 2018, 208 s.
4. Ədəbiyyat-8. Müəllim üçün metodik vəsait, Bakı: Bakı nəşr, 2019; 200 s.
5. Ədəbiyyat-8. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik Bakı: Bakı nəşr, 2019, 208 s.
6. İsmayılzadə İ. Şeir gülüstanının təkrarolunmaz çiçəyi - Serqey Yesenin. Bakı: Xəzər Universiteti, 2010, 365 s.
7. "Kavkaz" qəzeti, 1852, № 1-2.
8. Şəmsilcədid. El şairləri // Dan yıldızı jurnalı, 1926. № 4, s. 28-30.
9. Yesenin S. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2006, 168 s.


***Резюме***

***Ариф Асадов***

***Вопросы сравнительного преподавания творчества Ашуг Алескер в средней школе с мировой литературой***


В статье автор освещает вопросы обучения творчеству Ашыга Алескера в общеобразовательных школах. В соответствии с содержанием и целью статьи также анализируется история изучения и сбора наследия ашугов в Азербайджане. Изучение творчества Ашига Алескера и собрание его наследия, к сожалению, относятся к более позднему периоду. Вероятно, это привело к тому, что работы художника не были собраны должным образом, а некоторые важные моменты не были полностью переданы будущим поколениям. Отрадно, что позже в сборе этих проб активное участие приняли сын и родственники ашуга. В то же время работа Ашига Алескера имеет серьезное воспитательное значение благодаря богатому содержанию и дидактическим качествам. С этой точки зрения в статье подчеркивается, что начиная с середины XX века творчество Аласгара стало появляться в учебниках. В настоящее время два примера творчества Ашига Алескера преподаются в современных учебниках в V-XI классах. На самом деле это нельзя считать удовлетворительным с точки зрения обучения студентов творчеству ашугов и передачи их основных идей. Авторы учебников должны учитывать это при составлении новых учебников. Подрастающее поколение должно хорошо извлекать пользу из глубоких трудов Ашига и воспитываться в этом контексте. Автор также обращает внимание на вопросы сравнения творчества Ашига Алескера с мировой литературой, особенно с творчеством русского поэта Сергея Есенина. Автор отмечает, что примерные и экспериментальные занятия доказывают, что интегративное преподавание произведений Ашыга Алескера с произведениями мировой литературы важно для формирования эстетического вкуса учащихся, развития логического, критического и творческого мышления, а также реализации государственные стандарты. Это приведет к более точной оценке студентами национальной литературы и параллельно к более быстрому формированию у них планетарного мышления. В связи с этим творчество Ашига Алескера всегда должно быть одним из основных источников своей богатой содержательной и глубокой духовной ценностью.


***Ключевые слова:*** *Ашуг Алескер, Сергей Есенин, творчество ашугов, русская литература, сравнительное образование*

***Summary***

***Arif Asadov***

***Issues of Comparatıve Teachıng of Ashıg Alasger Creatıvıty ın Secondary Schools Wıth World Lıterature***

In the article, the author highlights the issues of teaching Ashig Alasgar's creativity in secondary schools. In accordance with the content and purpose of the article, the history of research and collection of the heritage of the ashug in Azerbaijan is also analyzed. The study of Ashig Alasgar's work and the collection of his legacy, unfortunately, belong to later periods. This has probably led to the fact that the artist's work has not been collected to a certain extent, and certain necessary points have not been fully passed on to future generations. It is gratifying that the son and relatives of the ashug later took an active part in collecting these samples. At the same time, Ashig Alasgar's work has a serious educational value due to its rich content and didactic qualities. From this point of view, the article emphasizes that starting from the middle of the XX century, Alasgar's creativity began to appear in textbooks. At present, two examples of Ashig Alasgar's creativity are taught in modern textbooks in grades V-XI. In fact, this cannot be considered satisfactory in terms of teaching the ashug's creativity to the students and conveying their main ideas. Textbook authors must take this into account when compiling new textbooks. The growing generation should benefit from Ashig's profound works in a good way and be brought up in that context. The author also draws attention to the issues of comparing Ashig Alasgar's work with world literature, especially with the work of Russian poet Sergei Yesenin. The author notes that the exemplary and experimental lessons prove that the integrative teaching of Ashig Alasgar's works with the works of world literature is important for the formation of students' aesthetic taste, development of logical, critical and creative thinking, as well as the implementation of state standards. This will lead to more accurate assessment of national literature by students, and in parallel to the faster formation of planetary thinking in them. In this regard, Ashig Alasgar's work should always be one of the main sources for its rich content and deep spiritual value.

***Keywords:*** *Ashug Alasgar, Sergey Yesenin, ashug creativity, Russian literature, comparative education*

Redaksiya heyətinin üzvü p.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**RİYAZİYYAT VƏ İQTİSADİYYAT**

**UOT 51-7**

**Vilayət İSMAYILOV***
**Mənsim MƏMMƏDOV****

# KƏSİLMƏZ VƏ KƏSİLƏN FUNKSİYALAR VASİTƏSİ İLƏ BƏZİ BİOLOJİ HADİSƏLƏRİN RİYAZİ MODELLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 22 oktyabr 2021; çapa qəbul edilmişdir: 10 noyabr 2021;online-da çap edilmişdir:29 dekabr 2021.*
*Received: 22 th October, 2021; accepted: 10 th November, 2021; published online: 29 th December,2021.*

***Açar sözlər:*** riyazi model, bioloji hadisə, kəsilməz funksiya, populyasiya, biomassa, mikroorqanizm, kəmiyyət

## Giriş

Dəqiq riyazi metodların biliklərin ən müxtəlif sahələrinə, o cümlədən iqtisadiyyata, linqvistikaya, psixologiyaya, incəsənətə və s. nüfuz etməsinin uzun müddətli dövrü vardır və bu yaxın vaxtlarda baş verməmişdir. Hətta fəlsəfənin də riyaziyyatla əlaqəsini həyat fəlsəfəsinin ögey yaxınlığı kimi başa düşmək olar və bunların hər ikisi mücərrəd anlayışlardan əməliyyatların icrası zamanı işlədirlər.

Canlı təbiət elmi kimi yaranmış biologiyada bəzi proseslərin asan həlli yollarının araşdırılması və riyazi üsulların köməyi ilə onların həll edilməsi lazım gəldikdə riyaziyyat elmi müxtəlif yollarla bu proseslərin həllində açar rolunu oynayır. Bu müdaxilələrə misal olaraq bioloji eksperimentin nəticələrinin sürətli işlənməsi üçün müasir hesablama texnikasından istifadə edilməsini, müxtəlif canlı sistemləri və baş verən prosesləri təsvir edən riyazi modellərin yaradılmasını və s. aid edə bilərik. Onu da qeyd edək ki, riyaziyyat və biologiya arasında yaranan "əlaqə" də heç də az əhəmiyyət kəsb etmir, belə ki, biologiya yalnız proseslərin həllində riyazi metodların tətbiqinə imkan vermir, həm də yeni bioloji məsələlərin riyazi üsul və metodların tətbiqi ilə həllində riyaziyyat əsas həlledici mənbəyə çevrilir [6, s. 1-2].

Zaman keçdikcə, əvvəllər ayrı-ayrı təsəvvür edilən hadisələr arasında dərin əlaqələr ortaya çıxmağa başladı. Məsələn, maddələr mübadiləsi, irsi problemlər, morfogenez və təkamül bir-biri ilə sıx bağlılıqda olmuş və biologiya bu əlaqələrin təməlində duran mexanizmlərin anlaşılmasına yaxınlaşmışdır. Bu, öz növbəsində, bioloji sistemlərin fəaliyyətinin ümumi prinsiplərini müəyyən etmək, həyatın mahiyyətini anlamaq istəyinə gətirib çıxardı. Bütün bunlar nəzəri biologiyanın yaradılması və biologiyada riyazi metodların tətbiq edilməsinin zəruriliyinə zəmin yaradır [2, s. 15-28].

## Bioloji proseslərin nəticələrinin təhlilində riyazi aparatın tətbiqi xüsusiyyətləri

Beləliklə, real dünyanın bu və ya digər hadisələrinin öyrənilməsinə riyazi metodların tətbiqi, ilk növbədə, mücərrəd formada təsvir edilən riyazi modellərin qurulmasını öyrənmək üçün həmin sistemlərin və proseslərin əsas xüsusiyyətlərini tələb edir. Bioloji sistemlərin

* iqtisad elmləri doktoru, prof., Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*e-mail:ismayılov1953@mail.ru*
** fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, prof., Bakı Avrasiya Universiteti
*e-mail:mensim.56@mail.ru*

fövqəladə mürəkkəbliyi səbəbindən biologiyada belə modellərin qurulmasında çətinliklər meydana çıxır. Bu çətinliklərə baxmayaraq, bioloji problemlərə "model" qurulmasına yanaşma uğurla inkişaf edir və müəyyən nəticələr verir. Burada qarşıya çıxan vəzifələrin özünəməxsusluğu və mürəkkəbliyi riyaziyyatçıların biologiyaya marağının əsas səbəblərindən biri kimi qeyd edilə bilər.

Kompüterin yaranması riyaziyyatda klassik riyazi metodların tətbiq olunmadığı mürəkkəb sistemləri tədqiq etməyə və təhlil etməyə imkan verən yeni istiqamətlərin yaranmasına səbəb olmuşdur. Müasir bioloji tədqiqatların, xüsusilə fizioloji tədqiqatların xarakterik xüsusiyyəti eksperimental məlumatların çoxluğu ilə xarakterizə oluna bilər. Belə ki, çox zaman tədqiqatçılar nisbətən qısa bir təcrübənin nəticələrini təhlil etmək üçün günlər və həftələr sərf edərək, bu məlumatlar arasında sanki boğularaq qalırlar. Burada riyaziyyat proqramları paketi (və ya əksinə) olan kompüterlər tədqiqatçıların köməyinə gəlir.

Çox vaxt məlum olur ki, dəqiq qoyulmuş məsələ yoxdur, yalnız ümid var ki, eksperimental məlumatların bu və ya digər işlənilməsi və təhlili zamanı hansısa əlaqələr və qanunauyğunluqlar meydana gələcəkdir. Əgər qarşıya qoyulmuş məqsəd və vəzifə yoxdursa, hər hansı bir nəticə əldə etmək qeyri-mümkündür. Qeyd etmək lazımdır ki, artıq riyazi biologiyanın canlı təbiətin tədqiqində güclü alətə çevrilməsi vaxtı gəlib çatmışdır. Bununla yanaşı, bioloji problemlərin bir çox riyazi tədqiqatların mənbəyi olması da şübhəsizdir və həqiqətdir. Riyazi aparatın işlədilməsini tələb edən bioloji problemlərin çoxluğuna baxmayaraq, bu istiqamətlər daha da sürətlə inkişaf edir və davam etməkdədir [7, s. 7-13].

Bu baxımdan bioloji prosesləri əks etdirən bu və ya digər elmi tədqiqatların aparılmasında və onların həlli zamanı effektiv nəticənin əldə olunmasında riyazi aparatdan geniş istifadə edir. Belə ki, hər hansı bioloji tədqiqat nəticələrin statistik təhlilini nəzərdə tutur. Məsələn, prosesi əks etdirən sıralama, qrafik və diaqramların qurulması, orta göstəricinin, orta kvadratik meyletmənin hesablanması, faiz payı, korrelyasiya əmsalları və s. hesablanması. Odur ki, genetik qanunların öyrənilməsi, genetika, biokimya və populyasiya genetikası ilə bağlı məsələlərin həlli zamanı riyazi aparat həm nəzəri materialların mənimsənilməsi, həm də konkret məsələlərin həlli zamanı zəruri vasitə hesab edilir.

Məlumdur ki, riyaziyyat elmi universal elmi dil olmaqla müxtəlif elm sahələrinə aid bir çox proses, problem, hadisə və kəmiyyətlərin öyrənilməsində, onların riyazi modellərinin tərtibində mühüm rol oynayır. Bu tip kəmiyyətlər içərisində kəsilməz və kəsilən xarakterli funksional münasibətlərin tədqiqi isə özünəməxsusluğu ilə digər hadisə və kəmiyyətlərdən xeyli fərqlənməklə daha dəqiq və düzgün araşdırılmanı zəruri edir. Məhz bu səbəbdən də məqalədə riyaziyyat elminin mühüm, həmçinin əksər təbii hadisə və proseslərin araşdırılmasında zəruri riyazi aparat roluna malik anlayışlarından olan kəsilməz və kəsilən funksiyalar vasitəsi ilə sadə, lakin olduqca həyati əhəmiyyətli bəzi bioloji xarakterli hadisələrin riyazi modellərinin tərtibi və tədqiqində daha müasir və fərqli yanaşma metodlarından istifadə edəcəyik [4, s. 35-42].

Hər şeydən əvvəl qeyd edək ki, eşitmə, görmə, ultrasəslərin qəbulu və s. kimi bioloji xarakterli təbii hadisələr məhz kəsilməz tipli triqonometrik funksiyalarla ifadə olunan sinusoidal əyrilərin dəyişməsi (hərəkəti), başqa sözlə dövrü rəqsi hərəkətlər ilə sıx bağlıdırlar. Belə xarakterli kəmiyyətlər arasındakı sıx əlaqələrin daha dəqiq və düzgün riyazi modellərinin qurulması məqsədi ilə gələcəkdə zəruri olan bəzi riyazi anlayışları yada salmaq çox vacibdir.

Qeyd edək ki, riyazi kəmiyyətlər abstrakt (mücərrəd) xarakterə malik olmaqla əsasən iki qrupa bölünürlər:

- diskret tipli riyazi kəmiyyətlər;
- kəsilməz tipli riyazi kəmiyyətlər [5, s. 85-92].

Bəllidir ki, diskret tipli riyazi kəmiyyətləri həndəsi təsvir edərkən onların qrafikini

təşkil edən nöqtələr çoxluğu bir-birindən müəyyən məsafədə, yəni təcrid (izolə) edilmiş vəziyyətdə yerləşirlər. Məhz bu səbəbdən də diskret kəmiyyətlər təbii xarakterli kəsilməz qəbul olunan bioloji hadisə və proseslərin ətraflı öyrənilməsini tam təmin edə bilmirlər. Ona görə də bu tip təbii hadisə və prosesləri daha ətraflı araşdırmaq məqsədi ilə həndəsi olaraq elə nöqtələr çoxluğundan təşkil olunmuş kəmiyyətlərdən istifadə olunur ki, bu nöqtələri bütöv (kəsilməyən) xətlə, yəni qələmin vərəqdən ayrılmaması ilə ardıcıl birləsdirmək mümkün olsun. Bu tip riyazi kəmiyyətlər elmdə kəsilməz xarakterə malik funksional münasibətli kəmiyyətlər, başqa sözlə kəsilməz funksiyalar adlanır. Məhz belə funksiyalar vasitəsi ilə riyazi modelləri qurulan bir çox təbii, bioloji proses və hadisələrin araşdırılması daha ətraflı, dəqiq və düzgün həyata keçirilir.

Təcrübi olaraq sübut olunmuşdur ki, daha konkret kəmiyyətlər hesab edilən məsafə, biomassa (biokütlə), uzun müddət eyni mühitdə yaşayan eyni cinsli fərdlər toplusu (populiyasiya), populiyasiyanın sayı (populiyasiyada fərdlərin sayı), temperatur, zaman və s. kimi kəmiyyətlərin qiymətləri heç də həmişə ixtiyari həqiqi ədədlə ifadə oluna bilmirlər. Belə ki, məsafə tam ədədlərlə millimetr (mm), santimetr (sm) və ya kilometrlə (km), biomassa ton və ya kq.-la tonun mində biri ilə, zaman il və ya saniyənin yüzdə biri ilə ölçülə bilir. Ona görə də bu halda formal olaraq deyilir ki, belə xarakterli kəmiyyətlərə uyğun hadisə və prosesləri riyazi ifadə edən funksional münasibətlərin təyin oblastları hər hansı intervalla (sonlu və ya sonsuz aralıqla) deyil, müəyyən, hətta ən kiçik bölgü standartlarına uyğun müvafiq cədvəllərlə ifadə olunur. Aydındır ki, belə bölgü standartlarına uyğun cədvəllərin baxılan hadisələri daha düzgün xarakterizə etməsi isə aparılan təcrübənin (eksperimentin) forması və ölçmə cihazının dəqiqliyindən asılı olur.

Doğrudan da, daha böyük ölçülü canlıların yaşı illərlə, daha kiçik ölçülü elementar hissəciklərin yaşama müddəti isə saniyənin milyardda biri ilə ölçülür. Buradan görünür ki, belə xarakterli hadisələrin öyrənilməsində kəsilməz funksiyaların köməyi ilə riyazi modellərin qurulması mümkün olmur. Ona görə də, müəyyən standart bölgülərə uyğun cədvəllərlə verilmiş funksiyalarla ifadə olunan bioloji hadisələri öyrənmək üçün onları kəsilməz tipli funksiyalarla əvəz etməklə riyazi analiz üsullarından geniş istifadə olunur.

Qeyd edək ki, bu əvəzetmə heç də həmişə mümkün olmur, bəzən isə hadisələrin və ya proseslərin kəsilməz tipli funksiyalarla əvəz edilməsi heç məqsədəuyğun da hesab edilmir. Məsələn, əgər funksiyanın təyin oblastı yalnız iki elementdən (ədəddən) ibarət olarsa, onda belə təyin oblastını hər hansı aralıqla əvəz etmək təbii ki, o qədər də əhəmiyyətli və məqsədəuyğun deyildir. Lakin əgər funksiyanın təyin və qiymətlər oblastları müəyyən mənada bir-birinə kifayət qədər yaxın, çoxlu sayda sonlu elementlər (ədədlər) çoxluğundan ibarət olarsa bu zaman onları bütöv (tam) intervalla əvəz etməklə belə funksiyanı konkret bir aralıqda təyin olunmuş, digər aralıqda isə qiymətlər alan kəsilməz funksiya kimi qəbul etmək mümkün olur. Bu ideyanı tətbiq edərək, kəsilməz funksiyaların köməyi ilə müxtəlif xarakterli (bioloji, iqtisadi, sosial, statistik və s.) proses və hadisələrin riyazi modellərinin qurulmasını yerinə yetirmək olar və bu model də həlli prosesinin əsasını təşkil edir. Məhz söylənilən bu ümumi ideyaya əsaslanaraq kəsilməz və kəsilən funksiyalar vasitəsilə bəzi sadə bioloji xarakterli hadisələrin riyazi modellərinin qurulmasını nəzərdən keçirək.

**Bioloji proseslərdə riyaziyyatın tətbiqi metodikası**

Fərz edək ki, orqanizm daxili hüceyrələrin bölgüsü (çoxalması, artması) zamanı mikroorqanizmlərin artma tempi üstlü (eksponensional paylanma qanunauyğunluğu əsasında) funksiyası ilə ifadə olunur

$$f(t) = ae^{kt}, \qquad (1)$$

burada: $t$-zaman olmaqla funksiyanın arqumentini;
a-əmsalı;
e-eksponensial paylanmanın $e$ kəmiyyətini;
k-zamanın dəyişmə intensivliyinin qiymətini ifadə edir [1, s. 6].

Müəyyən olunmuşdur ki, canlıların əsas dəyişmə (böyümə və ya kiçilmə) intensivliyi onların çəkisindən kəsilməz asılı olmaqla qüvvət funksiyası vasitəsilə ifadə olunur:

$$f(x) = Ax^{\alpha}, \tag{2}$$

burada $x$ – baxılan canlının çəkisini,
$f(x)$ – vahid zaman anında canlının qəbul etdiyi oksigenin (havanın) miqdarını;
$A$ və $\alpha$ parametrləri isə həmin canlıya aid sabit kəmiyyətləri ifadə edir.

Məsələn, kiçik həcmli qidalanmaya malik canlılar və quşlar üçün $\alpha$=0,74; $A$=70 təşkil etdiyi halda

$$f(x) = 70x^{0,74}$$

şəklində canlının çəkisinin dəyişmə intensivliyi məlum olduqda onun üstlü funksiyasını hesablamaq olur.

Həmçinin, balıqlar üçün isə $\alpha$=0,8; $A$=0,3 olduğu halda

$$f(x) = 0,3x^{0,8}$$

kimi hesablaya bilərik.

İndi isə kəsilməz olmayan, yəni kəsilən funksiyalarla ifadə olunan bəzi bioloji xarakterli hadisələrin riyazi modellərinin qurulmasını nəzərdən keçirək. İlk olaraq, xarici təsirlərdən asılı olaraq meydana gələn (oyanan, həyəcanlanan) sinir qəfəsləri, əzələ sistemləri və s. tipli qəfəslərin xarakterik dəyişmələrinə baxaq. Əgər həyəcanlanmış (oyanmış) $E$ qəfəsinə uyğun kəmiyyətin qiymətini bu və ya digər vahidlərlə ölçəriksə onda, $t$ zamanından asılı olan funksiyanı (3) formulası şəklində ifadə etmək olar.

$$F = E(t_i), \tag{3}$$

burada: $t_i$ –canlının həyəcanlanmış qəfəsinin zaman anlarını ifadə edir, $t_i$=0,1,...,n

(3) funksiyası vasitəsilə ifadə olunan həyəcanlanmış qəfəsin həndəsi təsviri aşağıda şəkil 1-də göstərilmişdir.




**Şəkil 1.** Zamandan asılı olaraq canlının həyəcanlanmış qəfəsinin qrafiki təsviri

Qrafikdən aydın göründüyü kimi, $t_0$ anında canlının qəfəsi həyəcan siqnalını qəbul

edir. Lakin canlının həyəcanlanmış qəfəsində oyanma (qıcıqlanma) müəyyən $t_1 > t_0$ anından başlayır.

Bu halda $[t_0 ; t_1]$ aralığı oyanmanın gizli dövrü adlanır. $t_1$ anında qəfəs dərhal, yəni bir anlığa ən böyük maksimal qiymətə yüksəlir. Sonra isə yeni siqnal qəbul edilənədək oyanma (qıcıqlanma) tədricən azalmağa başlayır. Əgər yeni həyəcan siqnalı uzun müddət qəbul edilməzsə onda oyanma tam dayanmaqla (sönməklə) sıfıra bərabər olur.

Deməli, alırıq ki, qıcıqlanmanın (həyəcanlanmanın) qiymətinin zamandan asılılığını ifadə edən funksiya gizli dövrlərin (aralıqların) uclarında kəsilməyə məruz qalır, başqa sözlə funksiya kəsilən olur. Bizim misalda bu $t_1$-ə uyğun gəlir.

Kəsilməz olmayan, yəni baxılan proseslərdə kəsilən funksiyalarla ifadə olunan daha bir bioloji hadisənin baş verməsini nəzərdən keçirək. Bu məqsədlə temperaturun dəyişməsinə uyğun olaraq dəyişən mikroorqanizmlərin biokütlələrinin ölçülməsinin riyazi modellərinin qurulması və qiymətləndirilməsinə baxaq. Aydındır ki, bu xarakterli proseslərdə temperatur artdıqca biokütlənin ümumi $m$ kütləsi bir qayda olaraq artır, belə ki, isti mühit biokütlənin çoxalmasına, yəni onların sayının artmasına ciddi təsir göstərir. Bu asılılığı riyazi şəkildə aşağıdakı kimi qeyd etmək olar:

$$m=f(t_i),\ i=1,2,3,...,n, \tag{4}$$

burada: m-bioloji kütləni;

$t_i$-$i$ zaman kəsiyində temperaturun dəyişməsini;

$i$-ölçülmə anının sayını göstərir.

Lakin onu da qeyd etmək vacibdir ki, temperatur kifayət qədər yüksək olduqda bütün qəfəslərdə olan bioloji kütlə qrupları (hüceyrələr) yaşaya bilmir və məhv olurlar. Bu zaman bioloji kütlənin $m$ qiyməti temperaturun yüksəldiyi halda kəskin sıçrayışla dəyişir və onun kəmiyyəti sıfıra bərabər olur, həmçinin qeyd edilən proses analoji olaraq temperatur çox aşağı düşdükdə də baş verir, yəni hər iki halda $m = 0$ alınır. Belə ki, temperatur hər hansı müəyyən aşağı həddə çatdıqda (canlı orqanizmdə kəskin soyuma baş verdikdə) bütün mikroorqanizmlər tam məhv olurlar. Doğrudan da, real aləmdə həqiqətən də temperatur zamandan asılı olaraq gah artır, gah da azalır. Ona görə də, bioloji kütlənin zamandan asılı olaraq dəyişməsinin həndəsi təsviri (qrafiki) kəsilməz əyrilərlə ifadə olunur ki, belə funksional münasibətlər isə elmdə kəsilən funksiyalarla ifadə olunurlar (şəkil 2).




**Şəkil2.** Bioloji kütlənin temperatur dəyişkənliyindən asılılığı

Şəkildən göründüyü kimi, baxılan prosesin $t_1$, $t_2$, $t_3$ kəsilmə nöqtələri temperaturun ən yüksək və ya ən aşağı zaman anlarına uyğundur. Yəni canlı bioloji kütlənin ölçülməsinin riyazi modeli bizə imkan verir ki, istənilən $t_i$ zaman kəsiyində onun kəmiyyətinin artma və ya azalmasını qiymətləndirə bilək.

**Nəticə**

Funksiyanın təyin və qiymətlər oblastları bir-birinə yaxın, çoxlu sayda sonlu ədədlər çoxluğundan ibarət olarsa bu zaman onları tam intervalla əvəz etməklə belə funksiyanı konkret bir aralıqda təyin olunmuş, digər aralıqda isə qiymətlər alan kəsilməz funksiya kimi qəbul etmək mümkündür.

Tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, həyəcanlanmanın qiymətinin zamandan asılılığını ifadə edən funksiya gizli dövrlərin uclarında kəsilməyə məruz qalır, başqa sözlə funksiya kəsilən olur.

Həqiqətən, real aləmdə temperatur zamandan asılı olaraq dəyişir (artır, azalır) və ona görə də, bioloji kütlənin zamandan asılı olaraq dəyişməsinin həndəsi təsvirinin kəsilən funksiyalarla ifadə edilməsinin mümkünlüyü qiymətləndirilmişdir.

## ƏDƏBİYYAT


1. Məmmədov M.Z. Bioloji xarakterli bəzi dinamik proseslərin riyazi modellərinin qurulması və araşdırılması// İkinci Beynəlxalq Sosial Elmlər Araşdırmaları Konfransı. Türkiyə, Ankara, 2017. s. 18-22.
2. Бейли Н. Математика в биологии и медицине. Пер. с английского, Москва, 1970, 342 с.
3. Богомолова А.Ю., Кабанова О.В. Биология в современном мире. Оренбург, 2017, 127 с.
4. Гроссман С., Тернер Дж. Математика для биологов. Москва, Высшая школа.1983, 298 с.
5. Павлова Т.А., Петрушина Н.Н. Математики интересуются биологией, а биологи изучают математику // Наука и современность. Москва, 2010, с.85-92
6. https://pandia.ru/text/80/355/92640.php
7. https://cyberleninka.ru/article/n/matematiki-interesuyutsya-biologiey-a-biologi-izuchayut-matematiku


***Резюме***


***Вилаят Исмайлов***
***Мансум Мамедов***


***Построение и оценка математических моделей некоторых биологических явлений с помощью непрерывных и прерывистых функций***


В статье рассматривается вопрос построения и оценка математических моделей биологических процессов с применением непрерывных и прерывистых функций. Отмечается, что математические величины, имеющие абстрактный характер, подразделяются на математические величины дискретного типа и непрерывного типа.

Также в статье отмечается, что интенсивность основных изменений живых существ имеет неразрывную зависимость от их веса, дается степенная функция этой зависимости. В результате исследования было установлено, что функция, выражающая зависимость значение возбуждения животных от времени, на концах латентных периодов подвержена прерыванию, другими словами функция становится прерывистой.

*Цель* дать новый подход к построению и оценку математических моделей некоторых биологических явлений через непрерывные и прерывистые функции. В статье использован метод статистического анализа при выявлении результатов биологического исследования.

Определена возможность выражения геометрического описания изменения биологической массы в зависимости от времени усеченными функциями.



***Ключевые слова:*** математическая модель, биологическое событие, неразрывная функция, популяция, биомасса, микроорганизм, количество

***Summary***

***Vilayet İsmaylov***
***Mansum Mammadov***

***Construction and Evaluation of Mathematical Models of Some Biological Phenomena Using continuous and discontinuous functions***

The article deals with the issue of constructing and evaluating mathematical models of biological processes using continuous and discontinuous functions. It is noted that mathematical quantities having an abstract character are divided into mathematical quantities of discrete type and continuous type.

The article also notes that the intensity of the main changes of living beings has an inextricable dependence on their weight, a power function of this dependence is given. As a result of the study, it was found that the function expressing the dependence of the value of animal arousal on time is subject to interruption at the ends of latent periods, in other words, the function becomes intermittent.

*Purpose* to give a new approach to the construction and evaluation of mathematical models of some biological phenomena through continuous and discontinuous functions.

The article uses the method of statistical analysis in identifying the results of a biological study. The possibility of expressing a geometric description of the change in biological mass depending on time by truncated functions has been determined.

***Keywords:*** mathematical model, biological event, continuous function, population, biomass, microorganism, quantity

İ.e.f.d., dos. Elman İbişovun rəyi əsasında çapa məsləhət görülmüşdür.

# BİZİM MÜƏLLİFLƏR

**MƏMMƏDƏLİYEV Zakir**
*fəlsəfə elmləri doktoru, Azərbaycan Dövlət İqtisad Universiteti*
*e-mail: zakirm57@mail.ru*

**QULİYEV Fəxrəddin**
*texnika üzrə fəlsəfə doktoru, dosent, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi*
*e-mail: Fakhraddin.Kuliev@mail.ru*

**TAĞIYEVA Tərlan**
*doktorant, Bakı Dövlət Universiteti*
*e-mail: tterlan@yahoo.com*

**ƏSƏDOVA Turanə**
*dissertant, Gəncə Dövlət Universiteti*
*e-mail: esedovaturane246@gmail.com; orcid.org/:0000-0001-7273-1759*

**ƏHMƏDOVA Şəfəq**
*siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə İnstitutu*
*e-mail: shafag.ahmadova@gmail.com ORCİD: 0000-0002-8671-5757*

**CARÇIYEVA Nərgiz**
*doktorant, Bakı Avrasiya Universiteti*
*e-mail: ncarchiyeva@mail.ru*

**RZAXANOV Rasim**
*dissertant, Bakı Dövlət Universiteti*
*e-mail: rasimrzaxanov@mail.ru*

**MƏMMƏDZADƏ Ülkər**
*doktorant, Bakı Dövlət Universiteti*
*e-mail: Ulkar_m23@hotmail.com*

**XƏLİLOV Cəlal**
*magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail: jalal_khalil@mail.ru*

**VƏLİYEV Sahib**
*tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*e-mail: s.valiyev70@gmail.com*

**FƏTƏLİYEV Vahab**
*AMEA Elm Tarixi İnstitutu*
*e-mail: vahabfataliyev@gmail.com*

**АГАЕВА Натаван**
*диссертант, Институт Востоковедения им. акад. З.М.Буниятова НАНА*
*e-mail: n.aghaeva@gmail.com*

**QOCAYEVA Nərmin**
*doktorant, Bakı Avrasiya Universiteti*
*e-mail: qocayeva.nermin1991@gmail.com*

**ƏSƏDOV Arif**
*filologiya üzrə fəlsəfə doktoru; doktorant, ARTİ*
*e-mail: arif_alim@mail.ru*

**İSMAYILOV Vilayət**
*iqtisadiyyat elmləri doktoru, prof., Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*e-mail: ismayılov1953@mail.ru*

**MƏMMƏDOV Mənsim**
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, prof., Bakı Avrasiya Universiteti*
*e-mail:mensim.56@mail.ru*

# D Ü Z Ə L İ Ş L Ə R

## YAZI QAYDALARI:

**1.** Məqalələr Times New Roman-la, 1,5 interval və 14 şriftlə yazılmalıdır.
**2.** Parametrlər aşağıdakı qaydada olmalıdır:
Aşağı – 2
Yuxarı – 2
Sağ – 3
Sol – 1
**3.** Abzas 1 sm. olmalıdır.
Başlıq:
Öncə məqalənin adı, 1 sətir boşluqdan sonra müəllifin adı verilir. Məqalənin adı bütün hərflər böyük olmaqla qara (bold) ilə verilir. Məqalənin adı ortada, müəllifin adı sağda qara ilə olmalıdır. Soyadının bütün hərfləri qara ilə və böyük hərflərlə verilməlidir, məsələn:

**DİDAKTİK VÜCUDNAMƏLƏR**

**Elmira MƏMMƏDOVA**

**4.** Məqalənin yazıldığı dildəki açar sözlər müəllifin adından sonra aşağıdakı qaydada 10 şriftlə, 1 sətir öncədən, 1 sətir sonradan ara verilməklə yazılmalıdır:

***Açar sözlər:*** *Türk ədəbiyyatı, vücudnamə, yaşnamə, əlifnamə*

**5.** Müəllifin elmi dərəcəsi, işlədiyi yer və e-mail adresi soyadının qarşısına ulduz (*) işarəsi qoyulmaqla səhifə sonunda **kursivlə** verilir, məsələn,
*filologiya üzrə fəlsəfə doktoru, Bakı Avrasiya Universiteti*
e-mail: mamedovaelmira4@gmail.com

**6.** Məqalələr daxili bölgülərlə verilməlidir: **Giriş, I, II... və Nəticə**. Paraqraflar adlandırılmalıdır, məsələn,

**Giriş**
**1. Türk ədəbiyyatında vücudnamələr**
**2. Öyüdnamə məsnəvisinin arxitektonikası və məzmun özəllikləri**
**Nəticə**

Bu adlandırmalar qara şriftlə fərqləndirilməli və adlardan öncə 1 sətir ara verilməlidir.
**7.** Ədəbiyyat kod sistemi ilə verilməlidir: ya istifadə ardıcıllığı və ya əlifba sırası əsas götürülməlidir. Başqa qaydalar qəbul edilməyəcək.
Mətn içində istinadlar bu qaydada veriləcək: (3, s. 15)
Birinci rəqəm istinad edilən ədəbiyyatın kod nömrəsi olmalıdır. Vergül və nöqtədən sonra ara verilməlidir.
**Ədəbiyyat** sözü qara və kursivlə yazılmalı, öncə bir sətir ara verilməli və ortada olmalıdır, məsələn**,**

***Ədəbiyyat:***

Ədəbiyyat siyahısı əllə deyil, avtomatik olaraq, nömrələnməlidir. Ədəbiyyatın sırası 1 sm. sağa doğru çəkilməli və sol sıra çıxıntısız olmalıdır, məsələn,

**Kitab adı:**

1. Araslı H. İmadəddin Nəsimi: həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1972, 200 s.

Məqalə adı:

1. Əliyarlı S. Milli hərəkatımızın ilkin dönəmləri // Azərbaycan, 1992, №9-10, s.138-148.

Konfrans materialları üçün:

1. Gender: Demokratiya, Sülh Mədəniyyəti, Təhsil / II Respublika elmi-praktik konfransının materialları. Bakı: Səda, 2005, s.23-25

**8.** Xülasələr üç dildə yazılmalıdır. Azərbaycan, rus və ingilis. Öncə müəllifin adı, növbəti sətirdə məqalənin adı qara şriftlərlə verilməlidir. Müəllifin adı qara və sağda, məqalənin adı ortada qara və kursivlə yazılmalıdır. Məsələn,

**Summary**

**Saadat Shikhiyeva**

***Nasimi's hagiographic Personality***

Müəllif adından öncə 1 sətir ara verilməlidir.

**9.** Mətndə şeirlərdən istifadə olunmuşsa, şeirlər 1 sətir öncə və bir sətir sonra olmaqla mətndən ayrılmalıdır. Şeirlər kursiv və qara ilə verilməli, 2 sm. sağa doğru çəkilməlidir. Məsələn,

***Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,***
***Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.***

## MÜHÜM QEYDLƏR:

- Bu qaydalara uyğun yazılmayan, orfoqrafik, imla və ya üslub xətaları olan məqalələr qəbul edilməyəcək.
- Elmi dərəcəsi olmayanların məqalələrini elmi rəhbərlərinin oxuyub imzalaması vacibdir.
- Bütün məqalələr bir rəy və şöbə müzakirəsinin protokolundan çıxarış ilə kağızda və elektron variantda təqdim edilməlidir.

## ПРАВИЛА НАПИСАНИЯ:

**1.** Статьи должны быть написаны в Times New Roman, с интервалом 1,5 шрифтом 14

**2.** Параметры должны быть в следующем порядке:

Внизу – 2

Наверху – 2

Справа – 3

Слева – 1

**3.** Абзац – 1 см

**4.** Название:

Вначале печатается название статьи, с интервалом через одну строчку – имя автора. Название статьи целиком пишется заглавными буквами, выделяется жирным шрифтом (bold). Название статьи размещается посредине, имя автора справа жирным шрифтом. Фамилия целиком пишется заглавными буквами жирным шрифтом, например:

**ДИДАКТИЧЕСКИЕ ВЮДЖУТНАМЕ**

**Эльмира МАМЕДОВА**

**5.** С интервалом в одну строчку до и после имени автора на языке написания статьи представляются ключевые слова шрифтом 10 в нижеследующем порядке:

***Ключевые слова:*** *тюркская литература, вюджутнаме, летопись, алифнаме*

**6.** Научная степень автора, место работы и e-mail адрес пишутся в конце страницы ***курсивом,*** со звездочкой (*) перед фамилией, например:

*доктор философии по филологии, Бакинский Евразийский Университет*

e-mail: mamedovaelmira4@gmail.com

**7.** Статья внутри делится на разделы (части): Вступление, **I, II... и Заключение.** Параграфы должны быть названы, например,

**Вступление**

**1. Вюджутнаме в тюркской литературе**

**2. Особенности архитектоники месневи «Оюднаме» и содержания**

**Заключение**

Эти названия должны быть выделены жирным шрифтом и с интервалом в 1 строчку после названия.

**8.** Литература должна быть представлена по кодовой системе: за основу берется или порядок использования, или алфавитный порядок. Другие правила не принимаются.

Ссылки внутри статьи даются в следующем порядке: (3, с. 15)

Первая цифра обозначает кодовый номер литературы, на которую дела- ется ссылка. После точки с запятой – пробел.

Слово «Литература» должно быть написано курсивом и жирным шриф- том, перед ним и после должен быть пробел в одну строчку, например,

***Литература:***

Список литературы должен быть пронумерован автоматически. Список литературы располагается со сдвигом 1 см вправо и левый ряд должен быть без отступа, например,

Название книги:

1. Араслы Г.Имадеддин Насими: жизнь и творчество. Баку: Азернешр, 1972, 200 с.

Название статьи:

1. Алиярлы С. Первые повороты в национальном движении // Азербай- джан, 1992, №9-10, с. 138-148.

Для материалов конференции:

1. Гендер: Демократия, Культура Мира. Образование / материалы II научно-практической конференции. Баку: Седа, 2005, с.23-25

**9.** Резюме должно быть написано на трех языках: азербайджанском, русском и английском. Вначале имя автора, на следующей строчке название статьи жирным шрифтом. Имя автора пишется справа, жирным шрифтом и курсивом.Например,

**Summary**

**Saadat Shikhiyeva**

**Nasimi's Hagiographic Personality**

Перед именем автора пробел 1 строчка.

**10.** В случае использования в статье стихов, они должны до и после выделяться интервалом в 1 строчку. Стихи должны быть напечатаны курсивом и жирным шрифтом, со сдвигом вправо на 2 см. например,

***Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,***
***Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.***

**ВАЖНЫЕ ЗАМЕТКИ:**

- Статьи, написанные не в соответствии с этими требованиями, имеющие орфографические и стилистические погрешности, приняты не будут.
- Статьи, написанные авторами без научной степени, должны быть прочитаны и подписаны научным руководителем.
- Ко всем статьям должны быть представлены один отзыв и выписка из протокола обсуждения в напечатанном и электронном варианте.

## RULES OF WRITING:

**1.** The text must appear in Times New Roman, 1.5 spaced, size 14.

**2.** Settings should be as following:

Down – 2
Up – 2
Right – 3
Left – 1

**3.** Paragraph should be 1 cm.

**4.** Title

Title must be written first, after 1 line space author's name. It may appear in bold and all letters uppercase. It must be in the middle, the author's name in bold in the right.

All the letters of the last name must be given capitalized and bold, for example:

**DIDACTIC VUJUDNAMES**

**Elmira MAMMEDOVA**

**5.** The keywords written as the same language with the article must follow author's name: size 10, space 1 line before and 1 line after.

***Keywords:*** *Turkish literature, vujudname, age, elifname*

**6.** The author's academic degree, place of work and e-mail address may appear at the end of the page in italic with an asterisk sign (*) in front of the surname, for example,

PhD, Baku Eurasian University

**e-mail: mamedovaelmira4@gmail.com**

**7.** Articles must be given with internal divisions: **Introduction, I, II... and Summary**. Paragraphs must be given names, for example,

**Introduction**

**3. Vujudnames in Turkish literature**

**4. The architectonics and content aspects of Oyudname masnavi**

**Summary**

Those nomenclatures must be differentiated by using bold shrift and before the names must appear a line space.

**8.** The literature must contain code system: it should be based on either the usage of sequelize or alphabetical order. The other rules will not be accepted.

In-text citations should be as following: (3, p. 15)

The first number should be the code number of the referred literature. It is important to put an interval after the comma and dot.

Sources must be written in bold, italic fonts in the middle, there must be an interval before it, for example,

**Sources:**

The reference list must be numbered automatically, not by hand. It has to be moved 1 cm to the right and left line should not be protrusion, for example, **The name of the book:**

**9.** Araslı H. İmadeddin Nesimi: life and creativity. Bakı: Azerneshr, 1972, 200 p.

The name of the article:

1. Aliyarlı S. The initial periods of our national movement // Azerbaijan, 1992, №910, p.138-148.

For conference materials:

1. Gender: Democracy, Culture of Peace, Education / II Republican scientific-practical conference. Baku: Sada, 2005, p. 23-25

**9.** Resumes must be written in three languages: Azerbaijani, Russian and English. First, the author's name, and in the next line title of the article may appear bold. The author's name should be written in the right, in bold, the title of the article in the middle, in bold and italic. For example,

***Summary***

**Saadat Shikhiyeva**

***Nasimi's hagiographic personality***

One line interval before the author's name.

**10.** If the text includes poetries, there must be one line interval before and after them. They may appear in bold and italic, and must be moved 2 cm to the right. For example,

***Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,***
***Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.***

**IMPORTANT NOTES:**

**-** The articles which don't match those criterias, with orthographic, writing or stylistic errors, won't be accepted.

**-** The supervisors of the authors without academic degrees have to read and sign the article.

**-** All articles should be submitted as paper and electronic version with one reference and an extract from the department.

## YAZI KURALLARI:

**1.** Makaleler Times New Roman, 1.5 aralık ve 14 punto ile yazılmalıdır.
**2.** Ayarlar aşağıdaki gibi olmalıdır:
Aşağı – 2
Yukarı – 2
Sağ – 3
Sol – 1
**3.** Paragraflar 1 cm girintiyle başlamalıdır.
**4.** Başlık:

İlk olarak makalenin başlığı 1 satır boşluktan sonra siyah ve koyu renkte olmalıdır. Makalenin başlığı ortada, yazarın ismi sağa dayalı ve siyah olmalıdır. Soyadı tamamı büyük harflerle ve siyah yazılmalıdır, örneğin:

**AHLAKİ VÜCUTNAMELER**

**Elmira MAMMEDOVA**

**5.** Makalenin anahtar kelimeleri aşağıdaki gibi 1 satır boşluktan sonra italik yazılmalıdır:

***Anahtar kelimeler****: Türk edebiyatı, vücut, ihtiyar olma, alfabe*

**6.** Yazarın akademik unvanı, çalışma yeri ve e-posta adresi, soyadından sonra bir yıldız işareti (*) koyulmakla ilk sayfanın sonunda italik olarak yazılmalıdır, örneğin,

Dr. Doç., Bakü Avrasya Üniversitesi
*e-mail: mamedovaelmira4@gmail.com*

**7.** Makaleler ana metnin bölümleriyle verilmelidir: Giriş, I, II Paragraflar... ve Sonuç, örneğin;

**Giriş**
**1. Türk edebiyatında vücutname**
**2. Öğütname mesnevisinin strüktürü ve içerik özellikleri**
**Sonuç**

Bu başlıklar siyah fontla, metinden önce tek satır aralıklı olmakla yazılmalıdır.

**8.** Edebiyat kod sistemiyle verilmelidir: kullanım sırası veya alfabetik sıraya göre. Diğer kurallar kabullenmeyecektir.

Metindeki referanslar bu biçimde olmalıdır: (3, s. 15)

İlk rakam, başvurulan literatürün kod numarası olmalıdır. Virgül veya noktadan sonra ara verilmelidir.

**Kaynakça** kelimesi siyah, ortada, tamamı büyük harflerle ve önceden tek satır

aralıklı olmakla yazılmalıdır, örneğin,

***Kaynakça:***

Literatür listesi manuel olarak değil, otomatik olarak numaralandırılmalıdır. Edebiyat sırası 1 cm. sağa doğru çekilmeli ve çıkıntısız olmalıdır, örneğin,

Kitap başlığı:

1. Araslı H. İmadeddin Nesimi: hayat ve yaratıcılığı. Bakü: Azerneşr, 1972, 200 s.

Makale Başlığı:

1. Aliyarlı S. Ulusal Hareketin erken dönemleri // Azerbaycan, 1992, №9-10, s. 138-148.

Sempozyum metinleri için:

1. Gender: Demokrasi, Barış Kültürü, Eğitim / II Cumhuriyet Bilimsel-Pratik Konferansından Materyaller. Bakü: Sada, 2005, s. 23-25.

**9.** Özetler üç dilde yazılmalıdır: Azerbaycan Türkçesi, Rusça ve İngilizce. Önce yazarın ismi, sonra makalenin başlığı siyah renkte verilmelidir. Yazarın adı siyah renkte ve sağda, makalenin başlığı ortada siyah ve italik olmalıdır. Örneğin,

***Özet***

***Saadat Shikhiyeva***

***Nasimi'nin Menkıbevi Kişiliği***

Yazar adı önceden bir satır aralıklı verilmelidir.

**10.** Metinde şiirler kullanılıyorsa, şiirler metinden önce ve sonra bir satır aralıkla yazılmalıdır. Şiirler italik, siyah, 2 cm. sağa doğru çekilmekle yazılmalıdır. Örneğin,

***Mende sığar iki cahan, men bu cahane sığmazam,***
***Gövheri lamekan menem, kövnü mekane sığmazam.***

**ÖNEMLİ NOTLAR:**

- Bu kurallara uygun olarak yazılmayan, yazım ya da üslup hataları olan makaleler kabul edilmeyecektir.

- Akademik unvanı olmayanların makalelerinin danışmanları tarafından okunup imzalanması gerekmektedir.

- Tüm yazılar, bir hakem önerisi ve bölüm toplantısının protokolünden alıntıyla birlikte basılı ve elektronik versiyonlarda sunulmalıdır.

***Texniki redaktor**: Təranə İbadova*
***Web-redaktor**: Əmiraslan Vəlizadə*
***Korrektor**: Məhbubə İbrahimova*

Ünvan: Bakı şəh., Akad. H.Əliyev küç., 135 A
E-mail: sivilizasiyabaau@mail.ru
WhatsApp: +9940506328388

Müəllim nəşriyyatı

Kağız formatı: 6084 1/8. 25 ç.v.
Sayı: 100
Çapa imzalandı: 30 dekabr 2021

.